AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

2022, 3 (36)

BAKI-2022

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3 (36), 2022

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

*Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2020-ci ildən tarix və antropologiya elmi istiqamətləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir.*

## REDAKSİYA HEYƏTİ

**Tarix üzrə elmlər doktoru, professor Cəfər Cəfərov** *(baş redaktor)*
**Tarix elmləri doktoru, professor Abbas Seyidov** *(baş redaktorun müavini)*
**Tarix elmləri doktoru, professor İradə Hüseynova**
**Tarix elmləri doktoru, professor Anar İsgəndərov**
**Tarix elmləri doktoru, professor Oqtay Sultanov**
**Tarix elmləri doktoru, professor Xəqani Məmmədov**
**Tarix üzrə elmlər doktoru, professor Fəzail Vəliyev**
**Antropologiya üzrə elmlər doktoru, professor Əliağa Məmmədli**
**Tarix üzrə elmlər doktoru Eynulla Mədətli**
**Tarix üzrə elmlər doktoru, dosent Sevinc Əliyeva**
**Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Yasin Qaraməmmədli**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Ərəstun Mehdiyev**
**Tarix üzrə fəlsəfə doktoru Kərəm Məmmədov**
**Tarix üzrə fəlsəfə doktoru, dosent Naibə Əhmədova** *(məsul katib)*

# AZƏRBAYCAN DİASPORUNUN ÜMUMMİLLİ MARAQLARIN MÜDAFİƏSİ UĞRUNDA MÜBARİZƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR

**Aidə Təhməzova**
**Azərbaycan Tibb Universiteti**
**aida.bayram1958@gmail.com**

***Açar sözlər:****həmrəylik, müstəqillik, inkişaf tarixi, hərəkat*

*XX əsrin sonlarında yeni mərhələyə qədəm qoymuş milli həmrəylik hərəkatı dünya azərbaycanlılarının vahid ideologiya ətrafında birləşdirilməsinin əsas prinsiplərinin müəyyənləşdirməklə, Azərbaycan xalqının milli inkişaf tarixinin mühüm bir hissəsinə çevrilmişdir. Müstəqilliyin ilk illərində Heydər Əliyev dünya azərbaycanlılarının milli həmrəylik hərəkatının konseptual əsaslarının müəyyən edilməsinə nail olmuşdur. Əsrin sonlarında isə Azərbaycan dövləti həmrəylik təşkilatına yeni impuls verən tədbirlərin həyata keçirilməsinə başladı.*

## Факторы, определяющие борьбу Азербайджанской диаспоры для защитыобщенациональных интересов

***Ключевые слова:****солидарность, независимость, история развития, движение.*

*Движение национальной солидарности, вступившее в новый этап в конце XX века, стало важной частью истории национального развития азербайджанского народа, определив основные принципы объединения азербайджанцев мира вокруг единой идеологии. В первые годы независимости Гейдару Алиеву удалось определить концептуальные основы движения национальной солидарности азербайджанцев мира. В конце века Азербайджанское государство начало осуществлять меры, которые придали новый импульс организации солидарности.*

## Factors determining the struggle for the protection of the nationalwaide interests of the Azerbaijani diaspora

***Keywords:****solidarity, independence, history of development, movement*

*The national solidarity movement, which begins a new stage at the end of the 20th century, became an important part of the history of the national development of the Azerbaijani people by determining the main principles of*

*uniting the Azerbaijanis of the world around a single ideology. In the first years of independence, Heydar Aliyev succeeded in defining the conceptual foundations of the national solidarity movement of the world's Azerbaijanis. At the end of the century, the state of Azerbaijan began implementing measures that gave a new pulse to the solidarity organization.*

Bir çox dövlətlər xaricdə onlara lazım olan siyasəti aparmaqda yardım edəcək qeyri-diplomatik təsir mərkəzləri yaratmağa çalışıb və hazırda da çalışmaqdadır [1]. Bu gün dünya dövlətləri hər hansı ölkədə maraqlarını təmin etmək, bu ölkələrin öz dövlətilə bağlı siyasətinə təsir etmək üçün geniş şəkildə lobbi fəaliyyətlərindən istifadə edirlər. Bu prosesdə diasporların rolu əvəzedilməzdir. Bu məqsədlə ölkələrin xarici siyasətində diaspor amilinə xüsusi əhəmiyyət verilir, diasporla əlaqələrin qurulması və inkişaf etdirilməsi ilə bağlı konsepsiyalar hazırlanır və həyata keçirilir. Bu məsələ böyük diaspor potensialı olan Azərbaycan üçün də çox mühüm əhəmiyyət kəsb edir. Diasporun vətənlə və bir-birilə əlaqələrinin möhkəmliyi diasporun saflığına və milli birliyinə xidmət edən amil, vətənindən ayrı düşmüş insanların milli-ənənəvi dəyərlərə bağlılığını qoruyub artıran vasitədir [2, s.284].

Hər bir xalqın özünəməxsus ənənələri, tarixi, mədəniyyəti, dəyərləri, adəti, milli xüsusiyyətləri var. Sadalanan bu faktorlar hər bir millətin kimliyini özündə əks etdirən bir etalondur. Nəzərə almaq lazımdır ki, hər bir xalq ona məxsus olan milli dəyərləri, fərqlilikləri özündə əks etdirən ənənələri yaşada, tanıya bilirsə, o zaman dünya miqyasında bir millət olaraq öz möhürünü vurur [3].

Xaricdə yaşayan azərbaycanlılar ölkəmiz üçün dayaqdır. Dövlətimiz gənc, müstəqil bir dövlətdir. Bir çox dövlətlərdə ölkəmiz haqqında müfəssəl məlumat yoxdur. Bu baxımdan diasporun üzərinə böyük məsuliyyət düşür. Azərbaycan həqiqətlərini, Azərbaycan problemlərini, eyni zamanda ölkəmizin getdikcə artan nüfuzunu, önəmini dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq dövlətimizin milli maraqlarının müdafiəsinə böyük töhvə olur [4].

Azərbaycan diasporunun əhəmiyyəti, onun Azərbaycanın siyasi maraqlarının müdafiəsindəki rolu və fəaliyyəti olduqca önəmlidir. Azərbaycan diasporunun fəaliyyətini hər zaman diqqət mərkəzində saxlayan Heydər Əliyev diasporumuzun əhəmiyyətini vurğulayaraq qeyd etmişdir ki: *"Azərbaycan diasporu ölkəmizin xaricdə uçan qanadlarıdır"* [5].

Azərbaycan həqiqətlərinin müstəqilliyin ilk illərində beynəlxalq aləmə olduğu kimi çatdırılması Azərbaycanın xarici siyasətində ən çətin mərhələ olmuşdur. Çünki Ermənistanın 1987–ci ildən başlayaraq Azərbaycana qarşı həyata keçirdiyi növbəti təcavüzün reallaşmasında uzun illər ölkəmizin informasiya blokadasına alınmasında rolu olmuşdur. Digər tərəfdən Ermənistan Azərbaycandakı separatçı qüvvələrin köməyi ilə ölkə daxilində ictimai–siyasi sabitliyi pozmaq niyyətindən əl çəkməmişdir. Lakin Heydər Əliyevin "Azər-

baycançılıq ideologiyası" ölkəmizdə yaşayan bütün xalqları, eləcə də bütün dinlərin nümayəndələrini erməni təcavüzünə qarşı birləşdirmişdir. Bu barədə Baş nazirin müavini Əli Əhmədov yazır: *"Davamlı inkişaf strategiyası Heydər Əliyev 1993–cü ildə hakimiyyətə qayıdandan sonra daha əsaslı surətdə praktikada tətbiq edilərək hüquqi mənada ölkənin milli yüksəlişinin qüdrətli amilinə çevrildi"* [6, s.22-23].

Qarabağ problemi, ərazi bütövlüyümüzün bərpası, dünya dövlətləri ilə, beynəlxalq və regional təşkilatlarla siyasi, iqtisadi və mədəni əməkdaşlıq əlaqələrinin qurulması, digər tərəfdən isə müxtəlif dövrlərdə ölkəmizdən qoparılaraq digər dövlətlərin tərkibinə daxil edilmiş tarixi ərazilərimiz və eləcə də müxtəlif səbəblərdən dünyanın ayrı-ayrı ölkələrində məskunlaşan soydaşlarımızla da bağlı çoxsaylı problemlər həll edilməli idi. Problemlərin qarşılıqlı şəkildə həlli daha səmərəli ola bilərdi. Bunun üçün dövlətimiz xaricdə yaşayan soydaşlarımızın problemlərini dərindən öyrənməklə onların həlli istiqamətində qəti addımlar atmalı, xaricdə yaşayan soydaşlarımız isə öz növbəsində Azərbaycan həqiqətlərinin olduğu kimi dünya ictimaiyyətinə çatdırılmasında, dilimizin, mədəniyyətimizin müxtəlif ölkələrdə təbliğ olunmasında, ölkəmizin beynəlxalq nüfuzunun artmasında dövlətimizə yaxından kömək etməli idilər. Bütün bunların həyata keçməsi üçün ilk növbədə dünyanın müxtəlif ölkələrində, tarixi vətəndən uzaqda yaşayan azərbaycanlılar arasında fikir, əməl birliyinin, qarşılıqlı əlaqələrin yaradılması və möhkəmləndirilməsi, siyasi baxışından, sosial mənsubiyyətindən asılı olmayaraq Azərbaycanı özünə tarixi Vətən sayan hər bir şəxsin vahid ideya, vətənə, torpağa məhəbbət amalı uğrunda birləşərək milli birlik, həmrəylik nümayiş etdirməsi vacib şərt idi. Məhz milli birliyə, həmrəyliyə nail olmaqla ölkəmiz uğurlar, qələbələr əldə edə bilər.

Azərbaycanın diaspor qurumları əsasən fəaliyyət göstərdiyi dövlətlərlə Azərbaycan arasında siyasi və iqtisadi əlaqələrin inkişafında, habelə torpaqlarımızın ermənilər tərəfindən işğalı, Azərbaycan rəhbərliyinin bu istiqamətdə apardığı sülhsevər xarici siyasətlə bağlı həqiqətlərin dünya xalqlarına çatdırılması istiqamətində işlər görməsi, Azərbaycanın beynəlxalq aləmdə maraqlarının təmsilçisi kimi fəaliyyəti xüsusi önəm kəsb edir.

Xocalı həqiqətləri, ermənilərin azərbaycanlılara qarşı terrorçu əməlləri barədə dünya ictimaiyyətinə informasiyalar Azərbaycan diplomatik nümayəndəlikləri ilə yanaşı diaspor tərəfindən çatdırılır. Bir çox dövlətlərdə fəaliyyət göstərən diaspor təşkilatlarımız tərəfindən Xocalı faciəsi, Qarabağ həqiqətləri ilə bağlı kitabların nəşr edilərək Azərbaycanın haqq işinin düzgün formada ictimaiyyətə çatdırılması, ermənilərin yalan dolu təbliğatlarının qarşısının alınmasında olduqca önəmlidir.

Azərbaycan diasporu Xocalı soyqırımı ilə əlaqədar əksər dövlətlərdə keçirdiyi tədbirlərdə ermənilərin törətdikləri vəhşiliklər, vandal aktları, soydaşlarımıza qarşı törətdikləri soyqırımı barədə yerli əhaliyə ətraflı

məlumatlar verir, əyani vasitələrlə həmin ölkədə fəaliyyət göstərən digər xalqların icmalarına, diasporlarına, habelə ziyalılara, tanınmış ictimai-siyasi xadimlərə paylamaqla həmin dövlətlərdə Azərbaycan həqiqətlərini çatdırır. Bu cür fəaliyyətlə Azərbaycan həqiqətlərini olduğu kimi yayır, ermənilərin yalanlarını üzə çıxarır, onları ifşa edirlər.

Ümumiyyətlə diaspor tarixi vətənlərini başqalarına tanıtmaqda onu xarici ölkələrdə-məskunlaşdığı dövlətlərdə təbliğ etmək – onların vətən və dövlətləri ilə qarşılıqlı əməkdaşlıqda prioritet mövqeyə malikdir. Bu əməkdaşlıq əsasən aşağıdakı proseslər üzərində qurulur:

1. Hər bir dövlət yarandığı ilk gündən təkcə öz vətəndaşlarının deyil, ümumiyyətlə vətəndən kənarda məskunlaşan xalqın milli varlıq simvolu, etibarlı himayədarı və milli siyasi mövcudluğun vasitəçisi kimi çıxış edir. Dövlətlərin öz diasporları ilə rəsmi iş aparan hökumət və qeyri–hökumət qurumları mövcuddur ki, belə münasibətdən hər iki tərəf udmuş olur;

2. Xaricdə müəyyən saya malik vətəndaşı olan hər bir dövlət onlarla qarşılıqlı və faydalı əməkdaşlıq qurmaqda maraqlıdır. Bu istiqamətdə isə diasporun xatirində ana vətən və tarixi torpaqlar barədə ortaq təsəvvürlərin olması amili başlıca rola malik olur;

3. Necə inkişaf etməsindən asılı olmayaraq hər bir dövlətin öz daxili problemləri var və bunların həll edilməsində diasporların rolu danılmazdır. Hər bir dövlət digər inkişaf etmiş dövlətlərdən problemlərin həlli üçün humanitar, texniki, siyasi və iqtisadi yardımı alarkən xarici ölkələrdəki diasporların gücündən istifadə edirlər;

4. Diasporlar məskunlaşdıqları ölkələr ilə tarixi vətənləri arasında ikitərəfli əlaqələrin qurulmasında əhəmiyyətli rol oynayırlar;

Diasporumuzun eyni zamanda fəaliyyət göstərdikləri ölkələrdə Azərbaycanın milli adət-ənənələrini, musiqisini, incəsənətini geniş şəkildə təbliğ etməklə milli kimliyimizi, varlığımızı qoruyub saxlayır.

Beynəlxalq siyasətin tərkib hissəsi kimi diaspor təşkilatlarının rolu əvəzedilməzdir. Diaspor təşkilatlarının başqa güclü tərəfi isə regional əlaqələrin qurulmasına nail olunmasıdır. Qeyd etdiyimiz kimi, hər bir diaspor öz dövləti ilə, yaşadığı ölkə arasında faydalı dostluq və əməkdaşlıq münasibətlərinin qurulmasında və mövcud münasibətlərinin genişləndirilməsində pozitiv, bəzən isə müstəsna rol oynaya, stimul kimi çıxış edə, eləcə də ana vətənlərinin sosial-iqtisadi, mədəni və hüquqi-siyasi quruculuq işində yaxından iştirak edə bilər.

Milli diasporumuz digər xalqların diasporları ilə sıx əməkdaşlıq etməklə, öz əlaqələrini gücləndirməklə, ölkəmizi daha yaxından tanıdırlar. Bu sahəyə olan dövlət qayğısı nəticəsində, qəbul olunan qanunlar, Bakıda keçirilən beynəlxalq miqyaslı tədbirlər öz bəhrəsini verməkdədir. Belə ki, dünyada yaşayan soydaşlarımız daha yaxşı təşkilatlanır, yaşadıqları ölkələrin həyatında

daha fəal rol oynayır. Bu həm də onların əlaqələrini möhkəmləndirir, həm də müstəqil dövlətimizin mövqelərini gücləndirir.

Ümummilli lider Heydər Əliyev dünya azərbaycanlılarını ümumi məqsədlər ətrafında birləşməsini təmin etməyə çalışır, soydaşlarımız arasında əlaqələrin inkişafına dəstək verir, onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirakını mühüm amil kimi qiymətləndirirdi. Heydər Əliyev soydaşlarımız arasında ideya və məqsəd birliyinin formalaşmasını əsas vəzifə kimi xarakterizə edirdi. Bu, kifayət qədər uzaqgörən və müdrik bir yanaşma idi. Çünki bu dövrdə dünya azərbaycanlıları arasında milli həmrəyliyin möhkəmləndirilməsinə nail olmaq baxımından birlik ideyasının əsasında duran amillərin dəqiq izah olunmasına ehtiyac var idi [7, s.8].

Müstəqilliyin ilk illərində Azərbaycanın qarşılaşdığı bir sıra sosial-iqtisadi, habelə hərbi və siyasi problemlər xarici ölkələrdə yaşayan azərbaycanlılar arasında birliyin yaranmasını zəruri edirdi. Bu birliyin yaranmasına ideoloji dəstək isə məhz Azərbaycan dövləti tərəfindən verilməli idi. 1994-cü ildə Böyük Britaniyaya rəsmi səfəri zamanı azərbaycanlılarla keçirilmiş görüşdə H.Əliyev xüsusi olaraq qiymətləndirmişdi: *"Mənə elə gəlir ki, buraya toplaşanların indiki müstəqil Azərbaycan Respublikasından, yaxud başqa yerdən gəlməsini aydınlaşdırmağın elə bir mənası yoxdur, əsas məna bundadır ki, nəhayət, azərbaycanlılar da bir yerə toplaşa bilərmiş, qərib ölkələrdə bir-birilə əlaqə saxlaya, bir-birinə dayaq ola bilərmiş və öz vətənləri- Azərbaycan torpağı haqqında düşünə bilərmişlər"* [8, c.1, s.430].

1996-cı il dekabr ayının 28-də Ümummilli lider Heydər Əliyev Dünya azərbaycanlılarına müraciət edərək onlara bir daha azərbaycançılıq ideyaları uğrunda birliyə, tarixi vətənin maraqlarının müdadfiəsi işində fəal iştirak etməyə çağırmışdır. Heydər Əliyev soydaşlarımızı Azərbaycan dövlətinin maraqlarını inamla müdafiə etməyə çağırır, müstəqil respublikamızın tarixi maraqlarının qorunması işini bütün dünya azərbaycanlılarının borcu kimi səciyyələndirirdi [8, c.8, s.448].

Akademik R. Mehdiyev dünya azərbaycanlıları ilə əlaqələrin inkişaf etdirilməsini, onların Azərbaycan dövləti ətrafında sıx birləşdirilməsini Azərbaycan dövlətinin siyasətinin mühüm tərkib hissələrindən biri olduğunu vurğulayır və bunu belə əsaslandırır: *"Dünya azərbaycanlıları arasında həmrəyliyin gücləndirilməsi tarixi zərurətdən, soydaşlarımızın ümummilli ideyalar ətrafında birləşdirilməsinin vacibliyindən irəli gəlir"* [9, s.270].

Prezident Heydər Əliyev ənənəvi olaraq hər il həmrəylik günü münasibətilə dünya azərbaycanlılarına müraciət edir, xarici ölkələrə səfərləri zamanı buradakı azərbaycanlı icmaları ilə görüşür və bu zaman ölkədə gedən proseslər haqqında geniş şərh verir, harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlını Azərbaycanın suverenliyinin əbədi olması üçün əməli və əqidə birliyinə çağırır, onlar qarşısında mühüm vəzifələr qoyurdu.

Məlumdur ki, diaspor daxilində birləşmə hər hansı ideya ətrafında baş verir. Azərbaycan diasporunda bu rolu "Azərbaycançılıq" ideyası oynamağa başladı. Bununla bağlı akademik R.Mehdiyevin fikirləri olduqca əhəmiyyətlidir: *"Azərbaycançılıq" ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu nəinki, indi, həm də uzaq gələcəkdə azərbaycanlıların təkcə bir yox, bir çox nəsillərinə xidmət edəcəkdir və müstəqillik, milli eyniyyət tezliklə həmin nəsillər üçün həyatı, azadlığı dərk etməyin ayrılmaz atributuna çevriləcəkdir"* [10, s.33].

Ümummilli lider H.Əliyev Azərbaycançılıq ideologiyasını dövlətçilik ideologiyası kimi "dövlətçilik ənənələri, dövlətçilik psixologiyası və dövlətçilik praktikasının vəhdəti" kimi bütün azərbaycanlılarda şəxsi mənafeyi Vətən, Dövlət mənafeyi prizmasından keçirməyi, milli-mənəvi dəyərləri qoruyub saxlamağı və inkişaf etdirməyi tələb etdiyini göstərdi. Azərbaycançılıq ideologiyasının, ümumazərbaycan ideyalarının məqsədi bütün dünya azərbaycanlılarının xalqımızın mənəvi ruhunun qaldırılmasına, dilimizin, dinimizin milli varlığımızın, milli dəyərlərimizin inkişaf etdirilməsinə xidmət edir.

Müstəqil Azərbaycanda ilk dəfə olaraq diaspor quruculuğu dövlət siyasətində, azərbaycançılıq ideologiyasında aparıcı istiqamətə çevrildi. Bu ideologiya ümummilli maraqların reallaşmasında həlledici amil oldu: Milli mənəvi, əxlaqi, dünyəvi, humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyllərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz bu xüsusiyyətlərinə görə müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitdə formalaşmış diasporumuz üçün cəlbedici və perspektivlidir. Azərbaycançılıq məfkurəsinin belə sistemli xarakteri müxtəlif mühacir nəsillərini də birləşdirməyə imkan verir [9, s.24].

Azərbaycançılıq, bütün azərbaycanlıların milli şüurunda, özündərkində, milli psixologiyasında mühüm rol oynayan, vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşmasında mənəvi birliyinin, həlledici amilidir.

Dövlətimizin siyasi maraqlarının müdafiəsində, həmçinin təbliğində güclü diasporun fəaliyyəti önəmlidir. Bu səbəbdəndir ki, Azərbaycanın xarici siyasətində diaspor quruculuğuna, onların güclənməsi və fəaliyyətinə xüsusi diqqət ayrılır.

Diasporun təşəkkülü və formalaşması məqsədilə Heydər Əliyevin həyata keçirdiyi digər mühüm iş xarici ölkələrə səfərləri zamanı buradakı azərbaycanlı icmaları ilə görüşlərin təşkili idi. Görüşlər zamanı prezident soydaşlarımıza bir olmağı, məskunlaşdığı ölkələrin ictimai-siyasi həyatında fəal iştirak etməyi tövsiyə edir və onların vətənlərinin rifahı üçün əllərindən gələni əsirgəməməyə çağırırdı.

Prezident Heydər Əliyev öz çıxışında diasporumuzun keçdiyi çətin yolu təhlil etmiş və Vətənimizin müstəqilliyinə qovuşduqdan sonra milli diasporumuzun üzərinə daha da məsuliyyətli iş düşməsini vurğulamışdır. Bir sıra ölkələrdə soydaşlarımızın istər rəsmi dövlət strukturlarında, istər həmin ölkələrin parlamentlərində millət vəkili kimi təmsil olunmaları, istər bacarıqlı iş adamı kimi tanınmaları çox sevindirici haldır. Diaspor dünya ilə Ana Vətənimiz arasında bir körpü olaraq beynəlxalq arenada müsbət Azərbaycan imicinin formalaşmasında mühüm rol oynamaqdadır. Sevindirici amillərdən ən başlıcası odur ki, milli diasporumuz Vətənimizin inkişaf edən işığından qorxan mənfur ünsürlərin saxta, əsassız böhtanlarına qarşı yerindəcə lazımı cavabı verərək onları həm yaşadıqları ölkələrin, həm də beynəlxalq mətbuatda da ifşa etməkdədirlər.

Qurultayın keçirilməsi çox əhəmiyyətli bir hadisə idi. İlk növbədə bu illərlə aparılan diaspor siyasətinin uğurlu nəticəsi idi və bir daha bu sahədə görülən işlərin təsadüfi, pərakəndə xarakter daşımadığını, diaspor məsələsinin dövlət üçün prioritet məsələ olduğunu sübut edirdi. İkincisi, Qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin mövcudluğunun göstəricisi idi. İlk dəfə olaraq bütün dünyada yaşayan azərbaycanlılar, Azərbaycan icmalarının nümayəndələri müstəqil vətənlərində- Azərbaycanda toplaşmışdılar və belə bir möhtəşəm tədbir keçirirdilər. Onu da qeyd edək ki, müxtəlif ölkələrdə bir-biri ilə əməkdaşlıq etməyən, ayrı-ayrı çalışan, fikir ayrılıqları, müəyyən anlaşılmazlıqlar səbəbindən və ya siyasi maraq və intiriqalara görə bir araya gələ bilməyən müxtəlif Azərbaycan birlikləri bu qurultayda birlik nümayiş etdirirdilər. Doğrudur, bu vaxta qədər dünya azərbaycanlılarının müxtəlif ölkələrdə buna bənzər yığıncaqları olmuşdur. Amma bu tədbirin əhəmiyyəti onda idi ki, əvvəla o müstəqil vətəndə keçirilirdi, digər tərəfdən isə əhatə çoğrafiyası çox geniş idi. Burada 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Qurultay iştirakçıları planetimizin geniş coğrafi məkanını əhatə edən ABŞ, Türkiyə, Rusiya, Böyük Britaniya, Kanada, Almaniya, Fransa, Gürcüstan, Avstraliya, Özbəkistan, Ukrayna, Estoniya, Latviya, Moldova, Qazaxıstan, Danimarka, Hollandiya, Finlandiya, Belarus, İsrail və sair dövlətləri təmsil edirdilər.

Prezident Heydər Əliyevin Qurultaydakı nitqi demək olar ki, diasporun gələcək fəaliyyəti üçün proqram xarakteri daşıyırdı. Öz çıxışında prezident dünya azərbaycanlıları arasında milli birliyin və həmrəyliyin təmin edilməsi, Azərbaycan dövləti ilə dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, Azərbaycan dilinin və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması və inkişaf etdirilməsi ilə bağlı öz fikirlərini birləşdirmişdir. O, bu məsələdə Azərbaycan dövlətinin və diasporun qarşısında duran vəzifələri göstərmişdir:

*"Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icması arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha da sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir"* [11, s.243].

Qurultayda diasporumuzun qarşısında duran ən ümdə vəzifələr də müəyyən edildi.

1. Ana dili yaşadılmalı və inkişaf etdirilməli;
2. Elm və millətin gələcəyinin təyin edən təhsilə xüsusi fikir verilməli;
3. Milli-mənəvi dəyərlər qabardılmalı;
4. İqtisadi əsaslar möhkəmləndirilməli;
5. Azərbaycan etnosunun hərəkət qüvvəsini təşkil edən gənclərin problemlərinə diqqət yetirməli;
6. Ermənistan tərəfindən Azərbaycana qarşı gerçəkləşdirilən hərbi və ideoloji təcavüzün nəticələri aradan qaldırılmalı;
7. Kütləvi İnformasiya Vasitələrinin təbliğatı gücləndirilməlidir [11].

Dünya azərbaycanlılarının I qurultayından sonra "dünya azərbaycanlıların əsil milli özündərk və ümummilli ideyası olan azərbaycançılıq məfkurəsi, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında sıx birləşməsi prosesi başlandı" [12, s.26].

Beləliklə də, XX əsrin sonlarında yeni mərhələyə qədəm qoymuş milli həmrəylik hərəkatı dünya azərbaycanlılarının vahid ideologiya ətrafında birləşdirilməsinin əsas prinsiplərinin müəyyənləşdirməklə, Azərbaycan xalqının milli inkişaf tarixinin mühüm bir hissəsinə çevrilmişdir. Müstəqilliyin ilk illərində Heydər Əliyev dünya azərbaycanlılarının milli həmrəylik hərəkatının konseptual əsaslarının müəyyən edilməsinə nail olmuşdur. Əsrin sonlarında isə Azərbaycan dövləti həmrəylik təşkilatına yeni impuls verən tədbirlərin həyata keçirilməsinə başladı.

Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri zamanı burada məskunlaşan soydaşlarımızla görüşür, onların problemləri ilə maraqlanır və dövlət, hökümət nümayəndələri ilə görüşdə bu məsələlərlə bağlı müzakirələr aparır. Bu həmin ölkələrdə yaşayan azərbaycanlıların mövqelərinə müsbət təsir göstərir. Ümumiyyətlə demək olar ki, Heydər Əliyev dövründə aparılan diaspor siyasəti bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Bu gün Azərbaycan diasporu daha əvvəlki kimi pərakəndə vəziyyətdə fəaliyyət göstərmir. Onun fəaliyyətinin əsasını artıq doğma Vətənlə bağlı yaxşı dərk edilmiş milli maraqların həyata keçirilməsi təşkil edir. Xaricdə yaşayan soydaşlarımızın Azərbaycanla əlaqələri genişlənib. İndi Azərbaycan dünyada öz haqqını müdafiə etməyə qadirdir, güclü, qüdrətli nüfuzu var. Regionda heç bir

layihə Azərbaycanın razılığı olmadan reallaşmır. Xarici ölkələrdə isə Azərbaycan diasporu getdikcə güclənir, nüfuzu artır, həmin dövlətlər tərəfindən tanınır, onların rəyləri ilə hesablaşırlar. Bu isə öz-özlüyündə həm onların, həm də Azərbaycanın nüfuzunu artırır. Ancaq bu inkişaf, bu təşkilatlanma, milli həmrəylik və birliyin möhkəmlənməsi ardıcıl olaraq davam etdirməlidir. Ümummilli liderimiz bu məramı dünya azərbaycanlılarına müraciətlə belə qiymətləndirmişdir: *"Müstəqil Azərbaycan həmişə sizin dayaq yeriniz olacaq, pənah gətirdiyiniz yer olacaqdır və təbidir ki, Azərbaycanda biz də sizi özümüzün elçiləri hesab edirik, sizə çox ümidlər bəsləyirik, sizə arxalanırıq, sizi özümüzə dayaq hesab edirik. Müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdir. Ancaq indi biz yeni bir mərhələyə keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha surətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik"* [13].

Bu gün harada yaşamasından asılı olmayaraq Azərbaycanı özlərinin tarixi vətəni sayan bütün insanlar ölkəmizin müstəqilliyini qoruyub saxlamaq naminə dövlətçilik ideyaları ətrafında sıx birləşməli, sarsılmaz həmrəylik nümayiş etdirməlidir. Vətənini, millətini, xalqını sevən hər bir azərbaycanlı Azərbaycanın müstəqilliyinin dönməz olması üçün səy göstərməlidir. Bütün azərbaycanlılarda, bu və ya digər tellərlə bağlı olan hər bir şəxsdə azərbaycançılıq, vətənpərvərlik hissləri, tarixi torpağımıza, yurdumuza, mədəniyyətimizə məhəbbət aşılamaq hamımızın ümdə vəzifəsidir.

Ümummilli lider Heydər Əliyev özünəməxsus uzaqgörənlik və müdrikliklə ilk gündən xarici siyasətdə strateji hədəfləri düzgün müəyyənləşdirərək demişdir ki, müasir dövrdə hər bir dövlətin qüdrəti yalnız iqtisadi resurslarla deyil, həm də onun xaricdə formalaşdığı diaspor və lobbinin gücü ilə ölçülür. Bu sahəyə xüsusi diqqət yetirmədən xarici siyasətdə hansısa ciddi nailiyyətlər qazanmaq, habelə milli məsələlərin beynəlxalq müstəvidə qaldırılmasına nail olmaq mümkün deyil. Məhz bu səbəbdən də Azərbaycan hakimiyyəti son illərdə dünya azərbaycanlılarının həmrəyliyinə nail olmaq üçün üzərinə düşən tarixi missiyanı məsuliyyətlə yerinə yetirməyə, bu sahədə sistemli və ardıcıl siyasət yeritməkdədir.

## ƏDƏBİYYAT


1. Sadıqov, F. Xarici lobbizm və dövlətlərin maraqları // - Bakı: Məşvərət, - 2000. №3, - s. 39-48.
2. Həbiboğlu, V. H. Əliyev və Azərbaycan diasporu / V.Həbiboğlu. - Bakı: Qartal, - 2006. - 358 s.
3. Ordahallı, V. Dünyanın nüfuzlu universitetlərində işləyən alimlərimizin fəaliyyətinin koordinasiyası. "Bakı Xəbər", 2011, 10 mart, №44. s. 12.
4. Bədəlov, Ə. Azərbaycanın dünyada təbliğ olunmasında diasporun çox böyük rolu var // Xalq qəzeti. - 2009, 6 yanvar. - s. 2.
5. Canbaxışlı, N. Diasporlar ölkəmizin xaricdə uçan qanadlarıdır // Həftə içi. - 2009, 7 yanvar. - s. 3.
6. Əhmədov, Ə. Heydər Əliyev irsi: Azərbaycanın davamlı inkişafının tükənməz mənbəyi //Heydər Əliyev irsi: Azərbaycanın davamlı inkişaf strategiyası// Bakı: Azərbaycan Nəşriyyatı, 2006, 783 s.
7. Rizvan, N. Azərbaycan diasporu tarixindən / N.Rizvan. - Bakı: Borçalı NRM, - 2000. - 208 s.
8. Əliyev, H. Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Əliyev. – Bakı: Azərnəşr, - c. 1. – 1997. - 608 s.
9. Mehdiyev, R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi / R.Mehdiyev. -Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, - 2001. - 276 s.
10. Azərbaycan diasporu: böyük yolun başlanğıcı / Buraxılışa məsul: N.İbrahimov. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin nəşri. – Bakı: Çaşıoğlu, - 2006. - 208 s.
11. Bayramlı, N. I Qurultay tariximizə qızıl hərflərlə yazılacaq // Yeni Azərbaycan. - 2001, 10 noyabr. - s. 9.
12. Xəlilov, S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi / S.Xəlilov. - Bakı: Azərbaycan Universiteti, - 2002. - 232 s.
13. İsmayılov, İ. Həmrəyliyimiz və birliyimiz müstəqil dövlətçiliyimizə xidmət edir // Xalq qəzeti. - 2006, 14 mart. - s. 4.

# XX ƏSRİN II YARISI AZƏRBAYCAN TARIXŞÜNASLIĞINDA ANTİK DÖVR ŞƏHƏRLƏRİNƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

**Aydın Məmmədov**
Bakı Dövlət Universiteti
aydin.mmmdov.67@ mail.ru

**Açar sözlər:***Azərbaycan tarixşünaslığı, əhali məksunlaşması, əhali artımı, antik dövr, şəhər əhalisi, tarixi demoqrafiya.*

*Əlverişli təbii-coğrafi şəraiti, geostrateji mövqeyi ilə seçilən Azərbaycan bəşər tarixinin demək olar ki, ən qədim dövrlərindən üzü bəri zəngin şəhərsalma mədəniyyətinə də malik olmuşdur. Azərbaycanda, o cümlədən Qafqaz Albaniyasında da qədim və antik dövrə dair şəhərlərdə yaşayış yerləri birdən-birə yaranmayıb. Azərbaycanda ilk şəhərlər hələ ibtidai cəmiyyət – orta tunc dövründə, sənətkarlığın əkinçilik və maldarlıqdan ayrıldığı dövrdə meydana gəlmiş və həmin dövrdən başlayaraq, istehsal vasitələrinin, ictimai münasibətlərin təkmilləşməsi ilə paralel olaraq böyük tarixi inkişaf yolu keçmişdir. Eneolit dövründə ilk metalla – mislə tanış olan, artıq erkən tunc dövründə ona digər metallar da qataraq xəlitə – tunc əldə etməyi öyrənən insanlar təbii ki, bu sahədə dayanmadan apardıqları təcrübələr sahəsində biliklərini də artırmış olurdular. Bu biliklər yeni yaşayış yerlərini etibarlı surətdə məskunlaşdırmaq üşün həyati əhəmiyyət kəsb edirdi. Məhz orta tunc dövründə ilk şəhərlərin yaranması insanların artıq uzun illərdən bəri məskunlaşdıqları, yaxud yaxın gələcəkdə məskunlaşacaqları əraziləri iqtisadi baxımdan daha effektiv formada mənimsəyə bilmələri ilə sıx şəkildə bağlı olmuşdur. Başqa sözlə desək, mühüm demoqrafik proses olan əhali məskunlaşması ilk növbədə məskunlaşmanın baş tuta biləcəyi ərazinin həmin ərazidə əhalinin uzunmüddətli, fasiləsiz və rahat həyatını, nəsil artımını təmin edə biləcək əlverişli iqtisadi xüsusiyyətləri ilə bağlı olmuşdur.Bütövlükdə XX əsrin ikinci yarısında S.Qazıyev,Ə.Ələkbərov, S.Aşurbəyli, D.Axundov, İ.Babayev, S.Qaşqay, və bir çox başqa tarixçilər antik dövrün müxtəlif mərhələrinə, o cümlədən antik dövr şəhərlərimizdə baş vermiş sosial-siyasi, iqtisadi hadisələrin, əhali məskunlaşmasına, onun təbii və mexaniki artımına, ümumiyyətlə, nəsil artımına təsirini elmi-obyektiv müstəvidə araşdırmağa və tarixi demoqrafik mühiti ətraflı təsvir etməyə nail olmuşdular.*

# ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В ИССЛЕДОВАТЕЛЬСКИХ РАБОТАХ ПО АНТИЧНЫХ ГОРОДОВ АЗЕРБАЙДЖАНА В АЗЕРБАЙДЖАНСКОЙ ИСТОРИОГРАФИИ ВО ВТОРОЙ ПОЛОВИНЫ XX ВЕКА

**Айдын Мамедов**

***Ключевые слова:*** *историография Азербайджана, народонаселения, рост населения, античный период, городское население, историческая демография.*

*Азербайджан, отличающийся благоприятными природно-географическими условиями и геостратегическим положением, практически с древнейших времен человеческой истории имел богатую градостроительную культуру. В Азербайджане, как и в Кавказской Албании, поселения в древних городах возникли не вдруг. Первые города в Азербайджане образовались в первобытном обществе – среднем бронзовом веке, когда ремесленничество отделилось от земледелия и скотоводства, и с этого периода произошло большое историческое развитие параллельно с усовершенствованием средств производства и общественной жизни. связи. Люди, познакомившиеся с первым металлом - медью в эпоху энеолита, и научившиеся получать сплав – бронзу путем прибавления к ней других металлов уже в эпоху ранней бронзы, конечно же, приумножили свои знания и в области опытов, которые они постоянно проводились в этой области. Эти знания были жизненно важны для безопасного заселения новых мест обитания. Именно в эпоху средней бронзы создание первых городов было тесно связано с тем, что люди получили возможность овладеть территориями, на которых они жили долгие годы или будут жить в ближайшем будущем, в более эффективная форма с экономической точки зрения. Иными словами, народонаселения, являющееся важным демографическим процессом, связано, прежде всего, с благоприятными экономическими характеристиками территории, где может происходить расселение, что может обеспечить длительную, непрерывную и уютную жизнь и рост населения. В целом во второй половине XX века С.Газиев, А.Алекбаров, С.Ашурбейли, Д.Ахундов, И.Бабаев, С.Кашгай и многие другие историки написано о разных этапах античного периода, в том числе и о тех, что происходили в наших древних городах. Им удалось на научно-объективном уровне исследовать влияние социально-политических и экономических событий, народонаселения, его естественного и механического прироста, общего роста населений и четко описать историческую демографическую среду.*

# ISSUES OF HISTORICAL DEMOGRAPHY IN RESEARCH WORKS ON THE ANCIENT CITIES OF AZERBAIJAN IN AZERBAIJANI HISTORIOGRAPHY IN THE SECOND HALF OF XX CENTURY

**Aydin Mammadov**

***Key words:*** *historiography of Azerbaijan, population, population growth, Ancient period, urban population, historical demography.*

*Distinguished by its favorable natural-geographical conditions and geostrategic position, Azerbaijan has had a rich urban planning culture since almost the earliest times of human history. In Azerbaijan, as well as in Caucasian Albania, settlements in ancient cities did not appear suddenly. The first cities in Azerbaijan were formed in the primitive society - the Middle Bronze Age, when craftsmanship was separated from agriculture and cattle-breeding, and from that period, a great historical development took place in parallel with the improvement of means of production and social relations. People who got acquainted with the first metal - copper in the Eneolithic period, and who learned to obtain an alloy - bronze by adding other metals to it already in the Early Bronze Age, of course, also increased their knowledge in the field of experiments that they continuously conducted in this field. This knowledge was vital to the safe settlement of new habitats.It was in the Middle Bronze Age that the creation of the first cities was closely related to the fact that people were able to take over the territories they had been living in for many years, or would be living in the near future, in a more efficient form from an economic point of view. In other words, population settlement, which is an important demographic process, is primarily related to the favorable economic characteristics of the area where the settlement can take place, which can ensure the long-term, continuous and comfortable life and generation growth of the population in that area. As a whole, in the second half of the 20th century - at the beginning of the 21st century, S. Gaziyev, A. Alekberov, S. Ashurbeyli, D. Akhundov, I. Babayev, S. Qashqay, and many other historians have written about the various stages of the ancient period, including those that happened in our ancient cities. They managed to investigate the impact of socio-political and economic events, population settlement, its natural and mechanical growth, and general generation growth on a scientific-objective level and describe the historical demographic environment in detail.*

XX əsrin II yarısı Azərbaycan tarixşünaslığında qədim dövr şəhərlərimizin yaranmasının müxtəlif səbəbləri, təyinatı, əhali məskunlaşması məsələləri öz əksini tapdı. Məhz bu dövr tarixşünaslığında qədim dövr

şəhərlərimizin şəhərsalma xüsusiyyətləri, müdafiə istehkamlarının memarlıq elementləri, yaşayış sahələrinin ölçüləri, o cümlədən əhali məskunlaşması ilə bağlı spesifik xüsusiyyətləri izləməyə imkan yaradan çoxsaylı əsərlər meydana gəldi.

Azərbaycan şəhərlərinin yaranması və məskunlaşması tarixinə dair maraqlı elmi mülahizələri ilə diqqət çəkən S.Aşurbəyli haqlı olaraq qədim yaşayış yerlərinin və onların əsasında inkişaf edərək təşəkkül tapan şəhərlərin meydana gəlməsində əlverişli təbii – cofrafi mövqeyin, zəngin təbii sərvətlərin mövcud olmasını mühüm amillərdən biri kimi dəyərləndirmişdir. Onun fikrincə bir sıra qədim şəhərlər məhz mis və dəmir filizi, neft və duz mədənlərinin istismar olunduğu ərazilərdə meydana gəlmişdir. Məslən, S.Aşurbəyli Bakının yaranması taixindən bəhs edərək: "Bakı ətrafı ərazilərdə neft və duz mədənlərinin çoxluğu, o cümlədən ticarətin aparılması üçün dənizin sahilində əlverişli təbii limana malik olması qədim zamanlardan insanları Bakıya (gəlməyə – A.M.) cəlb edirdi" – deyə, yazırdı [8, s.37].

S.Aşurbəylinin Bakıda əhali məskunlaşması məsələsinə, onun qədim yaşayış məntəqəsi kimi təşəkkül tapması, yaranması məsələsinə təbii-coğrafi mövqe və təbii sərvətlərin mövcud olması baxımından yanaşması bizi qədim insanların yaşadıqlarıərazilərі artıq məskun etməzdən əvvəl tədqiq etmələri qənaətinə gətirir. Başqa sözlə desək, məskunlaşmanın baş tuta biləcəyi ərazi qədim insanları cəlb etməli, onları maraqlandıra bilməliydi. S.Aşurbəyli Bakı ətrafı ərazilərdə məhz neft və duz mədənlərinin çoxluğuna, buradan tapılan çoxsaylı maddi mədəniyyət nümunələrinə əsaslanaraq, Bakının məskunlaşma tarixinin, deməli həm də şəhər kimitəşəkkül tapması tarixinin qədimliyi qənaətinə gəlir.

Burada Azərbaycanın görkəmli memarı Davud Axundovun Bakının yaşayış məntəqəsi kimi meydana gəlməsivə məskunlaşması tarixi ilə bagllı fikirlərini xatırlamamaq olmur. D.Axundov da Bakının məskunlaşma tarixinin qədimliyini buradakı zəngin neft yataqları ilə əlaqələndirir O, belə hesab edir ki, Abşeronda artıq e.ə. VIII-VII əsrlərdə tarixi hələ e.ə. II, yaxud ola bilsin ki, III minilliklərə gedib çıxan neft mədənləri mövcud imiş. Bu fakta istinadən müəllif burada məskunlaşma prosesinin də tarixini e. ə. III-II minilliklərə aid edir: "Arxeoloji qazıntılar nəticəsində əldə olan nəticələrə görə, Abşerondakı yaşayış məskənlərinin böyük əksəriyyəti III-II minilliklərə aiddir." [7, s.98]. Lakin, D. Axundovdan fərqli olaraq S.Aşurbəyli Bakının demoqrafik baxımdan məskunlaşmasıtarixi ilə bağlı dəqiq fikir söyləməyə tələsmir: "Bakı təkcə Azərbaycanın deyil, bütün Yaxın Şərqin iqtisadi və mədəni mərkəzlərindən olan qədim şəhərlərindən biridir. Bakının yaşayış məntəqəsi və şəhər kimi nə zaman meydana gəlməsi məsələsi onun arxeoloji cəhətdən zəif öyrənilməsi həmçinin mənbələrin kasadlığı üzündən hələ də müəyyən edilməyib" [8, s.37]. Nəzərə alsaq ki, Azərbaycanın nəinki, qədim dövrlər hətta orta əsrlər dövrünə

dair heç bir şəhərində XX əsrin 20-ci illərinə qədər arxeoloji qazıntılar aparılmamışdır, o zaman yarı təəssüf, yarı sevinc hissi ilə qeyd edə bilərik ki yalnız 1925-1926-cı illərdə Vətənimizin Dağlıq Qarabağ, Qafqaz Albaniyasının paytaxtı Qəbələ, Çovdar kəndi, Naxçıvan Muxtar Respublikası və Respublikamızın digər ərazilərində İ.Cəfərzadə, Ə.Ələkbərov, Ə.Ələsgərzadə, İ.Əzimbəyov, V.Şeblıkin kimi istedadlı alimlərin işrirakı ilə təşkil edilən ekspedisiyalar nəticəsində bu şəhərlərin tədqiqinə başlanılmışdır.

Məhz bu illərdə ilk dəfə arxeoloji qazıntılar nəticəsində əldə edilən maddi mədəniyyət abidələri sistemləşdirildi. 1923-cü ildə təşkil edilən "Azərbaycanı tədqiq edən və öyrənən cəmiyyət" in "Əsərlərində" adı çəkilən tədqiqatçılarımızın dərc edilən elmi məqalələri tarixşünaslığımıza böyük töhvə oldu. Bu topluda 20-ci illərin ortalarında T. Passek və B. Latınının "Tarixdən əvvəl Azərbaycanın oçerki" adlı məqaləsində Azərbaycanın qədim dövrünün, o cümlədən əhalisinin öyrənilməsinə dair elmi əsərləri tarixşünaslıq baxımından ümumiləşdirərək işıqlandırdılar. 1927-1928-ci illərdə Araz çayı boyu, Culfada və onun yaxınlığında yerləşən Xanağa kəndində, o cümlədən Noraşendə, Xaraba Gilan ərazisində aparılan arxeoloji tədqiqat işləriAzərbaycanın sözügedən dövrünün tarixidemoqrafik mənzərəsini də müəyyənləşdirməyəimkan yaratmaqla yanaşı, artıq Vətənimizin qədim dövrlərdən sıx məskunlaşmış şəhər mədəniyyətinə malik olduğunu da əyani şəkildə sübut etdi. Bütün bu sadalanan faktlar, xüsusən də Ə.Ələkbərovun ötən əsrin 30-cu illərinin əvvəllərində əcdadlarımızın məskunlaşdığı 500-dən artıq yaşayış məskənlərini özündə əks etdirən xəritəni tərtib etməsiyurdumuzun qədim dövrünün tarixinə, o cümlədən şəhər mədəniyyətinə, şəhər əhalisinə, əhali məskunlaşmasına, əhali artımına müsbət təsir edən amillərin öyrənilməsinə marağın artdığını aydın şəkildə göstərirdi.Bundan başqa o, qədim şəhərlərimizin, yaşayış yerlərimizin spesifik xüsusiyyətləri əsasında onların təsnifatını verməyə çalışmışdır [6, s.64-70]. Lakin, təbii ki, əldə olunan elmi nailiyyətlər həm də ən qədim dövrlədən üzü bəri əcdadlarımızın bu torpaqların qanuni sakinləri və sahibləri olduğunu da sübut etdiyinə görə o dövrki siyasi dairələri narahat edirdi. Məhz bu səbəbdən də artıq30-cu illərinin əvvəllərində "tarix sahəsində musavatizm, pantürkizm və çürük liberalizm əleyhinə" adı altında başlanan təqib, nəinki tarix, o cümlədən humanitar elmlərin inkişafı qarşısında sədd çəkdi. Tarixçi alimlərimiz sosializmin nailiyyətlərini tədqiq etmək əvəzinə "qədim əsrlərdə batıb qaldıqlarına" görə ciddi tənqidə, həbs və təqiblərə məruz qaldılar.Bütün bu proseslər Azərbaycanın qədim dövrünün tədqiqinə olan marağın ciddi surətdə azalmasına səbəb oldu. Hətta dövrün bir sıra alimlərində əldə olunan elmi nailiyyətlərə şübhəli yanaşma da əmələ gəldi. O illərdə görkəmli alim V.Bartoldun Azərbaycanın artıq qədim dövrlərdə zəngin şəhər mədəniyyəti, sıx əhali məskunlaşmasına malik olmasına sanki inamsızlıq göstərərək: "Pompeyin (Azərbaycana – A.M.) yürüşündən bir neçə əsr sonra mədəniyyətin artıq b.e. I–

II əsrlərində burada şəhərlərin təşəkkül tapması həddinədək yüksəlməsini söyləmək çox çətindir” – deyə, yazmasıbuna əyani misaldır [10, s.666].

V. Bartoldun sözügedən problemə bu şəkildə yanaşmasına S. Aşurbəylinin münasibəti diqqət çəkir: “Qəbələdə, Gəncədə, Mingəçevirdə, Gilgilçayı, Beşbarmaq, və Zaqataladakı qədim müdafiə səddlərinin xarabalıqlarında aparılan arxeoloji tədqiqat işləri Bartoldun fikirlərini təkzib edərək, Azərbaycanın erkən orta əsrlər dövründə sıx məskunlaşmış əraziyə və şəhərlərin təşəkkül tapmasını zərurətə çevirən yüksək mədəniyyətə malik olduğunu göstərir” [8, s.36].

Ümumiyyətlə, Azərbaycanın qədim dövr şəhərlərinin, o cümlədən digər yaşayış məskənlərinin məskunlaşması ilə baglı məsələlərin geniş miqyasda tədqiqinə XX əsrin II yarısında başlanıldı. Azərbaycanın ayrı-ayrı şəhərlərinin tarixinə dair sanballı monoqrafiyalar yazan bir sıra görkəmli alimlərin əsərlərində yaşayış məskənlərimizin qədimliyi, eyni zamanda sözügedən dövrün əhalisini öyrənmək üçün, artıq yuxarıda S.Aşurbəylinin də qeyd etdiyi kimi, mənbələrin qıtlığı ilə bağlı fikirlər yer almağa başladı. Həqiqətən də Azərbaycanınqədim, antik dövr əhalisininin say və inkişaf dinamikasını tədqiq etmək üçün, əhalinin siyahıya alınmasını özündə əks etdirən statistik sənədlərin olmaması, mövcud olan mənbələrdə məlumatların natamamlığı, bəzən həddən ziyadə az, yaxud heç olmaması mövcud problemin tədqiqini mürəkkəbləşdirir. Bəzən tarixi qaynaqlarda Qafqaz Albaniyası haqqında cəmiyyət həyatının bir çox sahələrinə dair müfəssəl məlumatlar verilsə də şəhərlərimiz haqqında ya susulur, yaxud da ən yaxşı halda bir – iki cümlə olur. Məsələn, Qafqaz Albaniyası haqqında digər antik dövr müəllifləri ilə müqayisədə daha geniş məlumat verən Strabon özünün məşhur 17 cildlik “Coğrafiya” əsərinin 11-ci cildində cəmi bir neçə kəlmə söz deyir: “ Aynianalılar Utidə (Uti əyalətində – A. M. ) şəhər tikdilər, yaxud saldılar.Anariaka şəhəri də burada yerləşir. “ İ. Babayev “E.ə. IV – b.e. III əsrlərində Qafqaz Albaniyasının şəhərləri” adlı kitabında Strabonun Ermənistan və Gürcüstanın şəhərləri,hətta bu ölkələrin şəhərlərinin tikinti texnikası və tikinti materialları haqqında dolğun məlumatlar verdiyi halda nədənsə Qafqaz Albaniyasının şəhərləri haqqında çox az yazmasından bəhs edərək, İberiyanın məskunlaşması ilə bağlıondan belə bir iqtibas gətirir: “Həqiqitən də İberiya əsasən şəhərlərlə daha çox məskunlaşmışdır”[9, s.52].

İstər-istəməz belə bir təbii sual yaranır, görəsən Strabonun Qafqaz Albaniyasının əhalisi ilə baglı yazılarında hər hansı bir təhrif, anlaşılmazlıq yaxud dövrümüzədək gəlib bizə çatmayan hər hansı bir məlumat yoxdurmu? Axı necə ola bilər ki, mühüm geostrateji ərazidə fəaliyyət göstərən, şəhərləri beynəlxalq əhəmiyyət kəsb edən tranzit ticarət yolları üzrində yerləşən,Qafqaz Albaniyası zəif məskunlaşsın, yaxud sıx əhaliyə malik olmasın? Rusiyalı tədqiqatçı A.Krımskiyə görə, Strabonun əsərinin üzü köçürülərkən onun

müəyyən səhifələri itmişdir [11, s.52]. Digər tərəfdən Strabonun qədim dövlətlərimizdən biri Midiya haqqındakı yazılarında ölkənin hökmdarları arasında çoxarvadlılığın geniş yayılmasından bəhs edir.Strabon yazırdı ki, Dağlıq Midiyada bu adət hamıya aid edilir və onlarda beş arvaddan az arvad almağa icazə verilmirdi. Elə beşdən az kişisi olan qadınlar da bunu özləri üçün bədbəxtlik hesab edirdilər [4, s.104].

Strabonun bu dediklərindən Azərbaycanın qədim dövləti Midiyada əhali artımının əsas göstəricilərindən biri olan çoxarvadlılığın geniş yayılması, o cümlədən nikahın məhz onun kəmiyyətinin artırılması məqsədilə dövlət tərəfindən tənzimlənməsi aydın surətdə bəlli olur. Beləbaşa düşmək olar ki, dövlətin çoxarvadlılığı yaymaq, əhalinin sayını artırmaqla bağlı tədbirləri ilk növbədə yeni ələ keçirlmiş böyük ərazilərdə siyasi nəzarəti gücləndirmək, sosial dayaqlarını möhkəmləndirmək üçün imperiyanın içərilərindən istila olunmuş, yaxud yeni salınacaq şəhərlərə əhalinin köçürülməsi məqsədlərindən irəli gəlirdi. Təsadüfi deyildir ki, antik qaynaqlarda istər əhalinin təbii və mexaniki artımı, istərsə də ölkə əhalisnin çoxluğunun göstəricisi olan sıx məskunlaşma kimi mühüm demoqrafik elementlər dövlətin qüdrətinin ən vacib, əsas göstəriciləri kimi təqdim edilir. Məsələn,antik müəlliflərdən biri Polibi də əhali ilə bağlı məlumatlarında Strabonun fikirlərini davam etdirərək Midiyanı Asiyada həm ərazisinin böyüklüyünə, həm də məhz əhalisinin çoxluğuna görə ən qüdrətli dövlət hesab etmişdir [4, s.104]. Yaxud Qay Yuliy Solin "Nailiyyətlər məcmusu" əsərində ölkəmizdən bəhs edərkən: "Bura əhali baxımından sıx məskunlaşmış bir yerdir" – deyə yazır [4, s.104].

Bütün yuxarıda deyilənləri nəzərə alaraqİ. Babayev haqlı olaraq hesab edir ki, Strabonun Qafqaz Albaniyasının şəhərləri (o cümlədən də şəhərlərin məskunlaşması – A.M.) haqqında məlumat verməməsi ilk növbədə onun informatorlarının problemlə bağlı məlumatlara malik olmaması imiş [9, s.52].

Müəllifin bu məsələ ilə baglı diqqətini çəkən əsas məqam Strabonun Qafqaz Albaniyasında olmaması, onun Albaniya və İberiya haqqındakı məlumatları Pompeyin Qafqaza yürüşündə şəxsən iştirak etməsi səbəbindən bu ölkələrdə olan Feofan Mitilenlinin əsərlərindən qaynaq kimi bəhrələnməsidir. Elə Strabonun özü də bu faktı tez-tez dilə gətirmişdir. Nəzərə alsaq ki, Strabonun əsərlərindən mənbə kimi istifadə etdiyi müəlliflərdən biri də e.ə. III əsrdə yaşayan, özüdə heç vaxt Qafqazda olmayan Eratosfendir, o zaman məsələnin mürəkkəbliyinə və daha ciddi obyektiv yanaşma tələb etdiyinə şahid olarıq. Digər tərəfdən Eratosfenin Qafqaz xalqları haqqında məlumatlarının bu gün itməsi səbəbindən əlimizdə olmayan Patrokldan götürməsi də deyilənləri sübut edir. Müəllif Qafqaz Albaniyasının ərazisi haqqında F.Məmmədovanın gəldiyi nəticələrə istinadən yazır: "O, belə hesab edir ki, Albaniyanın sərhədləri demək olar ki, bu dövlətin mövcud olduğu bütün dövrlərdə dəyişmədən cənubda Araz çayına, şimalda isə Böyük Qafqaz dağlarınadək uzanaraq, sabit

qalmışdır”. İ.Babayevbu məsələyə öz münasibətini: “Ola bilsin ki, belə vəziyyət həqiqətə yaxındır” – deyə, yazaraqbildirir [9, s.52].

İ.Babayevin Azərbaycan tarixşünaslığına böyük töhfə olan bu kitabında müəllifin Qafqaz Albaniyasında antik dövrdə ilk növbədə əhalinin təbii və mexaniki artımı səbəblərindən sıx məskunlaşması ilə bağlı yurdumuzun daha iri ərazilərə malik olması fikri ilə rastlaşırıq. Görəsən müəllifin belə bir qənaətə gəlməsinə hansı amillər təsir göstərə bilərdi? İ.Babayevin yuxarıda deyilən faktlara, o cümlədən Qafqaz Albaniyası ordusunun sayı haqqındakı məlumatlara istinad edərək, gəldiyi qənaət tarixi demoqrafik baxımdan son dərəcə böyük elmi əhəmiyyət kəsb edir. Bəli, müəllifin məhz antik dövrdə Qafqaz Albaniyasında əhalinin sıx məskunlaşması və ölkənin böyük hərbi potensiala malik Roma kimi qüdrətli imperiyanın hərb maşınına duruş gətirə biləcək güclü, çoxsaylı orduya malik ola bilməsi faktlarına istinad edərək: “Bütün hallarda Albaniya antik dövrdə kifayət qədər sıx məskunlaşmış iri əraziyə malik olmuşdur” [9, s.51].

Azərbaycan xalqının tarixi demoqrafik baxışlarında nəsil artımını himayə edən çoxsaylı qoruyucu ruhların, mifik obrazların olması da xalqımızın bəşər tarixinin ən qədim zamanlardan ailədə çoxlu uşaqların dünyaya gəlməsinə, ailəcanlılığa, deməli yaşadıqları əraziləri sıx məskunlaşdırdıqlarına əyani sübutdur. Biz bu fikrin təsdiqi ilə XX əsrin II yarısı istər Azərbaycan istərsə də Rusiya tarixşünaslığında rastlaşa bilərik. Məsələn, Qafqaz Albaniyasının görkəmli tədqiqatçılarından olan K.Trever haqlı olaraq belə hesab edir ki, qədim və antik tariximizi, o cümlədən şəhərlərimizi oradan əldə edilən maddi mədəniyyət nümunələrinin fərqli xüsusuyyətlərini üzə çıxarmaqla daha dərindən öyrənmək olar [5, s.59].Həqiqətən də ulu əcdadlarımızın yaşadıqları qədim və antik dövrə dair şəhərlərdən tapılmış məişət avadanlığı sözügedən dövrün sosial-etnik, maddi-mənəvi, siyasi-iqtisadi o cümlədən demoqrafik mənzərəsinin yaradılmasında, tədqiq edilməsində müstəsna rol oynayır. Belə ki, antik yunan mənbələrinə istinad edən K.Trever yunanların Günəş – Helios, və Ay – Selena ilahələrinə Qafqaz Albaniyası sakinlərinin də inandığını, eyni zamanda Selenanın Anahit Allahı olmasından bəhs edir. Eyni zamanda müəllif Anahiti bütün Ön Asiya və Orta Asiya xalqlarında torpaq, su, bitki, heyvanat aləmini, o cümlədən Ananı – nəsil artımını, çoxuşaqlılığı himayə edən onu qoruyan hami ruh olmasından, Qafqaz Albaniyası ərazisindən onun çoxsaylı heykəllərinin tapılmasından söhbət açır [5, s.151].

Ümumiyyətlə, bu məqalədə sözügedən problemə dair araşdirmalar aparan azərbaycanlı və rusiyalı alimlərin son dərəcə maraqlı əsərlərini, yaxud həmin əsərlərin cəmləndiyi elmi topluların adlarını qeyd etmək istərdim. Buraya: M. Альтман. Истории Гянджи раннего средневековья: Писменные и археологические данные о населенной местности, занимаемой Гянджой с древнейших времен: IX-XIII вв. Баку, Изв. АН Азерб.ССР, 1947, №1, с.28-

38; Материальная культура Азербайджана.Т.I. Баку,«Азерб. филиал АН СССР», 1949, 158 с; ЯмпольскийЗ. Об одноименности древнейшего населения Атропатены и Албании //Труды Института истории и философии АН Азерб. ССР, 1954, Т.IV, с.6-9.; АлиевК. К вопросу о древнем населении Албании //Доклады АН Азерб. ССР, 1959, Т.15, № 2, с.175-178; Алиев К. К истории изучения археологических памятников на территории древней Кавказской Албании //Изв. АН Азерб. ССР: Сер. общест. наук, 1961, №2, с.21-33; Алиев К.Г. К вопросу об источниках и литературе по истории древней Кавказской Албании //Вопросы истории Кавказской Албании. Баку, «Изд-во АН АзССР», 1962, 91 с. с.5-16; НаримановИ. Археологические исследования поселения Шомутепе в 1963 г.Баку, «АН Аз.ССР», 1964, 153 с; *Кушнарева* К.Х., *Чубинишвили Т*.Н. *Древние культуры Южного Кавказа* (*V-III тыс. до н. э.*). Ленинград, «Наука», *1970.* 191 с; Брыкина Г. Карабулак. Москва, «Наука», 1974, 128 с; Археологические открытия 1980 года /ответ. ред. Б.Рыбаков.Москва, «Наука», 1981, 423 с; Археологические открытия 1981 года /ответ. ред. Б.Рыбаков. Москва, «Наука», 1983, 505 с; Археологические открытия 1982 года /ответ. ред. Б.Рыбаков.Москва, «Наука», 1984, 526 с; Археологические открытия 1983 года /ответ. ред. Р.Мунчаев. Москва, «Наука», 1985, 598 с. və digərləri daxildir.

Yuxarıda adları sadalanan tədqiqat əsərlərinin ümumi qayəsindən Azərbaycanın artıq e. ə. III–II minilliklərdən üzü bəri fəal əhali məskunlaşması ilə seçilən şəhərlərə və inkişaf etmiş şəhərsalma mədəniyyətinə malik olması məlum olur. Sözügedən problemə dair yuxarıda adları sadalanan bu və bir şox digər tədqiqat əsərlərindən bəlli our ki, Yaxın Şərqin eləcə də Azərbaycanın erkən şəhərlərinin, o cümlədən şəhər mərkəzlərinin əsas əlamətlərindən biri də onların güclü müdafiə divarları ilə möhkəmləndirilmiş qalalarla təchiz edilmasıdır. Plan baxımından çoxbucaqlı formaya malik olan bu müdafiə istehkamları əsasən daş və çiy kərpicdən tikilmişdir. Bu dövrə aid qala divarları (Kültəpə Oğlanqala, Gyavurkala, Çalxanqala və s.) öz memarlıq xüsusiyyətlərinə, planlaşdırılmasına, şəhərsalma və tikinti texnikasına görə Yaxın Şərqin siyahıda adları sadalanan erkən şəhərləri – Fələstin (Yerixo), Mesopotamiya (Ur) qalaları ilə eynidir, Tell-Əsmər-Aşnuna, Xofeci-Upi, Troya, Anadolu (Karxemış, Hattuşaş) ilə demək olar ki, identikdir.

Məlum oldu ki, sözügedən dövrdə baş verən mühüm ictimai-siyasi, sosial-iqtisadi proseslər dəşəhərlərimizin taleyindən yan keçməmişlər.Məsələn, Şəkinin şəhər-qala kimi hələ eramızdan əvvəl mövcud olması ilə bağlı məlumatlar istər Azərbaycan, istərsə də Rusiya tarixşünaslığında özünə yer aldı. Bu tədqiqat əsərlərində Şəkinin meydana gəlməsi e. ə. VII əsrin I yarısında skif-sak tayfalarının yurdumuza axını və şəhər ərazisinin sak tayfaları tərəfindən məskunlaşması ilə izah edilir. Başqa sözlə desək, sözügedən dövrdə (yaxud

daha əvvəl )Qara dənizin şimal sahillərində baş vermiş quraqlıq səbəbindən massaget tayfalarını təqib edən skif-sak tayfalarının yerdəyişməsi – köçü, miqrasiyası yeni ələ keçirilən ərazilərdə, o cümlədən Azərbaycanda mühüm demoqrafik proses olan əhali məskunlaşmasına güclü təkan vermiş və qədim dövrlərdə nəinki yeni şəhərlərin yaranmasına, eləcə də mühüm ictimai – siyasi, o cümlədən, əhalinin etnik cəhətdən formalaşması kimi proseslərə də ciddi təsir göstərmişdir. K.Treverin fikrincə Alban tayfa ittifaqının tərkibində bir vaxtlar Albaniya ərazisindən keçərək Kürün məhsuldar sağ sahilində, Şakaşen əyalətində məskunlaşan skif və yaxud sak tayfaları da olmuşdur [5, s.49].

Azərbaycanda arxeoloqların bütöv bir nəslini yetişdirən Saleh Qazıyevin 1948 ci ildə nəşr olunan “Azərbaycanın qədim abidələri “ adlı kitabında salınma tarixi əsasən Sasani hökmdarı Ənuşirəvanın adı ilə bağlanan erkən orta əsr şəhərlərimizin artıq qədim və ya antik dövrlərdə mövcud olması fikri ilə rastlaşırıq. Müəllif qədim şəhərlərimizin müdafiəsi məqsədilə qurğuların tikilməsi ilə bağlı yazır: “ Babalarımız özlərini xarici düşmənlərdən müdafiə etmək üçün bir çox sədlər tikmişlər. Düşmənə qarşı sədlər çəkmək işi eramızdan doqquz əsr əvvəl başlayaraq, eramızın XVIII əsrinə qədər davam etmişdir. Bu sədlərdən ən böyüyü “Dəmir-qapı Dərbənd” səddidir” [3, s.4].

Burada diqqət çəkən məqam müəllifin Azərbaycanda şəhərsalma mədəniyyətinin eyni yaşayış məskənlərində uzun müddət davamlı şəkildə mövcud olması fikrini ön plana çəkməsidır. Məsələyə məhz bu rakursdan yanaşdıqda erkən orta əsr şəhərlərimizin böyük əksəriyyətinin həqiqətən də artıq qədim və ya antik dövrlərdə mövcud olması qənatinə gəlmiş oluruq. Müəllif Dərbənd səddinin V-VI əsrlərdə tikəlməsilə bağlı fikirlə barışmayaraq onun güya Makedoniyalı İskəndər tərəfindən inşa edilməsilə bağlı mənbələrin o cümlədən,digər məlumatların mövcud olmasını söyləyir: “ Bəzi rəvayətə görə Dərbənd səddi Xəzər dənizindən başlayaraq Qara dənizə qədər uzanıbmış” [3, s.5]. Müəllifin Dərbənd səddinin tarixi ilə bağlı fikirlərinin təsdiqi ilə A. Kudryavsevin demək olar ki,S. Qazıyevin sözügedən kitabından 40 il sonra nəşr olunan “ Qədim Dərbənd “ adlı maraq doğuran əsərində də rastlaşırıq. A. Kudryavsev Dərbəndin qədim adının “ Xəzər qapıları” şəklində ilk dəfə e. ə. VI əsrdə Miletli Hekatey tərəfindən çəkildiyini söyləyir [12, s.25]. O, Dərbəndin məskunlaşması prosesinin skiföncəsi dövrə - e. ə. VII əsrə aid olduğunu, yaşayış yerinin sahəsinin isə sözügedən dövrdə 4-5 ha, skiflərin buraya gəldiyi zaman 14-15 ha-ya çatdığını yazır. Əgər skiflərin yurdumuza e.ə. VII əsrdə gəldiyini nəzərə alsaq, o zaman sözügedən dövrdə bu yaşayış yerinin iki dəfə artaraq 15 ha-ya çatması təbii ki, əhalinin təbii və mexaniki artımının yüksələn templə getməsini aydın şəkildə göstərir. Digər tərəfdən şəhərdə əhali artımı onun əlverişli coğrafi mövqeyi o cümlədən, buraya əhali axınları ilə əlaqədar məskunlaşma prosesinin intensiv surətdə davam etməsi ilə də bağlı olmuşdur. Sözügedən dövrdə şəhərdə əhalinin azalması təbii amillərlə yanaşı həm də

buranı qarət etməyə, ələ keçirməyə, yaxud yolu buradan keçən çoxsaylı tayfaların dağıdıcı təsirləri ilə də bağlı baş verirdi. Qeyd etmək lazımdır ki, qədim dövrlərdə Vətənimizə qarşı təşkil edilən hücumların çoxu əksər hallarda məhz qarətçilik xarakteri daşımışdır. S.Qaşqayın təbirincə desək: "Cənubi Azərbaycan ərazisində yazılı mənbələrdə qeyd edilən ilk iri dövlət qurumu Manna dövlətidir" [2, s.3]. Q.A.Melikişvili "Nairi-Urartu" adlı məşhur əsərində Urartu hökmdarı I Argiştinin e.ə. 780-779-cu illərdə Manna dövlətinin şəhərlərinə hücum edərək 30000 mindən artıq, onun oğlu, e.ə. 764-735 ci illərdə hakimiyyətdə olan II Sardurun isə Cənubi Zaqafqaziyaya bir il ərzində etdiyi yürüşlər zamanı başqa qənimətlərlə bərabər 214700 baş xırda buynuzlu heyvan qarət etdiyini yazır [13, s.219-220].

S.Qaşqayın "Manna dövləti" adlı kitabında oxuyuruq: "III Salmanasar Mannanın adını ilk dəfə çəkəndə buradan "saysız-hesabsız qaramal və davar tələb edirdi" [2, s.81]. Müəllif mənbələrə istinadən: "I Argişti Aza vilayəti və Mannada külli miqdarda mal-qara ələ keçirir. O, məlumat verir ki, 2411 baş qaramal, 6140 baş davar, 179 at və 62 dəvə aparmışdır" [2, s.81]. Bu dövlət həm də Urartu tərəfdən tez-tez basqılara məruz qalırdı. B.Piatrovski mənbələrə istinadən Urartu tərəfdən ildə hətta iki dəfə yazda-heyvan yaylağa çıxmazdan əvvəl, və qoyun sürüləri dağdan endikdə, yəni payızda hücumlar təşkil edildiyini yazır [14, s.149].Böyük təəssüf hissi ilə qeyd etmək lazımdır ki, ölkəmzə qarətçilik məqsədilə təşkil edilən hücumlar zamanı çoxlu insan tələfatı da olurdu. T. Bünyadovun bu məsələ ilə bağlı fikirləri maraq doğurur: " Urartuluların yaz və payız hücumları əsaən heyvan sürüləri və başqa kənd təsərrüfatı məhsulları və işçi qüvvəsi ələ keçirilməklə sıx surətdə bağlıdır" [1, s.41]. Buradan bəlli olur ki, ölkəmizə qənimət ələ keçirmək məqsədilə təşkil edilən hücumlar təkcə əhalinin yaşaması və nəsil artımı üçün zəruri olan qida resurslarının kəmiyyətinin deyil, eləcə də sayının kəskin surətdə azalmasına səbəb olurdu. Təsadüfi deyildir ki, sözügedən dövrə dair mənbələrdə talan və qarətlərin şəhərlərin viran edilməsi, oda qalanması ilə eyni vaxtda həyata keçirildiyi göstərilir. Manna hökmdarı Ahşerinin və Assur hökmdarı Aşşurbanipalın qoşunları arasında baş verən döyüşün nəticəsi haqqında mənbədə deyilir: "Saysız hesabsız kiçik yaşayış məskənləri ilə birlikdə səkkiz möhkəmləndirilmiş şəhər Ayusiaş, Paşa (...)su, Bustu, Aşdiaş, Urkiyamun, Sixua, Naziniri, o cümlədən Urmeyate, Uzbia qalalarını və paytaxt İzirtunu əhatə edən yaşayış məskənləri" oda tutuldu və qarət edildi [2, s.74]. Yaxud Mannanın şərq sərhədlərində yerləşən Gizilbunda vilayətinin hakimi Pirişati düşmənə müqavimət göstərdiyinə görə Aşşur hökmdarı V Şamşi Adad bunun üstündə ölkəni dağdıb viran qoydu: "O, ətraf məskənlərin əhalisinin daldalandığı "möhkəmləndirilmiş şəhər" Uraşı işğal etdi, şəhərin küçələrini onun döyüşçülərinin qanına boyadı... 6000 döyüşçünü qırdı, şar Pirişatini 1200 döyüşçüsü ilə birlikdə diri-diri tutdu.Əsirlər apardı, onların əmlakını, var-

dövlətini, mal-qarasını, davarını, atlarını,gümüşdən,saf qızıldan və tuncdan qayrılmış saysız-hesabsız əşyalarını qarət etdi. Dağıtdı, viran qoydu, od vurub yandırdı" [2, s.63].

Yaxud II Sarqonun Mannaya hərbi təcavüzündən bəhsedən "Təntənəli yazsı"nda oxuyuruq: "...Mən əlçatmaz Uauş dağında urartulu Ursa ilə qanlı döyüş keçirdim. Və onun hökmdar nəslinin 250 üzvünü ələ keçirdim. Ətrafına divar çəkilən 55 möhkəmləndirilmiş şəhərini, 9 əlçatmaz qalası ilə birlikdə onun 8 vilayətini fəth etdim və oda yaxdım. Mannalı Ullusunuya məxsus 22 qalanı mən onun əlindən aldım və Assuriyanın hüdudlarına daxil etdim. Andialı Telusinanın vilayətinə qədərki Tuaya ölkəsinin 8 qalasını mən fəth etdim, 4200 sakinini onların sürüləri ilə birlikdə mən əsir etdim". Burada qədim Manna dövlətinin məruz qaldığı hərbi müdaxilənin, daha doğrusu hərbi təcavüzün ölkə iqtisadiyyatına, bütövlükdə isə ölkənin hazırkı və gələcək demoqrafik durumuna vurduğu ağır zərbələr aydın surətdə nəzərə çarpır. Digər tərəfdən düşmən Tuaya ölkəsinin 8 qalasından 4200 əsirin ələ keçirildiyini fərəhlə qeyd edir. Əgər orta hesabla hər qaladan təqribən 500 əsirin ələ keçirildiyini və əsirlərin əsasən iş qabiliyyətinə malik insanlardan – əli silah tuta bilən gənclərdən, əkinçilərdən, sənətkarlardan, o cümlədən cavan kişi və qadınlardan ibarət olduğunu eyni zamanda uşaq, qoca, xəstə, şikəst insanların buraya daxil olmadığını nəzərə alsaq, ən kobud hesablamalara əsasən əsirlərin şəhər əhalisnin beşdə bir hissəsini təşkil etdiyini söyləyə bilərik. Digər tərəfdən düşmənin əli silah tuta bilən bütün gəncləri, əsgərləri cavan kişi və qadınları total şəkildə əsir götürdüyünü dşünmək də düzgün olmazdı. Bütün bu və digər mülahizələri nəzərə alaraq, Tuaya ölkəsinin hər qalasında təxmini olaraq 2500-3000 yaxud daha çox adamın yaşadığını zənn edə bilərik. İşğal olunan şəhərlərdən qarət edilən malların adlarının bir-bir sadalanması, o cümlədən daşınan əmlakın hamısının zəruri məhsullar olması səbəbindən onlarsız normal insan həyatını təsəvvür etmək mümkün olmadığına görə üstəlik düşmənin çətin günlərdə ətraf məskənlərin əhalisinin daldalandığı şəhərləri, digər mühüm yaşayış yerlərini məqsədyönlü surətdə dağıtması, evlərə od vurub yandırması onun düşünülmüş demoqrafik siyasət yeritməsindən xəbər verir [4, s.53].

Başqa sözlə desək, iri dövlətlərin işğal etdikləri, yaxud özlərinin nüfuz dairələrinə aid etdikləri ərazilərdə siyasi təsirlərini uzun müddət qoruyub saxlamaları üçün bu və ya digər demoqrafik tədbirləri həyata keçirmələri artıq qədim dövrlərdə əhali məskunlaşması, icbari daxili miqrasiyalar, yaxud deportasiyaların zərurətə çevrilməsni aydın surətdə müşahidə etmuş oluruq. Digər tərəfdən sözügedən dövrdə dağıdılan həyati zəruri obyektlərin – evlərin, əkin sahələrinin, süni suvarma sistemlərinin bərpası da xeyli güc, vaxt, resurs tələb etdiyindən və bütün bu proseslərin əhali artımı ilə bağlı demoqrafik proseslərə birbaşa təsir edə bilməsi səbəbindən demoqrafik fonda azalmanın uzun müddət davam etməsinə səbəb olurdu.

Beləliklə, burada diqqət çəkən məqamlardan biri XX əsrin II yarısı Azərbaycan tarixşünaslığında qədim dövr şəhərlərimizin iqtisadi-siyasi, sosial-mədəni və mənəvi həyatını əks etdirən əsərlərdə xalqımızın demoqrafik vəziyyətinə dair mühüm tarixi faktların da yer almasıdır.XX əsrin II yarısı Azərbaycan tarixşünaslığında antik dövr şəhərlərinə dair tədqiqat əsərlərinin müqayisəli təhlili, sözügedən dövrün tarixi demoqrafik mənzərəsini restavrasiya etməyə, o cümlədən əhali artımı, yeni yaşayış və istehsal yerləri, o cümlədən təbii sərvətlərin istehsalı və istehlakı ilə bağlı gələcək planların işlənilib hazirlanması üşün əlverişli şərait yaradır.

## Ədəbiyyat


1. Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, “Elm”, 1969, 185 c.
2. Qaşqay S. Manna dövləti. Bakı, “Azərnəşr”, 1993, 107 s.
3. Qazıyev S. Azərbaycanın qədim abidələri. Bakı, “Qızıl Şərq”, 1948, 67 s.
4. Məmmədov A. Tarixi demoqrafiya. Bakı, “ADMİU nəşriyyatı”, 2019, 231 s.
5. Тревер К.В. Очерки по истории и культуре Кавказской Албании. Москва-Ленинград, «Изд-во АН СССР», 1959, 391 с.
6. Алекперов А.К. Исследования по археологии и этнографии АзербайджанаБ аку, «Изд-во АН АзССР», 1960, 249 с.
7. Ахундов Д. Архитектура древнего и раннесредневекового Азербайджана. Баку, «Азернешр», 1986, 311 с.
8. Ашурбейли С. История города Баку. Баку, «Азернешр», 1992, 401 с.
9. Бабаев И. Города Кавказской Албании.В IV в до н.э. – III в н.э. Баку,«Элм»,1990, 236 с.
10. Бартольд В. В. Место прикаспийских областей в истории мусульманского мира. Сочинения, т. II, ч. I, Москва, «Восточная литература», 1963, 1021 с.
11. *Крымский А.Е. Страницы* из *истории Северного Кавказа* и *Азербайджана* (*классической Албании*). *Л*енинград, «Изд-во АН СССР», *1934*, 107 с.
12. Кудрявцев А. Древний Дербент. Москва, «Наука», 1982, 171 с.
13. Меликишвили Г.А. Наири – Урарту. Тбилиси, «Изд-во АН. Гр.ССР», 1954, 446 с.
14. Пиатровский Б.Б. Ванское царство. Москва, «Восточная литература», 1959, 415 с.

# AZƏRBAYCAN SİYASİ TƏŞKİLATLARININ ANTİMÜSƏLMAN FƏALİYYƏTƏ VƏ TƏBLİĞATA QARŞI MÜBARİZƏSİ (NOYABR 1917 – MART 1918)

**Aygün Əzimova**
**AMEA A.A.Bakıxanov adına**
**Tarix İnstitutu**
**aygun.azimova77@gmail.com**

***Açar sözlər***: *Azərbaycan milli qüvvələri, müsəlman sosialistlər, antimüsəlman təbliğat, təxribatçılıq hərəkətləri, Bakı Soveti*

*Məqalədə 1917-ci il Fevral inqilabından sonrakı dövrdə ideologi baxımdan əks qütblərdə olan Azərbaycan milli qüvvələri və müsəlman sosialistlərin – eserlərin və hümmətçilərin fəaliyyətində oxşar mövqeyin meydana çıxmasını və müəyyən tarixi şəraitdə onların yaxınlığını şərtləndirən amillər təhlil edilmişdir. İlk növbədə inqilabdan sonra yaranan ictimai-siyasi vəziyyətin spesifik xüsusiyyətlərigöstərilmiş,ictimai-siyasi mühitdə vüsət alan antimüsəlman təbliğat və təxribatçı hərəkətlərın Azərbaycan siyasi qüvvələrinin mövqeyinə təsiri təhlil edilmişdir. Eləcə də sosialist təbliğatının antimüsəlman xarakterini müəyyənləşdirən cəhətlər müəyyən edilmiş, Rusiyanın bütün ərazisində inqilabdan sonra xarakterik hala çevrilən təxribatçılıq hərəkətlərinin Azərbaycanda da geniş yayıldığı qeyd olunmuş və bunun həm sosialistlərin fəaliyyəti, həm də erməni amili ilə bağlılığı göstərilmişdir.*

*Araşdırma zamanı başlıca mənbə olaraq dövrü mətbuat materiallarına müraciət edilmişdir.*

# БОРЬБА АЗЕРБАЙДЖАНСКИХ ПОЛИТИЧЕСИХ ОРГАНИЗАЦИЙ ПРОТИВ АНТИМУСУЛЬМАНСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ПРОПАГАНДЫ (НОЯБРЬ 1917 – МАРТ 1918)

***Айгюн Азимова***

***Ключевые слова***: *азербайджанские национальные силы, мусульманские социалисты,антимусульманская пропаганда, провокационная деятельность, Бакинский Совет*

*В статье проанализированы факторы, обусловившиепосле Февральской революции формирование схожейпозиции азербайджанских национальных сил и мусульманских социалистов (эсеров и гумметистов), находившихся на разных идеологических полюсах, их сближение в*

*конкретных исторических условиях. В первую очередь, раскрыты специфические особенности сложившейся после революции общественно-политической ситуации, проанализировано влияние антимусульманской пропаганды и провокационной деятельности, которые получили широкий размах в общественно-политической среде, на позицию азербайджанских политических сил. Кроме того, раскрыта сущность пропаганды местных структур общероссийских социалистических организаций против мусульманского населения, подчеркнуто широкое распространение в Азербайджане провокационных действий, ставших характерным явлением на всей территории послереволюционной России, показана их связь как с деятельностью социалистов, так и с армянским фактором.*

*В процессе исследования ключевым источником выступили материалы периодической печати.*

## FIGHT OF AZERBAIJANI POLITICAL ORGANIZATIONSAGAINST THE ANTI-MUSLIM ACTIVITIES AND PROPAGANDA (NOVEMBER 1917 - MARCH 1918)

**Aygun Azimova**

***Keywords:*** *Azerbaijani national forces, Muslim socialists, anti-Muslim propaganda, provocative activity, Baku Soviet*

*The factors that led to the formation of similar positions of the Azerbaijani national forces and Muslim socialists (SRs and Hummetists) after the February Revolution, being in various ideological poles, and their sharp confrontations are analyzed in the article. First of all, the specific features of the socio-political situation that arose after the revolution were analyzed, the impact of anti-Muslim propaganda and provocative activities, which gained wide scope in the socio-political environment, to the position of the Azerbaijani political forces. Moreover, the essence of the propaganda of local structures of all-Russian socialist organizations against the Muslim population is revealed, the widespread occurrence in Azerbaijan of provocative actions that have become a characteristic phenomenon throughout post-revolutionary Russia is emphasized, their connection both with the activities of the socialists and with the Armenian factor is shown.*

*In the process of researching, materials of the periodical press were used as the key source.*

**Giriş.**1917–1918-ci illərdə Azərbaycanda siyasi qüvvvələrin mübarizəsi müxtəlif siyasi konfiqurasiyaların meydana çıxması ilə müşayiət olunurdu.

Bunlardan biri də azərbaycanlıların daxil olduğu milli və sosialist siyasi qüvvələrin kəskin ideoloji mövqe fərqlərinə baxmayaraq bəzi məqamlarda eyni mövqedən çıxış etmələrində özünü göstərmişdi.

Bəhs edilən dövrdə Azərbaycanda (Burada konkret olaraq, Bakı quberniyası və Bakı şəhəri götürülür) ümum-Rusiya sosialist partiyalarının yerli təşkilatları (eser,menşevik və bolşevik təşkilatları) vəelıcə də müxtəlif qeyri-müsəlman millətçi qrupların daşıyıcısı olduqları antimüsəlman təmayüllərbaş qaldırmış, nəticə etibarilə sosialistlərin antimüsəlmanritorika nümayiş etdirənsiyasi təbliğatında və təxribatçı hərəkətlərində özünü göstərmişdi.

Hələ inqilabdan sonrakı ilk aylardan sosialistlər müsəlman əhalinin inqilabi tədbirlərə qarşı olduqları qənaətində idilər. Bu cür münasibət Azərbaycanda sosialistlərin fəaliyyətində bir yönəlişikliyə (ustanovkaya) çevrildiyindən Azərbaycan milli siyasi qüvvələri əksinqilabçı, onun sosial bazası – müsəlman əhali isə əksinqilabı dəstəkləyən kütlə kimi qəbul olunurdu. Nəticədə sosialistlərin əksinqilabçı hesab etdikləri qüvvələrə qarşı təbliğatları faktiki olaraq müsəlman əhalinin geniş təbəqəsinə qarşı çevrilərək antimüsəlman mahiyyət daşımış olurdu. İnqilabi demokratik şüarların və inqilabi-demokratik ab-havanın hakim olduğu ictimai-siyasi mühitdə "müsəlman" sözü neqativ məna yüklü ifadəyə çevrilirdi.

Qeyd etmək lazımdır ki, istənilən inqilab cəmiyyətin siyasi və sosial-mədəni həyatında köklü dəyişiklik yaradan hadisə olaraq sabit dəyərlər sistemini dağıdır, əhalinin müxtəlif təbəqələrinin davranışında buxovları açır, bütün səviyyələrdə gizli potensialları üzə çıxarır, irrasionallığı artırır. Fevral inqilabı da bütün Rusiya ərazisində eyni vəziyyəti yaratmışdı. Bu da öz növbəsində sosial və siyasi qrupların fəaliyyətində təzadlılıq vəziddiyyətlilik yaradırdı. Bu cəhət Azərbaycanda siyasi qüvvələrin mübarizəsinin təhlilində mütləq şəkildə nəzərə alınmalıdır. 1917-ci ilin martından Azərbaycanda gedən siyasi mübarizə təkcə siyasi addımların alqoritminin deyil, ictimai şüuru da formalaşdıran alqoritmin ifadəsi idi. Siyasi qüvvələrin rəhbər tutduqları siyasi ideyalar cəmiyyətdəki ab-hava ilə qarşılıqlı təsirə malik idi. Başqa sözlə, biri digərini istiqamətləndirirdi.

Antimilli təmayüllərin mövcudluğu və onun ictimai-siyasi həyata təsiri həmin dövrün mətbuat materiallarında dolğun şəkildə öz əksini tapmışdır. Mətbuat məlumatlarının ictimai-siyasi diskurs nəzərə alınmaqla tənqidi, müqayisəli və statistik təhlili dövrün siyasi və sosial tarixi aspektdən kifayət qədər obyektiv mənzərəsini yaratmağa, Fevral inqilabından sonra nəticə etibarilə müsəlmanlara qarşı yönəlmiş olan təmayüllərin necə ortaya çıxaması və inkişaf dinamikasını müəyyən etməyə imkan verir.

1917-ci ilin ikinci yarısından siyasi səhnədə bolşeviklərin önə çıxması ilə onların siyasi ritorikasında Azərbaycan milli qüvvələrinə qarşıtəbliğat şüarları daha da artmağa başlamışdı. Bu Azərbaycan siyasi qüvvələri icərisində

Müsavat partiyasının rəhbərliyi altında milli demokratik qüvvələrin mövqeyinin güclənməsi ilə bağlı idi. Oktyabrın 22-də Bakı Fəhlə və Əsgər Deputatları Sovetinə (Bakı Soveti) keçirilən seçkilərdə müsəlman fəhlələrin güclü dəstəyini qazanan Müsavat partiyası onların mənafeyinin müdafiəçisi olaraq Bakı Sovetinə keçmək imkanı əldə etmişdi. Əlbəttə, bu Bakı proletariatını yalnız özünün sosial bazası hesab edən sosialistləri və ən əsası da bolşevikləri narahat etməyə bilməzdi.

Noyabrın 9-12-də Bakıda keçirilən Zaqafqaziya Müsəlman Milli Komitəsi tərəfindən müsəlman milli komitələrinin konfransı milli qüvvələrin məqsədlərini daha açıq şəkildə ortaya qoymuşdu. Rusiya federasiyasında yeni muxtar siyasi vahid yaratmağa nail olmağı tələb edən konfransda komitə Milli Müsssislər Məclisi çağrılması barədə qərar da vermişdi. Sözssüz ki, bu azərbaycanlılar üçün əlamətdar bir hadisə idi və milli mətbuatda bu hadisə yüksək qiymətləndirilərək millətin siyasi və milli özünüdərkdə yeni eraya qədəm qoyduğu bildirilmişdi [26].Bundan sonra sosialist mətbuatında Qafqazda müsəlman burjuaziyasının "gəlmə elementləri qovmağı" arzuladığı barədə yazılırvə artıq milli qüvvələrə qarşı qəti mübarizə aparılmasına çağırış edilirdi [33].Müsavat partiyasına qarşı sosialistlərin, ilk növbədə bolşeviklərin səsləndirdikləri əsas arqument onun sosial bazasında "müsəlman mülkədar-bəy və burjuaziyası"nın mühüm yer tutması idi. Həm bolşeviklərin, həm də ayrıca olaraq Bakı Sovetinin mətbuat orqanında Azərbaycan milli-demokratik hərəkatına qarşı təbliğat həmin aspektdən aparılırdı.

Oktyabr çevrilişindən sonra bütün Rusiya ərazisində Cənubi Qafqazda sosial-iqtisadi vəziyyətin pisləşməsi hadisələrə obyektiv amillərin təsirini artırır və sosialistlərin məqsədyönlü siyasi təbliğatına daha münbit şərait yaradırdı. 1917-ci ilin dekabrından isə Qafqaz cəbhəsindən rus ordusunun tərxis edilməsi prosesi hadisələrə ciddi təsir edirdi.Belə ki, geri qayıdan rus ordusunun Cənubi Qafqaza sərnişin daşınması ilə yanaşı ərzaq və s. ilə təhcizat üçün başlıca nəqliyyat vasitəsi olan dəmir yollarında vaqonların çoxunu müsadirə etməsi nəticə etibarilə qəzaların ərzaq təchizatında fasilələr yaradaraq böhranlı vəziyyətə gətirib çıxarmışdı. Üzü qışa doğru əhalinin ərzaq əldə edə bilməməsi vəziyyəti daha da ağırlaşdırmışdı.Bu da öz növbəsində yerlərdə oğurluq və qarət hallarına imkan yaradırdı. Rus ordusunda xidmət edən və tərksilah olunduqda əlində xeyli silah qalan erməni və rus əhalidən fərqli olaraq hərbi xidmət hüququndan məhrum edilən müsəlman əhali özünümüdafiə işində acınacaqlı durumda idi. Müsəlman əhali həm ayrı-ayrı qarətçilərin, həm də tərxis edilən rus və xüsusən, erməni əsgərlərin zorakılığına məruz qalırdı.Belə olduqda, məntiqi olaraq yerlərdə müsəlman əhlinin müəyyən hissəsi özünümüdafiə məqsədilə silah əldə etməyə cəhd edirdi. Əksər hallarda buna nail ola bilməsələr də, müsəlman əhalidəhətta belə bir istəyin olması qeyri-müsəlmanlar arasında narahatlığa səbəb olurdu. Nəticədə bir tərəfdən

müsəlmanların silahlanması, digər tərəfdən isə müsəlman əhalinin ərzağı gizlətməsi barədə şaiyələr sürətlə yayılaraq qeyri-müsəlmanlar arasında antimüsəlman əhvali-ruhiyyəni gücləndirirdi. Hərbi gücə malik olmayan Azərbaycan milli qüvvələri yerlərdə hərc-mərcliyin qarşısını ala bilmirdilər. Aclıq təhlükəsindən ortaya çıxan qarətçilik hadisələrinə müxtəlif milli rakurslardan baxışlar isə siyasi müstəvidə aqressiv ritorikaya gətirib çıxarırdı.

Həmin vaxt Azərbaycan milli ictimai-siyasi xadimləri bu vəziyyətin yaradacağı fəsadları görür və hər hansı insidentin qarşısını vaxtında almağa çalışırdılar. Elə bu səbəbdən yanvarın əvvəlində Zaqafqaziya Komissarlığında fəaliyyət göstərən M.Y.Cəfərov, F.Xoyski, X.Xasməmmədov, X.Məlik-Aslanov Tiflisdən Şulaveri, Göyçay, Salyan, Qazax, Bakı, Yelizavetpol quberniya və qəza komissarlarına, milli təşkilatlara teleqrafla müraciət edərək burada baş verə biləcək təxribatların bölgə üçün mənfi nəticələrə gətirib çıxaracağından narahatlıq bildirmiş və onların qarşısını almaq üçün tədbirlər görülməsinə göstəriş vermişdilər [55]. Lakin baş verənlər, xüsusən, Şamxor hadisəsi və onun fəsadları milli qüvvələrin bu istiqamətdə uğurlu fəaliyyətini mümkünsüz edirdi.

1918-ci ilin yanvarın 9-daCənubi Qafqaz dəmir yolunun Şamxor stansiyasında rus ordusunu aparan eşelonların tərksilah edilməsindən sonra inqilabi-demokratik mətbuat orqanları hesab edilən sosialist partiya qəzetlərinin, eləcə də Bakı Sovetinin mətbuat orqanı (İzvestiya Bakinskoqo Soveta) məqsədyönlü şəkildə milli demokratik qüvvələri üzərinə ideoloji hücumu güclənmişdi.

Sözsüz ki, Azərbaycan milli qüvvələri Şamxorda tərksilah əməliyyatından yararlanmışdılar. Lakin bütün şərtlər onların əleyhinə olduğu şəraitdə azərbaycanlıların özünümüdafiə ehtiyacının diktəsi ilə həyata keçirdikləri bu addım nəticə etibarilə onların əleyhinə çevrilmişdi.Antibolşevik qüvvələr və bolşeviklər rus ordusu silahlarına sahib olmaq istəyirdilərsə, silah əldə etmək istəyən üçüncü qüvvənin – başıpozuq qarətçi dəstələrin (Əslində, heç onların milli mənsubiyyəti də aydın olmurdu.) mövcudluğu hamı üçün problem yaradırdı. Çox vaxt mətbuatda heç bir siyasi qüvvə tərəfində olmayan bu dəstələrin hərbi eşelonlara hücümu Azərbaycan milli siyasi qüvvələrinin adına çıxarılırdı.

Mövcud vəziyyət tək milli siyasi qüvvələrə qarşı təbliğat deyil,eyni zamanda müsəlman əhaliyə qarşı yönələn və onları milli qüvvələrin təsir dairəsindən çıxara biləcək müxtəliftəxribatçı hərəkətlər üçün də münbit şərait yaradırdı. Başqa sözlə, antimüsəlman təbliğat konkret hallarda təxtibatçı hərəkətlərə də meydan açırdı.

Qeyd etmək yerinə düşər ki,“təxribat” ifadəsi həmin dövrün ictimai-siyasi leksikonunda ən çox işlənən ifadələrdən biri idi və xüsusilə 1918-ci ilin yanvar-mart ayları boyunca Bakının gündəlik ictimai-siyasi həyatında

təxribatçılıqla mübarizə mövzusu daha geniş yer almışdı. Doğrudur, siyasi qüvvələrin hər birinin mətbuat orqanında bu cür hallara qarşı mübarizəyə çağırış edilirdi. Lakin eyni zamanda bəzi siyasi qüvvələr öz fəaliyyətlərinin mənfi nəticələrini məhz "təxribatçılar"ın adına çıxarırdılar. Mətbuat materiallarının təhlilindən aydın olur ki, təxribatçılığa qarşı ən çox həyəcan təbili çalan Bakı Soveti özü belə hərəkətlərə zəmin yaradırdı.Bu dövrdə Sovetinməhz bolşeviklərin ruporuna cevrilənrəsmi qəzetində Şamxor hadisəsi ilə bağlı yazılar da bunu təsdiq edir. Belə ki, həmin vaxt qəzet əsgərlərin dilindənhadisə barədə silsilə yazlar çap edirdi. Təkcə 12 yanvar sayında Şamxor hadisəsiüç ayrı-ayrı başlıq altında təsvir edilmişdi. "Bakıya gələn rus əsgəri" adlı məqalədə hadisələr zamanı erməni hərbi hissələrinin əsgərlərə hücum etməyə çağırıldığı, lakin onların qəti şəkildə: *"Biz rus əsgəri ilə cəbhədə vuruşmuşuq. Onlar bizim qardaşımızdır"* söyləyərək etiraz etdikləri və əksinə erməni hərbi hissələri tərəfindən patrullar qoyularaq Yelizavetpol (Gəncə) ərazisində anarxiya və özbaşınalığın qarşısını almağa çalışmaları qeyd olunmuşdu [43].Tərksilah edildikdən sonra müsəlmanlar tərəfindən əsgərlərin əşyalarının qarət edilməsi barədə məlumatların rus (və ya bütünlüklə qeyri-müsəlman ) oxucuya təsirini təsəvvür etmək isə çətin deyil. Göründüyü kimi, əsas diqqət müsəlmanların üzərinə yönəldilir və ermənilər faktiki olaraq məsələdən kənarda qalırdılar. Sinfi düşmən kimi "müsəlman-tatar mülkədarlar" göstərilsə də, işlədilən cümlələrdə vurğu "mülkədar və bəy" ifadəsinin deyil, "müsəlman" ifadəsinin üzərinə düşürdü.

Məhz Şamxor hadisələrindən fürsət kimi yararalanan və Azərbaycan milli qüvvələrini əsas hədəfə alan Bakı Sovetinin rəhbəri və Rusiya Xalq Komissarları Soveti tərəfindən Qafqazın Fövqəladə Komissarı təyin edilən S.Şaumyan öz məqsədlərinin daha açıq və kəskin şəkildə ifadə etməyə başlamışdı. Fevralın 13-də (31 yanvar)dərc etdirdiyi "Yelizavetpol hadisələri haqqında həqiqət" adlı yazısında o, Müsəlman Milli Şurasını qəti ittihamla "cinayətkaryuva" adlandırır və onun "süpürülüb atılması"nı zəruri hesab edirdi[20, s.211].Müsəlman zadəganlarının əksinqilabçı olması ilə bağlı öz dəlillərini göstərən Şaumyanın fikrincə, rus ordusunun tərksilah olunması müsəlman zadəganlarına aqrar hərəkatı (Azərbaycanın bəzi qəzalarında kəndlilərin mülkədarlara qarşı baş verən çıxışlar nəzərdə tutulur.) dayandırmaq və Azərbaycan xanlığını elan etmək üçün mürtəce alaylar yaratmağa lazımdır. Şaumyanınhəmin bölgədə ermənilərə qarşı heç bir halda təhlükə yaratmayan Azərbaycan bəylərini bu hərəkətləri etməklə "erməni-müsəlman qırğınına hazırlıq gördükləri"ni [20, s.213]bildirməsi isə açıq-açığına təxribatçı mahiyyət daşıyırdı.

Həmin vaxt Şaumyanın bu cür ritorikasımilli qüvvələrin nümayəndələrini ciddi narahat etmiş, onun həm Şamxor hadisələri ilə bağlı olaraq çap etdirdiyi məqalələr, həm də müsəlman kəndlilərə müraciəti ciddi

etiraz doğurmuşdu."Açıq söz" və "İttihad" qəzetlərində Şaumyanın Azərbaycan kəndlilərinə müraciətinə münasibət bildirən məqalə müəllifləri onun nə məqsəd güddüyünü diqqətə çatdırır və "*erməni kəndlisinin hal-hazırda öz bəy və dövlətliləri ilə bir yerdə qiyam edərək erməni millətinin müqəddəratını həll etmək ilə məşğuldurlar*",deyərək müsəlman kəndliləri də milli mənafe naminə həmrəyliyə çağırırdılar[23].

Şamxor hadisəsi ilə bərabər Muğan və Lənkəran ərazisində baş verənlər də bir qayda olaraq erməni və rus mətbuatında həyəcanlı xəbərlər şəklində və açıq təxribatçılıq ruhu ilə təqdim edilirdi. Bir neçə məqalə istisna olmaqla yalnız rus kəndlərinin hücumlara məruz qalmasından, hətta tamamilə məhv edilmək təhlükəsindən bəhs olunur və qəzanın digər müsəlman kəndlərinin əhalisi də quldurluqda ittiham edilirdi. Daha çox millətçiliyi ilə seçilən kadetlərlə yanaşı, eserlər, qismən menşeviklər də müsəlman milli qüvvələrinə qarşıbarışmaz münasibətlərini sərt şəkildə ifadə edirdilər.

Bolşeviklərin siyasi xəttini tutan Bakı Sovetinin istiqamətləndirdiyi təbliğat kampaniyası Bakı quberniyası ərazisində yaşayan rus əhalini dəmüsəlmanlara qarşı yönələn təmayüllərin təsiri altına salırdı. Onsuz da, rus ordusunun cəbhəni tərk etməsi rus əhali üçün ilk növbədə mənəvi cəhətdən dayağın itirilməsi demək idi. Bu cür hadisələrin baş verməsi isə ruslara qarşı düşmənçiliyin ifadəsi kimi qəbul olunurdu. Təsadüfi deyil ki, Bakıda və digər yerlərdə rus milli şuraları və onun yerli təşkilatları Muğan və Şamxor hadisələrindən sonra yaradılmışdı [38]. Hətta 1918-ci ilin əvvəlindən Bakıda 4 batalyondan ibarət rus milli polkunun təşkilinədə başlanılmışdı [11, s.82]. Anti-müsəlman təbliğatın genişləndiyi bir vaxtda rus əhalinin yerlərdə təşkilatlanması və silahlanması Bakı Sovetininhəmin yerlərdə dayaqların yaranması demək idi.

Bu vəziyyətdə baş verənlərə daha adekvat qiyməti Azərbaycan milli demokratları verirdilər. Onların fikrini ifadə edən "Açıq söz" qəzetində qəzalarda baş verənlər təhlil olunur və burada qarətçiliyin baş alıb getməsinin səbəbi ilk növbədə aclıqla, sonra isə aylarla davam edən hakimiyyətsizliklə əlaqələndirilirdi [15]. Həqiqət isə bu idi ki, mövcud vəziyyət yenə də müxtəlif rakurslardan qiymətləndirilirdi.

Diqqəti cəlb edən cəhətlərdən biri də getdikcə məsələyə erməni amilinin daha ciddi təsir etməsi idi. Təxribatçı şaiyələrin yayılmasında erməni təşkilatları mühüm rol oynayırdılar. Hələ 1917-ci ilin yazından Qafqazda müsəlmanların silahlanması barədəşaiyələr yayan ermənilər özlərinin silahlanmalarına haqq qazandırmağa çalışır və daha da artıq silahlanmağa nail olurdular.Rus ordusu Qafqaz cəbhəsini tərk etməyə başlayandan sonra isə daşnaklar dəmir yollara öz agentlərini qoyaraq müsəlmanların yüklərini yoxlayır və müsəlmanların silahlanması barədə şaiyələri daha da artırırdılar [16; 3, s.267].Qafqaz cəbhəsində hərbi əməliyyatlar dayanmadan öncə də erməni əsgərləri fərarilik edərək yaşadıqları

kəndlərə qayıdan zaman özləri ilə oğurluq silah gətirirdilər və nəticədə həmin kəndlərdə silahlı kəndlilər qrupu əmələ gəlirdi[3, s.267].

Lənkəran qəzasında cüzi sayda olan ermənilər“müsəlman alayı rusları qıracaq”, “müsəlmanlar xristianları qıracaq” kimi şayiələr yayırdılar. Sonradan müsəlmanlar ruslardan niyə onları öldürmək istədiklərinin səbəbini soruşanda onlar “*ermənilər deyiblər ki, siz bizi qıracaqsınız*” kimi ifadə işlətmişdilər [57, v.101].Aralarında ermənilər olan bəzi bolşeviklər özləri də “Vəhşi diviziya” əleyhinə təbliğat apardıqlarını etiraf edirdilər [57, v.101].

Əlbəttə, bu vəziyyət azərbaycanlıların daxil olduğu müxtəlif təmayüllü siyasi qüvvələrin müvafiq reaksiyasını və əməli addımlarını tələb edirdi. Azərbaycan milli qüvvələri hər vəchlə mövcud gərgin vəziyyətin aradan qaldırılmasına çalışır və bu məqsədlə bir neçə istiqamətdə iş görülürdü. İlk növbədə dəmir yollarında qatarların təhlükəsiz hərəkətini təmin etmək üçün Bakı Soveti və müxtəlif millisiyasi qüvvələrlə birgə fəaliyyətə cəhd edirdilər. Dəmir yolların mühafizəsi və hərəkətin təmin edilməsi məsələsi 1918-ci ilin yanvar-mart aylarında milli qüvvələrin dəfələrlə müzakirə edərək həllinə nail olmaq istədikləri ən mühüm məsələlərdən biri idi.

Yanvarın 31 (köhnə stillə 18 yanvar) – dəhəm azərbaycanlıları, həm də digər millətləri təmsil edən təşkilatların ümumi yığıncağında da Cənubi Qafqaz dəmir yolunda vəziyyət müzakirə edilmişdi. Yığıncağı təşkil etməkdə məqsəd ilk növbədə yaranmış vəziyyətin səbəblərinin düzgün müəyyən etmək və hər hansı yanlışlıq yarada bilən təfsirlərə yol verilməsinin qarşısını almaq idi. Baş verənlərin milli zəmində olmadığını ictimaiyyətin diqqətinə çatdıranmilli təşkilatların qəbul etdikləri ümumi qərarda stansiyalarda rus, azərbaycanlı, erməni və gürcü əsgərlərindən ibarət kifayət qədər güclü dəstələr qoyulması, stansiyalara yaxın kəndlərin əhalisindən xəzinə hesabına milis dəstələri təşkil edilməsi nəzərdə tutulmuşdu [32]. Eləcə də, Zaqafqaziya Komissarlığına əsgərlər üzərinə hücumların təkrarlanmaması üçün hərbi eşelonların marşurutunun ya Batum-Poti yoluna dəyişdirilməsi, ya da Tiflis-Bakı yoluna tərksilah edildikdən sonra buraxılması təklif edilmişdi [18].Əməli tədbir olaraq Yelizavetpol quberniyası ərazisində hərc-mərcliklə mübarizə üçün 1200 nəfərlik milis dəstəsi təşkil edilməyə başlanmışdı [13].Yanvarın 26-da isə müsəlman ictimai təşkilatlarının iclasında Gəncə Müsəlman İctimai Təhlükəsizlik Komitəsinin özünundəmir yolların mühafizəsini təmin etmək üçün müsəlman dviziyonunu göndərməsi qərara alınmışdı. Eləcə də, yaradılmaqda olan qırmızı qvardiya dəstələrinin də həmin əraziyə göndərilməsi üçün Bakı Soveti İcraiyyə Komitəsinə müraciət edilməsi də qərara alınmışdı [37].

Müxtəlif təmayüllü Azərbaycan siyasi təşkilatlarının fəaliyyətinin digər bir istiqaməti isə yerlərdə müsəlman təşkilatlarını ermənilərin silahlanması barədə məlumatlandırmaq idi. Fevralın 2-də (20 yanvar)Bakıdan Milli komitə üzvü İsa bəy Aşurbəyli öncədən Şamaxı İcraiyyə Komitəsinin üzvü M.

Veysova Bakıdan ermənilərin oraya 12 furqon silah aparmaları barədə xəbər vermişdi [54, s.276].Şamaxıdakı erməni və müsəlmanların daxil olduğu Millətlər Şurası bu məsələni müzakirə edərək gələn furqonlardan ikisinin silahlarının müsəlmanlara verilməsi barədə razılıq əldə etmişdilər. Fevralın ortalarında (köhnə stillə əvvəli)isə Zaqafqaziya müftisinə və Müsəlman Komitəsinə teleqram ünvanlayan M.Ə. Rəsulzadə Şamaxıdan və Göyçaydan olan ermənilərdən ibarət dəstənin (cəbhədən qayıdan –A.Ə.) Bakıdan Şamaxıya yola düşdüyü və onların bu ərazidən keçdiyi zaman eksseslərə yol verilməməsi üçün tədbir görülməsini xahiş etmişdi [36].

Dövr mətbuatınıntəhlili Bakıda Azərbaycan siyasi qüvvələrinin bütün təmayüllərinin xüsusən, yanvar - mart aylarında antimüsəlman təbliğata diqqət yetirdikləri və onun törədəcəyi fəsadlar barədə ciddi narahatçılıq keçirdiyini üzə çıxarır. Həm müsəlman sosialistlər, həm milli demokratlar bunların qarşısını almaq üçün tədbirlər görməyə çalışırdılar.

Qeyd etmək lazımdır ki, həmin dövrdə Bakıda bir necə milli şura və milli komitə var idi ki, eyni millətdən olan müxtəlif təmayüllü siyasi qüvvələr orada cəm olunmuşdular. Bolşeviklər qəti olaraq həmin qurumlara daxil olmaqdan imtina edirdilər. Lakin məlum olur ki, Azərbaycan milli qüvvələrinin təmsilçiləri ilə yanaşı müsəlman eserinin və hümmətçilərin təmsilçiləri 1918-ci ilin yanvarında milli şura müstəvisində bir araya gəlmişdilər.

Mövcud şəraitdə müsəlman əhalisiyasi yetkinlik nümayiş etdirərək şuradan iş tələb edirdi [61]. Sentyabr ayında seçilən Milli Şuranın artıq məhsuldar işləyə bilməyəcəyi aydın olduğundan yanvarın 25-də (12 yanvar) keçirilən iclasda onun yenidən seçilməsi qərara alınmış və yeni seçki lahiyəsi hazırlamaq üçün siyasi partiya nümayəndələrindən ibarət bir komissiya yaradılmışdı [17].Partiyalararası komissiya (Azərbaycan dilli mətbuatda “İnterpartiyniy komitet”kimi də qeyd olunur. – A.Ə.) adlanan həmin komissiya isə demək olar ki, “Mart hadisələri”nə qədər milli komitənin işini görmüşdü. Komissiyanın işində hümmətçilər və ittihadçılar fəal iştirak edirdilər. Ona əvvəlcə Mir Yaqub Mehdiyev başçılıq edirdi. Hümmətçilərdən isə sözügedən quruma üzv olaraqSoltan Məcid Əfəndiyev (Daha sonra S.M.Əfəndiyev sədr olmuşdu [25, s.42].) daxil edilmişdi. Vaxtilə sol eser və sonra hümmətçi olan Ə.Əhmədovöz kitabında 1918-ci ilin əvvəlində“Azərbaycan gerçəkliyinin bəzi xüsusiyyətləri səbəbindən bolşevik hümmətçilərin türk cəmiyyətinin liberal-demokratik burjua partiyaları ilə razılaşma ilə fəaliyyət göstərdiyi”ni qeyd edir [25, s.44].

Ümumiyyətlə obyektiv baxılarsa, müsəlman sosialistlər bu zaman sosialist düşərgənin qeyri-azərbaycanlı tərkibində azlıqda qalaraq çətin vəziyyətə düşmüşdülər. Həmin dövrdə müsəlman sosialistlərin fəaliyyətinə aydınlıq gətirəcək materiallar az olsa da, hümmətçilərin şəhərdə vəziyyətin gərginliyini aydın dərk etdiklərini əminliklə demək olar. Doğrudur, Hümmət

təşkilatı da sinfi mübarizə təbliğatı aparırdı və faktiki olaraq onun fəaliyyəti milli demokratik hərəkatı zəiflətməyə yönəlmişdi. Lakin antimüsəlman əhvali-ruhiyyənin mövcudluğu və ələlxsus da, artıq yanvar-mart aylarında təxribatçılıq hərəkətlərinin artması Hümmət təkşilatını bu məsələlərə diqqət yetirməyə məcbur edirdi. Qeyd etmək lazımdır ki, təşkilatda tamamilə bolşevik xəttini rəhbər tutan hümmətçilərlə digər üzvlər arasında mövcud vəziyyətdən dolayı fikir ayrılığı yaranmışdı. Təşkilatın öncüllərindən biri M.İsrafilbəyli(Qədirli) də öz xatirələrində "Mart hadisələri"ndən əvvəl Hümmət təşkilatı daxilində parçalanma olduğunu bildirmişdi [4, s.130].

İnqilabi-demokratik mətbuatın hadisələr barədə məlumatları birtərəfli verməsi və məsələyə yanaşması müsəlman demokratik ziyalılarının da diqqətini cəlb etmiş və etirazına səbəb olmuşdu. Bakı Sovetinin mətbuat orqanında bir Azərbaycan ziyalısı kimi M.Əfəndiyev bu cür subyektiv məlumatların verilməsinə etiraz edərək: "*Bu tendesiyanın əhalinin bəzi hissələrinin məlum reaksiyası üçün nəzərdə tutulduğu*"nu bildirmişdi. Onun fikrincə, əsl günahkarlar haradasa gizlənib, mətbuatda isə yalnız müsəlman "*Vəhşı Diviziya"sı və qara kütlə-tatarların (azərbaycanlılar – A.Ə) quldur dəstələri barədə car çəkilir. Müəllif: "Belə məlumatların nəticəsində yaşadığımız çətin dövrdə baş verə biləcək faciəli nəticələr nəzərə alınmır*" – deyə,uzaqgörənliklə etiraz səsini qaldırmışdı [46].Müəllifin əsas narahatçılığı məhz inqilabi mətbuat orqanının bu məsələni necə işıqlandırması idi. Redaksiyadan cavab məqaləsində isə Əfəndiyev "dırnaq arası demokrat" adlandırılaraq, bəy və mülkədar maraqlarının, millətçilərin müdafiəçisi kimi təqdim olunmuşdu [47].

Hümmətçilərin digər nümayəndəsi N.Nərimanovda "Şamxor hadisələri" ilə bağlı informasiyanın mətbuatda birtərəfli qaydada verilməsinin doğuracağı nəticələrdən narahat olmuşdu.Lakin o,erməni burjuaziyasının maliyyələşdirdiyi "Baku" qəzetində "müsəlmanlarla əsgərlər arasında atışmalar oldu" cümləsi ilə verilən məlumatların rus əsgərlərdə necə fikir formalaşdıracağına diqqət yonəldirdi.Nərimanov baş verənləri daha düzgün təqdim etməyə cəhd edərək yazırdı: "*...silahları alanlar arasında erməni və gürcü əsgərləri də var idi, lakin tərksilah aparılan ərazi müsəlmanların ərazisidirdeyə, rus əsgərləri onlara yalnız müsəlmanların hücum etdiklərini düşünmüşdülər*"[43, s.70].

1918-ci ilin əvvəllərində Bakı quberniyası qəzalarında gərginliyin artdığını, xüsusən də antimüsəlman əhvali-ruhiyyənin mövcudluğunu görən Hümmət təşkilatı rəhbərliyi həmin yerlərdə də vəziyyəti yoluna qoymaqüçün iş görməyə də cəhd etmişdi. Fevralın 3-də (yanvarın 21-də) Hümmətin Mərkəzi Komitəsində doktor Talışınskinin məruzəsindən sonra Astara ərazisində baş verən hadisələr müzakirə edilmiş və Hümmət təşkilatı tərəfindən Lənkəran və Astara hadisəsi ilə əlaqədar oraya hərbi dəstənin deyil, əvvəlcə təbliğatçıların göndərilməsi məqsədə uyğun hesab edilmiş və bunun Bakı Soveti İK-nə bildirilməsi qərara

alınmışdı.Həmcinin Partiyalararası Komissiya tərəfindən də sözügedən ərazilərə nümayəndələr göndərilməsi qərara alınmışdı [12].

Qeyd etmək lazımdır ki, 1917-ci ilin sonundan – 1918-ci ilin ilk aylarında təhlükəli vəziyyətdən dolayı müsəlmanların toplandıqı mitinqlər Bakının ictimai-siyasi həyatında mütəmadi hala çevrilmişdi.Bunlarda müsəlman sosialistlərin nümayəndələri milli demokratlarla bərabər iştirak edərək əhalini düzgün məlumatlandırır və sayıqlığa çağırırdılar. Şamxor hadisəsindən sonra yanvarın 29-da (16 yanvar) Bakıda Təzəpir məscidinin həyətində Zaqafqaziya Mərkəzi Müsəlman Komitəsi tərəfindən təşkil ediən böyük bir mitinqdə milli qüvvələrin nümayəndələri Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə, Q.Qasımovla yanaşı müsəlman sosialistlər N.H.Vəzirov(eser), Məmmədov (hümmətci) da çıxış etmiş və əhalini təxribatçılara inanmamağa çağırmışdılar [42].

Bu dövrdə şəhərdə yaranan gərginliyin səbəblərindən biri Bakı vağzalında toplanıb qalan erməni əsgərlərinin burada müsəlman sərnişinlərə qarşı açıq-aşkar zorakılığı, eləcə də əsgər geyimlilərin ("soldat libaslılar") şəhərdə özbaşınalığı etməsi idi. Əsgər özbaşınalığından bezmiş mindən çox müsəlman fevralın 13-də (yanvarın 31-də) İsmailiyyə binasının qarşısına toplaşaraq bu hallara son qoyulmasını tələb etmişdi.Oradaca müsəlmanların özləri arasından silahlı qarovullar yaradılmasına başlanmışdı [6].Xüsusi ilə ərzaq axtarıları bəhanəsi ilə müsəlman evlərinin və dükanlarının əsgər formalışəxslər tərəfindən axtarılması müsəlmanları hiddətləndirirdi. "Açıq söz" qəzeti də hər gün aparılan axtarışların fəsadlar verəcəyi, belə getsə, əvvəl-axır təxribatçıların öz məqsədlərinə çatacaqları barədə narahatlıqla xəbərdarlıq edirdi [1].

Belə vəziyyətdə Müsavat partiyası fəal şəkildə əhali arasında iş görürdü. Partiya öz komissarı Suleyman bəy Abdullayevin vasitəsi ilə əhalini məlumatlandırmağa çalışaraqbaş verənlərin təxribat olduğuna diqqət yönəldirdi [6].

Müsəlman eserlərin də fəaliyyətində eyni tendensiya özünü göstərməkdə idi.M.H. Vəzirov və müsəlman eserlərin digər nümayəndələri də şəhərdə hər hansı bir təxribatın qarşısını almaq üçün əsasən müsəlman fəhlələri arasında təbliğat işini gücləndirməyə vəümum-Rusiya sosilaist təşkilatlarının yerli təşkilatlarına müsəlmanların loyallığını nümayiş etdirməyə çalışırdılar. (Yeri gəlmişkən, hümmətçi M.İsrafilbəyli (Qədirli) Vəzirovun mahir natiq olduğunu qeyd edir [4, s.130].)Bu zaman müsəlman fəhlələr arasında birliyə çağırış şüarlarının artamasıdiqqəti cəlb edir ki, Cənubi Qafqazda baş verən hadisələrin müzakirəsi məqsədilə fevralın 14-də (1 fevral) İsmailiyyə binasında keçirilən və 400 nəfər müsəlman fəhlənin iştirak etdiyi yığıncaqda da bu özünü göstərmişdi. Çıxış edənlər müsəlman fəhlələrini heç bir partiyaya bölünməməyə çağırmışdılar. Yığıncaqda qəbul edilən M.H. Vəzirovun təklif etdiyi qətnamədə müsəlman fəhlələrin Muğan və Lənkəranda rus əhaliyə, həmçinin dəmir yollarında müsəlman əhaliyə qarşı zorakılıq hərəkətlərinə qarşı çıxdıqları, onların Bakı Sovetinə etibar etdikləri və qırmızı

qvardiyanın yaradılmasını dəstəklədikləri bildirilmiş və Bakı Soveti İcraiyyə Komitəsindən (Bakı Soveti İK)sovet hakimiyyətini tanıyan müsəlman fəhlələrin silahlandırılması xahiş edilmiş, Bakı Sovetindən pozuculuqla məşğul olanların çıxarılması tələb olunmuşdu. Eləcə də,hər hansı ekssesin baş verməməsi üçün Bakı vağzalında komissiya yaradılması təklif edilmişdi [55].Diqqət çəkən mühüm məqamlardan biri də bu idi ki, burada Bakı Sovetindən müsəlman fəhlələrin proporsionallıq əsasında təmsil olunması və şəhərdə qayda qanunun yaradılması tələb edilmişdi[55].Müsəlman sosialistlər Bakı Soveti tərkibində müsəlman fəhlələrin azlığının onun siyasi kursuna təsirini düzgün müəyyənləşdirmişdilər.

Diqqəti cəlb edən digər məqamlardan biri həm milli-demokratlar, həm müsəlman eserlərin sosialistlərin müsəlman əhaliyə qarşı yönələn ittihamlarını qəbul etməmələri idi. Belə ki, yanvarın sonundaMuğandan Bakı Soveti İK-ə gələn teleqramlardan sonra Sovetdə bu məsələ ilə bağlı keçirilən iclasda sol eserlərin lideri İ.Suxartsev alovlu çıxış edərək sosialistləri müsəlman təşkilatları ilə “kəskin bir dil” ilə danışmağa çağırmışdı [19, s. 439].Həmin vaxt M.Ə.Rəsulzadə ona qəti etiraz edərək bütün müsəlman təşkilatlarının rus əhaliyə qarşı düşmənçilikdə günahlandırılmasına qarşı çıxmış və hər vasitə ilə bölgədə baş verən toqquşmaların milli zəmində olmadığını anlatmağa cəhd etmişdi [50].Əslində digər sosialistlər kimi Suxartsevi də müsəlman hərbi qüvvələrinin təşkili narahat edirdi. Qəzada müsəlman milisinin qarətçilərlə mübarizəsini düzgün dəyərləndirməyən Suxartsev ümumiyyətlə əlində silah olan hər bir müsəlmanı eyni prizmadan görürüdü. O, bütünlüklə Azərbaycan kəndlilərini və azsayda olan milli hərbi qüvvələrin mübarizə aparmaq təşəbbüsünü nəzərdə tutaraq adı çəkilən qüvvələri “burada və Şimali Qafqazda başlayacaq siyasi mübarizənin pöhrələri” adlandırmışdı [60].Göründüyü kimi, sosialistlərqarətçilik hərəkətlərini mahiyyətcə əksinqilabi hərəkat kimi qiymətləndirirdilər.Həmin vaxt Tiflisdə olan Şaumyan da uzaqdan bu polemikaya qarışaraq Rəsulzadənin sosialistləri tənqid edən çıxışına kəskin münasibət bildirərək onu millətçilikdə ittiham etmişdi [20, s.227].

Sonradan artıq mətbuat səhifələrində davam edən M.Ə.Rəsulzadə və İ.Suxartsev arasındakı kəskin siyasi polemika bəhs olunan dövrdə milli demokratlar və ümum-Rusiya sosialistlərin fikir ayrılığını və sonuncuların barışmazlığını göstərmişdi. Belə olan halda ən çətin vəziyyətdə müsəlman sosialistləri qalmışdılar. Onların əsas nümayəndələrindən biri kimi M.H. Vəzirov baş verənlərə, daha doğrusu, inqilabçı-demokratlarda (sosialistlərdə) formalaşan fikrə və ümumiyyətlə, Suxartsevin baxışları timsalında inqilabçı düşüncəyə millətçiliyin qarışdırılmasına laqeyd qala bilməmişdi. O, Suxartsevi Yelizavetpol, Şamxor, Muğan, Lənkəran və Bakı vağzalında qanlı hadisələrə ruslara və müsəlmanlara qarşı məqsədli və qərəzli hərəkat kimi baxmamağa çağırmışdı. Müsəlmanlar arasında sosialistlərin tərəfdarlarının artdığını göstərən Vəzirov Suxartsevi “müsəlman zəhmətkeşlərin əhvali-ruhiyyəsindən xəbərsiz

olmaq"da qınamış və sosialistlərin müsəlmanlara inamsızlığını, həmçinin onlarla rəftarda yol verdikləri ehtitiyatsızlıqların müsəlman sosialistlərin işinə mane olduğunu bildirmişdi [27].Qeyd etmək lazımdır ki, çıxışlarında aydın şəkildə "Yaşasın muxtariyyət və beynəlxalq həmrəylik" şüarları səsləndirən Vəzirovu sosialistlərin özləri "müsəlman millətçilər"i kifayət qədər ifşa etməməkdə, müsəlman demokratik hərəkatının sosial təbiətini düzgün açmamaqda tənqid edirdilər [34]. Bu həm də o demək idi ki, sosialistlər müsəlman partiyadaşlarını kifayət qədər yetkin və qətiyyətli sosialist hesab etmir, ciddi müttəfiq kimi qiymətləndirmirdilər. Qeyri-müsəlman sosialistlərin müsəlman sosialistlərə bu cür "ehtiyatlı" münasibətindəfaktiki olaraq daşnakların sosialist mərkəzətəlqin etmək istədikləri "müsəlmanlardan, türklərdən bolşevik olmaz" [24] fikri ilə uzlaşırdı.

Lakin milli demokratlarla sosialistlər arasında bir növ orta mövqe nwmayiş etdirənAzərbaycan sosialistinin bu cəhdi uğursuz olmuş vəbaş verənlərə münasibəti ilə Azərbaycan sosialistlərinin nə dərəcədəutopist olmalarını bir daha göstərmişdi.

"Mart hadisələri"nədək həm Bakının özündə, həm quberniyada müsəlmanlara qarşı yönələn təmayüllərin artması müsəlman əhalinin narazılığının getdikcə daha kütləvi və qəti xarakter almasına səbəb olurdu. Müsəlman əhali özünə qarşı olan münasibətiantimüsəlman hərəkət prizmasından görərək instinktiv reaksiya verirdi.Fevralın 19-da (6 fevral)baş verən insident də bu baxımdan diqqət cəlb edir. Həmin gün Hərbi İnqilab Komitəsinin (HİK) qərarı ilə aralarında bir neçə gəmi sahibkarı həbs olunmuşdu.Onların sırasında müsəlmanlardan A.Hüseynov, H.Hüseynov, A.Quliyev və ?Vəliyev də var idi [51, s.41].Müsəlman sahibkarların tutulması müsəlmanlara qarşı atılan bir addım kimi qiymətləndirərək hadisədən həyacana düşən bir neçə min müsəlman İsmailiyyənin qarşısına toplaşmış və dərhal həbs olunanların azad edilməsini tələb etmişdi [41; 49, v.30].Qeyd etmək yerinə düşər ki, müsəlman sahibkarlara məxsus gəmilərdə bir qayda olaraq daha çox müsəlmanlar çalışırdılar [30, s.54].

İsmailiyyə binası qarşısında olan mitinqi idarə edənlərqazı Mir Məmməd Kərim Cəfərzadə, Hacı Mir Möhsün və Partiyalararası Komissiyanın sədri M.Y.Mehdiyev ("Rusiyada Müsəlmanlıq")daha mühafizəkar təbəqəni təmsil edirdilər. Lakin həmin vaxt M.Ə.Rəsulzadə, M.H.Vəzirov, B.Aşurbəyov ("Rusiyada Müsəlmanlıq") və başqaları narazı kütlənin qarşısına çıxmış və beləliklə,müxtəlif təmayüllü Azərbaycan siyasi xadimlərinin birgə səyi ilə əhalini sakitləşdirməyə nail olmuşdular. Vəziyyət barədə qızğın müzakirələrdən sonra burada kobud və zorakı həbslərə qarşı etiraz olaraq qətnamə qəbul edilmiş və Partiyalararası Komissiyaya müsəlmanların bu etirazını Bakı Sovetinə çatdırmaq həvalə olunmuşdu. Eləcə də mövcud vəziyyətdə bu cür mitinqlərin ciddi fəsadlar verə biləcəyi nəzərə alınaraq (Başqa sözlə, təxribatçılara öz

əməlləri üçün bəhanə verəcəyini nəzərə alaraq – A.Ə)bundan sonra ayrı-ayrı şəxslər tərəfindən yox, yalnız sözügedən komissiya tərəfindən mitinqlərin təşkil olunması qərarlaşdırılmışdı. Mitinqdə həmçinin ayrı-ayrı bolşeviklərin antimüsəlman xarakterli çıxışlar etdiyinə diqqət cəlb edilmiş və müsəlmanların bunun qarşısını almaq üçün tədbirlər görməsi də tələb olunmuşdu. Aydın idi ki, müsəlman əhalinin şəhərdə baş verənlərdən ciddi şəkildə narazı olduğundan şəhərdə hökm sürən ab-hava dəyişməsə, hər vaxt belə çıxışlar təkrarlana bilərdi.

Müsəlmanlara qarşı təxribatçı əməllərdən biri rus ordusu əsgərləri tərəfindən silahların müsəlmanlara satılması idi. Müsəlmanlar özlərini müdafiə etmək məqsədi ilə məntiqi olaraq, bu silahları əldə etməyə çalışırdılar. Halbukişəhərdə olan HİK-in qərarına görə rus ordusu əsgərlərindən silah alınması qadağan edilmişdi [10]. Müsəlmanların baha qiymətə əldə etdikləri silahlar sonradan elə həmin əsgərlərin xəbərçiliyi ilə müsadirə olunaraq onların özlərinə qaytarılırdı. Müsavat partiyası bu məsələyə diqqət yetirərək müsəlmanları belə bir təxribata uymamağa çağırırdı [10].

Həmin dövrdə şəhərdə mütəmadi hala çevrilən gecə atışmaları müsəlmanlara qarşı hər hansı bir təxribatçı hərəkətə imkan yarada bilərdi. Xüsusən,əhalinin daha mühafizəkar baxışlı, bununla bərabər, siyasi cəhətdən qeyri-yetkinvə ənənəvi həyat tərzini dəyişməyə meyilli olmayan hissəsinin təxribatlara uyması ehtimalı daha böyük idi. Müsavat və İttihad partiyaları əhalinin bu qrupunun da fəaliyyətinə nəzarət etməyə çalışırdı. Onlar Novruz-qabağı çərşənbələrdə müsəlmanların ənənəvi atəşfəşanlığının doğuracağı fəsadları qabaqcadan görmüş vəfevralın 20-dəmüsəlmanlara müraciət edərək əhalini sayıq olmağa çağırmışdılar [9].Müsavat partiyası şəhər milis sahələrini bu barədə qabaqcadan xəbərdar edərək 50-dən artıq üzvünü bir gün öncə şəhərin məhəllələrinə göndərmiş vəmüsəlmanlar arasında iş apararaq gözlənilən təxribatın qarşısını almağa müvəffəq olmuşdu [7].

Müsəlmanların narazılığını yaradan digər bir hadisənin doğuracağı fəsadların qarşısını isə müsəlman sosialistlərin atdığı addımlar almışdı. Martın 10-da (fevralın 25-də)Müsəlman Hərbi Qərargahı müsəlman diviziyasını təşkil etmək üçün Tiflisdən Bakıya gəlmişdi [8]. Tərkibinin böyük əksəriyyətini zus zabitləri təşkil edən heyətə general X.Talışınski başçılıq edirdi. Bakı Soveti İK-nın sərəncamı ilə heyət üzvləri və X.Talışınskinin həbs edilməsi müsəlman əhalinin ciddi narazılığına səbəb olmuş və təxribatların törədilməsinə münbit şərait yaranmışdı. Müsəlmanları sakitləşdirmək üçün N.Nərimanov və M.H.Vəzirov Sovet qarşısında ona zamin durmuş X.Talışınski azad edilməsinə nail olmuşdular. Bu addıma görə İ.Suxartsev N.Nərimanova irad tutduqda o, *“...mən generalı azad etmək istəmirəm, yoxsulları fəlakətdən qurtarmaq istəyirəm*”[35] demişdi. Başqa sözlə, hümmətçi Nərimanov narazılığın qanlı insidentə çevriləcəyini gördüyündən bu addımı atmışdı. Sonradan bu zaminlik

dən imtina etsələr [45] də, həmin vaxt onların bu addımı əhalini sakitləşdirmişdi.

Müsavat partiyası belə bir hadisədən sonra yeni insidentin ola biləcəyini nəzərə alaraqvə Azərbaycan milli demokratik qüvvələrinin məram və məqsədlərini bir daha sosialistlərə bəyan etmək niyyəti ilə martın 11-də özünün bütün təşkilatlarının konfransını çağırmışdı. 500 nəfəri fəhlə olmaqla 700 nəfərin iştirak etdiyi bu konfransda Sabunçuda yerləşən mədən rayonunda Mərkəzi Fəhlə Soveti yaradılması, Bakı Soveti İK-nın müsavatcı fəhlələrə də qvardiyaya daxil olmaq imkanı verən 5 fevral qərarının həyata keçirilməsini, (Suraxanı istisna olmaqla müsavatçılar qvardiyalara daxil ola bilməmişdilər.– A.Ə.), müsəlmanlara yeni yaranmaqda olan beynəlmiləl qırmızı alaylara yazılmaq təkliflərini nəzərdə tutan maddələrinin daxil olduğu qərar qəbul edilmişdi [35].Müsavat rəhbərliyi bununla bolşeviklərə və Bakı Sovetinə müsəlmanların hərbi işdə iştirakının zəruriliyini, müsəlman hərbi hissələrinin məhz asayişi qorumaq, müsəlman əhalinin mühafizəsini təşkil etmək məqsədi daşıdığını anlatmağacəhd etmişdi.

Bakıda "Mart hadisələri" öncəsi qəzalarda vəziyyətin gərginləşməsi şəhərdə müsəlman əhalinin əhvali-ruhiyyəsinə ciddi təsir edərək narahatlığını artırırdı. Qəzalardan Bakıya gələn həyacanlıxəbərlər müxtəlif milli qruplar və təbəqələr tərəfindən müxtəlif cür qəbul olunurdu. İnqilabi mətbuatın yaydığı əksər belə xəbərlərdə qəzalarda xristian əhalinin məhv edilməsi və Bakı Sovetinin qəzalarda müsəlmanlarla mübarizə üçün Lənkərana və Şamaxıya hərbi qüvvə göndərməsi bildirilirdi. Verilən xəbərlər xristian əhalini narahat edirdisə də, müsəlman əhalinin də qəzəb hisslərini coşdururdu.Çünki rus və ermənilərdən ibarət dəstələr məhz müsəlmanları cəzalandırmaq üçün oraya göndərilirdilər. Bunlardan narahat olan müsəlman əhalinin sərt reaksiyası təbii idi.Mövcud vəziyyətdə müsəlman sosialistlərin və milli qüvvələrin nümayəndələri yerli müsəlman təşkilatları sayıqlığa çağırır və mümkün qədər məlumatlandırırdılar.Partiyalararası Komissiyadan (həm də komitə kimi yazılır –A.Ə.) S.M.Əfəndiyev (hümmətçi) martın 25-də (12 mart) Şamaxı Müsəlman Şurasının sədri T.Xudaverdiyevə və onun müavini S.Həsənova oraya 1200 nəfərlik dəstənin göndərilməsi barədə xəbər vermişdi[54, s.284].Vəziyyətin gərginliyini nəzərə alan Müsavat partiyasının və Partiyalararası Komissiyanın üzvləri isə martın 26 (13)-da Şamaxıya gəlmişdilər. Göründüyü kimi, təhlükə qarşısında əks siyasi cəbhələrə aid olan Azərbaycan siyasi təşkilatları – Müsavat və Hümmətin üzvləri milli təhlükəyə eyni cür reaksiya nümayiş etdirmişdilər.

Eləcə də, "Mart hadisələri"zamanı da müxtəlif təmayüllü Azərbaycan siyasi qüvvələrinin təmsilçilərinin genişxalq kütlələrinin təhlükəsizliyini təmin etmək üçün ciddisəy göstərdikləri məlumdur. Həm sağ, həm sol siyasi qüvvələr "Evelina" gəmisində olan müsəlman hərbiçilərin tərksilah edilməsininin nə ilə nəticələnəcəyini görərək məhz silahların qaytarılması üçün çalışırdılar. Həmin

vaxt şəhərdə olan müsavatçılar dərhal Sovetə nümayəndə göndərərk danışıq aparmışdılar. Digər tərəfdən isə Nərimanov Şaumyanı öz evində təşkil etdiyi görüşə dəvət etməklə, onu müsəlmanlara qarşı hər hansı addımdan çəkindirməyə çalışmışdı. Hər iki təmayülə aid Azərbaycan siyasi qüvvləri mövcud şəraitdə ilk növbədə xalqın xilasını düşünürdülər. Lakin ideoloji cəhətdən ayrı-ayrı düşərgələrdə olan bu qüvvələr əməli addımlarda daha irəli gedə bilməzdilər.

**Nəticə.**Beləliklə, hesab etmək olar ki, 1917-1918-ci illərdə Bakıda hadisələrin gedişinə sosialistlər tərəfindən aparılan antimüsəlman siyasi təbliğat, eləcə də müxtəlif siyasi, milli qrupların təxribatçı hərəkətləri ciddi təsir etmişdi. Fevral inqilabından sonra müsəlmanların silahlanması barədə ilk növbədə ermənilər tərəfindən yayılan şaiyələr tərkibində qeyri-müsəlmanların mütləq əksəriyyət təşkil etdikləri sosialistlərin müsəlman əhalinin inqilabi dəyişiklikləri qəbul etmək istəməsi fikrləri ilə vəhdətdə antimüsəlman təbliğata zəmin yaradırdı.Müsavat partiyasının inqilabi-demokratik hərəkatda varlığını qəbul etmək istəməyən sosialistlər, ələlxsus, bolşeviklər inqilabi maraqlarından çıxış edərək müsəlman milli burjuaziyası və mülkədarları hədəfə alsalar da, ilk növbədə ermənilər tərəfindən yayılan şayiələr bütünlüklə müsəlman əhalini hədəfə çevirirdi. Bu zaman onların ritorikasında ortaq olan “müsəlman” ifadəsi idi. Bu məqam ictimai–siyasi mühitdə o qədər qabarıq idi ki, hətta müsəlman sosialistlərin narahatlığına səbəb olmuşdu.Lakin hələ sosializm barədə romantik fikirlərdə olan müsəlman sosialistlər baş verənlərdə sosialistlərin rolunu görməsi mümkün deyildi.

Fevral inqilabından sonra müxtəlif amillərin culğalaşmasının nəticəsi olaraq təxribatçılıq dalğası bütün Rusiyanı bürümüşdü. Bakı quberniyası ərazisində təxribatçı hərəkətlərin vüsət alması sosialistlərin antimüsəlman mövqeyi və erməni amilinin mövcudluğu ilə bağlı idi və Bakıda “Mart hadisələri”nə qədər dəfələrlə bu özünü biruzə vermişdi.Bütün bunlar dövrü mətbuatda geniş şəkildə öz əksini tapmışdı.

Mövcud vəziyyət öz növbəsində milli qüvvələr və müsəlman sosialistlərin fəaliyyətinə təsir etmişdi. Doğrudur, ideoloji baxımdan bir-birinə zidd mövqedə olan bu qüvvələr üçün xalq anlayışı eyni məna kəsb etmirdi. Müsavatçı xadımlər xalqın bütün təbəqələrinin vəhdətindən bəhs edirdisə, müsəlman sosialistlərin ritorikasında“xalq”anlayışı ilk öncə onun zəhmətkeş kütləsi demək idi. Lakin nəticə etibarilə, mövcud antimüsəlman əhvali-ruhiyyənin hakim olduğu şəraitdə müsəlman sosialistlərin –eserlərin və hümmətçilərin nümayəndələrinin atdıqları addımlar ümumən, müsəlman əhalinin təhlükəsizliyi baxımından əhəmiyyət daşıyırdı. İki – milli və sosialist düşərgələrdə yer alan azərbaycanlılar arasında ziyalıların mühüm yer tutması və burada sosialistlərin təbliğ getdiyi sinfi mübarizə ideyalarının zəifliyi də öz

növbəsində mövcud vəziyyətdə oxşar davranışını şərtləndirən amillərdən biri idi.

## ƏDƏBİYYAT


1. Açıq sütunlar // Açıq söz. – 1918, 4 fevral, № 672.– s.3.
2. Axundzadə, S.Mart hadisəsi 1918-ci il yaxud Nuru Paşanın Bakını işğal etməsi. Bakı: Turan, 1919. (Aşırlı, A.31 mart soyqırımı 1918-1920-ci illər mətbuatında –Bakı: Elm və Təhsil, 2011 kitabından s.54–71.
3. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu. [üç clddə]. c.2. 1-ci hissəsi. Gəncə quberniyası – Bakı: Çaşıoğlu, 2010. – 458 s.
4. Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu. [üç cilddə], Xatirələr. – Bakı: Çaşıoglu, c.3 – 2010– 448 s.
5. Azərbaycan tarixi: [7 cilddə] (1900 –27 fevral – 1920) – Bakı: Elm, c.5, –2001. – 672 s.
6. Bakı xəbərləri // Açıq söz. – 1918, 1 fevral, № 670. – s.4.
7. Bakı xəbərləri // Açıq söz. – 1918, 22 fevral, № 688.– s.3.
8. Bakı xəbərləri // Açıq söz. – 1918, 26 fevral, № 691.–s.2.
9. Bakı müsəlmanlarının nəzərinə // İttihad.– 1918, 20 fevral, № 64 – s.1.
10. Bu da bir növ fitnə // Açıq söz.–1918, 20 fevral, № 686. – s.4.
11. Əzimov, H. İnqilab əsgərləri– Bakı: Azərnəşr,–1978. – 104 s.
12. Firgə həyatı // Hümmət. –1918, 23 yanvar, № 28. –c.3.
13. Qafqaz xəbərləri // Açıq söz. – 1918, 14 yanvar, № 654. – 3.
14. Qanlı faciədən 4 saət qabaq // Hümmət. – 1918, 1 aprel, № 36. –c.3
15. Qəzalarda nə baş verir? // Açıq söz.– 1918, 5 fevral, № 673.– s.2–3.
16. Mart hadiseyi ələmiyyəsinin müxtəsər tarixçəsi // Azərbaycan.- 31 mart,№ 147. - s.2-3.
17. Milli Şurada // Açıq söz. –1918, 14 yanvar, № 654. –c.2.
18. Hərc və mərcə qarşı // Açıq söz. – 1918, 11 fevral, № 678. – s.2 –3.
19. Rəsulzadə, M. Ə. Əsərləri. 1917– aprel 1918 – Bakı: Qanun nəşriyyatı,– c. 4.– 2013. – 456 s.
20. Şaumyan, S. Seçilmiş əsərləri [2 cilddə]. – Bakı: Azərnəşr, – c. 2, – 1978. – 487 s.
21. Şaumyan müraciəti həqqindəbir mülahizə // Açıq söz. – 1918, 12 fevral, № 79. – s.1 –2.
22. Üskü çərşənbə günü // Açıq söz.– 1918, 20 fevral, № 686. –s.4.
23. Zaqafqaziya müsəlman kəndli əhalisinə // Açıq söz.– 1918, 9 fevral № 77. – s.1.

24. Арамян, А. Об организации боевой дружины в 1917 г. //Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsi İctimai-Siyasi Sənədlər Arxivi (ARPİİİSSA)fond268, siyahı 23, iş 36.
25. Ахмедов, А. Национальное движение, партии и общественные деятели Азербайджана в 1918-1925 годах глазами очевидца. –Баку: Нурлан,–2006, 112 с.
26. В мусульманском комитете // Каспий. – 1917, 28 ноября,№ 260.–с.6.
27. Везиров, М.Г.Довольно! // Известия Совета рабочих и военных депутатов Бакинского района. –1918, 17 февраля, №27.-с.1.
28. ВоспоминанияМамедханова// ARPİİİSSA fond 268, siyahı 23, iş 406,–v.8.
29. Гасанлы, Дж. Русская революция и Азербайджан: Трудный путь к независимости.1917-1920, Москва, РОССПЕН.–2011.
30. Гусейнова, Д. Рабочие-моряки Каспия (90-е годы XX -1907 г. )–Баку: Элм, – 1981.
31. К передаче Ханского дворца во владение Мусульманского Археологического Общества // Известия Совета рабочих и военных депутатов Бакинскогорайона. –1917, 28 декабря, №219.–с.3.
32. К событиям на Закавказскойжелезной дороге// Баку. –1918, 20 января, №.15.–с.3
33. Кавказские империалисты // Известия Совета рабочих и военных депутатов Бакинского района.–1917, 8 декабря, №203.– с.2.
34. Лер, А. Везиров о задачах мусульманской демократии // Известия Совета рабочих и военных депутатов Бакинского района. –1917, 28 декабря, №219.–с.1.
35. Местная жизнь: В партии (Мусават) // Наш голос . – 1918, 15 марта, № 55. – с.4
36. Местная хроника. Возвращение армян-солдат // Баку.– 1918, 4 февраля, №.27 –с.3.
37. Местная хроника. Охрана линии Баку–Елизаветполь// Баку. – 1918, 28 января, №.22.–с.2.
38. Местная хроника. Русский национальный совет // Баку. –1918, 28 января, №.22.– с.3.
39. Местная хроника. Русский национальныйполк // Баку. –1918, 14 февраля, № 35. –с.3.
40. Местная хроника. Русский национальныйполк на Мугани // Баку.– 1918, 23 февраля, №43.– с.2.
41. Митинг мусульман в «Исмаилие» // Известия Совета рабочих и военных депутатов Бакинского района. – 1918, 24 февраля, № 33.–с.2.
42. Митинг мусульман// Наш голос.– 1918, 18 января, № 10.– с.3.

43. Нападение на окопников // Известия Совета рабочих и военных депутатов Бакинского района.–1918, 12 января, №8 (230) –с.2.
44. Нариманов,Н.Н.Избранные произведения [в 3-х томах] 1918–1921.–Баку: Азернешр, т.2.– 1989.– 768 с.
45. Отказ от поручительства за генерала Талышинского// Известия Совета рабочих и военных депутатов Бакинского района. –1918, 26 марта, №278.–с.2.
46. Письмо М.Эфендиевав редакцию // Известия Совета рабочих и военных депутатов Бакинского района.– 1918, 17 января, №.12– с.4.
47. По поводу письма Эфендиева// Известия Совета рабочих и военных депутатов Бакинского района, 1918, 21 января, №16.
48. Постановление Военно-РеволюционногоКомитета // Бакинский рабочий. –1918, 9 марта, № 44. –с.1.
49. Работа А.П.Челяпина «Кавказский фронт, Закавказское правительство и партии Закавказья» // ARPİİİSSA fond 268, siyahı 20, iş153.
50. Расулзаде, М.Э. Наше самоопределения и Бакинские большевики // Известия Совета рабочих и военных депутатов Бакинского района. – 1918, 15 февраля, №26.-2.
51. Рустамова, Дж. Национальная буржуазия в период Азербайджанской Демократической Республики– Баку: Мутарджим, – 2007. – с.41.
52. Рустамова-Тогиди, С. Бесценный документ о мартовских событиях 1918 г. В Баку: Записи Али Мардан бека Топчибашева //Strateji təhlil. – 2017,say 1-2(19-20)– с.25-57.
53. Рустамова-Тогиди, С. Март 1918 г. Баку. Азербайджанские погромы в документах. –Баку: 2009.–864с.
54. Рустамова-Тогиди, С. Шемаха. Март-июль 1918 г. Азербайджанские погромы в документах. т.1, Город Шемаха. –Баку: Рустамова-Тогиди, С. – 2013, –с.276.
55. Собрание рабочих мусульман // Известия Совета рабочих и военных депутатов Бакинскогорайона.– 1918, 17 февраля, №, 27(249).– с.3.
56. События в Елизаветполе и на Закавказской железной дороге// Баку. – 1918, 3 января, №.1.–с.3.
57. Стенограмма вечера воспоминаний участников гражданской войны на Мугани и Ленкорани. 1932 г. // ARPİİİSSA fond456, siyahı18, iş 33.
58. Стенограмма вечера воспоминаний участников гражданской войны на Мугани и Ленкорани. 1931 г. // ARPİİİSSA fond 456, siyahı18, iş 30.
59. Стенограмма воспоминаний т.Кадырлы о работе организации «Гуммет» Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: Sənədlər toplusu. [üç cilddə], Xatirələr. – Bakı: Çaşıoglu, c.3 – 2010s.118-137.

60. Сухарцев, И. Мой ответРасулзаде// Известия Совета рабочих и военных депутатов Бакинского района. -1918, 15 февраля, №26. – с.2.
61. Халил Ибрагим. Пусть факты говорят // Известия Совета рабочих и военных депутатов Бакинского района. –1918, 25 января, №.19(241) – с.3.

# MƏNBƏLƏRİN TARİXİ TƏNQİDİ – TARİX ELMİNİN METODOLOJİ PROBLEMLƏRİNDƏN BİRİ KİMİ

**Balamirzə Məmmədli**
Bakı Dövlət Universiteti
balamirza.mammadli@bsu.edu.az

**Açar sözlər:***mənbə, tarixi tənqid, metodologiya, müqayisəli təhlil, mənbəşünaslıq analizi*

*Məlum olduğu kimi mənbələr tarixi tədqiqatlar üçün xammal bazasıdır və mənbələrsiz keçmişin öyrənilməsi qeyri-mümkündür. Lakin, mənbələrdən necə gəldi deyil, tənqidi şəkildə istifadə edilməlidir. Bəs mənbələrin "tənqidi" anlayışı nə deməkdir? Onu başa düşmək üçün tarixçi ilk öncə bu sözün elmi nöqteyi-nəzərdən mənasını adi dildəki mənasından ayırd etməlidir. Adi mənada tənqid hər hansısa bir şey və ya bir şəxs haqqında mənfi mühakimə yürütmək anlamına gəlir. Lakin, elmi nöqteyi-nəzərdən isə məna fərqlidir. XIX əsrin görkəmli rus ədəbi tənqidçiləri V.Belinski və N.Çernışevski bu termini və öz vəzifələrini fərqli cür başa düşürdülər. Belinski yazırdı: "Tənqid kütlənin gözündə yanlış bir məna alıb: tənqid etmək çoxları üçün danlamaq,hətta söymək anlamındadır. ...Tənqidi bu cür başa düşmək ədaləti ittiham və cəza ilə qarışdırmağa bərabərdir" [6, s.705]. Çernışevski isə yazırdı ki, "tənqid hər hansı bir ədəbi əsərin xüsusiyyətləri və çatışmazlıqları haqqında mühakimədir" [7, s.207]. Əksər dillərdə "kritika" kimi işlənən bu anlayış yunanca kritikë – "mühakimə etmək" sözündəndir. Mənbənin tənqidi də mənbə haqqında (onun etibarlılığı, müsbət və mənfi cəhətləri, ümumi dəyəri və s.) mühakimədir, başqa sözlə mənbəşünaslıq analizidir. Mənbə tənqidi – mənbənin təhlil deməkdir. Tarixi tənqid təkcə mənbəşünaslığın deyil, bütün tarix elminin mühüm və əsas metodudur.*

# ИСТОРИЧЕСКАЯ КРИТИКА ИСТОЧНИКОВ КАК ОДНА ИЗ МЕТОДОЛОГИЧЕСКИХ ПРОБЛЕМ ИСТОРИЧЕСКОЙ НАУКИ

**Баламирза Мамедли**

**Ключевые слова:***источник, историческая критика, методология, сравнительный анализ, источниковедческий анализ*

*Как известно, источники являются сырьевой базой исторических исследований, а без источников изучение прошлого невозможно. Однако источники следует использовать критически, а не бессистемно. Что означает понятие «критика» источников? Чтобы понять его, историк*

*должен сначала отличить значение этого слова с научной точки зрения от его значения в обыденном языке. Критика в ее обычном понимании означает вынесение отрицательного суждения о чем-то или о ком-то. Однако с научной точки зрения смысл в другом. Выдающиеся русские литературные критики XIX века В. Белинский и Н. Чернышевский по-разному понимали этот термин и свои обязанности. Белинский писал: «Критика получила в глазах массы превратное понятие: критиковать – для многих значит ругать... Понимать таким образом критику все равно, что правосудие смешивать только с обвинением и карою, забывая об оправдании». Чернышевский писал, что «критика есть суждение о достоинствах и недостатках какого-либо литературного произведения». Это понятие, которое в большинстве языков используется как «критика», происходит от греческого слова kritikë – «судить». Источниковедческая критика – это также суждение об источнике (его достоверности, достоинствах и недостатках, общей ценности и т. д.), иначе говоря, анализ источника. Историческая критика – важный и основной метод не только источниковедения, но и всей исторической науки.*

## HISTORICAL CRITICISM OF SOURCES AS ONE OF THE METHODOLOGICAL PROBLEMS OF HISTORICAL SCIENCE

**Balamirza Mammadli**

**Key words:***source, historical criticism, methodology, comparative analysis, source analysis*

*As it is known, sources are the raw material base for historical research, and without sources the study of the past is impossible. However, the sources should be used critically, not haphazardly. What does the concept of "criticism" of sources mean? In order to understand it, the historian must first distinguish the meaning of this word from a scientific point of view from its meaning in ordinary language. Criticism in its usual sense means making a negative judgment about something or someone. However, from a scientific point of view, the meaning is different. Prominent Russian literary critics of the 19th century V. Belinsky and N. Chernyshevsky understood this term and their duties differently. Belinsky wrote: "Criticism has taken on a wrong meaning in the eyes of the masses: for many, criticizing means scolding, even cursing. ...Understanding criticism in this way is equivalent to mixing justice with accusation and punishment." Chernyshevsky wrote that "criticism is a judgment about the characteristics and shortcomings of any literary work." This concept, which is used as "criticism" in most languages, comes from the*

*Greek word kritikë – "to judge". Source criticism is also a judgment about the source (its reliability, pros and cons, overall value, etc.), in other words, it is a source analysis. Source criticism means analysis of the source. Historical criticism is an important and basic method not only of source studies, but of all historical science.*

**Şübhə – tarixi tənqidin başlanğıc nöqtəsi kimi.** Bütün elmlərdə şübhə obyektiv həqiqətə dair biliklərin ən mühüm formasıdır. Şübhə olmadan elmdə yaradıcı axtarışları təsəvvürə belə gətirmək olmaz. XX əsrin məşhur ABŞ fiziki, Nobel mükafatı laureatı Riçard Feynman elmi yaradıcılıqda şübhənin zəruriliyini dəfələrlə vurğulamışdı. R.Feynman obrazlı dildə deyirdi ki, ya şübhələrimizin üzünə qapını açıq qoyacayıq, ya da elmi tərəqqi olmayacaq: "Şübhə olmadan sual, sual isə olmadan bilik yoxdur" [8, s.7].Təsadüfi deyil ki, "Hər şeyə şübhə et!" (De omnibus dubitandum!) K.Marksın tədqiqat şüarı idi. Şübhə hər istənilən bir fikrin, o cümlədən də tarix fikrin "katalizatorudur". Əlbəttə, burada söhbət məhsuldar, yaradıcı, rasional şübhədən gedir (yəni normal insan məsələn, elmi aksiomalara şübhə etməməlidir). İngilis tarixçisi Henri Bokl (1821-1862) şübhə və skeptisizmi "intellektual tərəqqinin" ilkin şərtləri kimi səciyyələndirərək hesab edirdi ki, onlar kor-koranə inamı əvəz edir və axtarış ruhunu doğurur. H.Bokl yazır: "Şübhə olmadan tədqiqat da ola bilməz, tədqiqat olmadan isə, heç bir bilik ola bilməz ...Qaranlığı dərk etməyən işıq axtarmaz. Şübhə yaranmadıqca, öyrənmə prosesi başlamaz. Beləliklə, şübhə aktı tərəqqini başladır və ya ən azından hər hansısa tərəqqiyə zəruri keçid rolunu oynayır. Skeptisizm hətta ən tənbəl zehinləri də özünə sual verməyə vadar edir ki, hər şey həqiqətən də mi necə lazımdırsa o cürdür? Hər şeyin həqiqətən də necə lazımdırsa o cür olması isə hələ uşaqlıqdan inanılması öyrədilən həqiqətlərdir" [4, s.252-253].

Hələ antik dövrdə skeptisizm (yunanca σκεπτικός – "araşdıran", "tədqiq edən") adlanan cərəyan formalaşmışdı. Onun əsasını e.ə. IV əsrdə yunan filosofu Pirron qoymuşdu. Həmin dövrdə skeptisizm qədim Yunanıstanda, Romada geniş yayılmışdı. Lakin, orta əsrlərdə xüsusilə Avropada şübhə anlayışına münasibət mənfi mənada dəyişdi. Belə ki, orta əsr insanı tez inanır, hər yazılanlara (xüsusilə dini inanc məsələlərinə) kor-koranə inanc bəsləyirdi. Bu da onunla bağlı idi ki, istənilən şübhə elementləri bidət hesab olunur və bu, sərt inkvizisiya aparatının işə düşməsinə səbəb olurdu. Orta əsrlərdə çoxlu sayda elm adamlarının tonqalda yandıralaraq edam olunması da bununla bağlı olmuşdu. Ona görə də, geniş kütlələr İncili dərk etmədən, təhlil etmədən sadəcə olaraq inanırdılar.

Beləliklə, mənbə təhlilinin başlanğıc nöqtəsi şübhə, tənqidilik, skeptisizmdir. Mənbəni oxuyan zaman tarixçi ona şübhə ilə yanaşmağa başlamalıdır: "Mənbədə nə deyilir? Bu məlumat düzgündür, ya yox? Mənbədəki məlumatlar niyə təhrif oluna bilərdi? və s." Tarixçidə şübhə, tənqidi və skeptik düşüncə

ərzində hələ təhsil aldığı illərdə formalaşmalıdır. Əgər bu keyfiyyətlər zehni işin üzvi tərkib hissəsinə, tarixçi təfəkkürünün ilkin əlamətinə çevrilmirsə, deməli, tarixçi aldığı təhsildən nəticə çıxarmayıb. O, tarixi öyrənə bilər, tarixçi diplomu ala bilər, tarixi yadında saxlaya və onu başqalarına öyrədə bilər, lakin yuxarıdakı keyfiyyətlər yoxdursa, bu zaman o, sadəcə olaraq faktlar toplusunu yadda saxlayan və onları illərlə təkrarlayan reproduktiv mexanizm (qrammofon valı, yaxud maqnitofon lenti kimi) olacaq.

**Tarixi tənqidin mərhələləri.** Tarixi tənqidin adətən iki tərəfi ayırd edilir: mənşə (origin) tənqidi və məzmun tənqidi. Düzdür, bəzi mənbəşünaslar belə bir bölgünün zəruriliyini inkar edirlər, bəzən ayrı-ayrı tarixçilər bu anlayışların hər birini tamamilə fərqli məzmunda izah edirlər. Lakin sözügedən anlayışların bütün qeyri-müəyyənliklərinə və aralarındakı sərhədin dəyişkənliyinə baxmayaraq, məzmun tənqidi və mənşə tənqidi bölgüsü aparmadan mənbəni təhlil etmək çətindir.

Mənşə tənqidinə bəzən "xarici tənqid", "ilkin tənqid" də deyilir. Mənşə tənqidi bunları aşkar etməlidir: mənbənin növünü (tipini), onun etibarlılığını, orijinallığını; mənbənin müəllifini, müəllifin sosial mənşəyi, tutduğu vəzifəsi, təhsili, milliyyəti, şəxsi simpatiya və antipatiyalarını; mənbənin mənsub olduğu zamanı, məkanı, yaranma şəraitini, məqsədini və s. Mənşə tənqidi mənbənin ümumi xarakteristikasını verir və məzmun tənqidi işini də rahatlaşdırır. Məzmun tənqidi (və ya "daxili tənqid") də tənqidi prosesin əsas elementidir. Onun məqsədi mənbənin məzmununun etibarlılığını aydınlaşdırmaq və ya başqa sözlə desək, orada hansı məlumatların həqiqət, hansıların yalan olduğunu üzə çıxarmaqdır. Onun əsas metodları ayrı-ayrı ifadələri yoxlamaq, onların bir-biri ilə qarşılıqlı əlaqəsini, bağlantısını müəyyən etməkdir. Məzmun tənqidinin ən mühüm vəzifələrindən biri mənbənin ideoloji-siyasi istiqamətini aydınlaşdırmaqdır.

Mənbələrin tənqidindən danışarkən, tarixi tənqid metodologiyasının baniləri sayılan bir sıra tarixçilər haqqında da qısa məlumat vermək lazımdır. Belə şəxsiyyətlərdən biri italyan humanisti Lorenso Valladır (1407-1457). Latın dilinin ən yaxşı bilicilərindən olan L.Valla hətta "Latın dilinin gözəllikləri haqqında altı kitab" adlı traktat da yazmışdı. Lorenso Valla da digər humanistlər kimi kilsənin əleyhdarı olmuş, orta əsr kilsə əxlaqının prinsiplərindən biri olan asketizmə qarşı çıxaraq xoşbəxtliyi və həzzi həyatın məqsədi kimi təbliğ edirdi. O, hesab edirdi ki, İtaliyanın siyasi parçalanmasının əsas günahkarları İntibah dövründə də dünyəvi hakimiyyət iddiaları çox güclü olan papalardır. Bu cür iddiaların "Konstantinin hədiyyəsi" adı altında tanınan hüquqi əsası saxta idi. Roma imperatoru Konstantinin (306-337) guya papa I Silvestrə imperiyanın bütün qərb hissəsi üzərində dünyəvi hakimiyyət verdiyini bəyan edən bu sənəd XVIII əsrdə papalıq dəftərxanasında uydurulmuş saxta xartiya idi.

L.Valla "Konstantinin saxta və uydurma hədiyyələri haqqında mülahizələr" adlı traktatında sözügedən sənədin IV əsrdə tərtib edilmədiyini, sadəcə bir saxtakarlıq olduğunu inandırıcı şəkildə sübut edirdi. Onun təhlilinin arqumentləri belə idi: 1) nə üçün Konstantin öz mülklərinin yarısından məhrum olmalı idi? 2) iddia edilən "hədiyyə" ilə bağlı məlumat verən heç bir şahidə rast gəlinmir; 3) sənəd IV əsrdə istifadə olunan klassik latın dili stilində deyil, son barbar stilində yazılmışdır. Deməli o, sonradan yazılmışdır və saxtadır. Saxta sənədin tərtib olunma tarixi (VIII əsr) yalnız sonralar müəyyən edilmişdir. Burada bizə Lorenso Vallanın yaradıcılığı anti-kilsə deyil, mənbəşünaslıq nöqteyi-nəzərindən maraqlıdır. Bununla, Lorenso Valla mənbəşünaslıq analizinin əsasını qoymuşdur, baxmayaraq ki, tarixi tənqidin tarixi tədqiqatlarda ən mühüm metod kimi geniş şəkildə istifadə olunması əsrlər sonra baş vermişdir. Mənbəşünaslıqanalizinin sonrakı inkişafı XVIII əsrin sonlarında antik dövrü araşdıran alman tarixçiləri A.Şleser, F.Volf və B.Niburun, xüsusən də yeni dövr tarixçisi L.Rankenin adları ilə bağlıdır.

XVIII əsrin 60-cı illərində Rusiyada yaşayaraq qədim rus salnamələrini tədqiq etmiş, Almaniyada slavistika elminin banilərindən biri sayılan Avqust Lüdviq Şleser (1735-1809) mənbələri təhlil edərkən 3 tənqidi yanaşmanı əsaslandırırdı: birincisi, ilkin, orijinal mətnin tam olaraq bərpa edilməsi – kiçik tənqid; ikincisi, tarixi mənbəni qrammatik baxımdan və tarixi izah nöqteyi-nəzərindən düzgün başa düşmək və üçüncüsü, məlumatların etibarlılığını aydınlaşdırmaq – sağlam düşüncəyə əsaslanan ali tənqid. A.Şleser ən qədim rus salnaməsinin XII əsrin əvvəllərində rahib Nestor tərəfindən yazılması, lakin sonradan onu köçürənlər tərəfindən güclü şəkildə təhrif edilmiş formada (ən tezi XIV əsr) saxlanılması qənaətinə gəlmişdir. Buna görə də, Şleser ilk növbədə salnamənin ilkin, orijinal mətnini bərpa etməyi, daha sonra qədimliyi və yaxud köçürmələr zamanı təhrif edilməsi səbəbindən anlaşılmaz olan sözləri və terminləri şərh etməyi, sonra isə orada göstərilən faktların yoxlamaqla onların etibarlılığını müəyyənləşdirməyi təklif etmişdir. O, rasionalist və praqmatik tarixçi kimi bütün salnamə məlumatlarına ilk növbədə sağlam düşüncə mövqeyindən yanaşır, salnaməçinin məlumatlarını başqa mənbələrin məlumatları ilə müqayisə etmək üsulundan istifadə edirdi [5, s.16-17].

Fridrix Avqust Volf (1759-1824) özünün "Homerə giriş" (1795) adlı əsərində qədim yunan şairi Homerin eposlarını tədqiq etmişdir Tarixçilər əvvəllər də Homerin eposlarından istifadə etmişdilər, lakin əsasən tarixi faktları götürmək üçün. F.Volf isə onları sırf mənbənin kimi ilk dəfə araşdırmış, xüsusilə də onun müəllifliyi problemini irəli sürmüşdür. F.Volf hesab edirdi ki, "İliada" bir nəfər tərəfindən yaradılmayıb və o, yunan xalqının öz qədim keçmişini əks etdirdiyi folklor əsərlərinin qeydidir. Fridrix Volfun tənqidi yolu ilə gedən alman tarixçisi Bartold Georq Nibur (1776-1831) isə, qədim Roma tarixçisi Tit Livinin əsərlərini tədqiq etmiş və onların xalq nağıllarına

əsaslanması qənaətinə gəlmişdi. B.Nibur hesab edirdi ki, keçmiş haqqında danışan şahidləri, yəni mənbələrin müəllifləri: onların hadisələrdən nə dərəcə xəbərdar olması, simpatiya və antipatiyaları, hadisələri etibarlı şəkildə çatdıra bilmə qabiliyyəti ilə bağlı ilkin qiymətləndirmələr aparılmadan tarixi əsər yaratmaq mümkün deyil. Beləliklə, F.Volf və B.Nibur öz tədqiqat mövzuları üzrə konkret mənbələri (Homerin və Tit Livinin əsərləri) tənqidi şəkildə tədqiq etmişdilər. Lakin, onların hər biri öz konkret mənbələrini intuitiv şəkildə tədqiq etmiş və tənqidi metodun hansı qaydalardan ibarət olmalı olduğunu müəyyən etməmişdilər. Bu baxımdan, Volf və Nibur sözügedən metodu sistemli və hərtərəfli şəkildə tətbiq edə bilməmişlər.

Mənbəşünaslıq analizinin sonrakı inkişafı Leopold fon Rankenin (1795-1886) adı ilə bağlıdır. Öz karyerasına Frankfurt-na-Oder şəhərindəki gimnaziyada tarix və latın dili müəllimi kimi başlayan L.Ranke akademik, elmi və ictimai istiqamətlərdə sürətlə irəliləmiş, Berlin Universitetinin professoru, Prussiya Elmlər Akademiyasının üzvü və zadəganlıq tituluna yüksəlmişdi. L.Rankenin əsərləri Almaniyada o qədər böyük əks-səda doğurmuşdu ki, hətta Bismark da Rankenin əsərlərini oxumağın faydalılığını Bibliyanı öyrənməklə müqayisə etmişdi. Rankenin bu yüksəlişi 1824-cü ildə, özünün "1494-1535-ci illərdə german və roman xalqlarının tarixi" adlı ilk əsərini nəşr etdirdikdən sonra başlamış və ömrünün sonuna qədər davam etmişdir. Həmin əsəri "Ən yeni tarixçilərin tənqidinə dair" adlı mənbəşünaslıq etüdü müşayiət edirdi. Bəs Rankenin belə bir fenomenal karyerasının səbəbi nə idi? Onun xidmətləri nədir? Belə ki, Ranke əvvəlki nailiyyətlərdən, xüsusilə də F.Volf və B.Niburun filoloji təhlil metodlarından istifadə edərək, mənbələrin təhlili üzrə üsullar sistemi işləyib hazırlamışdır. Müasirləri onu "Ranke metodu" adlandırırlar.

"Ranke metodunun" əsasları yuxarıda adını çəkdiyimiz "Ən yeni tarixçilərin tənqidinə dair" etüdü ilə artıq qoyulmuşdu. Burada Ranke öz əsərlərində istifadə etdiyi mənbələr və onlardan necə istifadə etməsindən bəhs etmişdi. Həmin mənbələrin arasında Yüksək İntibah dövrünün italyan siyasi mütəfəkkiri Françesko Qviççardini (1483-1540) və Romalı memuarist Paolo Covionun (1483-1552) əsərləri var idi. Ranke hər iki müəllifin məlumatlarını paralel olaraq tutuşdurmuş, lakin aralarındakı böyük ziddiyyətlərə görə həmin məlumatlarını uzlaşdırmaq mümkün olmamışdı. Belə olduqda Ranke tarixi həqiqəti müəyyən etmək üçün digər mənbələrin məlumatlarına əsaslanmışdı. Bu, "Ranke metodu"nun əsasını təşkil edir: o, hər bir mənbənin mənşəyini, mənbə müəllifinin səriştəliliyini, etibarlılıq dərəcəsini aydınlaşdırır, daha sonra isə keçmişin həqiqi mənzərəsini yaratmaq üçün istifadə olunan mənbələri müqayisə edirdi. "Renke metodu", daha dəqiq desək tarixi tənqid metodu sıfırdan yaranmasa da, elmdə bir kəşfi idi. Əvvəlki tarixçilər də bir neçə dəfə bu metoddan qeyri-iradi şəkildə, kor-koranə istifadə ediblər. "Renke isə, onu faktiki olaraq

qeyri-iradi, şüursuz tətbiqdən uzaqlaşdırdı, məntiqi düstur kimi ümumiləşdirdi və bundan sonra bütün tarixçilər nəslinə ötürə bildi” [11, s.166].

Leopold fon Rankenin 1825-ci ildə Berlin Universitetinə gəlişi ilə tarixi tənqidi akademik fənnə çevirdi. Onun universitet təcrübəsinə ilk dəfə olaraq tətbiq etdiyi seminarlar praktikası tarixi tənqid fənninin akademik tədrisinin əlverişli formasına çevrildi. Beləliklə, Ranke böyük bir məktəbin əsasını qoydu. Rankenin seminar fəaliyyəti və onun məktəbinin artan nüfuzu sayəsində tarixi tənqidin prinsipləri təkcə Almaniyada deyil, onun hüdudlarından kənarda da yayıldı. Bundan əlavə, Ranke arxiv materiallarını öyrənməyə başladı, onların keçmişi öyrənilməsi üçün böyük əhəmiyyətini üzə çıxardı və arxivlərdən istifadəyə başlandı. Tarixçilər o vaxtdan bəri öz fəaliyyətlərini arxivlərisiz təsəvvür etmirlər. Bütün bunlara görə, L.Ranke haqlı olaraq “tarixi tənqidin atası” adlandırılır.

**Tarixi həqiqətin təhrifi və onun bərpa edilməsi üsulları.** Mənbələrdə tarixi həqiqətin təhrif olunmasını aşkar etmək üçün tədqiqatçı təbii ki, təhrifin vasitələri və üsulları haqqında aydın təsəvvürə malik olmalıdır. Təhrifin əsas vasitə və üsullarına birbaşa yalan, faktların üzərində sükutla keçilməsi və uyğunluğun pozulması aiddir.

*Birbaşa yalan* – əsasən qəsdən və məqsədyönlü ola bilər. Mənbə ilə işləyən tarixçi düşünməlidir ki, onun müəllifini məqsədyönlü şəkildə yalan məlumat yazmağa hansı səbəblər sövq edə bilərdi: özünü və dostlarını, ailə üzvlərini, mənsub olduğu dövləti, cəmiyyəti mümkün qədər yaxşı təqdim etməkmi, düşmənləri ləkələməkmi, təbəəsi olduğu hökmdarı (monarxı), yaxud hakimiyyət başında duranları tərifləməklə praktiki qazanc əldə etməkmi, oxucuları razı salmaqmı və s. Bütün bunlarla yanaşı, mənbə müəllifi tarixi həqiqəti istəmədən, qeyri-iradi olaraq da təhrif edə bilərdi: o, yalan danışmağa məcbur edilən (məsələn, işgəncə altında) vəziyyətdə ola bilər; yaxud müşahidə etdiklərini dərk etmək üçün kifayət qədər biliyə malik olmaya bilər və s.

*Faktların üzərində sükutla keçilməsi* – bəzən mənbə müəllifləri onlara xoş olmayan faktları qeyd etmək istəmədikdə (bu faktlar tarix üçün nə qədər önəmli olsa da) onların üzərində sükutla keçməyə, onları mənbədə qeyd etməməyə üstünlük verirlər. Bu probelm hələ antik dövrlərdən mövcud olmuşdur. Təsadüfi deyildir ki, qədim Roma natiqi Mark Tulli Siseron (e.ə.106-43) deyirdi: “Tarixin birinci qanunu yalan danışmağa cəsarət etməmək, ikincisi isə, həqiqəti bütünlüklə, tam söyləməkdir” [10, s.206].Görkəmli rus yazıçısı Lev Tolstoy isə, əsərlərindən birinin epiqrafında yazırdı: Heç nəyi gizlətməyəcəm! Çünki, təkcə birbaşa yalan danışmamaq azdır, yalanın ən pis formalarından biri – susmaqdan qaçmaq lazımdır” [9, s.106]. Faktların üzərində sükutla keçilməsinə klassik nümunə kimi, məşhur fransız siyasətçisi diplomatı Taleyrandan (1754-1838) misal gətirmək olar. Belə ki, Taleyran Fransada Burbonların restavrasiyası dövründən sonra yazdığı “Memuarlar”ında özünün Böyük Fransa

inqilabındakı iştirakını xatırlamamağa, bu faktı gizlətməyə üstünlük verirdi. Yaxud, başqa bir nümunə: 1919-1939-cu illərdə Böyük Britaniyanın xarici siyasətinə dair diplomatik sənədlərin ingiliscə nəşrinin tərtibçiləri bilərəkdən Böyük Britaniyanın 1938-ci il Münhen müqaviləsində fəal iştirakı ilə bağlı bir sıra sənədləri onların arxivdə olmaması bəhanəsi ilə dərc etməmişdilər. Çünki bu sənədlər Britaniyanın hakim dairələrinin qarışmamaq siyasətindəki xoşagəlməz rolunu təsdiq edəcəkdi.

*Uyğunluğun pozulması* – tarixi həqiqət mənbədə uyğunluğun pozulması və ya ifadə olunan mənanın, kontekstin dəyişdirilməsi yolu ilə də təhrif edilə bilər. Bu baxımdan, bəzi mənbələr fərqli miqyaslardakı qədim coğrafi xəritələrə bənzəyir. Belə ki, bu xəritələrdə nəhəng bir qitə o zamanlardakı bilgisizlik üzündən az qala qəpik kimi, kiçik bir ada isə, xəritənin yarısını tutacaq formada təsvir edilirdi. Bunu belə bir nümunə ilə daha aydın başa düşmək olar. Belə ki, məsələn SSRİ liderləri N.Xruşşov və L.Brejnev hakimiyyəti dövründə onlar haqqında yazan bəzi memuarçılar Xruşşovun və Brejnevin Böyük vətən müharibəsinin iştirakçısı kimi rolunu əsassız olaraq şişirtmişdilər. Yaxud, İkinci Dünya müharibəsində əsaslı dönüşün başlanğıcı olan Stalinqrad döyüşünə Qərbdə çəkilmiş bəzi sənədli filmlərdə az diqqət yetirilməsi, yüzlərlə dəqiqəlik filmlərin hərbi əməliyyatların ikinci dərəcəli teatrlarına həsr olunması tamaşaçıda Stalinqrad döyüşünün müharibədəki payı və bütövlükdə Şərq (sovet-alman) cəbhəsindəki rolu haqqında yanlış təsəvvürlərə səbəb ola bilər. Halbuki, hər iki tərəfin ümumilikdə 2 milyondan çox canlı qüvvə itki verdiyi, 200 gün – gecə və gündüz davam etmiş Stalinqrad döyüşü nəinki İkinci Dünya müharibəsinin, bütövlükdə bəşər tarixinin ən qanlı vuruşması olmuşdur [3, s.199].

**Mənbədən təhriflərin aradan qaldırılması metodları.** Mənbənin etibarlılığını yoxlamaq, tarixi həqiqətin bərpa edilməsi və təhrifin aradan qaldırılması metodları aşağıdakılardır:

1) Bu, mənbənin məzmununun, içərisindəki ziddiyyətlərin aydınlaşdırılması ilə məntiqi təhlili ola bilər. Məsələn, alman aviakonstruktoru Huqo Ekkenerin (1868-1954) Rusiya ilə bağlı bir sıra mənfi fikirləri tarixi həqiqət kimi qəbul edilə bilməz, çünki onun öz sözlərinə görə o, heç vaxt Rusiyada olmamış, yalnız bir dəfə onun səması üzərindən uçmuşdur [1].

2) Mənbənin müəllifinin nə dərəcədə doğru olduğunu yoxlamaq üçün onun sözlərini öz fəaliyyəti ilə müqayisə etmək məqsədəuyğundur. Məsələn, İkinci Dünya müharibəsindən faşist dövlətlərindəki hökumətlərin sülhsevər bəyanatlarını onların təcavüzkar hərəkətləri ilə müqayisə etmək olar.

3) Tarixi həqiqəti təsbit etməyin əsas metodu həm eyni tipli (məsələn, müxtəlif siyasi cərəyanlara aid qəzetlər), həm də müxtəlif tipli (siyasi xadimlərin xatirələri, məktubları) mənbələrin tutuşdurulması və müqayisəsidir. Məsələn, gənc almanları militarist ruhda tərbiyəsi məqsədilə general-feldmarşal

Paul fon Hindenburq sonradan öz xatirələrində 1866-cı il Sadova döyüşündəki iştirakını cəsarətli tonlarla belə nəql edirdi: “Başımdakı yüngül yaradan qan axaraq, ağır-ağır nəfəs alaraq düşməndən əsir götürülmüş topların arasında dayananmaq qürurverici bir hiss idi”. Əslində isə, o zaman cəmi 19 yaşı olan gənc leytenant P.Hindenburq o zaman anasına yazdığı məktubunda həmin fraqmenti belə qeyd edirdi:“ Mən huşsuz vəziyyətdə qalmışdım və adamlar məni ölmüş hesab edərək əhatəyə almışdı” [2, s.240].

Beləliklə, tarixi həqiqəti üzə çıxaran tarixçinin fəaliyyəti məhkəmə prosesində iştirak edənlərdən yalnız birinin ərizəsi əsasında qərar çıxara bilməyən, iddiaçı, müttəhim və şahidləri dinləyərək qərar çıxarmalı olan hakimin, yaxud istintaq aparan müstəntiqin işini xatırladır. Romalı hakimlər atalar sözünə çevrilmiş bu prinsipə yaxşı bələd idilər: “Audiatur et altera pars!” (“Qarşı tərəf eşidilsin!” və ya Qarşı tərəfi dinlə!). Buna görə, də tarixçi tədqiqat aparan zaman ən müxtəlif mənbələrin, şahidlərin məlumatlarını dinləməli, onları müqayisə etdikdən sonra nəticə çıxarmalıdır. Müqayisəli tarixi metod tarix elminin metodologiyasında ən mühüm metodlardan biridir.

**Ədəbiyyat**


1. Eckener H. Im Zeppelin über Länder und Meere: Erlebnisse und Erinnerungen. Flensburg, „Wolff Verlagshaus“, 1949, 566 s.
2. Ludwig E. Hindenburg und die Sage von der Deutschen Republik. Amsterdam, „Querido“, 1935, 378 s.
3. Məmmədli B.A. Stalinqrad döyüşü: tarixin ən qanlı savaşı və II dünya müharibəsində əsaslı dönüşün başlanğıcı // Tarix və onun problemləri, №4, 2021. s. 199-207.
4. Бокль Г.Т. История цивилизации в Англии. В 2 т. Том 1.Санкт-Петербург, «Типография Эрлих», 1896, 384 с.
5. РусинаЮ.А. Методология источниковедения: учебное пособие. Екатеринбург, «Изд-во Уральского университета», 2015, 204 с.
6. Русские писатели о литературном труде (XVIII – XX). В 4 т. Том 1. Ленинград, «Советский писатель», 1954, 757 с.
7. Русские писатели о литературном труде (XVIII – XX). В 4 т. Том 2. Ленинград, «Советский писатель», 1955, 817 с.
8. Соловьева Г.Г. О роли сомнения в познании. Алма-Ата, «Наука», 1976, 142 с.
9. Толстой Л.Н. Собрание сочинений. В 22 томах. Т. 21. Москва, «Художественная литература», 1984, 621 с.
10. Философские проблемы исторической науки. Москва, «Наука», 1969, 319 с.
11. Щепкин Е.Н. Автобиография Ранке // Русская мысль, №8, 1893, с.149-169.

# İRƏVAN QUBERNİYASINDA BAĞÇILIQ VƏ BOSTANÇILIĞIN TARİXİNDƏN (XIX ƏSRİN İKİNCİ YARISI)

**Elçin Qarayev**
AMEA A.Bakıxanov adına Tarix İnstitutu
E-mail: elchin_garayev@mail.ru

***Açar sözlər:*** *İrəvan, quberniya, bağ, bostan, meyvə, üzüm, tərəvəz;*

*Məqalə İrəvan quberniyasında bağçılıq və bostançılığın tarixinə həsr olunmuşdur. Meyvə və bostan bitkilərinin becərilməsi quberniyanın kənd təsərrüfatında əsas yeri tuturdu. İrəvan müxtəlif meyvələri və üzümləri ilə təkcə Azərbaycanda deyil, Cənubi Qafqazda da məşhur idi. Yığılan meyvə və üzümün bir hissəsi yerli ehtiyaclar üçün istifadə olunur, bir hissəsi xaricə ixrac olunurdu. Bağlarda müxtəlif növ bitkilər yetişdirilirdi. İrəvan meyvələrdən şaftalının, əriyin, almanın, gilasın, armudun, cevizin, iydənin müxtəlif növləri var idi. İrəvan üzümü xüsusilə məşhur idi. Üzümün 40-dan çox növü var idi və ondan müxtəlif növ şərab hazırlanırdı. Bu şərablar xaricə ixrac olunurdu. Bostan birkilərindən qarpızın, yemişin də müxtəlif növləri var idi. Bostan bitkiləri əsasən yerli tələbata sərf olunurdu.*

## ИЗ ИСТОРИИ САДОВОДСТВА И ОГОРОДНИЧЕСТВА ИРЕВАНСКОЙ ГУБЕРНИИ (ВТОРАЯ ПОЛОВИНА XIX ВЕКА)

**Эльчин Гараев**

***Ключевые слова:*** *Иреван, губерния, сад, огород, фрукты, виноград, овощи*

*Статья посвящена истории садоводства и огородничества Иреванской губернии. Выращивание фруктов и огородные растение сыграло ключевую роль в сельском хозяйстве губернии. Ереван славился не только в Азербайджане, но и на Южном Кавказе своими разнообразными фруктами и виноградом. Часть собранных фруктов и винограда использовалась для местных нужд, часть шла на экспорт. В садах выращивали разные виды растений. Среди фруктов Иревана были персики, абрикосы, яблоки, вишни, груши и грецкие орехи в разной степени. Был популярен иреванский виноград. Существовало более 40 сортов винограда, из них делали различные вино. Эти вина экспортировались за границу. Среди огородные растении были разные*

*виды арбузов и дыни. Огородные растении в основном использовались для местных нужд.*

## FROM THE HİSTORY OF GARDENİNG AND HORTİCULTURE İN THE IRAVAN PROVİNCE (SECOND HALF OF THE 19TH CENTURY)

**Elchin Qarayev**

***Key words:*** *Iravan, province, garden, kitchen-garden, fruit, grapes, vegetables*

*The article is devoted to the history of gardening and horticulture in the Iravan province. The cultivation of fruits and garden plants played a key role in the agriculture of the province. Yerevan was famous not only in Azerbaijan, but also in the South Caucasus for its various fruits and grapes. Part of the harvested fruits and grapes was used for local needs, part was exported. Various types of plants were grown in the gardens. Among the fruits of Irevan were peaches, apricots, apples, cherries, pears and walnuts in varying degrees. Iravan grapes were popular. There were more than 40 varieties of grapes, various wines were made from them. These wines were exported abroad. Among the garden plants were different types of watermelons and melons. Garden plants were mainly used for local needs.*

İrəvan quberniyasının kənd təsərrüfatında bağçılıq və bostançılıq xüsusi rol oynamışdır. Əlverişli iqlim şəraiti burada meyvəçiliyin inkişafına səbəb olmuşdur. İrəvan quberniyasının aran, suvarma üçün əlverişli yerlərində meyvəçilik kənd təsərrüfatının əsas sahələrindən biri idi. Quberniya başdan-başa müxtəlif meyvə bağları ilə əhatə olunmuşdu. XIX əsrin 90-cı illərin əvvəllərində İrəvanda olan səyyah X.F.B.Linç bölgənin meyvə bağlarına valeh olaraq yazırdı ki, "Meyvə bağları ideal formada və cürbəcür rəngli meyvələrlə örtülmüşdür. Biz böyük və şəffaf rəngdə budaqlardan sallanan şaftalılardan, yanında budaqlarda ağırlıqdan əyilmiş alma və armuddan, bol qozdan və tut ağaclarından ləzzət alırdıq. Qısa üzüm tənəklərindən bol üzümlər sallanırdı" [1, s. 186]. Daha sonra meyvə növlərini tərifləyən səyyah qeyd edirdi ki, "İrəvan meyvələrinin dünyada demək olar ki, rəqabəti yox idi..." [1,s.295]. İrəvan müəllimlər semnariyasının müəllimi Devitski 1894-cı ilin yayında İrəvan quberniysına səyahət edərkən öz gündəliyində qeyd etmişdi ki, "yolların sağ və solunda palçıq hasarlarla bölünmüş böyük meyvə bağları, üzümlüklər, bostanlar uzanırdı..." [2, s.80]. Bağlar əsasən, Araz çayının vadisində, dağların ətəklərində və iri çaylardan çəkilmiş arxların, kanalların kənarında xüsusilə bol idi. Ümumiyyətlə, İrəvan quberniyasında meyvəçilik güclü inkişaf etmişdi. Məlumata görə, quberniyada ən

çox meyvəçiliyin inkişaf etdiyi yer Ordubad şəhəri və onun ətraf kəndləri idi [3, s.181; 4, s.259].

İrəvan quberniyasında bağlar üç qrupa bölünmüşdü. Birinci qrup həyətyanı bağ, yaxud bağça adlanırdı. Adətən sahəsi az olan, meyvə bağları adlandırılan bu sahələr hər bir evin ətrafında yerləşirdi. İkinci qrupa şəhərətrafı iri bağlar daxil idi ki, əhalinin məskunlaşmadığı yerlərdə salınmışdı. Üçüncü qrupa üzüm bağları daxil idi [5, s.24; 6, s.55-118; 3, s.181; 4, s.258].

Azərbaycanın digər bölgələrində olduğu kimi, İrəvan quberniyasında da bağlar şəxsi və dövlətə yəni xəzinəyə məxsus idi. Qeyd etmək lazımdır ki, işğaldan sonra xəzinənin ixtiyarına keçən bağlardan gəlir azalmış, baxımsızlıq üzündən pis vəziyyətə düşmüşdü. Bundan əlavə, xəzinə bağlarına təyin olunan nəzarətçilərin vəzifələrindən sui-istifadə etməsi ilə əlaqədar olaraq bu sahədən gələn gəlir ildən ilə azalırdı. 1837-ci ildə çar I Nikolay İrəvanda olarkən vəziyyətlə tanış olduqdan sonra Zəngi çayının sağ tərəfində yerləşən, vaxtı ilə sərdar Hüseynqulu xana məxsus "Sərdar bağı"ndan başqa xəzinəyə məxsus bütün bağların xüsusi haqq müqabilində icarəyə verilməsi haqqında göstəriş vermişdi. Bundan sonra xəzinəyə məxsus bağlar icarə müqabilində şəxsi adamların nəzarətinə keçmişdi. 1843-cü ildən xəzinəyə məxsus doqquz bağ ayrı-ayrı şəxslərə müəyyən haqq müqavilində icarəyə verilmişdi [7, s.109]. 1867-ci ildə isə Sərdar və ingilis bağı adlanan iki bağ da 24 il müddətinə müəyyən şərtlərlə icarəyə verilmişdi [7, s.112-114].

1846-cı ildən Cənubi Qafqazın iri şəhərlərində, o cümlədən İrəvanda xəzinəyə məxsus bağlara baxmaq üçün xüsusi dövlət təsisatı yaradılmışdı. Hər bir bağa baxmaq üçün dövlət tərəfindən bağban, gözətçi və bağları səliqəyə salmaq üçün isə lazımi qədər işçi qüvvəsi yeri açılmışdı [8, s.1852]. Bundan əlavə, 1852-ci ildə İrəvan şəhərində bağları şəhər gəlirləri hesabına saxlamaq haqqında xüsusi göstəriş verilmişdi [8, s.1852].

İrəvan quberniyasının meyvə bağlarında müxtəlif meyvələrin cürbəcür növlərinə rast gəlmək olardı. Bu meyvə bağlarında alma, şaftalı, ərik, gavalı, alça, gilas, xurma, heyva, əngir, qoz, nar, tut, albalı, iydə, zoğal, zirinc, ceviz və digər yerli meyvələr yetişdirilirdi. Bəzi meyvələr müxtəlif növləri ilə məşhur idi. Məsələn, şaftalının 4-şafran, yarma, kərdi, şirəli, alçanın 7-isfahan, təbriz, qırmızı, sulatan, xarci, çəyirdəkdən çıxma, göyçə, gavalının 6-vəziri, xatun barmağı, sarı yaxud albuxara, daş və yaxud qara, göy, cancur, əriyin 12-badamı, tez yetişən, ağca nabat, göyçə nabat, xosrof şah, təbərzə, ağ, Ordubad, xarci, acı, almanın 14-cənnət, girdə-şirin, hacı Hüseynəli, vahab, uzun sap, akska, kərbalayı cəfər, qara, kalata, kalamfir, halal, söyüt, eşşək, uzunnuz; gilasın 4-sarı, tezyetişən, qara, qırmızı, armudun 5-malaça, bildirçin budu, hacımehdi, quş, rus, heyvanın 3-ordubad, çuvaklı, turş, tutun 5-badana, çardaqlı, şahtut, xartut, cır tut, cevüzün 3-kətanköynək, sucuq cövüz, girgit, iydənin isə innabi, təbriz və yaxud barmaq iydə növləri vardı [6, s.79-118; 5, s. 26-28].

İrəvan quberniyasının bəzi meyvələri növünə, çeşidinə, böyüklüyünə, dadına, rənginə və ətrinə görə bütün Cənubi Qafqazda məşhur idi. Bunlardan Ordubad əriyini və İrəvan şaftalısını xüsusi qeyd etmək lazımdır. Bu meyvələr Tiflisə ixrac olunurdu [3, s.181].

İrəvan quberniyası öz üzümü ilə daha çox məşhur olmuşdur. İrəvan üzümü keyfiyyət və kəmiyyətinə görə digər meyvələri geridə qoymuşdu. Burada 40 növdə üzüm yetişdirilirdi. Bunlardan ağagörməz, xəlilli (tez yetişən, ağ və uzunömürlü), dayı yeyən, rişi-baba (uzun ömürlr, ağ və böyük), təbərzə (göyümtül, yumuru), kərim (nabat) xarci, ət xərci, əsgəri (ağ və kiçik), kişmişi, kişmişi-badana (ağ və kiik), qırmızı kişmişi, çəyirdəkli kişmişi, balaca kişmişi, misqalı (çox böyük, yumuru və ağ, xanım göbəyi, keçiməməsi, hüseyni, haçabaşı (üzüngmürlü, solğun göyümtül), əlvan-qara, anbarı, şirşirə, uzundərə və digər növlərini xüsusi qeyd etmək lazımdır [6, s.55-79; 4, s.261].

Üzüm tənəklərinin hazırlanması və suvarılması haqqında da mənbələrdə məlumatlara rast gəlmək mümkündür. Tənəklər ildə bir dəfə mart ayında budanır, bir, iki və yaxud üç dəfə dəmir bellə dibi bellənirdi. Oktyabrın axırında, üzüm yığıldıqdan sonra üzüm tənəkləri şaxtadan qorunmaq üçün torpağa basdırılırdı. Martın əvvəlində tənəklər torpaqdan çıxarılır və ondan sonra budama başlayırdı. İrəvanda üzüm bağları yayda 4-5 dəfə suvarılırdı [4, s.261-262].

Mənbələrdə İrəvan quberniyası üzrə həm üzüm, həm də meyvə bağlarının sayı haqqında məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1870-ci ilin sonlarında İrəvan quberniyasının 4 qəzasında (İrəvan, Naxçıvan, Üçmüəzzin və Aleksandropol) ümümi sahəsi 8458 desyatinə (1 desyatin-1,092 hektar) (5583 desyatin üzüm, 2875 digər meyvə bağları) bərabər olan 24481 bağ qeydə alınmışdır. Məlumata görə, üzüm bağlarından 984172 pud (1 pud-16 kq) tər üzüm, 15828 pud isə digər meyvə növləri yığılmışdır. Quberniyada bir desyatin üzüm sahəsindən 360-450 pud arasında üzüm əldə edilmişdi [4, s.259, 262, 345-346; 3, s.181-183; 9, s.866].

Sonrakı illərdə də, İrəvan quberniyasında yığılan üzüm və meyvənin miqdarı haqqında məlumatlara rast gəlmək mümkündür. Məsələn, 1882-ci ildə İrəvan quberniyasında 1557950, 1886-cı ildə 1100000, 1887-ci ildə isə 1690000 pud üzüm yığılmışdır [10, s.291; 11, s.92; 12, s.38].

Mənbələrdə İrəvan quberniyasında XIX əsrin 90-cı illərində yığılan meyvə və üzüm haqqında daha ətraflı məlumatlar öz əksini tapmışdır. Məlumata görə, 1891-ci ildə 7226 desyatin meyvə bağlarından 330000 pud müxtəlif növ meyvə, 6206 desyatin üzüm bağlarından 1329846 pud üzüm, 1892-ci ildə 137350 pud müxtəlif növ meyvə, 6203 desyatin üzüm bağlarından 1119334 pud üzüm, 1993-cü ildə 8903 desyatin meyvə və üzüm bağlarından 80000 pud müxtəlif növ meyvə, 1986597 pud üzüm, 1994-cü ildə 8931 desyatin meyvə və üzüm bağlarından 85000 pud müxtəlif növ meyvə, 1507256 pud üzüm, 1895-ci ildə 9583 desyatin meyvə və üzüm bağlarından 80000 pud müxtəlif növ meyvə,

1053373 pud üzüm, 1896-cı ildə 10061 desyatin meyvə və üzüm bağlarından 120000 pud müxtəlif növ meyvə, 840692 pud üzüm, 1897-ci ildə 10083 desyatin meyvə və üzüm bağlarından (bu bağ sahələrinin 8657,33 desyatini üzüm bağları, 1586 desyatini isə digər növ meyvə bağları idi) 51200 pud müxtəlif növ meyvə, 1260534 pud üzüm, 1898-ci ildə 20000 desyatin meyvə və üzüm bağlarından 104764 pud müxtəlif növ meyvə, 2015227 pud üzüm, 1899-cu ildə isə 12376 desyatin meyvə və üzüm bağlarından 114631 pud müxtəlif növ meyvə, 1765792 pud üzüm yığılmışdır [13, s.7-8; 14, s.5-6; 15, 6; 16, s.3; 17, s.3; 18, s.3; 19, s.5-6; 20, s.3-4; 21, s.3-4; 22, s.94-95].

1900-cu ildə İrəvan quberniyasında 10298 desyatin üzüm, 2868 deyatin digər meyvə bağları qeydə alınmışdır. Həmin il 2664587 pud üzüm yığılmış, üzümün 50 $^{0}/_{0}$ çaxır, 20 $^{0}/_{0}$ spirt hazırlanmasına, 30 $^{0}/_{0}$-i isə əhalinin yeməyinə sərf olunmuşdur [23, s.13].

Yığılan müxtəlif növ meyvə və üzümün bir hissəsi yerli tələbata, bir hissəsi şərab hazırlanmasına, digər hissəsi isə qonşu dövlət və quberniyalara ixrac edilirdi. XIX əsrin 70-ci illərində İrəvan quberniyasında yığılan meyvələrin sərf olunması və satış qiymətləri haqqında daha ətraflı məlumatlar verilmişdir. Məlumatda göstərilir ki, quberniya üzrə bu meyvələrin $^{1}/_{5}$ və yaxud $^{1}/_{4}$ hissəsi xammal şəklində yerli əhalinin tələbatına və eyni zamanda şərab hazırlanmasına sərf edilmişdi. Meyvələrin $^{2}/_{5}$ hissəsi tər şəklində quberniyanın meyvə bağları olmayan Yenibəyazid, Aleksandropol qəzalarının dağ kəndlərində satılır və Tiflisə ixrac olunurdu. Meyvənin qalan $^{2}/_{5}$ hissəsi isə qurudulurdu. Həmin il yerlərdə tər şaftalı və almanın 1 pudu 70 qəpiyə, armud və heyva 1 rubla, vişnə və gilas 60 qəpik, alça və gavalı 40 qəpiyə, qurudulmuş halda əriyin 1 pudu 1 rubl 20 qəpiyə, şaftalı, vişnə və qara gavalı 2 rubla, alça 1 rubla, qoz 1 rubl 50 qəpiyə, tut isə 80 qəpiyə satılmışdı. Beləliklə, yığılan meyvənin $^{2}/_{5}$ hissəsi əhalinin öz xeyrinə sərf olunurdu, $^{3}/_{5}$ hissəsi isə satılır və digər kənd təsərrüfatı məhsullarına dəyişdirilirdi [3, s.182; 9, s.866].

Qeyd edildiyi kimi İrəvan üzümündən müxtəlif növ əla şərab hazırlanırdı. Yığılan üzümün $^{2}/_{3}$-i hissəsi şərab hazırlanmasına, $^{1}/_{3}$ hisəsəsi isə xalqın tələbatına sərf olunurdu. 1870-ci ildə orta qiymətlə şərab üçün əhəmiyyətli olan üzümün 1 xalvarı (30 pud) 8-10 rubl, şirniyyan üçün isə 15-25 rubl arasında satılmışdı. Qeyd etmək lazımdır ki, 10 pud üzümdən 3 pud şərab hazırlanırdı. 1870-ci il 656114 pud üzümdən 479585 vedrə şərab hazırlanmışdır. Həmin il əldə olunan şərabdan 23979 vedrə daşınarkən itkiyə getmiş, qalan 455606 vedrə isə quberniya daxilində istifadə olunmuşdur [4, s.262; 3, s.183].

1870-ci ildə əldə olunan üzümdən hazırlanan şərabın miqdarı digər illərə nisbətən az hesab olunurdu. Mənbənin verdiyi məlumata görə, 10 il əvvəl üzümdən o qədər çox şərab hazırlanmışdı ki, həmin şərabın müəyyən qədəri Tiflisə və digər qonşu dövlətlərə ixrac olunmuş, şərabın 1 batmanı 25-50 qəpik arasında satılmışdı. 1870-ci ildə isə şərabın topdan satış qiyməti 40 qəpikdən 1

rubl arasında olmuşdur [3, s.183]. Quberniyada İrəvan şəhərində Dəlmə, İrəvan qəzasında Dyüqlin, Naxçıvan qəzasında Əylisli, Üçmüəzzin qəzasında isə Əştərək şərabı ən keyfiyyətli şərab hesab olunurdu [3, s.183; 9, s.866].

1887-ci ildə yığılan üzümdən 262000 vedrə çaxır, 70000 vedrə araq hasil edilmişdir. Hasil edilmiş şərabın satışından 300 min rubl mənfəət götürülmüşdür [11, s.92; 12, s.38].

İrəvan quberniyasında digər meyvələrdən və taxıl məhsullarından da şərab hazırlanırdı. Quberniyanın meyvəçiliklə bol olan İrəvan, Naxçıvan və Üçmüəzzin qəzalarının aran yerlərində əhali əsasən meyvədən şərab hazırlayırdılar. Məsələn, 1870-ci ildə həmin qəzalarda meyvələrdən 50000, taxıldan isə 10000 vedrə şərab hazırlanmışdı. Meyvədən hazırlanan şərabın 30000 vedrəsi Yenibəyazid və Aleksandropol qəzalarında satılmışdı. Qeyd etmək lazımdır ki, taxıldan hazırlanan şərab həmin il 3 rubl 60 qəpikdən 4 rubl arasında, meyvə şərabı isə ondan bir qədər çox qiymətə satılmışdır [3, s.184; 9, s.866]. 1897-ci ildə 1 vedrə çaxır 1-2 rubl arasında, 1 vedrə araq isə 4-6 rubl arasında, 1898-ci ildə isə 1 vedrə çaxır 1 rubl 20 qəpikdən 3 rubl, spirt isə 3-7 rubl arasında satılmışdır. Yerli əhali 1897-ci ildə üzüm və meyvənin satışından 700000, 1898-ci ildə 1080000, 1899-ci ildə isə 1948588 rubl ümumi qazanc əldə etmişdir [19, 5-6; 20, s.3].

İrəvan üzümündən hazırlanmış konyak daha məşhur olmuşdur. İrəvan konyakları Rusiyaya, Odessaya, Riqaya, Varşavaya və digər yerlərə ixrac edililmiş və ondan külli miqdarda qazanc əldə olunmuşdur [17, s.3].

XIX əsrin sonlarında digər meymələrin satış qiymətləri belə idi: 1 pud alma1,7, 1 pud armud 2, 1pud ərik 3, 1 pud şaftalı1,1, 1 pud gavalı 2,7, 1 pud albalı 1,3, üzüm isə 40-85 qəpik arasında satılmışdır [14, s.5].

İrəvan quberniyasında bostançılıq da inkişaf etmişdi. Yerli əhali yeməklərin hazırlanmasında müxtəlif bostan bitkilərindən və göyərtilərdən geniş istifadə edirdilər. Tərəvəz bitkiləri həm dağlıq, həm də düzənlik ərazilərdə yetişdirilirdi. Quberniyada tərəvəz əkilən sahə 3 qismə bölünürdü. Birinci qismə daxil olan daha böyük təsərrüfat sahəsi idi. Bostan adlanan bu sahə kənddən və yaşayış yerlərindən 3, 5 və yaxud 10 verst aralıda yerləşirdi. Bostanlarda qarpız, yemiş, xiyar və s. əkilirdi və bu bostan bitkiləri satış üçün nəzərdə tutulurdu. İkinci qismə daxil olan bostan daha kiçik idi və kəndlərin kənarında yerləşirdi. Burada əkilən tərəvəz yerli əhalinin öz tələbatına sərf edilirdi. Bu sahədə çuğundur, kələm, xiyar, pamidor, yerkökü, şalğam, turp, paxla, badımcan, noxud, mərci, qarğıdalı, istiot və s. əkilrdi. Üçüncü qism bostan yaşayış evlərinin yaxınlığında yerləşirdi. Bu bostanlar çox xırda idi. Burada müxtəlif göylərə-soğan, sarımsaq, tərxun, keşniş, nanə, gahı, vəzəri və s. rast gəlmək olardı [3, s.185].

İrəvan quberniyasında bostan bitkilərindən bəzilərinin müxtəlif növləri olmuşdu. Məsələn, yemiş-şallax, dostucan, carcar və tutma, qarpız- xuni, ağabəy,

qurbanağası, həsənbəy, abiax və s. növləri ilə məşhur idi [5, s.28-30].Yemişin ilk üç növü bir o qədər də zəhmət tələb etmirdi və tez yetişirdi. Bu növlər bir o qədər də gəlir gətirmirdi. Lakin yemişin tutma növü yerli əhali tərəfindən daha yüksək qiymətləndirilirdi. Tutma özü bir neçə növdən ibarət idi ki, bu növ digər növlərdən daha keyfiyyətli hesab olunurdu. Tutmanın nadirxan, mianbab, isfahan, xameyar, ağcanabat, göycənabat, yaycı və kalamqaş növləri vardı. Yemişin bu növünün yetişdirilməsi daha çətin başa gəlirdi və daha gəlirli sayılırdı. Hətta məlumata görə, müstəqil xanlıq dövründə üzüm oğurluğuna nisbətən yemişin tutma növünün oğurluğu hakimiyyət orqanları tərədində daha sərt qayda ilə cəzalandırılırdı [5, s.28-29].

İrəvan quberniyası üzrə əkilən bostanların sahəsi və yığılan bostan bitkiləri haqqında mənbələrdə də məlumatlara rast gəlmək mümükündür. 1870-ci ildə İrəvan qəzasında düzənlik ərazilərdə 1922 desyatin, dağlıq ərazilərində 158 desyatin, Naxçıvan quberniyasında düzənlik ərazilərdə 946 desyatin, dağlıq ərazilərində 350 desyatin, Üçmiəzzin qəzasının düzənlik ərazilərində 1187 desyatin, dağlıq ərazilərində 400 desyatin, Aleksandropol qəzasında düzənlikdə 227 desyatin, dağlıq ərazilərində 222 desyatin Yenibəyazid qəzasında bütünlüklə 364 desyatin əraziyə bostan bitkiləri əkilmişdir. Quberniya üzrə isə ümumi bostanların tutduğu sahə 5776 desyatinə bərabər olmuş və həmin il təxminən 1000000 puddan çox bostan bitkiləri yığılmışdır [3, s.185]. Lakin XIX əsrin ikinci yarısına aid sonrakı məlumatlarda bostan bitkilərinin növləri və bu bitkilərin İrəvan quberniyası əhalisinin yeməklərində əsas rol oynamasından bəhs etsə də, yığılan bostan bitkilərinin miqdarı haqqında məlumata rast gəlmədik və bostan bitkilərinin yalnız yerli əhalinin tələbatına sərf edildiyi qeyd olunmuşdu [5, s.28-32; 18, s.3; 19, s.6; 20, s.3; 22, s.95].

Beləliklə, İrəvan Azərbaycanda kənd təsərrüfatının bağçılıq və bostançılıq sahələri üzrə inkişaf etmiş quberniyalarından biri idi. Hətta quberniya meyvənin və üzümün bəzi növlərinə görə Cənubi Qafqazda daha məşhur olmuş, həm yerli əhalinin tələbatına sərf olunmuş, həm də qonşu quberniya və dövlətlərə ixrac edilmişdir. Bostan bitkiləri isə yalnız yerli əhalinin tələbatını ödəmişdir.

## Ədəbiyyat

1. Линч Х.Ф.Б. Армения. Путевые очерки этюды. В 2-х томах. Т.1. Тифлис, 1910.
2. Сборник материалов для описания местностей и племен Кавказа, выпуск, 21, Тифлис, 1896.
3. Сборник сведений о Кавказе, т. II. Тифлис, 1872.
4. Сборник сведений о Кавказе, т. III. Тифлис, 1875.

5. Сборник материалов для описания местностей и племен Кавказа, выпуск, 1, Тифлис, 1881.
6. Сборник материалов для описания местностей и племен Кавказа, выпуск, 22, Тифлис, 1897.
7. Развитие Еревана после присоединение Восточной Армении к России. Сборник документов. Ереван, 1978.
8. АКАК. Т.XI, Тифлис, 1888.
9. Словарь Российской империи, т.V. СПб, 1885.
10. Кавказский календарь на 1883 г, отдел 3. Тифлис, 1882.
11. Кавказский календарь на 1888 г. Тифлис, 1887.
12. Кавказский календарь на 1890 г. Тифлис, 1889.
13. Обзор Эриванской губернии за 1891, Эриван, 1892.
14. Обзор Эриванской губернии за 1892, Эриван, 1893.
15. Обзор Эриванской губернии за 1893, Эриван, 1894.
16. Обзор Эриванской губернии за 1894, Эриван, 1895.
17. Обзор Эриванской губернии за 1895, Эриван, 1896.
18. Обзор Эриванской губернии за 1896, Эриван, 1897.
19. Обзор Эриванской губернии за 1897, Эриван, 1898.
20. Обзор Эриванской губернии за 1898, Эриван, 1899.
21. Обзор Эриванской губернии за 1899, Эриван, 1900.
22. Сборник статистических данных в пяти губерниях Кавказского края. Тифлис, 1899.
23. Эициклопедический словарь Брокгауза и Ефрона:-СПб, т.82, 1902.

# ШАМШАДИЛЬСКИЙ СУЛТАНАТ

**Эльмира Мамедова**
**Азербайджанский Государственный**
**Педагогический Университет suleymanova.elmira1954@mail.ru**

***Ключевые слова:****Зегам, Зулькадар, Шамшадиль, Борчалы, Газах, султанат*

*В статье на истории Шамшадильского султаната, существующего в системе феодально-раздробленного Азербайджана во второй половине XVIII века, исследуется территория, население, язык, правящие династии мусульманского феодального владения. Материалы анализа указывают на принадлежность территории султаната тюркам-огузам еще у истоков цивилизации. Территория султаната охватывала современные Шамкирский, Кедабекский, половину Таузского районов Азербайджанской Республики, обширные пастбища Мургуз и Джейранчел Грузинской Республики и административно-территориальные единицы, как Шамшадинский район, с центром в городе Иджеван и городами Дилижан, Берд, Ноемберян, участки Гейча и Гарагоюнлу, разделенные между пятью районами - Чемберекским, Басаркечарским, Ашагы Каранлыкским, Кеварским и Еленовскимна территории современной Армении. Анализ исторических фактов, документальных источников, исторических исследований, а также названий топонимов и этнонимов, позволили установить, что на территории Шамшадильского султаната проживало смешанное христианско-мусульманское население с абсолютным большинством тюрков. Языком межобщения был тюркский язык. Христианскоенаселениепредставлялипотомкиалбанскиххристиан.*

## ŞƏMŞƏDDİL SULTANLIĞI

**Elmira Məmmədova**

***Açar sözlər:*** *Zəqam, Zülkadar, Şəmşəddil, Borçalı, Qazax, sultanlıq*

*Məqalədə XVIII əsrin ikinci yarısında Azərbaycanın feodal-pərakəndə dövlətçılık sistemində mövcüd olmuş müsəlman feodal mülküŞəmşəddil sultanlığının ərazisi, əhalisi, dil və idarə edən sülalələri öyrənilir. Materialların analizi qöstərir ki, sultanlığın ərazisi insan tarixinin qədim astanasından başlayaraq oğuz türklərə məhsus idi. Sultanlığın ərazisi Azərbaycan*

*Respublikasının Tovuz rayonun yarısı, indiki Şəmkir və Qədəbəy rayonları, Gürcüstan Respublikasının Murquz və Ceyrançöl yaylaqları, Ermənistan Respulikasının mərkəzi İrəvan şəhəri ilə Şəmşəddil rayonu və Dilican, Berd, Noyamberən şəhərləri, Çəmbərək, Basarkeçər, Aşağı Qaranlıqlı, Kevar, Yelenovsk rayonlarına bölünən Göyçə və Qaraqoyunlu sahələri əhatə edirdi.*

*Tarixi faktların, rəsmi sənədli mənbələrin,tarixi tədqiqatların, həmcinin toponim və etnonimlərin adların analizi qöstərir ki, Şəmşəddil sultanlığın ərazisində xristian-müsəlman əhalisi yaşayıb, lakin türk tayfaları çoxluq təşkil edirdi. Sultanlığın ərazisində ümumi danışıq dili türk dili idi. Xristian əhalisi alban tayfaların əjdadları idi.*

## SHAMSHADİL SULTANATE

**Elmira Mamedova**

***Keywords:*** *Zegam, Zulkadar, Shamshadil, Borchaly, Gazakh, Sultanate.*

*The article is about the history of the Shamshadil Sultanate, which existed in the system of feudal fragmented Azerbaijan in the second half of the 18th century, examines the territory, population, language, ruling dynasties of the Muslim feudal domain. The materials of the analysis indicate that the territory of the sultanate belonged to the Oghuz Turks even at the origins of civilization. The territory of the sultanate covered the modern Shamkir, Gadabay, half of the Tauz regions of the Republic of Azerbaijan, the vast pastures of Murguz and Jeyranchel of the Georgian Republic, and administrative-territorial units, such as the Shamshadi region, with a center in the city of Ijevan and the cities of Dilijan, Berd, Noyemberyan, sections of Goycha and Garagoyunlu, separated between five districts - Chemberek, Basarkechar, AshagiKaranlyk, Kevar and Yelenovsky on the territory of modern Armenia. An analysis of historical facts, documentary sources, historical research, as well as the names of toponyms and ethnonyms, made it possible to establish that a mixed Christian-Muslim population lived on the territory of the Shamshadil Sultanate with an absolute majority of the Turks. The language of communication was the Turkic language. The Christian population was represented by the descendants of Albanian Christians.*

Шамшадильский султанат располагался в бассейне рек Зегам и Агстафа, а также территории к западу от них. Зегамчай начинается с истоков, где сливаются реки Шекербей и Четиндере у северных подножий горной цепи Шахдага и отсюда, протягиваясь длиною в 90 км, и, занимая площадь 942 кв км, впадает в правый берег реки Куры.Река Агстафа, истоки которой начинаются на северо-западном склоне одной из вершин

Памбакского хребта горы Тежлер, протяженностью 133 км и площадью бассейна 2589 кв км, также является правым притоком Куры.

Территорию султаната можно определить приблизительно, так как под влиянием бурных политических событий XVIII века ее территория или расширялась, или сужалась. Согласно русским источникам его территория равнялась 4200 верстам (1 верст равен 1067 кв м).(**https://az.wikipedia.org** › wiki).В целом султанат охватывалсовременные Шамкирский (пл.1 657 кв.км), Кедабекский (пл. 1 230 кв.км), половину Таузского (пл.970 кв.км) районов Азербайджанской Республики, обширные пастбища Мургуз и Джейранчел Грузинской Республики и административно-территориальные единицы современной Армении, как Шамшадинский район (пл. 824 кв.км), Тавушский марз (пл. 2 704 км)с центром в городе Иджеван и городами Дилижан, Берд, Ноемберян,участки Гейча и Гарагоюнлу, разделенные между пятью районами - Чемберекским, Басаркечарским, Ашагы Каранлыкским, Кеварским и Еленовским.(15, с. 61)

Обнаруженные археологические артефакты в бассейне Зегемчай свидетельствуют, что эта территория была заселена около 300 тысяч лет назад и подтверждают автохтонностьтюркских племен на этой местности. Ценные археологические материалы в селе Ордекли свидетельствуют, что Гейчинский бассейн издавна был населен тюркскими племенами. Часть территории султаната в древности соответствовала албанскому гавару Тучкатак (Тус-Кустак) наханга (области) Ути, в котором кыпчакское ответвление тюркских племен гаргары составляли основное население. Средневековые развалины огузских городов Хунан и Кехнагала на территории Товуза еще раз подтверждают, что тюркское население проживало на этой территории с древности.В верховьях реки Шамкир в бассейне реки Гирдыман, являющегося правым притоком Шамкирчая располагался албанский гавар Гирдыман наханга Ути, в котором вначале VII века образовалось Гирдыманское княжество – родовое имение албанской династии Михранидов из тюркского рода местных племен сабиров.

С периода господства Сефевидов в начале XVI века округ Зегам и территория к западу от него стали наследственным феодальным владением – ольке тюркского рода Шамшадинли – одного из влиятельных ветвей кызылбашского тюркского племени Зулькадар. Главы этого рода, находясь на службе Сефевидов, одновременно были и наследственными хакимами – правителями округа.От имени этого рода образовалось название олькэ Шамшадиль, хакимы которого носили титул султана, вследствие чего олькэШамшадиль также именовали султанатом.

Название рода «шамшадиль» происходит от слова «шамшаддин» и в переводе с тюркского (шамс) и арабского (ад дин) языков означает «солнце веры». Династия шамшадильских султанов жила в местности Оксузлу, расположенной в Товузе. (Шамкир//https:// ru.wikipedia.org ›wiki›). Но административно-политическое управление шамшадильского ольке сосредотачивалось в крупном торговом и ремесленном центре Шамкир.

В военном ополчении Сефевидского войска черикШамшадильские султаны составляли значительную военную силу сефевидских кызылбашей. Их особая роль была отмечена сефевидским шахом Аббасом I при освобождении оккупированных в конце XVI века османами азербайджанских земель.В 1605 году Шамсадильский султан Али за верную службу при освобождении Ширвана от османов получил от сефевидского шаха Аббаса Iв придачу еще одно наследственное феодальное владение – ольке в Ширване(7, с.135).В 1622 году его преемник султан Селимхан за проявленный героизм при взятии пограничной с османами крепости Ахалцих в юго-западной части Картлийского царства, получилво владение эту крепость и был назначен шахм Аббаса Iхакимом Ахалциха. (7, с.135)

В административно-территориальной системе Сефевидской империи султаны Шамшадиля подчинялись карабагским беглярбекам каджарского рода Зияд оглы и вместе с казахским и борчалинским султанами находились на военной службе у карабахского беглярбека Угурлу хана Зияд оглы.Однако карабагский беглярбек Угурлу хан Зияд оглы не прибыл на Мугамкий курултай для коронации Надира шахом, за что понес административные наказания. За оказанное сопротивление Угурлу хан Зияд оглы понес административное наказание. Чтобы ослабить военную силу карабагского беглярбека Угурлу хана Зияд оглы шамшадильские султаны вместе с борчалинским и казахским султанами в 1736 году были подчинены картли-кахетинскому царю – валию Надир шаха и оставались в подчинении картли-кахетинского царя вплоть до смерти Надир шаха в 1747 году. (9, АВПР, ф. персид. д.7, вв.729, 755)

После смерти Надир шаха Афшара его империя распалась. В период развала государства Надир шаха Афшара в 1747 году хакимы Шамшадиля оставались правителями одноименного султаната и были одним из крупных феодальных владетелей, на землях которых проживали скотоводческие племена элятов, составляющие ядро их конного войска.Согласно русским источникам у шамшадильских султанов было 34 278 десятин земли. (десятина=1,0925га). (16).

На севере султанат граничал с Картлийским царством, на юге его территория доходила до границ Иреванского ханства, на западе границы

соприкасались на Гянджа-Казахской равнине с Казахским султанатом. Хотя основной родовой резиденцией шамшадильских султанов оставалась местность Оксузлу, административно-политическим центром султаната стал город Шамкир, расположенный в 20 км от нынешнего одноименного города. Шамкир изначально был крупным политическим, торговым и ремесленным центром Зегамского округа и сохранил этот статус в период существования Шамшадильского султаната во второй половине XVIII века. Совесем не случайно, с начала XVI века, когда шамшадильские султаны получили наследственное ольке, до ликвидации султаната в начале XIX века шамшадильские султаны именовались «шамкирские хакимы».

Название административно-политического центра султаната Шамкир связано с названием крепости Шамкур, развалины которого сохранились до наших дней. Изестно, что крепость Шамкур и городское поселение вокруг него занимали площадь в 20 га и были основаны в V-VI веках на правом берегу одного из крупнейших притоков реки Куры, длиною в 95 км, реки Великий Шамкур, берущей начало с предгорий Малого Кавказа. (16**).**

Существуют несколько версий этимологии топонима Шамкир, который в тюркских источниках зафиксирован как «Шамкир», в арабских – «Шамкур», в грузинских – «Шанкори», в русских – «Шюнкюр» и «Шамхор». По одной из них название «Шамкир» объясняется как тюркское слово, состоящее из двух соединений: «шамс» – солнце и «кир» – поклонение, что в полном переводе означает «край, поклоняющийся солнцу на берегу Куры» (6, с. 165). Существует и другая версия, согласно которой «Шамкир» тоже считается соединением двух тюркских слов, но объясняется как «окраина Куры». (10). Согласно следующей версиитюркского происхождения топоним «Шамкир» переводится как «место, покрытое зеленью» (17). Согласно А.Бакиханову название «Шамкир» происходит от имени правителя Табаристана Шамкира бин Зийаддина. (3, 101)Множество этимологических версий этого слова позволяет считать, что топоним «Шамкир» относится к так называемым «немым» топонимам, смысл которых неизвестен. (11, с. 165.)

Разнообразие традиционного ремесленного производства, богатые полезные ископаемые, крупные караванные пути, пересечение международных торговых магистралей постоянно манили сюда купцов из дальних стран, превращали город в крупный торгово-ремесленный центр и объект завоевателей. Поэтому совсем не случайно на территории Шамшадиля находилось множество постоялых дворов и каравансараев. В конце XVIIIвека в долине главной реки Тавуза – Агстафачай было основан поселок купцов и ремесленников с названием Каравансарай,

тюркская этимология слова означает «стоянка, остановка».Здесь и по сей день сохранились останки древней бани,в глухих ущельях, на шоссейных и просёлочных дорогах в долине реки Агстафачай встречаются родники, искусно оформленные мастерами-каменотёсами из розово-сиреневого камня.В 1920 году поселок Каравансарай был переименован в Иджеван, что в переводе с армянского означает «ночевье», а в 1961 году получил статус города и стал столицей Тавушского марза в нынешней Армении.

Население Шамшадиля было смешанным. Здесь совместно жили христиане и мусульмане. Компактное проживание и абсолютное большинство тюркского населения в Шамшадиле фиксируют многие источники. К примеру, согласно статистическим данным русских источников в 1831 году здесь было 44 селения и на этой территории проживали всего 9 армян. (18, с. 57). Вместе с тем христианская культура также имеет свои глубокие корни и прослеживается по монастырским комплексам, построенным или среди густых лесов, скрываясь среди них, или на такой высоте, что порой закрываются облаками, спускающимися с гор. Главными достопримечательностями Шамшадиля, дошедшими до наших дней являются монастырские комплексы Воскепар ( VI - VII вв), Агарцин ( XI - XIII вв), Макараванк ( XI - XIII вв), Гошаванк ( XII - XIII вв), Мшаванк ( XII в), Нор Варагаван ( XII - XIII вв), Хоранагат ( XIII в.) и другие. Бесспорной особенностью этих христианских архитектурных сооружений является то, что они были построены тюрками-христианами.

Языком межобщения был тюркский язык – язык абсолютного большинства населения Шамшадиля. Христианское население говорило на арцахском и гандзасарском диалекте армянского языка. Этот диалект сформировался после того, как при арабском господстве христианские церкви были подчинены армянской церкви. Население вынуждено было перейти к армянскому языку. Арцахский и гандзасарский диалект армянского языка характеризуется перестановкой ударения с последнего слога на предпоследний.

После распада империи Надир шаха начинается следующий этап общественно-политической жизни Шамшадиля, охватывающий период с 1747–1801 годы и непосредственно связанный с бурными политическими событиями феодально-раздробленного государственного устройства Азербайджана во второй половине XVIII века.

При основателе Шамшадильского султанства Аллахверди Зулькадаре (1747-1761) гянджинский Шахверди хан Зияд оглы (1747-1756) вернул отобранные земли Борчалы, Казахаи Шамшадиля. В феодальной иерархии азербайджанских ханств шамшадильские султаны вновь стали вассалами гянджинских ханов, сохранив при этом внутреннюю власть.Картли-кахетинские цари Ираклий II и Теймураз, стремящиеся завладеть северо-

западными азербайджанскими землями, не могли смириться с потерей Казаха, Шамшадиля и Борчалы.

Отсутствие единого централизованного государства облегчало им возможности для осуществления их захватнических планов. Однако главным препятствием на пути их завоеваний стоял шекинский Гаджи Челеби хан. Использовав междоусобные разногласия азербайджанских карабахского, гянджинского, карадагского,нахчыванского и иреванского хановс шекинским Гаджи Челеби ханом грузинские цари организовали союз азербайджанских ханов против шекинского хана.

В 1752 году союзники собразись для совещания в местечке Кызылгая близ Гянджи. Однако грузинский царь Ираклий II вероломно окружил и захватил в плен, явившихся на совещание азербайджанских ханов. Узнав об этом, шекинский Гаджи Челеби хан совершил нападение на войско грузинского царя Ираклия II и нанес ему тяжелое поражение в окрестностях Гянджи у могилы Шейха Низами. После этой победы азербайджанские ханы были освобождены,войска шекинского хана заняли Гянджу, гянджинский Шахверди хан признал себя вассалом шекинского хана. Сын Гаджи Челеби Агакиши бек был назначен правителем Казаха, Борчалы и Шамшадиля. После смерти шекинского Гаджи Челеби хана при гянджинском Мухаммедгасан хане Зияд оглы (1756-1761) Гянджинское ханство обрело независимость,а султаны Казаха, Борчалы и Шамшадиля вновь стали вассалми гянджинского хана. Но противоречия на этом не закончились. ТерриторииКазаха, Борчалы и Шамшадиля в очередной раз стали яблоком раздора, но уже между гянджинским Мухаммедгасан ханом и картли-кахетинским царем Ираклием II. При преемнике шамшадильского султана Аллахверди Зулькадар султане Али Шамсадинли (1761-1797)на фоне бурных политических событий, связанных с военными походами картли-кахетинского царя Ираклия II, Керим хан Зенда, Ага Мухаммед хана Каджара и Валериана Зубоватерритории трех султанатов Борчалы, Казаха и Шамшадиля неоднократно передавалась из рук в руки.

В 1765 картли-кахетинский царь Ираклий II подчинил Шамшадильское султанство, что повлекло за собой негодование зульгадаров. Объединенные силы гянджинского Мухаммедгасан хана Зияд оглы ишамшадильскогосултана Али Шамсадинли выступили против Ираклия II и отстояли независимость Шамшадиля.Однако после смерти гянджинского Мухаммедгасан хана Зияд оглы картли-кахетинскому царю Ираклию II удалось вновь подчинить Борчалы, Казах и Шамшадиль, после чего Ираклий II,объединив Казах и Шамшадиль в едининый султанат, лишил Шамшадиль статуса султаната.

Во время похода Ага Мухаммед хана Каджара в 1795 году гянджинский Джавад хан принял участие в его походе на Тифлис.После этого похода Борчалы, Казах и Шамшадиль были возвращены Гянджинскому ханству. Гянджинский Джавад хан вернул статус султаната Шамшадилю. Султаном стал сын султана Али Шамсадинли Насиб Шамшадинли (1797-1819), оставивший наиболее значительный след в общественно-политической жизни Шамшадиля.

Султан Насиб Шамшадинли правил султанатом в конце XVIII начале XIX веков - вкульминационный период русско-каджарского соперничества на Южном Кавказе. Летом 1797 году во время второго похода Ага Мухаммед Каджара на Южный Кавказ гянджинский Джавад хан Зияд оглы выступил в походе Каджара на Тифлис, после взятия которого Шамшадильский султанат вместе с Казахским и Борчалинским султанами были возвращены гянджинскому Джавад хану. В период этого кратковременного подчинения между шамшадильским султаном Насибом Шамшадинли и гянджинским Джавад ханом сложились враждебные отношения. Об этих отношениях сложено много легенд и версий, из которых одна версия является наиболее вероятной.Эта версия связна с именем жены султана Насиба Шамшадинли.

Султан Насиб Шамшадинли родился в 1763 году в местности Оксузлу. Его жена красавица Джавахир ханум происходила из знатного рода Шихлинских. Из-за нее сложились враждебные отношения между гянджинским Джавад ханом и султаном Насибом Шамшадинли. Об этих недружелюбных отношениях в округе складывались различные слухи. По одной из них известно, что гянджнский Джавад хан, поручив султану Насибу Шамшадинли важное дело, отправил его в Дагестан. В отсутствии султана Насиба Шамшадинли гянджинский Джавад хан вызвал к себе его жену Джавахир ханум с тем, чтобы она развелась со своим мужем и вышла замуж за него. Джавахир ханум категорически отказалась и вернулась обратно в султанат. После возвращения султана Насиба Шамсадинли Джавахир ханум поведала мужу о поведении гянджинского Джавад хана. Этот факт стал причиной вражды между ними и негативно отразился на доверии к гянджинскому Джавад хану Зияд оглы со стороны борчалинских и казахских султанов. Все три султаната вышли из-под подчинения Гянджинского ханства и вскоре после ликвидации Картли-Кахетинского царства и присоединения его к России по манифесту Александра I1801 года к России отошли и территории азербайджанских султанатов – Борчалы, Казаха, Памбека и Шамшадиля. По новому российскому административному делению азербайджанские султанаты были ликвидированы и созданы татарские дистанции: Борчалинская, Казахская, Памбекская, Шамшадильская. Их осуществляли приставы или

моуравы из числа грузинских князей, служивших в чине капитан-исправников. К ним приставлялись помощники – русские чиновники.

В 1803 году во время подготовки князя Цицианова к захвату Гянджинского ханства в столице султаната городе Шамкире были расквартированы русские войска. При штурме Гянджи русскими войсками султан Насиб Шамшадинли во главе своей конницы численностью в 700 всадников и 300 отборных всадников Казахского султаната выступил против гянджинского Джавад хана. (8)

За оказанную услугу русскому командованию при взятии Гянджи он получил звание майора, а также расширились его полномочия. Он стал правителем Шамшадиля и Казаха.В его подчинении находились земли от местности Гасансу до подножия Шахдага.

Между тем, султан Насиб Шамшадинли встретился с сопротивлением азербайджанского населения, которое не соглашалось с новым административным делением и не хотеложить под российским управлением.Шамшадильцы,не смирившиеся с новым режимом, были вынуждены оставить родные пределы и переселяться в другие места. В 1805 году главнокомандующий русской армией генерал П.Д.Цицианов угрожал шамшадильским азербайджанцам, что в случае неповинования переселит их за реку Араз в пределы Каджарской империи. В 1810 году совместно с азербайджанским населением Борчалы, Казаха, Памбека, шамшадильцы приняли самое активное участие в этом крупном антироссийском выступлении.

Поэтому эти расширенные полномочия султана Насиба Шамшадинли, данные русским командованием, оказались недолговечными, так как он не смог оправдать надежд российских военных властей на полное подчинение местного населения.Поэтому авторитет и уважение султана среди азербайджанского населения был использован против него самого.Его стали обвинять в подсобничестве к восставшим.

Вскоре после того, как в 1817 году окружным начальником Шекинского, Ширванского и Карабахского провинций был назначен князь, генерал-лейтенант русской армии армянского происхождениянегатитвное отношение русской власти к султану Насибу Шамшадинли в корне изменились. Не без участия В.Г. Мадатова султанНасиб Шамшадинли и казахский поэт Мустафа ага преднамеренно подвергались различным шантажам и обвинениям в антироссийской деятельности, их кульминацией стало обвинение в убийстве 40 русских солдат.

По указанию главноуправляющего гражданской частью и пограничными делами в Грузии, Астраханской и Кавказской губерниях А.П. Ермолова генерала-лейтенанту Вильяминову было поручено

установить за ними особый контроль а, также были предоставлены широкие полномочия в отношении этих двух «особо опасных для российского господства» людей.

В 1819 году окружной начальник В.Г.Мадатов лично прибыл в Елизаветполь для ареста «неблагополучных лиц». Арестованные султан Насиб Шамшадинли и поэт Мустафа ага были отправлены в комендатуру Моздока, а оттуда в ссылку в Казань, по другой версии – в Харьков. Султан Насиб Шамшадинли умер 11 мая 1819 года в российской ссылке.

Итак, султан Насиб Шамшадинли был последним шамшадильским султаном, хотя время его правления являлось трагическим для султаната. В 1801 году султанат вместе с Картли-Кахетинским царством становится владением Российской империи. В 1803 году здесь расквартировываются русские войска для подготовки боевых действий с каджарами. И, хотя султан Насиб Шамшадинли добровольно переходит на российскую службу, его судьба, как и судьба многих мусульманских правителей заканчивается трагично.

.

## Литература


1.Акты, собранные Кавказской Археографической комиссией. (АКАК). Архив главного управления наместника Кавказского. Том I. Напечатан под редакцией, представителя комиссии ст.сов. Адольфа Петровича Берже. Тифлис. Типография Главного Управления Наместника Кавказского. 1866 год. Оглавление: Часть вторая: XII. Закавказские Мусульманские владения. Письмо генерал-майора Лазарева к генерал-лейтенанту Кноррингу, от 5-го августа 1801 года.

2. AKAK.Tom VI, ç.1, №1022

3.Бакиханов А. Гюлистан-и Ирам. Баку:"Интернационал", 1926, 196 с

4. Бутков П. Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 год. Часть первая. Санкт-Петербург, 1869 год.

5. Высшие классы коренного населения Кавказского края и правительственные мероприятия по определению их сословных прав. Исторический очерк. Составитель делопроизводитель канцелярии Наместника Его Императорского Величества на Кавказе Линден В. Тифлис. Издание Канцелярии Наместника Е.И.В. на Кавказе. 1917 год: Оглавлени - Глава II. Мусульманские районы Закавказья, входящие в состав Эриванской, Елисаветпольской, Бакинской и отчасти Тифлисской губерний, стр. 23-24

6. Джахангир Зейналоглу. Краткая история Азербайджана. Стамбул, 1924

7.Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв. М-Пбг, 1949

8. Схема взятия Гянджи. // ЦГВИА, ф.ВУА, д.4278, ч.2.

9. Реляции И. Калушкина, 1738 г.//АВПР, ф. персид. д.7, вв.729, 755

10. Шамкирhttps://ru.wikipedia.org › wiki ›.

11. Юзбашев Р. М. Характеристика современной азербайджанской топонимии // «Топонимия Востока».М.: Наука, 1969.

12. Çingizoğlu Ə. Zülqədər eli, "Soy" dərgisi, 1(21) 2009.

13. Çingizoğlu Ə. Şəmşəddil sultanlığı, Bakı: Mütərcim, 2012,-208 s.

14. https://az.wikipedia.org › wiki

15. Rüstəmov Bəhruzər Qarğınsız. Bakı, 2009.

16. Şəmşəddil sultanlığı.https://az.wikipedia.org › wiki

17. Shamkir. //http://roksi.com.ua ›.

18. Ələkbərli Ə. Qədim türk-oğuz yurdu Ermənistan. Bakı, “Sabah”, 1994, с. 57

# 1992-Cİ İL DAŞALTI ƏMƏLİYYATI –TARİXİN İZİ İLƏ

**Əzizağa Qəni-zadə**
**Milli Müdafiə Universiteti**
**Yupiter57@mail.ru**

***Açar sözlər:*** *müstəqillik, Qarabağ, Daşaltı əməliyyatı, qəhrəmanlıq, zəfər*

*Məqalədə 30 il bundan əvvəl 1992-ci ilin qışında baş vermiş və Azərbaycan Respublikasının müstəqilliyinin bərpasından sonra yaradılmış Müdafiə Nazirliyinin ilk hərbi əməliyyatı olan Daşaltı əməliyyatının aparılma səbəbləri, gedişatı və nəticələri mötəbər mənbələr əsasında təhlil olunmuşdur.*

*Şuşa şəhəri yaxınlığında yerləşənDaşaltı kəndinin erməni hərbi birləşmələrindən azad edilməsi məqsədilə təşkil olunmuş əməliyyat,1992-ci il yanvarın 25-də saat 20:00-da başlamış, bir gün sonratəqribi olaraq həmin saatlarda başa çatmışdır.Əməliyyatın yol açdığı qüsurlar ölkədə hərbi siyasi böhranı bir qədər də dərinləşdirmişdi.*

*Daşaltı əməliyyatı zamanı Azərbaycan ordusunun əsgər və zabitlərinin göstərdikləri şücaət və qəhrəmanlıqlar daim tarixi yaddaşlarda yaşayacaqdır.Əməliyyat zamanı məğlubiyyət yaşansa da, ordumuz qarşısına qoyduğu vəzifəni yerinə yetirərək kəndin ərazisini ələ keçirmiş, 80-ə yaxın erməni terrorçusunu gəbərtmişdi.*

## О ДАШАЛТИНСКОЙ ОПЕРАЦИИ 1992 ГОДА - ПО СЛЕДАМ ИСТОРИИ

**Азизага Гани-заде**

***Ключевые слова:*** *независимость, Карабах, Дашалтинская операция, героизм, победа*

*В статье на основе авторитетных источников были проанализированы причины, ход и результаты проведения Дашалтинской операции, проведенной 30 лет назад - зимой 1992 года, первой военной операции Министерства обороны Азербайджанской Республики, созданного после восстановления независимости.*

*Операция, организованная по освобождению села Дашалты, расположенного недалеко от города Шуша, от армянских воинских группировок, началась 25 января 1992 года в 20:00 и днем позже примерно в это же время завершилась. Неудача операции усугубили военно-политический кризис в стране. Храбрость и героизм солдат и офицеров Азербайджанской армии во время Дашалтинской операции навсегда*

*останутся в исторической памяти. Хотя операция в общем завершилась неудачно, наши подрозделения выполнили поставленную перед ними задачу, захватив территорию села и уничтожив около 80 армянских террористов.*

## ABOUT THE DASHALTA OPERATION OF 1992 - IN THE WAKE OF HISTORY

**Azizaga Ghani-zade**

***Keywords:*** *independence, Karabakh, Dashalta operation, heroism, victory.*

*Based on authoritative sources, the article analyzed the causes, course and results of the Dashalta operation, carried out 30 years ago - in the winter of 1992, the first military operation of the Ministry of Defense of the Republic of Azerbaijan, created after the restoration of independence.*

*The operation, organized to liberate the village of Dashalti, located near the city of Shusha, from Armenian military groups, began on January 25, 1992 at 20:00 and ended a day later at about the same time. The failure of the operation exacerbated the military-political crisis in the country. The courage and heroism of the soldiers and officers of the Azerbaijani army during the Dashalta operation will forever remain in historical memory. Although the operation ended unsuccessfully in general, our units completed their task, seizing the territory of the village and destroying about 80 Armenian terrorists.*

### Giriş

Azərbaycan Respublikasında müstəqilliyin ilk illərində yaranmış ictimai-iqtisadi, siyasi böhrandan istifadə edən təcavüskar qüvvələr ölkəmizi öz nüfuz dairəsində saxlamaq üçün məkirli siyasət yeridərək Qarabağda Ermənistan və Azərbaycan arasında milli münaqişə ocağı alovlandırmış, iki xalq arasında qanlı mübarizəni genişləndirərək erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı qanlı terror hadisələrinin törədilməsinə, işğalçılıq niyyətlərinin həyata keçirilməsinə şərait yaratmışdır.

Bütün bunlar isə Qarabağ münaqişəsinin müharibəyə çevrilməsinə gətirib çıxarmışdır. Beləliklə, Fasilələrlə 28 il davam edən birinci Qarabağ müharibəsində torpaqlarımızın 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən ələ keçirilmiş və Azərbaycan Respublikasının 1 milyondan artıq əhalisi məcburi köçkün və qaçqın həyatını yaşamağa məcbur edilmiş, 20 mindən çox övladı isə hərbi əməliyyatlar zamanı qəhrəmancasına şəhid olmuşdur.

Ancaq 1993-cü ilin iyununda Ümummilli lider Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə ikinci dəfə ölkəmizdə hakimiyyətə gəlməsi, baş verə biləcək daha böyük faciələrin qarşısını almış oldu.

Xatırlatmaq yerinə düşər ki, 1990-cı ildən etibarən Ermənistanın Azərbaycanın bir çox yerlərində terror fəaliyyətlərinə təkan verməsi, 1991-ci ilin dekabrından isə Cəmilli, Kərkicahan və Meşəli kəndlərini işğal edərək hərbi cinayətlər törətməsi,bu kimi faciələrin qarşısının önlənməsi üçün ordu quruculuğuna və bir sıra hərbi əməliyyatların aparılmasına çox ciddi ehtiyac doğurur.

Azərbaycan hərb tarixinin yaxın keçmişinə təsadüf edən Daşaltı əməliyyatı- Şuşa şəhəri yaxınlığındakı Daşaltı kəndində 1992-ci ilin qışında aparılmış və bəzi səbəblərdən qaynaqlanaraq uğursuzluğa düçar olmuşdur.

Əməliyyat şəraitini daha aydın təsəvvür etmək üçün qədim Daşaltı kəndinin yerləş-diyi coğrafi mövqei haqqında qısa məlumat vermək fikrimizcə yerinə düşərdi. Daşaltı Şuşa rayonunun eyni adlı inzibati ərazi vilayətində kənd olub, Şuşanın mərkəzindən təxminən 3 km cənubda, Cıdır düzündən aşağıda yerləşən eyniadlı çayın sahilində yerləşir. Şuşa qalasının - nəhəng qayalığın altında yerləşdiyindən kəndə Daşaltı adı verilmişdir. Cıdır Düzündən Daşaltı çayının sahilinə "Qırx pilləkən" adı verilən pilləkən enir. Yaxınlığında Daşaltı mağarasının bir hissəsi olan 10 otaqlı "Xəzinə-qala" yerləşir. [25, s.4].

Tarixi məxəzlərdən gələn bilgilərə görə kənd XVIII əsrdə Qarabağ xanı İbrahimxəlil xanın dövründə salınmışdı[5, s.151].

**Daşaltı əməliyyatının aparılma səbəbi.**

1992-ci ilin yanvarında Qarabağda ağır vəziyyət yaranmışdı. Ölkədə hökm sürən ictimai-iqtisadi və sosial-siyasi gərginlik cəbhə bölgəsindəki vəziyyəti bir qədər də ağır-laşdırmışdı. Təsadüfü deyildir ki, 1991-ci ildən başlayaraq ərazi iddialarını açıq şəkildə hərbi müdaxilə ilə əvəzləyən Ermənistan, rus ordusundan müxtəlif yollar ilə ələ etdiyi hərbi silah sursatı gizli yollar ilə Qarabağa daşıyır və bölgənin faktiki işğalına yol açacaq addımlar atırdı. Belə ki, 1991-ci ilin əvvəllərindən etibarən rəsmi Moskvanın silahlandırdığı erməni hərbi birləşmələri,havadarlarının dəstəyi ilə özhərbi üstünlüklərindən istifadə edərək Qarabağı artıq münaqişə ocağına çevirmişdilər. Onlar, Qarabağın dağlıq hissəsində azərbaycanlılar yaşayan kənd və qəsəbələri mühasirəyə alır, bir-birindən təcrid edir, həmin yaşayış məntəqələrinin ardıcıl olaraqişğalını həyata keçirirdilər.Və bumməntəqələrin işğalı zamanı bir qayda olaraq yerliəhalinin evləri və təsərrüfatları qarətolunaraqməhv edilirdi.1991-ci ilin oktyabrından erməni silahlı birləşmələrinin mühasirəsinə düşərək bir-birinin ardınca işğal olunan Qaradağlı, Cəmilli, Kərkicahan, Meşəli, Malıbəyli, Quşçular və digər kəndlərin işğalı prosesində erməni silahlı dəstələri tərəfindən dinc əhaliyə qarşı misli görünməmiş hərbi cinayətlər törədilmişdir[6;4].

Həmin dövrdə Şuşa ətrafında da vəziyyət olduqca gərgin idi. Şuşa ətrafı azərbaycanlılar yaşayan əksər yaşayış məntəqələri boşaldılmış, Şuşa və Xocalı şəhərləri düşmən tərəfindən blakadoya salınmışdı. Şəhərin yaxınlığında yerləşən erməni kəndləri, o cümlədən Şuşadan 3-4 km aralıda Daşaltı kəndi də silahlı qruplaşmaların dayaq məntəqələrinə çevrilmişdi. Məlumat üçün bildirək ki, Daşaltı Şuşa ilə Laçın arasında strateji bir ərazidir. 1992-ci ilin əvvəllərində Kərkicahan işğal olunduqdan sonra Ağdamdan Şuşaya gələn yol bağlanmış, Şuşa ilə əlaqənin tam kəsilməsi qorxusu yaranmışdı. Çünki həmin vaxt hava yolu ilə əlaqə də tamam kəsilmişdi. Ümid Şuşa-Laçın yoluna qalırdı ki, onu da Daşaltı kəndindəki ermənilər daim atəş altında saxlayırdılar[21].

Erməni hərbi birləşmələri Daşaltı kəndindən eyni zamanda həm Şuşa şəhərini, həm də yaxınlıqdakı azərbaycanlılar yaşayan kəndlərimütəmadi olaraq atəşə tuturdular. Bu isə Şuşada yerləşən Azərbaycan qoşunlarının təchizatında çətinliklər yaradırdı.

Yaranmış vəziyyəti nəzərə alaraq, Azərbaycan komandanlığı tərəfindən Daşaltı kəndində düşmənin atəş nöqtələrini məhv etmək və onları birdəfəliksusdurmaqüzrə əməliyyat keçirmək qərarı qəbul olundu[19].

Bu məqsədlə cəbhədə mövcud vəziyyəti dəyərləndirmək üçün Daşaltı kəndi ətrafında kəşfiyyat aparıldı. Bəzi mənbələrdə Daşaltıya hücumdan öncə kəşfiyyatın təşkil olunmaması kimi qaralayıcı məlumatlar yer alır[13;26]. Bu dərəcədə məsuliyyətli əməliyyatın həyata keçirilməsi zamanı kəşfiyyatın aparılmaması ilə bağlı qeyri-peşəkar yanaşma deyə bilərik ki, bir az gülünc hissi doğurur. Əməliyyatın rəhbəri general-mayor Tacəddin Mehdiyevin müsahibələrinə istinadən qeyd edə bilərik ki, keçiriləcək əməliyyatdan ikigünöncə ərazidə kəşfiyyat işləri aparılmış və müəyyənedilmişdir ki, Daşaltı kəndində ermənilərin 50-60 nəfərlik silahlı dəstəsivar [26].

Digər tərəfdən Müdafiə Nazirliyinin Kəşfiyyat Bölüyünün rəis müavini olan polkovnik-leytenantRiad Əhmədov da öz dəstəsi ilə birgə kəşfiyyatda iştirak etmiş və müəyyən edilmişdir ki, Topxana meşəsi istiqamətində düşmənin atəş nöqtələri var[26].

Döyüş planı hazırlanmamışdan öncə, düşmən, onun mövqeləri haqqında ətraflıməlumat toplanılır. Hətta, ermənilərə əməliyyatla bağlı məlumatların sızdırılmaması üçünəməliyyatın təyin olunmuş vaxtı Tacəddin Mehdiyevin təklifi ilə bir başqa günə də keçirilir [13;19;26].

“Daşaltı” əməliyyatı keçirilən ərəfədə Azərbaycan Respublikası cəmi üç ay idi ki, müstəqillik qazanmışdı. SSRİ-nin süqutundan isə heç bir ay ötməmişdi.

Əməliyyat böyük əhəmiyyət kəsb etdiyindən sabiq müdafiə naziri, general-mayor Tacəddin Mehdiyev şəxsən özü əməliyyata rəhbərlik edirdi. Bu məqsədlə o, baş qərargahın rəhbəri, general-mayor Şahin Musayevə növbəti göstərişlərini verir:

1) Goranboy rayonu üzrə müdafiə nazirinin müavini təyin olunmuş general-mayor Dadaş Rzayevin tabeliyində olan zirehli texnikanın yarısının Şuşaya doğru yerini dəyişdirmək;

2) Kəşfiyyatçı polkovnik- leytenant Sabir Cəfərovu təcili olaraq Şuşaya göndərmək;

3) Bütün cəbhə boyu erməni hərbi birləşmələrinə diqqəti yayındıran zərbələr hazırlamaq [20].

Daşaltı əməliyyatının hazırlanması məqsədi ilə general-mayor T. Mehdiyev 1992-ci il yanvarın 19-da Şuşaya gəlir [19]. Lakin burada olan mənzərə generalı qane etmir. Belə ki, şəhərin müdafiəsi çox pis təşkil edilmişdi və vahid komandanlığa tabe olan ordu yox idi. Bunun əvəzində isə Şuşanı mühafizə edən müxtəlif könüllü dəstələr mövcud idi ki, bu dəstələri də istənilən anda bir yerə yığmaq mümkün deyildi. Təsadüfü deyildir ki, T. Mehdiyev Milli ordunun Şuşa batalyonunun şəxsi heyəti ilə tanış olmaq üçün onların bir yerə yığılması tapşırığını versə də, ancaq 385 nəfər hərbi qulluqçusu olan batalyondan cəmi 20 əsgər çağırışa müsbət reaksiya vermiş və görüşdə iştirak etmişdir. [13].

Gecə saatlarında isə Şuşada nə nəzarət buraxılış məntəqələri, nə də müşahidə postları qurulurdu.

Vəziyyətin heç də ürəkaçan olmadığını görən T. Mehdiyev Şuşa milisinin müdiri Vahid Bayramovla təcili müşavirə keçirir və keçirilən müşavirədə şəhərin ətrafındakı vəziyyət müzakirə edilir. Daşaltı kəndində erməni quldurlarının atəş nöqtələrinin məhv edilməsi üçün əməliyyat aparmaq qərarı qəbul olunur [20].

Müşavirə zamanı əməliyyatın dəqiq aparılması üçün Vahid Bayramov yerli əhali içərisindən 4 bələdçi ayırmağı təklif edir.Bu 4 nəfər gecə saatlarında rəqibin atəş nöqtələrinə qədər kəşfiyyat-diversiya qrupunu aparmalı idilər. Bundan sonra general-mayor T. Mehdiyev və Riad Əhmədovun dəstəsindən olan bir neçə zabit, ayrılmış 4 bələdçi ilə birlikdə qarşıdakı əməliyyatın detallarını müzakirə edir. Ancaq bələdçilərdən ikisi sonradan yoxa çıxır. T.Mehdiyev rayonun milis rəisinə zəng vuraraq, qalan iki bələdçini tapmağı tələb etsə də bu bu bir nəticə vermir. Belə vəziyyətdə nəzərdə tutulan əməliyyatın təxirə salınması qərarı qəbul edilir. Həmin gecə Riad Əhmədov, bəzi döyüşçülər ilə birgə Topxana meşəsi istiqamətində ermənilərin atəş nöqtələrinə müstəqil qərar əsasında çataraq,onlarla döyüşə girirlər. Döyüş zamanı bir neçə erməni hərbi qulluqçusu öldürülsə də, ancaq ermənilər əllərində olan silahların vaxtında təxliyyəsinə müvəffəq olurlar [13].

Növbəti gün yanvarın 20-də general-mayor T.Mehdiyev, polkovnik Zaur Rzayev, polkovnik-leytenant Nurəddin Abdullayev, Milli Təhlükəsizlik və Daxili İşlər Nazirliyi bölmələrinin rəsmiləri, zabitlərin iştirakı ilə daha bir müşavirə keçirirlər [27]. Müşavirədə T.Mehdiyev vahid komandanlıq altında

bütün dəstələrin birləşdirilməsi, eləcə də komendant saatının tətbiq edilməsi təklifi ilə çıxış edir. Bu təklifə etiraz edilir, bildirilir ki, burada olan bütün silahlı insanlar hərəsi hansısa bir klana tabedirlər. Bu klanlara qarşı çıxmaq lazım deyil, əks halda o da Şuşanın keçmiş icra başçısı Gözəlovun taleyini yaşaya bilər. Müşavirə zamanı şəhər ətrafındakı Daşaltı kəndində erməni quldurlarının atəş nöqtələrinin məhv edilməsi üzrə əməliyyat keçirmək qərarı yekdilliklə qəbul edilir [13].

Həmin gecə polkovnik Nurəddin Abdullayev təxminən 30 nəfərlik dəstə ilə Nəbilər kəndində kəşfiyyat əməliyyatı keçirir və nəticə olaraq müəyyən edilir ki, kənddə heç kəs yoxdur. Kəndə milli ordunun Şuşa batalyonundan 10 nəfər nəzarətçi dəstə qoyulur.Bu haqda N. Abdullayev T. Mehdiyevə məlumat verir [13].

Əməliyyatınuğurlakeçirilməsiüçün Müdafiə Nazirliyinin yenicə yaranmış Şıxov taborundan 200 nəfər [19] (onlardan ibarət5 tağımyaradılmışdı) ayrılır. Bundanəlavə, ŞuşaMüdafiə taborunun döyüşçüləri, eləcə də MN Kəşfiyyat Xidmətinin rəis müavini Riad Əhmədov və zabitlərdən ibarət 11 nəfərlik diversiya dəstəsi formalaşdırılır [25].Qeyd edək ki, təşkil olunan bu qrup ən peşəkar dəstə hesab olunurdu və onun üzvləri yalnız Əfqanıstanda xidmət keçmiş, döyüş mükafatlarına, eləcə də yüksək əlbəyaxa döyüş qabiliyyətinə malik əsgərlərdən təşkil olunmuşdu [13].Eyni zamanda əməliyyatın yerinə yetirilməsi üçün Laçın alayı və polisindən də Şuşaya kömək gəlir. [25; 11]

Əməliyyatdan təxminən 1 ay öncə sə tabor komandiri polkovnik-leytenant Nurəddin Abdullayev bir tağımla birlikdə Daşaltıya girmiş, kənddə kəşfiyyat apararaq bütün giriş-çıxış yollarını təyin etmiş və əməliyyat planını hazırlamışdır. Daha sonra isə plan general-mayor Tacəddin Mehdiyev tərəfindən baxılmış, bir sıra əlavə və dəyişikliklər edildikdən sonra təsdiqlənmişdir [26].

Plan aşağıdakı kimi hazırlanmışdı:

1. Birinci tağım Nəbilər kəndindən keçməli, Qızılqaya yüksəkliyinə qalxıb Sığnax kəndindən Daşaltı-Sığnaq yoluna çıxmalı, daha sonra ikinci tağıma kömək edərək Daşaltı-Şuşakənd yolunu kəsməliydi;
2. İkinci tağım birinci tağımın köməyi ilə Şuşakənd kəndindən Daşaltıya gedən yolu bağlamalı idi;
3. Bu tağımların qarşısındakı yoldan 400-500 metr aralıda sağda və solda üçüncü və dördüncü tağımlar yerləşib hücum əmri gözləməli idi;
4. Xüsusi Təyinatlı Polis Dəstəsinin döyüşçülərindən ibarət 5-ci tağım (OMON döyüşçüləri) da ehtiyatda qalmalı idi;

Nəzərdə tutulmuş yerə çataraq mövqelənmiş birinci tağım Nəbilər kəndi istiqamətindən Daşaltı kəndini atəşə tutmalı, buna cavab olaraq ermənilər mövqelərimizə atəş açmağa başlayanda üçüncü və dördüncü tağım kəndə yaxınlaşmalı, düşmənin atəş nöqtələrini təyin edərək məhv etməli idi.

Bu tağımlar arasında gedən Riad Əhmədovun kəşfiyyat-diversiya dəstəsi daha sonra 3-cü və 4-cü tağımların atəş dəstəyi ilə Daşaltı kəndinə daxil olmalı və kənddəki erməni dəstələrinin bazalarını darmadağın etməli idi. Bundan sonra 3-cü və 4-cü tağımlar da kəndə daxil olaraq, düşmənin qalan qüvvələrini tamamilə məhv etməli idi.

Şuşakənd yaxınlığındakı yolda dayanan ikinci tağım kənd əhalisinin Daşaltıdan Şuşakəndə çıxışını təmin edərək, əsas qüvvələri dəstəkləmək üçün kəndin ətrafında bəzi yüksəkliklərdə də snayperlər yerləşdirilməli idi [29; 22].

Əməliyyatı həyata keçirəcək tağımların hərəkət taktikası isə belə planlaşdırılmışdı: 1 kilometr irəlidə iki bələdçidən və iki kəşfiyyatçıdan ibarət olan patrul qrupu onları arxalarınca aparmalı idi. Bütün komandirlər bələdçilərin göstərdiyi yol ilə diqqətlə getmək tapşırığı almışdılar [27].

Plana əsasən əsas zərbələr Daşaltı və Əsgərana vurulmalı idi. Həmin məntəqələr alındıqdan sonra Qarabağdakı erməni silahlı qüvvələri iki hissəyə bölünəcək və beləcə, düşməni məhv etmək daha asan olacaqdı[20].

**Əməliyyatın gedişi.**

Plana uyğun olaraq 1992-ci il yanvarın 25-də saat 20:00-da əməliyyat başlanır. Birinci tağımın döyüşçüləri Nəbilər kəndinə gəlir. Burada onlar 10 nəfərdən ibarət patrul dəstəsinin üzvləri ilə görüşür və Sığnaxa gedən ən qısa yoldakı vəziyyət haqqında məlumat alırlar. Bu dəstənin döyüşçüləri birinci tağıma Sığnaxa gedən ən qısa yolu göstərirlər. Ancaq bələdçilər bildirirlər ki, bu yol üzrə hərəkət etmək təhlükəlidir, pusquya düşmək ehtimalı çox yüksəkdir. Buna görə də birinci tağım daha uzun məsafəli yolu (uzunluğu 3 kilometr əvəzinə 15 kilometrə qədər yol) qət etmək qərarına gəlir. Nəticədə tağım lazım olan məntəqəyə təyin edilmiş vaxtdan daha gec gedib çıxır [19].

Birinci tağım Sığnax kəndindən Daşaltıya tərəf gələn yol boyunca nəzərdə tutulmuş mövqelərə çataraq, kiçik fasilə üçün dayanır. Bu zaman bələdçilər tağım komandirini inandırmağa çalışırlar ki, burada mövqelənmək əhəmiyyətsizdir, Sığnaxdan ermənilər gəlməyəcəklər və birbaşa Daşaltıya hücum etmək lazımdır.

Naməlum səbəblərdən komandir onların dediklərinə inanır. Altı əsgər Daşaltı-Sığnax yolunun ətrafında mövqelərdə qalır, tağımın qalan hissəsi isə öz mövqelərini tərk edir və Daşaltıya tərəf hərəkət edir.

Səhər saat 06:00-da Sığnax kəndi tərəfdən erməni əsgərləri ilə dolu bir “Kamaz” yük avtomobili gəlir. Pusqudaqalan 6 əsgər bu avtomobilə atəş açır və kamazı erməni əsgərləri ilə birlikdə tamamilə məhv edir. Bu zaman erməni əsgərləri ilə dolu ikinci "Kamaz" yük avtomobili yaxınlaşır və mövqedə dayanan 6 əsgər ilə onlar arasında döyüş başlanır. Döyüşün gedişatında 2 Azərbaycan əsgəri həlak olur, 1 əsgər isə ağır yaralanır. Sağ qalmış 3 əsgər, ölüləri və yaralı əsgəri götürərək geri çəkilmək məcburiyyətində qalırlar. Və

nəticədə mövqelər düşmən əlinəkeçir. Bununladaəməliyyat planıpozulmuş olur [7, s. 3].

Əsgərlərimizin geri çəkilməsindən sonra, bir qrup erməni dəstəsi Sığnaxdakı yolda olan mövqelərə yerləşir və bununla da 3-cü və 4-cü tağımların arxasına çıxırlar. Şuşakəndə gedən yolu kəsməli olan 2-citağım isə ermənilərin pusqusuna düşür. Tağımdan yalnız iki yaralanmış əsgər sağ qalaraq qaça bilir.

Sağ qalan Azər adlı əsgərin sözlərinə görə, o, döyüşdən sonraermənilərin ratsiya vasitəsilə vzvodu pusquya doğru aparan Maxış adlı bələdçiylə necə danışıqlar apardığını eşidirdi. Hansı ki, bu danışığın gedişatında bələdçi Maxış, ona söz verilmiş mükafatı ermənilərdən tələb edirdi. Ermənilər isə cavabında: “Get həlak olmuş əsgərlərin avtomat-larını yığ və onları sat, bu da sənin ən böyük mükafatın olacaqdır” deyirdilər. [7, s.3-4].

Üçüncü və dördüncü tağımlar isə təyin olunan yoldan kənara çıxıb, nəzərdə tutulmuş mövqelərdən 2 kilometr daha uzaqda mövqe tuturlar. Buna görə də onlar Sığnaxda və Şuşakənddə yollarda döyüşən əsgərlərə yardıma gedə bilmirlər.

Uğursuz başlanğıca baxmayaraq, əməliyyat yenə də nəzərdə tutulmuş plan üzrə davam etdirilir. Nəbilər kəndində olan dəstə Daşaltıya doğru atəş açmağa başlayır. 3-cü və 4-cü tağımların atəş dəstəyi altında isə Riad Əhmədovun dəstəsi kəndin içərilərinə doğru irəliləməyə başlayır. Ancaq“Kələmlik” adlı yerin yaxınlığında Qurban adlı bələdçinin satqınlığı nəticəsində dəstə pusquya düşür və dəstənin bütün üzvləri ermənilər tərəfindən öldürülür [4].Riad Əhmədov özü isə itkin düşür.

Həmin döyüşlərin iştirakçısı olmuş və Riadla bir dəstədə döyüşmüş İsmayılov İlyas Hümmət oğlu “Axar.az”ın redaksiyasına müsahibəsində onun ağır yaralandığını qeyd edərək deyir: “Yanvarın 26-da biz Nəbilər tərəfdən girdik. Şuşakənddən gələn yolu bağlamağı nəzrdə tutmuşduq. Nəbilərdən keçib, Daşaltıya girdik. Oradan da keçib Topxanaya çatdıq. Ermənilər duyuq düşmüşdü. Səhər saat 05:50 radələrində ermənilər atmağa başladılar. Hər qrupun özünün mövqeyi var idi. Demək olar ki, bütün qruplar eyni zamanda atəşə tutulurdu. Rəhmətlik Riad mənə dedi ki, get gör, bu nə deməkdir. Axı atəş olmamalı idi.

İrəli gedib kəşfiyyat apardım. Geri qayıdıb dedim ki, pulemyotdan atırlar.

Öndən, arxadan, qayanın üstündən aşağı - hər tərəfdən atırdılar. Düzdür, qarasına atırdılar, amma düz mövqelərimizə tərəf atırdılar. Hava işıqlananda ölüm başladı.Riad yaralandı. Atışa-atışa yerə uzandı. Yaxınlaşıb, təhlükəsiz yerə çəkdim. Dedi ki, heç kəsə demə vurulmağımı” [10].

Bir müddətdən sonra 3-cü və 4-cü tağım kəndin kənarlarından Daşaltıya daxil olurlar və erməni silahlı qüvvələri ilə döyüşə başlayırlar. Lakin bu zaman, Sığnaxda yolda mövqeləri özbaşına tərk etmiş birinci tağımın əsgərləri "ura" qışqırıqlarıyla 3-cü və 4-cü tağımların ardınca kəndə girirlər. Kənddə olan

azərbaycanlı əsgərlər ilə əlaqənin olmaması, gələn tağımın düşmən əsgərləri olaraq qəbul edilməsi ilə nəticələnir və onların arasında atışma başlanır. Nəticədə hər üç tağım itki verir. Digər tərəfdən bu tağımlar həm Daşaltı, həm də Sığnax istiqamətindəki mövqelərdən erməni dəstələrinin şiddətli atəşi altına düşürlər. Bundan başqa, Sığnax kəndi istiqamətindən gələn digər bir erməni dəstəsi Azərbaycan bölmələrinin mövqelərinə arxadan zərbə vura bilirlər [19].

Daşaltıda vəziyyətin ağırlaşdığını görən T.Mehdiyev Xüsusi Təyinatlı Milis Dəstəsindən ibarət 5-ci tağımı kənddəki döyüşçülərə kömək üçün göndərir. Lakin cəmi 500-600 metr irəlilədikdən sonra güclü dumanın çökməsindən istifadə edən T. Mehdiyev Şuşaya doğru geri çəkilmək əmri verir. 1992-ci il 26 yanvar günü Milli Ordunun sağ qalmış döyüşçüləri Daşaltıdan Şuşaya doğru geri çəkilirlər [20].

**Əməliyyatın nəticəsi**

Xalq mühüm strateji mövqedə yerləşən Daşaltı kəndi uğrunda həyata keçirilən əməliyyata böyük ümidlər bəsləyirdi. Əgər bu əməliyyatda qələbə qazanılsaydı, müharibənin sonrakı gedişini öz xeyrimizə dəyişə bilər və qoşunlarımızın strateji təşəbbüsü ələ almasına imkan yaranardı.Əməliyyatın uğursuzluğu xalqımız arasında ağır psixoloji sarsıntı yaratdı,əsgər və zabitlərimizin döyüş ruhunu mənfi təsir etdi.Ən əsası isə cəbhədə sonrakı məğlubiyyətlərin başlanğıcını qoydu. Bu isəhadisələrin sonrakı gedişinə ciddi təsir göstərdi. Azərbaycan ordusu cəbhədə uzun müddət hücum əməliyyatı həyata keçirə bilmədi və bununla da erməni qoşunları təşəbbüsü ələ keçirməyə nail oldu.

Daşaltı əməliyyatından sonra Azərbaycanın ayrılmaz hissəsiolan Qarabağdavə ətraf rayonlarda erməni hərbi birləşmələri tərəfindən azərbaycan lıların etnik təmizlənməsi prosesi dahada sürətləndi.

Qazandığı uğurdan şirniklənən erməni hərbi birləşmələri bir ay sonra Xankəndindəki 366-cı rus hərbi alayının yaxından köməyi ilə 1992-ci il fevralın 26-da Xocalı soyqırımını törətdi. May ayının 8-də isə Azərbaycanda baş vermiş ictimai-siyasi böhrandan istifadə edərək Şuşanı asanlıqla işğal etdi[19].

Bütün bunlarla yanaşı Daşaltı əməliyyatı Vətən yolunda şəhidlik zirvəsinə ucalmış ordumuzun əsgər və zabitlərinin ayrı-ayrı qəhrəmanlıq epizodları kimi xatırlanır, bu əməliyyat zamanı baş vermiş satqınlıq və xəyanətkarlıq isə daim lənətlənir.

Azərbaycan əsgərləri hər tərəfdən sıxılmasına, həmçinin Daşaltı və Sığnax istiqamə-tindən düşmənin çarpaz atəşi altına düşməsinə baxmayaraq, onlardan heç biri döyüş mey-danından qaçmadı. Mühasirəyə düşmüş əsgərlər döyüşməyə davam edir, əsir düşməmək üçün intihar etməkdən çəkinmir, çoxları son gülləsinədək savaşaraq həlak olurdular. Təsadüfü deyildir ki, əsgər və zabitlərimizin döyüşdə göstərdikləri şücaətlərə dair bir çox faktlar mövcuddur. Belə ki, hər tərəfdən ermənilərin əhatəsinə düşmüş Elşən Xəlilov F-1

qumbarasıyla özünü partlatmış, həmçinin Zaur Cəfərov əsir düşməmək üçün son gülləsini özünə vurmuşdur [4].

Həmin döyüşlərin iştirakçısı olmuş və Riadla bir dəstədə döyüşmüş İlyas İsmayılov “Axar.az”ın redaksiyasına müsahibəsində bildirir ki, onunla çiyin-çiyinə döyüşən Kapitan Musayev Vaqif Dursun oğlu Nəbilər tərəfdən Şuşakəndə gələn yolda atışma zamanı ağır yaralandı. Onu döyüş yerindən çıxardıb, geri göndərərək, “özünü xilas et” desək də, ancaq o, tapança ilə özünü ağzından vurdu. Həmin döyüşdə Zeynalov Sahib və şair Nəbi Xəzrinin oğlu Xəlilbəyli Təbriz, o cümlədən şair Qaçay Köçərlinin oğlu Elcan da şəhid oldu [10].

Əməliyyat planında yer alan tapşırıqlara əsasən döyüş zamanı cəbhənin başqa sahələrində erməni qüvvələrinə heç bir zərbə endirilmədi. Əməliyyatın rəhbəri general-mayor T. Mehdiyev göstəriş versə də, əmrdən iki gün sonra Şuşaya hərbi texnikanın heç biri gəlmədi: iki ədəd texnika yolda sıradan çıxaraq Laçında, daha iki ədəd zirehli texnika isə Qubadlıda qaldı. [4].

Yalnız bir neçə gün sonra əsgərlərimiz vaxtından gec göndərilmiş zirehli texnikadan və artilleriyadan istifadə edərək Daşaltını güclü atəşə məruz qoydular [13].

Sabiq nazir müsahibələrinin birində Şuşada yerli özünümüdafiə dəstələri tərəfindən əməliyyata dəstək verilmədiyini qeyd edərək bildirirdi ki: “Şuşadakı könüllülər tərəfindən də bizə yetərincə dəstək olmadı... O vaxt Şuşa özünümüdafiə taborunun komandiri rəhmətlik Ramiz Qəmbərova dedim ki, tabor üzvlərini yığın sıraya, onlarla görüş keçirək, söhbət edək. Cəmi 6-7 nəfər yığıldı. Halbuki, taborun siyahısında 300-dən çox döyüşçü vardı. Döyüş başlayan zaman isə onu çiynində avtomat görüb soruşdum ki, Ramiz, siz niyə yerli, ərazini yaxşı tanıyan sakinlər kimi Daşaltı əməliyyatına dəstək vermirsiz. Cavab verdi ki, bizim öz planımız var, biz bu cür əməliyyatlara qatılmırıq.

Təəssüf ki, vaxtım olmadı o günlər Şuşada baş verənləri araşdırmağa ki, özünü-müdafiə taborunun toplanmamasının əsas səbəbkarı kimlər olub. Ancaq sonradan çox şey aydın oldu” deyən general-mayor T.Mehdiyev müsahibəsinə davam edərək qeyd edir ki: “Səhv etmirəmsə, Rəhim Qazıyevin məhkəməsi gedirdi. Hakim Ənvər Seyidov məni də dəvət etmişdi. Şuşada tağım komandiri olmuş Nail Kazımov öz ifadəsində Kosalar kəndində Ramiz Qənbərovun ona Daşaltı əməliyyatı və mənim barəmdə söylədiklərini açıqladı: “Ağır döyüş gedirdi, ermənilər artıq kəndə yaxınlaşırdı. Ramiz Qəmbərov əsəbi halda dedi ki, bizə nə olsa, azdır. Tacəddin Mehdiyev kimi vətənpərvər, savadlı bir generala dəstək vermədik ki, Daşaltını azad etsin. Əksinə, Rəhimin sözünə qulaq asdıq... İndi də artıq ölüm ayağındayıq və çıxış yolumuz yoxdur...” [26].

Əməliyyatdan sonra Azərbaycan Respublikası tərəfi təhqiqata başlayır. 1992-ci ilfevralın 6-da MN-in Baş Qərargah Rəisinin müavini polkovnik-leytenant Şikar Şikarov aşağıdakı məzmunda arayış hazırlayır:

Məruzə edirəm ki, Daşaltı kəndinin tutulması əməliyyatının iştirakçıları və şahidləri ilə danışıqların nəticəsində müəyyən olundu ki:

1. Düşmənin və ərazinin kəşfiyatı dərindən aparılmayıb. Düşmənin bilavasitə ehtiyyat qüvvələrinin yeri, onların (döyüş yerinə) gələn yolları və mümkün hərəkət üsulları müəyyən olunmamışdı.
2. Əməliyyatda iştirak edən tərəflərin (bizimkilərlə düşmənin) qüvvə və vasitələrinin nisbəti tam (lazımınca) nəzərə alınmamışdı.
3. Qüvvə və vasitələrin hesablanması aparılmayıb.
4. Top və zirehli texnika kifayyət qədər deyildi. Texnika və silahlar döyüş əməliyyatlarına hazır deyildi.
5. Hücum aparılmasının əsasları pozulmuşdu. Şəxsi heyyət, əvvəldən artilleriya atəşi aparılmadan, hücuma keçmişdi.
6. Döyüş gedərkən, kəşfiyyat aparılmayıb.
7. Döyüş bölmələri arasında idarəolunma yox idi.
8. Yerli əhali arasından seçilmiş bələdçilər ərazini hərbi nöqteyi nəzərdən zəif tanıyırdılar.
9. Ehtiyyat qüvvəsi üçün müəyyən qüvvə və vasitələr ayrılmamışdı.
10. Əməliyyat planı, döyüş əmrləri və sərəncamları sənədləşdirilməmişdi [1; 2]. Edilən hücumun uğursuzluqla bitməsi ermənilərin Daşaltını ordumuz üçün "Qanlı Dərə" adlandırmasına səbəb oldu [23].

Rəsmi məlumatlara əsasən əməliyyat zamanı silahlı qüvvələrimiz 90 nəfərdən yuxarı itki verdi. Onlarla əsgərimiz hələ də itkin sayılır. Ermənilər isə 80-ə yaxın canlı qüvvə və bir neçə texnika itirdi [9;25].

Lakin sabiq müdafiə naziri Tacəddin Mehdiyev "Daşaltı əməliyyatı" haqqında Moderator.az-a açıqlamasında qeyd edir ki, "indi Daşaltı əməliyyatını faciə adlandırırlar, KİV-lər yazır ki, əməliyyatda 90 nəfər itki verilib. Bütün bunlar cəfəngiyyatdır, hamısı bir-birindən götürüb səhv məlumatları yazır. Əməliyyat zamanı cəmi 34 nəfər həlak olmuşdu, bununla bağlı məhkəmə də olub. İndi rəqəmləri 90-a qaldırırlar. Leyla Yunus müsahibələrində dəfələrlə Daşaltıda 120 nəfər zabitin həlak olduğunu bildirib. həlak halbuki o zaman Müdafiə Nazirliyinin ştatında cəmi 47 nəfər zabit olmuşdu"[17;14]..

T.Mehdiyev daha sonra bunları əlavə edir: "Əməliyyat zamanı erməni tərəfdən 80 nəfər həlak olmuşdu. Bütün dünya praktikasında belədir ki, hücum edən tərəf müdafiə olunan tərəfdən 3 qat artıq itki verməlidir. İndi o yalançı rəqəmləri belə götürsək, yəni bizdən 90, ermənilərdən 80 nəfər həlak olub desək, yenə də buna uğursuz əməliyyat demək olmaz. Bu rəqəmləri kimlərin sifarişiylə şişirdirlər bilmirəm, heç olmasa orada döyüşən insanlara qiymət versinlər. Onlar igidlik göstəriblər, onların əməyinin üzərindən xətt çəkməsinlər. O əməliyyatda döyüşənlər vətəni sevən insanlar olublar və fədəkarcasına döyüşüblər. Erməniyə hücum edən tərəf biz olmuşuq və erməni bizdən qat-qat artıq itki verib. Əsgərlərimiz tərəfindən bir kənd götürülüb və

buna görə də Daşaltı əməliyyatı uğurlu əməliyyat sayılır. Bu ayrı məsələdir ki, kəndi axıracan əlimizdə saxlaya bilməmişik, satqınlıq nəticəsində geri çəkilmişik” [17;14].

Beləliklə, Daşaltı əməliyyatının nəticələrini təhlil edərkən aşağıdakı mühüm məqamlar ortaya çıxır:

1. Əməliyyat zamanı hava şəraitinin sərtliyi:

Qeyd etmək lazımdır ki, əməliyyatın həyata keçirildiyi gün-yanvarın 25-də hava şəraiti son dərəcə əlverişsiz idi, güclü şaxta ətrafı bürümüşdü. Dərin qar örtüyü, yüksək dağlar, eləcə də özləri ilə götürdükləri silah-sursat döyüşçülərimizin hərəkətini çətinləşdirirdi [8].

2. Tağımlar arasında rabitə əlaqəsinin olmaması:

O dövrdə Azərbaycan və Ermənistanın rabitə xətləri rus kanalları üzərində yerləşirdi və hər iki tərəf planlaşdırılan əməliyyatlar haqqında məlumat alırdı. Xüsusilə qeyd etmək lazımdır ki, mövcud olan radioaparatlar çox köhnə idi və müasir tələblərə cavab vermirdi. Buna görə də tağımlar arası və komandanlıq arasında rabitə əlaqəsi yox dərəcəsində idi. Həmçinin qarşılıqlı fəaliyyət göstərən bölmələr arasında informasiya mübadiləsi üçün möhkəm əlaqə qurmaq mümkün deyildi. Rabitə əlaqəsinin pis təşkil olunması, nəticədə bölmələrin hərəkətlərində uyğunsuzluğa gətirib çıxardı, həmçinin komandanlığı vaxtında informasiya almaq imkanından məhrum etdi. Komandanlıq öz əsgərlərinin harada olmalarından, nə etmələrindən, nəyə ehtiyacları olduqlarından xəbərsiz olmaqla bərabər, həm də döyüşün gedişinə təsir etmək üçün lazımi qərarları verə bilmirdilər [8;28].

Ermənistan ordusunun komandanı Arkadi Ter-Tadevosyan müsahibələrinin birində Daşaltı əməliyyatı haqqında fikirlərini bildirərək demişdir: “Azərbaycan tərəfinin Daşaltıya hücumu haqqında bildikdə biz Daşaltı üçün döyüş planı təşkil etdik, mümkün olan hissələrdə komplektləşdik, saxta mövqelər yaratdıq. Bu birinci güclü döyüş idi ki, Azərbaycan Müdafiə Nazirliyinin fəaliyyətini parçaladı, hansı ki, plan onlar tərəfindən kifayət qədər çox düşünülmüşdü” [23].

1. Hərbi əlaqənin pis təşkil edilməsi:

“Bozqurd” batalyonunun komandiri Nurəddin Xoca isə Daşaltı əməliyyatın gedişatına toxunaraq qeyd edib ki,: “Bizim batalyonun döyüşçüləri də “Daşaltı” əməliyyatında iştirak etdi. Bölüklər arası əlaqə yox dərəcəsində idi. Döyüşün elə anları olurdu ki, bizim döyüşçü dəstələrimiz biz-biri ilə vuruşurdular. Dəstələr bir-biri ilə əlaqə saxlaya bilmirdi. Bir sözlə hərbi əlaqənin pis təşkil edilməsi, rabitə əlaqəsinin olmaması, peşəkar hərbi kadrların azlığı “Daşaltı” əməliyyatının uğursuzluğa düçar olunmasına gətirib çıxardı” [18].

4. Maddi-texniki təminatın zəifliyi:

Qarabağ Veteranlar Birliyinin sədri, tağım komandiri Füzuli Rzaquliyev müsahibəsində qeyd edir ki, "Həmin illərdə orduya, döyüşən könüllülərə etibar edib silah verilmirdi. Verilmiş silahların hamısı işlənmiş idi. Atış səviyyəsi normaya uyğun gəlmirdi" [3].

5.Peşəkar hərbi kadrların azlığı:

Daşaltı əməliyyatının uğursuzluğunun başlıca səbəblərindən biri və ən başlıcası yeni yaranmaqda olan Azərbaycan ordusunun əsgər və zabitlərlə komplektləşdirilməsinin zəif olması, vahid komandanlığın olmaması idi [6; 16].

6. Əməliyyat sirrinin yayılması: Tədqiqatlar göstərir ki, daşaltı əməliyyatı elə ciddi hazırlanmışdı ki, bu uğursuz ola bilməzdi. Uğrsuzluq yalnız diqqətsizliyin nəticəsində baş verib. Belə ki, hərbi ekspert Ədalət Verdiyev əməliyyatı təhlil edərkən qeyd edib ki, "Keçmiş döyüşçülərin sözlərinə görə, əməliyyatdan bir neçə gün əvvəl artıq Şuşada hamı bu əməliyyatdan danışırmış. Deməli, əməliyyat ləğv edilməli idi, vaxtı və şərtlər dəyişdirilməli idi. Bu məlumatın haradan sızdığı araşdırılıb tapılmalı idi"[9;24]. O, çıxışına davam edərək qeyd edir ki, döyüşlər aparılan zaman Şuşa şəhəri hələ işğal olunmamışdı. Bu baxımdan əslində, kənddə əməliyyat keçirmək asanlıqla başa gəlməli idi. Çünki Şuşadan bu kənd ovuc içi kimi görünürdü. Belə mövqe isə döyüşü uğurla və itkisiz başa çatdırmağa imkan verirdi. Lakin bütün bunlara baxmayaraq, ağır, dəhşətli məğlubiyyət yaşandı...

7. Bələdçilərin xəyanəti: Əməliyyat zamanı bələdçilərin xəyanəti ilə bağlı yayılmış məlumatlar Daşaltı əməliyyatının gündəmində ağırlığı ilə dayanan önəmli detallardandır. T.Mehdiyevin müsahibəsinə əaslanaraq deyə bilərik ki, "hərbi nizamnamədə mülki əhalidən bələdçi götürmək məsələsi yoxdur. Bu haqda mən məhkəmədə və telekanallardakı çıxışlarımda da demişəm. Əslində bizə heç bələdçi lazım deyildi, Şuşadan baxanda Daşaltı ovcumuzun içində idi. Bələdçi götürməyi bizə əməliyyat zamanı şəhərdə təhlükəsizliyi təmin etmək, kənar adamların döyüş ərazisinə daxil olmasına imkan verməməsi məqsədi ilə dəvət etdiyimiz Şuşa rayon polis rəisi Vahid Bayramov təkidlə təklif etdi. Biz də ərazini tam yaxşı tanımadığımız üçün razılaşdıq. Bələdçilər isə bizim döyüşçüləri Daşaltına qısa yolla aparmaq əvəzinə, uzaq yollab- Kirs dağı istiqamətinə aparıb sonra kəndə qaytardılar və nəticədə bizim dəstələrdən ikisi mühasirəyə düşdü və çox hissəsi döyüşdə həlak oldu. Məhkəmədə döyüşçülər danışırdı ki, biz irəlilədikcə bələdçilərdən bəziləri əllərindəki silahdan göyə atəş açırdılar. Sonradan onların yerimizi düşmənə işarə verdiyi bəlli oldu. Biz də xəyanətlərini görüb özümüz meşədə onları güllələməyə məcbur olduq... əməliyyatdan sonra isə sağ qalmış bələdçiləri tapmaq cəhdləri nəticə vermədi. O, yanvarın sonuna kimi Şuşada qaldı, amma bu vaxt ərzində bələdçilərdən heç birini tapmadılar" [13; 26].

90-cı illərin əvvəllərində Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Qarabağ bölgəsi üzrə Şöbəsinin məsul əməkdaşı olmuş Ağalar Əliyev isə bildirir ki,

1992-ci ilə Daşaltı əməliyyatında yaşanmış faciədən xeyli əvvəl - 1991-ci ilin aprel ayında yerli qüvvələrlə, polislə birlikdə Daşaltı kəndində pasport rejiminin yoxlanılması ilə bağlı uğurlu əməliyyat keçirilib. Əməliyyatın icrasında bilavasitə məsul olmuş A.Əliyevin sözlərinə görə, bu çox uğurlu bir əməliyyat olmuşdu: "İştirakçılardan heç birinin burnu da qanamamışdı. Qanuna tabe olmayan bir neçə erməni də öldürülmüşdü. Səhərisi gün isə birbaşa kəndin içərisinə girdik və Daşaltıda nə qədər əli silah tutan başıpapaqlı erməni vardı, hamısını tutub gətirdik. Sonra bizə təzyiqlər oldu ki, onları buraxın. Bu əməliyyatda ən böyük silahımız pulemyot idi". Daşaltı əməliyyatında bələdçilərin xəyanətinə diqqət çəkən Ağalar Əliyev daha sonra qeyd edir: "Görünən kəndə nə bələdçi? Əslində kənddə əməliyyat keçirmək asanlıqla başa gəlməliydi. Bütün bunlara baxmayaraq, bələdçilərin sayəsində ağır məğlubiyyət yaşandı" [15].

Ümumilikdə I Qarabağ savaşını, o cümlədən Daşaltı əməliyyatını təhlil edərkən çoxumuz əsas üç amili unuduruq. Birinci, respublika yenicə müstəqilliyə qovuşmuşdu, ikinci, ölkədə dərin ictimai-siyasi böhran hökm sürürdü, üçüncüsü və bəlkə də ən əsası isə keçmiş sovet ordusu tədricən nəzarətimizə keçən Azərbaycan torpaqlarından çıxarılsa da, Qarabağda və Ermənistanda hələ də qalırdı. Həmçinin Müdafiə Nazirliyi və silahlı birləşmələrin rəhbərliyinə "QRU"nun (keçmiş sovet və sonrakı Rusiya Ordusunda Baş Kəşfiyyat İdarəsi) və arxivləri açılmamış DTK-nın agentura şəbəkəsi yerləşdirilmişdi. Ölkədəki ağır vəziyyətdən istifadə edən həmin peşəkar şəbəkə çox asanlıqla hərbi və dövlət sirlərini, döyüşlərin aparılması üçün hazırlanmış əməliyyat planlarını və s. ermənilərə ötürür, eləcə də ən həlledici məqamlarda ordumuzun mühasirəyə salınmasına, məğlub olmasına şərait yaradırdı…

Belə bir şəraitdə - "Daşaltı" əməliyyatı keçirilən ərəfədə də sovet ordu hissələri hələ Azərbaycan ərazisindən, o cümlədən, Xankəndidən çıxarılmamışdı. Baş verən bu hadisələr ordumuzun Daşaltıda uğursuzluğa uğramasını labüd etdi [25].

O dövr üçün nadir görünən hal kimi 16 yaşında oğlu ilə bərabər döyüş bölgəsində olub əməliyyatı yerindəcə hazırlayan və icra edən, könüllü əsgərlərlə birlikdə bir qabdan çörək yeyib, bir yerdə postda dayanan sabiq müdafiə naziri general-mayor T.Mehdiyevin təbirincə desək, əslində biz Daşaltıda hərbçi kimi qarşımıza qoyduğumuz vəzifəni yerinə yetirdik, kəndin ərazisini ələ keçirdik. Döyüş zamanı 80-ə yaxın erməni terrorçusunu gəbərtdik. Bunu mediada çıxış edən bir çox döyüşçülər də təsdiqləyir. Sadəcə, xəyanət nəticəsində iki dəstəmizin mühasirəyə düşüb ciddi itki verməsi səbəbindən geri çəkilməyə məcbur olduq...Təəssüf ki, Daşaltı əməliyyatında iştirak edənlərin çoxuna layiqincə qiymət verilmədi... [26].

Sonda Daşaltı əməliyyatı zamanı qəhrəmancasına şəhid olmuş əsgər və zabitlərimizin ruhu qarşısında baş əyir, onlara Allahdan rəhmət diləyirik.

**Ədəbiyyat**


1. Arayış https://elbrusvahidov.blogspot.com/2014/09/arayis-mruz-edirm-ki-dasalt-knd inin.html
2. Arayış foto- http://1.bp.blogspot.com/ndD0sxKFJd8/VBXro6GA8WI/AAAAAAAAAEo/wlonvPDRTso/s1600/.ikarov.jpg
3. AslanlıO."Nə olsun ki, "Daşaltı əməliyyatı"na general, müdafiə naziri rəhbərlik edirdi..." 26 Yanvar2016 - https://ann.az/az/ne-olsun-ki-dasalti-emeliyyatina-general-mudafie-naziri-rehberlik-edirdi-aiqlama/javascript
4. Aydınoğlu T. Daşaltı faciəsi – 26 il əvvəlin uğursuz hərbi əməliyyatı güclü ordu yaradılmamasının ilk acı xəbərdarlığı olmuşdu daşlara yazılmış şəhidlik dərsi, xalq qəzeti, 2018, 28 yanvar,s.3- http://www.anl.az/down/meqale/xalqqazeti/2018/yanvar /574043.pdf
5. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, iki cilddə. I cild, Bakı, "Şərq-Qərb", 2007-ci il, 304s., s.151
6. Azərbaycan Ordusunun Vətən müharibəsindəki parlaq Qələbəsi ilə yenilənən tarix – Daşaltı əməliyyatından 30 il ötür 25.01.2022https://azertag.az/xeber/Azerbaycan_Ordusunun_Veten_muharibesindeki_parlaq_Qelebesi_ile_yenilenen_tarix___Dasalti_emeliyyatindan_30_il_otur_VIDEO-1985753
7. Azərbaycan Mədəniyyəti və Turizim Nazirliyi Göyçay rayon M.Ə.Sabir adına Mərkəzi Kitabxanası Daşaltı əməliyyatı – 25 illiyi Göyçay – 2017, 7s.
8. Azərbaycan Ordusunun 90 şəhid verdiyi əməliyyat -26 il keçdi -26 Yanvar 2018http://femida.az/az/news/72431/azerbaycan-ordusunun-90-sehid-verdiyi-emeliyyat-26-il-kecdi
9. Bayramov V.Qisası qiyamətə qalmayan "Daşaltı əməliyyatı", "Xalq qəzeti"https://xalqqazeti.com/mobile/az/news/94337Daşaltı
10. Balabəyli F. Daşaltı əməliyyatında planlar ermənilərin əlinə necə keçib? 2014.05.06 – Şahid- https://axar.az/news/toplum/16857.html
11. Daşaltı əməliyyatı -24 il, 26 Yanvar 2016 - http://femida.az/az/news/17179/Daşaltı-əməliyyatı---24-il
12. Daşaltı (Şuşa), Oktyabr 28, 2021, https://www.wiki.az-az.nina.az//Daşaltı_(Şuşa). html
13. Daşaltı əməliyyatı - https://az.wikipedia.org/wiki/Daşaltı_əməliyyatı
14. Daşaltı cəngavərləri danışır: "Düşmənin bizim gəlişimizdən xəbəri olmadı"25 Yanvar, 2022https://report.az/qarabag/dasalti-cengaverleri-danisir-dusmenin-bizim-gelisimizden-xeberi-olmadi/

15. Daşaltı əməliyyatının qaranlıq məqamları — Hərbçilərimizin meyitləri kənddən gec çıxarılıb? 26 Yanvar 2019 - http://femida.az/az/news/100071/dasalti-emeliyyatinin-qaranliq-meqamlari-%E2%80%94-herbcilerimizin-meyitleri-kendden-gec-cixarilib.
16. Daşaltı faciəsinin günahkarı hesab edilən Təcəddin Mehdiyev Xocavəndin Qaradağlı kəndi də itirildikdən sonra müdafiə naziri vəzifəsindən azad edilib, BAKI, 17 fev — Sputnik.https://sputnik.az/20170217/taceddin-mehdiyevin-vezifeden-azad-olunmasi-408952100.html
17. Daşaltı əməliyyatı - Adalet.az - https://www.adalet.az/mobil/119425
18. Əhmədli C. Əsgərlərimiz bir-biri ilə döyüşürdü" –"Daşaltı" əməliyyatı ilə bağlı şok açıqlama26 Yanvar 2016- http://femida.az/az/news/17221/"Əsgərlərimiz-bir-biri-ilə-döyüşürdü"-—"Daşaltı"-əməliyyatı-ilə-bağlı-şok-açıqlama
19. Əliyev T. Uğursuz Daşaltı əməliyyatı və onun acı nəticələri, Xalq qəzeti 2014.- 26 yanvar.- S. 5. - http://www.anl.az/down/meqale/xalqqazeti/2014/yanvar/348535. htm
20. Fərəcova Z. İlk Daşaltı əməliyyatı faciə ilə başa çatdı, "Azərbaycan" - https://www. azerbaijan-news.az/az/posts/detail/ilk-dasalti-emeliyyati-facie-ile-basa-catdi-16431 44382
21. Qaraca B. Daşaltıda - daş altında qalanlar, Azərbaycan.-2013.- 26 yanvar.- S.6. - www.anl.az/down/meqale/azerbaycan/2013/yanvar/291297.htm
22. Qisası alınan "Daşaltı əməliyyatı"ndan 30 il ötür 25 Yanvar,2022 https://report. az/ qarabag/qisasi-alinan-dasalti-emeliyyati-ndan-30-il-otur/
23. Qocayev Şahin, Daşaltı əməliyyatı ermənilərin dili ilə 26 Yanvar 2015 - https://modern.az/az/news/71181#gsc.tab=0
24. Orucov Yunis, "Daşaltı əməliyyatı"ndan 29 il sonra – Daş altında yatan qisas alındı, 25 Yanvar,https://aztv.az/az/news/11308/dasalti-emeliyyatindan-29-il-sonra-das-altinda-yatan-qisas-alindi
25. Sultan L. Daşaltının daş altda yatan sirləri… Həftə içi.- 2014.- 25-27 yanvar.- S.4. www.anl.az/down/meqale/hafta_ichi/2014/yanvar/348906.htm
26. Sultan L. "Ramiz Qəmbərov dedi ki, bizə nə olsa, azdır – T. Mehdiyev kimi generala dəstək vermədik..." 27 Jan 2021 https://moderator.az/arasdirma/362571/ramiz-qemberov-dedi-ki-bize-ne-olsa-azdir-t-mehdiyev-kimi-generala-destek-vermedik/
27. Tağıyeva G Daşaltı əməliyyatının gizlinləri 1992-ci ildə biz o qayaların üstündə, yüksəklikdə idik... 03 Fevral 2022. https://ordu.az/az/news/208937/dasalti-emeliyyatinin-gizlinleri%7C-1992-ci-ilde-biz-o-qayalarin-ustunde,-yukseklikde-idik
28. 25 yanvar və 5 noyabr "Daşaltı əməliyyatı": 29 ilin fərqi https://axar.az/news/ toplum/533134.html

29. Дашалтинская операция. https://apa.az/ru/nagornyj-karabakh/Operaciya-v-Dashalty-Pobeda-spustya-29-let-colorredREPORTAZh-FOTOcolor-435926 və ya Qisası alınan "Daşaltı əməliyyatı"ndan 30 il ötür 25 Yanvar, 2022 https://report.az/qarabag/qisasi-alinan-dasalti-emeliyyati-ndan-30-il-otur/

# ŞUŞA-XALQIMIZIN MİLLİ İNCİSİ, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN ZƏNGİN SƏRVƏTİ

**İradə Hüseynova**
Bakı Dövlət Universiteti
**prof.irada.huseynova@gmail.com**

***Açar sözlər:*** *Şuşa şəhəri,ermənilərin Qafqaza köçürülməsi, 44 günlük Vətən müharibəsi, Şuşa Bəyannaməsi, Qarabağ mədəniyyət mərkəzi, Ü.Hacıbəyov*

*Məqalədə Azərbaycanın zəngin mədəniyyət şəhəri olan qədim Şuşanın tarixinə qısa ekskurs edilir və şəhər ermənilərin işğalına məruz qalana qədər burada olan tarix və mədəniyyət abidələri barədə məlumat verilir. 44 gün davam edən və Azərbaycanın şanlı qələbəsi ilə başa çatan İkinci Qarabağ Müharibəsindən sonra Şuşada yenidən Azərbaycan bayrağının dalğalandığı böyük qürur hissi ilə qeyd edilir, şəhərin yenidən dirçəldilməsi istiqamətində görülən işlər təhlil edilir. Göstərilir ki, İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Ermənistanın kapitulyasiyasına qədər olan 44 gün ərzində Azərbaycanın yanında olan qardaş Türkiyə post-müharibə dövründə də dövlətimizi və xalqımızı siyasi və mənəvi cəhətdən dəstəkləməkdə davam etməkdədir. Müəllif Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair imzalanan Şuşa Bəyannaməsinə xüsusi toxunur və bu tarixi sənədin ikitərəfli münasibətlərin ayrı-ayrı mühüm aspektlərini əhatə edən bir sıra müddəalarını şərh edir. Bəyannaməyə əsasən, Türkiyə və Azərbaycandan hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olacağı təqdirdə bu ölkələr bir-birini qorumaq üçün birgə fəaliyyət göstərəcəklər. Məqalə Azərbaycan mədəniyyətinin paytaxtı elan edilən, Türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşanın bir sıra məşhur mədəniyyət və incəsənət xadimlərinin həyat və fəaliyyəti barədə məlumatları da oxucuların diqqətinə təqdim edir.*

## ШУША – НАЦИОНАЛЬНАЯ ЖЕМЧУЖИНА НАШЕГО НАРОДА, БОГАТЕЙШАЯ КОЛЫБЕЛЬ АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ

**Ирада Гусейнова**

***Ключевые слова:****город Шуша, переселение армян на Кавказ, 44-дневная Отечественная война, Шушинская декларация, Карабахский культурный центр, У.Гаджибеков*

*В статье дается краткий экскурс в историю древней Шуши, богатого культурного города Азербайджана, и приводятся сведения об исторических и культурных памятниках, существовавших здесь до захвата города армянами. Автор с большой гордостью отмечает, что после длившейся 44 дня и закончившейся славной победой Азербайджана второй Карабахской войны флаг Азербайджана снова развевается в Шуше , а также анализирует работу, проделанную для возрождения города. Отмечается, что братская Турция, которая нахоилась рядом с Азербайджаном  с первого же дня второй Карабахской войны  до самой капитуляции Армении, продолжает политически и морально поддерживать наше государство и наш народ в послевоенный период. Автор уделяет особое внимание  подписанию Шушинской декларации о союзнических отношениях между Азербайджаном и Турцией и комментирует ряд положений этого исторического документа, охватывающих различные важные аспекты двусторонних отношений. Согласно декларации, Турция и Азербайджан будут вместе защищать друг друга в случае угрозы со стороны любой третьей страны. В статье также представлена информация о жизни и деятельности ряда известных деятелей культуры и искусства в Шуше, объявленной культурной столице тюркского мира.*

## SHUSHA-NATIONAL  PEARL OF OUR PEOPLE, IS THE RICHEST CRADLE OF AZERBAIJANI CULTURE

***İrada Huseynova***

***Key words:*** *Shusha city, resettlement of armenians to the Caucasus, 44-day Patriotic War, Shusha Declaration, Karabakh Cultural Center, U.Hajibeyov*

*The article gives a brief excursion into the history of ancient Shusha, the rich cultural city of Azerbaijan, and provides information about the historical and cultural monuments here before the city was occupied by Armenians. The author notes with great pride that after the Second Karabakh War, which lasted 44 days and ended with the glorious victory of Azerbaijan, the Azerbaijani flag was hoisted in Shusha again, and the work done to revive the city is analyzed. It is noted that during the 44 days from the first day of the Second Karabakh War to the capitulation of Armenia, brotherly Turkey, which has been with Azerbaijan, continues to support our state and people politically and morally in the post-war period. The author pays special attention to the Shusha Declaration on Allied Relations between Azerbaijan and Turkey signed in*

*Shusha and comments on a number of provisions of this historical document covering various important aspects of bilateral relations. According to the declaration, Turkey and Azerbaijan will work together to protect each other in the event of a threat from any third country. The article also provides information about the life and activities of a number of famous cultural and artistic figures of Shusha, which was declared the capital of Azerbaijani culture and the cultural capital of the Turkic world.*

> ***"Öz şanlı tarixinə görə Şuşa təkcə orada yaşayan şuşalıları və onların nəsillərini deyil, həmçinin bütün azərbaycanlıları da həmişə özünə cəlb etmiş və diqqət mərkəzində olmuşdur. Bu şəhər daim bütün Azərbaycan xalqının himayəsi altında olmuşdur. Dünyanın əksər guşələrində Şuşanı tanıyır, sevir və hörmət edirlər. Təsadüfi deyil ki, XX əsrin əvvəllərində də Şuşaya xüsusi münasibət var idi".***
>
> **Heydər Əliyev**

Sakini olduğumuz Yer kürəsi sonsuz-hüdudsuz kainatda çox kiçik bir səma cismi olsa da, bu gün milyardlarla insanın yaşadığı və fəaliyyət göstərdiyi doğma "ev"imizdir. Ulu Tanrı yer üzünün əşrəfi sayılan insanı özünə bənzər yaratdığı kimi, mavi planetimizi də bizlərin yaşayıb-yaratması üçün hər cür şəraitlə və maddi nemətlərlə təmin edib. Yer kürəsi özünə bənzər digər planetlərlə müqayisədə həqiqətən də çox gözəl və əsrarəngizdir, mavi dənizlər, bol sulu çaylar, göy üzünün aynası göllər, başı qarlı, vüqarlı dağlar, zümrüd meşələr və başqa təbiət gözəllikləri çətin ki, yaşayış üçün bəlkə də yararlı ola biləcək digər göy cisimlərində mövcud olsun. Xoşbəxtlikdən vətənimiz Azərbaycan bu füsunkar Yer kürəsinin elə bir ərazisində yerləşir ki, Yaradan bu bölgədən öz səxavətini qətiyyən əsirgəməyib. Bəlkə də yerləşdiyimiz coğrafiyanın aurası, gözəlliyi, torpaqlarımızın barı-bərəkəti ilə bağlıdır, ola bilsin xalqımızın istedadı, mərdliyi, qonaqpərvərliyi ilə əlaqəlidir, hər halda Azərbaycan dünyaya qədim dövrlərdən indiyə qədər elə dahi şəxslər bəxş etmişdir ki, onların həyat və yaradıcılığı bu gün də heyrət doğurur. Biz bəşəriyyətə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Nəsirəddin Tusi, Saib Təbrizi, Mirzə Kazımbəy, Lütfi Zadə, Üzeyir Hacıbəyov, Qara Qarayev, Tahir Salahov ... kimi neçə-neçə böyük sənətkarlar vermişik. Bu şəxslərin hər birinin ümumbəşəri əsərləri özlərindən sonra gələnlər üçün böyük yaradıcılıq məktəbi, zəngin mənbə olmuşdur.

Bu baxımdan, qədim Şuşa şəhərini xüsusi qeyd etmək lazımdır. Çünki "Qafqazın sənət məbədi", "Kiçik Paris", "Şərqin konservatoriyası" və "Azərbaycan musiqisinin beşiyi"kimi titullara layiq görülənbu şəhər məşhur şairləri, yazıçıları, bəstəkarları, xanəndələri, ifaçıları ilə nəinki milli, həmçinin dünya mədəniyyətini zənginləşdirib, bu mədəniyyətə öz töhfəsini verib. Aparılan tədqiqatlara əsasən, XIX yüzillikdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 8 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur [1].1992-ci ildə Şuşa ermənilər tərəfindən işğal olunana qədər şəhərdə 600-ə yaxın tarixi memarlıq abidəsi - Pənahəli xanın sarayı, Yuxarı Gövhər ağa məscidi, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evi, Molla Pənah Vaqifin məqbərəsi, 7 məktəbəqədər uşaq müəssisəsi, 22 ümumtəhsil məktəb, mədəni-maarif və kənd təsərrüfatı texnikumları, orta ixtisas musiqi məktəbi, 8 mədəniyyət evi, 22 klub, 31 kitabxana, 2 kinoteatr, 8 muzey, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı,Xalq Tətbiqi Sənət Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi və Qafqazda yeganə Şərq musiqi alətləri fabriki vardı. Bütün bunlar işğalçılar tərəfindən dağıdılmış, nadir sənət inciləri talanmış və məhv edilmişdir.

Ulu öndər həmişə deyirdi ki, Şuşa Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir: "*Şuşa Azərbaycanın incisi, Qarabağın gözüdür,bizim qədim abidələrimiz olan, qədim dövlətçiliyimizin şəhəridir. Şuşa böyük tarixə malik şəhərdir*"[2, s.189].

1752-ci ildə Pənahəli xan tərəfindən Şuşa qalasının əsası qoyulduqdan sonra onun şərq hissəsinin – qədim Şuşanın tikintisinə başlanıldı. Qayalarla əhatə olunmuş sıx meşədə alınmaz qala inşa edildi. Paytaxt əvvəlcə Pənahəli xanın şərəfinə Pənahabad, sonra isə Şuşa adlandırıldı. Qala divarlarının və şəhərin tikintisində Azərbaycanın hər yerindən memarlar iştirak etmişdilər. Ətraf kəndlərin sakinləri yeni paytaxta köçdülər. Xan sarayları, məscidlər, hamamlar tikildi.Burada Azərbaycan türklərinin məskunlaşdıqları 17 məhəllə vardı: Qurdlar, Seyidli, Culfalar, Quyuluq, Çuxur, Dördlər Qurdu, Hacı Yusifli, Dörd Çinar, Çöl Qala, Mərdinli, Saatlı, Köçərli, Mamayı, Xoca Mərcanlı, Dəmirçi, Hamam Qabağı və Təzə məhəllə. Onlar şərti olaraq yuxarı və aşağı məhəllələrə bölünürdü. Şəhərin sonralar tikilmiş qərb hissəsi, əsasən, xristianlar – ermənilər, ruslar və gürcülər tərəfindən məskunlaşmışdı.

Şuşa şəhəri İrana, İrəvandan Türkiyəyə və Gəncədən Tiflisə gedən Cənubi Qafqaz karvan yollarının qovuşuğunda yerləşdiyindən, müxtəlif şəhər və ölkələrdən gələn bütün karvanlar Şuşanın karvansaralarında qalırdılar. Şəhər

əhalisinin əsas məşğuliyyəti ticarət və sənətkarlıq idi. Hələ 1830-cu ildə Şuşa Qərbin və Şərqin bir çox ölkələri ilə ticarət edirdi.

1763-cü ildə Pənahəli xanın ölümündən sonra taxt-taca onun oğlu İbrahimxəlil xan (1732-1806) yiyələndi. Onun dövründə Qarabağ xanlığı möhkəmləndirildi və Şuşanın tikintisi xüsusilə intensiv şəkildə aparıldı. 1805-ci ildə Rusiyanın təzyiqləri altında İbrahimxəlil xan məcburiyyət qarşısında Kürəkçay müqaviləsini imzaladı. Bu müqaviləyə əsasən, Qarabağ xanlığı Rusiyanın himayəsi altına keçdi. 1822-ci ildə xanlıq, ümumiyyətlə, ləğv edildi və Rusiya İmperiyasının protektoratına çevrildi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin haqlı olaraq "abidələr şəhəri" adlandırdığı Şuşada 350 hektarlıq qoruq zonasında 300 tarixi abidə, 550 qədim yaşayış binası, 870 m uzunluğunda bərpa olunmuş qala divarları vardı. Tarixi abidələrdən 23-ü respublika və dünya miqyaslı abidələrə aid idi. Şuşada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi haqlı olaraq şəhərin mədəniyyətimizin ən zəngin beşiyi adlandırılmasına səbəb olmuşdur. Bu abidələrin çoxu XVIII-XIX əsrlərə aiddir [3].

Artıq XIX əsrin ikinci yarısında şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 min nəfərə çatmışdı. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynamışdır [4].

Şəhərdə şair, musiqiçi və xanəndələrin sayı getdikcə artdığındanonların yaradıcı birliyi üçün hansısa cəmiyyət yaratmaq lazımıydı. Şərqdə bu cür birliklərə misal olaraq ədəbi və musiqi məclislərini göstərmək olar. Şuşada çoxlu "ev" məclisləri vardı, bu məclislərin hər birində bir-biri ilə dostluq edən iki-üç şair iştirak edirdi. Ümumi Şuşa ədəbi məclisinin yaradılması məqsədilə müvafiq şəraiti olan ev və maddi təminat zəruri idi. 1872-ci ildə Xurşidbanu Natəvanın rəhbərliyi ilə məclis yaratmaq qərara alındı. Məclisi "Məclisi üns" ("Dostluq məclisi") adlandırdılar.

Araşdırmalara əsasən, "Sadıqcanın məharəti gənc musiqiçilər və xanəndələr üçün əla bir məktəb idi. XIX əsrin 90-cı illərində Şuşada onun rəhbərliyi altında ansambl yaradılmışdı. Ansamblda ən tanınmış xanəndələr, tarzənlər, kamançaçılar, tütək, balaban, qoşanağara və zurna ifaçıları iştirak edirdilər. Hətta iki qız da ansamblın iştirakçısı idi. Onlar Azərbaycan rəqslərini ifa edirdilər" [5, s. 47].XIX əsrin axırlarında Şuşada Xandəmirovun teatrında maarifpərvər yazıçı Əbdürrəhim bəy Haqverdiyevin rəhbərliyi ilə tamaşalar səhnələşdirilir, Şərq musiqisi konsertləri təşkil olunurdu. Böyük populyarlıq qazanmış Keçəçioğlu Məhəmməd bu konsertlərdə digər muğam ustadları ilə birgə çıxış edirdi.

1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələri ilə Azərbaycanın ikiyə bölünməsi Şimali Azərbaycan torpaqlarının erməniləş-

dirilməsi prosesini sürətləndirmişdi. XIX əsrin ikinci yarısından ermənilərin azərbaycanlılara qarşı soyqırımı təşkilatlanmış şəkildə və planlı siyasət kimi aparılmışdır. Birinci dünya müharibəsi illərində qaçqın dalğası sayəsində Qarabağda ermənilərin sayı daha da artmışdı.1918-ci ildə Azərbaycanda Xalq Cümhuriyyəti qurulanda Ermənistan Respublikası Azərbaycana qarşı torpaq iddiası irəli sürmüşdü. Silahlı toqquşmalar baş vermişdi, azərbaycanlılar öz ata-baba torpaqlarından zorla qovulub çıxarılmışdı. DağlıqQarabağ üstündə müharibə baş vermişdi. Azərbaycan ordusu silah gücünə Dağlıq Qarabağın ərazisini müdafiə edib qoruyub saxlamışdı.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra erməni şovinistləri, separatçıları yenədə Dağlıq Qarabağı Ermənistana birləşdirmək uğrunda fəallaşmışdılar. RK(b)P-nin Qafqaz bürosunun 1921-ci il 4-5 iyul tarixli iclaslarında Dağlıq Qarabağ məsələsi ətrafında gərgin, ciddi müzakirələr getmişdi[6, s. 342].

Şəxsən Nəriman Nərimanovun prinsipial mövqeyi, barışmaz mübarizəsi nəticəsində RK(b)P-nin Qafqazbürosunun 5 iyul tarixli iclasında qərar qəbuledilmişdi: “Müsəlmanlar və ermənilər arasında milli sülhün, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrinin, onun Azərbaycanla daimi əlaqəsinin zəruriliyini nəzərəalaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in tərkibində saxlanılsın, muxtar vilayətin tərkibində yerləşən Şuşa şəhəri inzibati mərkəz olmaqla ona geniş vilayət muxtariyyatı verilsin” [7, s. 92].

XX əsrin axırlarında – keçmiş SSRİ imperiyasının dağılması ərəfəsində Ermənistanın əsassız torpaq iddiaları yenidən baş qaldırdı. Azərbaycan ərazilərini işğal etmək və indiki Ermənistan ərazisini isə “türksüz Ermənistana” çevirmək planlarının gerçəkləşdirilməsi üçün əlverişli şəraitin yarandığını zənn edən Ermənistan SSR rəhbərliyi qanlı cinayət əməllərini məqsədyönlü şəkildə həyata keçirməyə başladı. Ermənistanın 1988-1992-ci illərdə planlı olaraq həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından qovuldu. 1988-ci ildən etibarən Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağın azərbaycanlılar yaşayan 126 yaşayış məntəqəsindən də soydaşlarımız qovuldu. Erməni silahlı qüvvələrinin 1988-ci ildən başlayan hərbi təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionu və ətrafındakı 7 rayonun 600 mindən çox sakini də öz yaşayış yerlərindən məhrum edilərək respublikanın 62 şəhər və rayonunda, 1600-dən çox məskunlaşma obyektində məcburi köçkün həyatı yaşamağa başladı. XX əsrin sonlarında Ermənistanın Azərbaycana növbəti təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20 faizdən çox hissəsi, başqa sözlə 17 min kv.km-dən yuxarı ərazi, o cümlədən əziz və gözəl Şuşa şəhəri işğal olundu.

30 il ərzində artıq keçmişdə qalan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, danışıqlar masası arxasında, beynəlxalq

hüquq əsasında ədalətli şəkildə həll olunması üçün səylə çalışan Azərbaycan Respublikası 2020-ci il sentyabrın 27-nə qədər məhz bu istiqamətdə fəaliyyət göstərdi. Lakin ermənilərin bütün cəbhə boyu genişmiqyaslı hücuma keçməsi və Ermənistanın hərbi-siyasi rəhbərliyinin qeyri-konstruktiv mövqeyi münaqişənin hərbi yolla həllindən başqa heç bir digər yolun qalmadığını sübuta yetirdi.

Böyük qürur hissi ilə qeyd etməliyik ki, 44 günlük Vətən müharibəsi zamanı rəşadətli və qalib Azərbaycan ordusunun uğurlu hərbi əməliyyatları nəticəsində ermənilərin zəbt etdiyi şəhər və qəsəbələrimiz bir-birinin ardınca işğaldan azad olundu: Füzuli şəhəri, Horadiz qəsəbəsi, Cəbrayıl, Zəngilan, Hadrut, Qubadlı rayonları... nəhayət, alınmaz qala, Qarabağın ürəyi - gözəl və qədim Şuşa!

2020-ci il noyabrın 8-də rəşadətli Azərbaycan Ordusunun igidliklə vuruşduğu, dünyanın hərb tarixinə düşəcək döyüşlərinlərdən sonra Şuşa şəhərini düşməndən azad etməsi nəticəsində üçrəngli Azərbaycan bayrağı artıq bu füsunkar şəhərimizdə də dalğalanır. Məhz Şuşa azad edildikdən sonra Ermənistan yeganə çıxış yolunun kapitulyasiya olduğunu, nəhayət, başa düşdü. Müzəffər Azərbaycan Ordusu qarşı tərəfin ən möhkəm istehkamlarını qəhrəmancasına darmadağın edərək Qarabağ dağlarının zirvəsini - milli kimliyimiz, qürurumuz, qeyrət və mənliyimizin rəmzi olan, 28 il həsrət qaldığımız qədim Şuşamızı, Cıdır düzünü, İsa bulağını, Xarı Bülbülümüzü öz canı və qanı bahasına yenidən və əbədi olaraq fəth etdi [8].

İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən Ermənistanın kapitulyasiyasına qədər olan 44 gün ərzində Azərbaycanın yanında olan qardaş Türkiyə post-müharibə dövründə də dövlətimizi və xalqımızı siyasi və mənəvi cəhətdən dəstəkləməkdə davam etməkdədir. Azərbaycanda səfərdə olan Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 2021-ci il iyunun 15-də Qarabağı da ziyarət etdi və bu tarixi səfər zamanı qədim Şuşada Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətlərinə dair Bəyannamə imzalandı. "Şuşa Bəyannaməsi" adlanan bu mühüm sənəd ikitərəfli münasibətlərin ən yüksək həddə çatdırılacağını ehtiva edir. Belə ki, Bəyannaməyə əsasən, Türkiyə və Azərbaycandan hər hansı birinə üçüncü ölkə tərəfindən təhlükə olacağı təqdirdə bu ölkələr bir-birini qorumaq üçün birgə fəaliyyət göstərəcəklər.

Bəyannamədəgöstərilir ki, hər iki ölkənin Təhlükəsizlik Şuraları arasında milli təhlükəsizlik məsələləri üzrə ortaq toplantılar keçiriləcək. Türkiyə ilə Azərbaycan arasında həyatımızın ən müxtəlif sahələrində olduğu kimi, hərbi sahədə də sıx əməkdaşlıq var, hər iki ölkənin ərazisində mütəmadi birgə hərbi təlimlər keçirilir, hərbi-texniki sahədə də əlaqələr getdikcə güclənir. Lakin bu münasibətlərin Təhlükəsizlik Şuraları səviyyəsinə çatdırılması o deməkdir ki, iki qardaş ölkənin müdafiə və təhlükəsizlik siyasətləri bundan sonra koordinasiya olunacaq, regional və beynəlxalq təhlükəsizlik məsələləri də müzakirə ob-

yektinə çevriləcək. Şuşa Bəyannaməsində silahlı qüvvələrimizin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, onların müdafiə qabiliyyətlərinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah və sursatların idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi mühüm məsələlərdən sayılmalıdır [9, s. 204].

Qeyd edək ki, Şuşa Bəyannaməsi tarixi Qars müqaviləsindən düz 100 il sonra imzalanmışdır. 1921-ci il oktyabrın 13-də imzalanan bu müqavilə bəyan edirdi ki, Naxçıvanın təhlükəsizliyinin qarantı Türkiyədir. Şuşa Bəyannaməsi isə Qarabağın qarantının Türkiyə olduğunu təsbit etdi. Bəyannamədə göstərilir: "Tərəflərdən hər hansı birinin fikrincə, onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparacaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcək, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklər. Bu yardımın həcmi və forması təxirə salınmadan keçirilən müzakirələr yolu ilə müəyyən edilərək birgə tədbirlər görülməsi üçün müdafiə ehtiyaclarının ödənilməsinə qərar veriləcək və Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyəti təşkil olunacaqdır" [10].

Bundan başqa, müqavilə nəqliyyat-kommunikasiya kimi strateji məsələləri də əhatə edir. Dövlət başçısı İlham Əliyev bununla bağlı bildirmişdir ki, "*Bəyannamədə Zəngəzur koridorunun açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapıb. Bu da İkinci Qarabağ müharibəsindən sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmiryolu və avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, biz əməli-praktik işlərlə bu dəhlizi, bu koridoru yaradırıq*" [11].

Şuşa Bəyannaməsinin həm 15 iyun – Qurtuluş günü, həm də Qars müqaviləsinin bağlanmasının 100-cü ildönümü günü məhz Şuşa şəhərində imzalanması təsadüfi sayılmamalıdır. Bu Bəyannamə Azərbaycana və Türkiyəyə qarşı ikili standartlar mövqeyindən yanaşan, regionda siyasi maraq və nüfuz uğrunda mübarizə aparan dövlətlərə dərin mənalı bir ismarıcdır. Prezident İlham Əliyev Bəyannamənin imzalanması zamanı bu məsələyə toxunaraq qeyd etmişdir: "*Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniy-*

*yət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır*" [12].

Torpaqlarımız işğaldan azad edildikdən sonra bütün yaşayış məntəqələrimizin bərpası, ərazilərimizin minalardan təmizlənməsi istiqamətində, bu əsrarəngiz diyarın sakinlərinin öz dədə-baba yurdlarına təhlükəsiz qayıdışı və firavan yaşayışı istiqamətində sürətli və möhtəşəm abadlıq-quruculuq işləri gedir. Azərbaycan Prezidentinin 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Şuşa şəhəri Azərbaycan mədəniyyətinin paytaxtı elan edilmişdir. Sərəncamda göstərilir ki, "Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır" [13].

Bir məqamı da vurğulamaq istərdik ki, Şuşa təkcə Azərbaycan mədəniyyətinin paytaxtı elan edilməmişdir. Çox fərəhli haldır ki, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində bu yaxınlarda keçirilən iclasında Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilmişdir. TÜRKSOY-un Baş katibi bildirmişdir ki, Azərbaycana dahi sənətkarlar, mədəniyyət xadimləri bəxş etmiş Şuşa şəhərini dirçəltmək, buraya yeni nəfəs gətirmək çox zəruridir: "Azərbaycana o qədər dahi sənətkar bəxş etmiş şəhəri dünyaya tanıtmaq istəyirik. Bu mübarək yurda yeni nəfəs gətirməliyik. Biz təşkilat olaraq bunun üçün əlimizdən gələni edəcəyik" [14].

Azərbaycan Respublikasının birinci vitse-prezidenti, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin qorunması, ümumbəşəri dəyərlərə sadiq qalması, təhsilimizin, elmimizin inkişafı istiqamətində göstərdiyi xidmətlər, gördüyü dəyərli işlər xalqımız üçün, millətimiz üçün, vətənimiz üçün müstəsna əhəmiyyətə malikdir.

Ulularımızdan bizlərə yadigar qalmış mədəniyyət incilərimizin qorunması, bu sərvətin heç bir itkiyə məruz qalmadan gələcək nəsillərə əmanət edilməsi üçün Mehriban xanım dəqiq, məqsədyönlü, konkret fəaliyyət planına malikdir. Mehriban xanım Əliyevanın böyük səyləri nəticəsində YUNESKO artıq Azərbaycan muğamını bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil etmişdir. Ümumiyyətlə, Mehriban Əliyevanın Azərbaycan musiqisinin inciləri olan muğamların öyrənilməsi və təbliği ilə bağlı fəaliyyəti ayrıca tədqiqat mövzusuna çevrilə bilər. Həmin sahədə müəyyən önəmli addımlar atan Mehriban xanım Əliyeva YUNESKO-nun xoşməramlı səfiri seçildikdən sonra onun bu istiqamətdə gördüyü işlər daha ardıcıl və effektli xarakter almışdır.

Mehriban xanım Əliyeva Azərbaycan xalqının kökü çox qədimlərə gedən sənət xəzinəsinə, ulu muğamatımıza, sözün əsl mənasında, sahib çıxaraq, xalqımızın genetik kodu hesab etdiyi muğamlarımıza himayədarlığı öz üzərinə götürmüşdür. İlk nailiyyətlərdən biri kimi "Qarabağ xanəndələri" adlı albomun nəfis tərtibatda buraxılmasını göstərə bilərik. Əslində, bütün Azərbaycana məxsus muğamlarımızın toplandığı alboma ad kimi niyə məhz «Qarabağ xanəndələri» ideoniminin seçilməsinin arxasında dayanan incə siyasi məqamı sezməmək mümkün deyil. YUNESKO xətti ilə hazırlanmış alboma "Qarabağ xanəndələri" adının seçilməsi ilə bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı olduğu, muğamın isə bu torpağın dünyaya bəxş etdiyi nadir sənət nümunəsi sayıldığı nümayiş etdirildi [15, s. 350-352].

Yuxarıda qeyd etdik ki, Şuşa şəhəri indiyə qədər yüzlərlə istedadlı insan, dövlət, siyasi və hərbi xadim, alim, filosof, şair-yazıçı, musiqiçi, memar və s. yetişdirmişdir. Azərbaycan tarixində əbədi qalacaq bu görkəmli və nadir istedada malik insanlar məhz bu qədim və füsunkar şəhərdə doğulub-böyüyüb boya-başa çatmış, Şuşanın havasını almış, suyunu içmiş, burada fəaliyyət göstərmişlər. Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında göstərildiyi kimi, "*Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firidun bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır" [16].*

Tanınmış simalardanyalnız bir neçəsininadını burada xatırlatmaq istərdik. Qarabağda məşhur olan Cavanşirlər nəslindən olan Qasım bəy Zakir 1784-cü ildə Şuşa şəhərində doğulmuşdur. İlk təhsilini Şuşada mollaxanada almış, ərəb, fars, dillərini mükəmməl öyrənmişdir. Bu dilləri bilməsi ona imkan vermişdir ki, Yaxın Şərqin Firdovsi, Nizami, Sədi, Hafiz kimi məşhur söz ustadlarının əsərləri ilə tanış olsun. Haqq-ədalət tərəfdarı olan şair yaradıcılığı boyu cəmiyyətdə rast gəldiyi qüsurları tənqid etmiş, xalqın maariflənməsi üçün əlindən gələni əsirgəməmişdir. Zakir müasirləri arasında dərin hörmət və böyük nüfuz qazanmışdır. Azərbaycanın Mirzə Fətəli Axundzadə, İsmayıl bəy Qutqaşınlı, Baba bəy Şakir, Xurşidbanu Natəvan kimi tanınmış ziyalıları, habelə gürcü knyazı İliko Orbeliani, Bakının general-qubernatoru Mixail Kolyubakin onun məktublaşdığı, əlaqə saxladığı məşhur şəxsiyyətlər idilər.

Sadıqcan (əsl adı Mirzə Sadıq Əsəd oğlu Sadıqcan) 1846-cı ildə Şuşa şəhərində anadan olub. Görkəmli Azərbaycan musiqiçisi, tarzən, bəstəkar və tarı təkmilləşdirən sənətkar olaraq tarixə düşüb. Bu qüdrətli şəxsiyyət virtuoz tarzən kimi Qafqazda və İranda geniş şöhrət qazanmışdı. Məlumatlara görə, bütün şuşalılar kimi, Sadıq da kiçik yaşlarından öz gücünü xalq mahnılarının və muğamlarımızın ifası sahəsində sınayıb. Sənətkar toylarda, konsertlərdə, qəbullarda, ziyafətlərdə, həmçinin Bakı və Şuşada Azərbaycan və İran qastrolçularının qoyduqları tamaşaların fasilələri zamanı tarda ifa edirdi.O, özü də Qafqaza, Orta Asiya və İrana tez-tez qastrol səfərlərinə gedir, burada musiqi məclislərində iştirak edirdi. Mirzə Sadıq, eyni zamanda, istedadlı bəstəkar idi.

Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı, XIX əsrin tanınmış Azərbaycan şairəsi Xurşidbanu Natəvan 1832-ci ildə Şuşada anadan olub. O, öz dövrünün tərəqqipərvər xanımı olub və xeyriyyəçilik fəaliyyəti ilə məşhurlaşıb. Natəvan təkcə bədii yaradıcılıqla məşğul olmaqla kifayətlənməyib, habelə dövrünün ədəbi mühitinə yaxınlaşmaq məqsədilə ədəbi məclislər yaratmışdır. Geniş dünyagörüşünə malik şairə öz zamanında bir sıra Azərbaycan şairlərinin meydana çıxmasına yardımçı olmuş, onlara köməklik göstərmişdir.Xurşidbanu Natəvan həm də XIX əsrin ən dəyərli nəqqaşlarından və rəssamlarından biri sayılıb, musiqişünas olub.

Natəvan xalqın maariflənməsinə, ədəbiyyatın inkişafına, Şuşanın abadlaşmasına ciddi fikir verirdi. O, "Məclisi-üns" adlı ədəbi məclis yaradaraq məclisin bütün maddi xərclərini öz üzərinə götürmüşdü. Məclisdə müxtəlif ədəbi məşğələlər də keçirilir, Nizami, Füzuli, Nəvai və digər klassik şairlərin əsərlərindən söhbətlər açılır, fikir mübadiləsi aparılır, qəzəllərə nəzirələr yazılırdı.Natəvan yalnız "Məclisi-üns"ü təşkil etməmişdi, həmçinin "Təzkireyi-Nəvvab" əsərinin müəllifi Mir Möhsün Nəvvabın "Məclisi-fəramuşan" məclisinin yaradılmasında da köməklik göstərmişdi.

Şairə xanım doğma dili ilə yanaşı, ərəb və fars dillərini də mükəmməl öyrənmiş, klassik şeir qayda-qanunlarının dərinliklərinə yiyələnmişdi. Nadir

kitablar, qiymətli əlyazmalar Xurşidbanunun dünyagörüşünün, bədii zövqünün formalaşmasında rol oynamışdır. O, nəinki Azərbaycan ədəbiyyatında və mədəniyyətində, habelə ictimai həyatında da dərin izlər salmışdı. Elə bir insanın yetişməsində, əlbəttə ki, onun soy-kökü də böyük rol oynayırdı. Natəvan iki böyük nəslin - Cavanşirlərin və Ziyadoğlu Qacarların qanını daşıyırdı. Xurşidbanunun fitri istedadının üzə çıxmasında Şuşa ədəbi mühiti böyük rol oynamışdı. Natəvan şairliklə yanaşı, həm də istedadlı rəssam idi. Onun bədii tikmələri, "Gül dəftəri" buna sübutdur. Natəvan nəfis əl işləri, müxtəlif janrda tikmələr bacarığına da yiyələnmişdi. O, naturadan çəkməyə, obyekti birbaşa təsvir etməyə üstünlük verir, real rəssamlıq nümunələri yaradırdı. Onun çəkdiyi "Gül", "Ağac", "Budaq", "Üzüm salxımı", "Ev", "Çiçək" rəsmləri təbii, inandırıcı və lirikdir[17].

Ensiklopedik biliklərə malik Mir Möhsün Nəvvab 1833-cü ildə Şuşada anadan olub. Dövrünün tanınmış ziyalılarından olub, çoxşaxəli yaradıcılıqla məşğul olub. Mir Möhsün Nəvvab bir çox sahələrdə - ədəbiyyat, musiqi, rəssamlıq, nəqqaşlıq, astronomiya, riyaziyyat və başqalarında dərin iz qoyub getmişdir. Onun araşdırmaları, fikir və mülahizələri iyirmidən artıq əsərində öz əksini tapmışdır.

Şuşada yaxşı bir müəllim kimi tanınan Nəvvab həm də istedadlı şair kimi şöhrət tapmışdır. Burada yaşayan şairlər Nəvvabın ətrafına toplaşmışdılar.O, Şuşada qiraətxana, "Üsuli-cədid" məktəbi, şəxsi mətbəə və cildxana, "Məclisi-fəramuşan" adlı ədəbi məclis təşkil etmiş və bu məclisə başçılıq etmişdir.

Nəvvab şairliklə yanaşı, rəssamlıqla da məşğul olmuşdur; yağlı boya ilə çəkilmiş bir sıra tabloların və miniatürlərin müəllifidir. Onun "Quşlar", "Güllər", "Teymurun portreti" rəsmləri xüsusilə məşhurdur.Şuşada Böyük məscidin minarələrində, dərs dediyi məktəbdə və digər tikililərdə ornamental divar rəsmləri, fantastik süjetli və dini məzmunlu illüstrasiyaları, kitablara verdiyi bədii tərtibat və s. rəssamlıq sənətinə dərindən bələd olmasını sübut edir. Nəvvabın çəkdiyi illüstrasiyalar XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda kitab tərtibatının inkişafına böyük təsir gostərmişdir.

1884-cü ildə Nəvvab "Vüzuhul-ərqam" (Rəqəmlərin izahı) risaləsini yazır. Ü.Hacıbəyov"Azərbaycan xalq musiqisinin əsasları" adlı tədqiqatında Azərbaycanın məşhur musiqişünasları Səfiəddin Urməvi və Əbdülqadir Marağayidən sonra Nəvvabın adını çəkmiş və onun "Vüzuhul-ərqam" risaləsində Yaxın Şərq xalqlarının qədim musiqisindən bəhs olunduğunu qeyd etmişdir. Əsərdə musiqinin əmələ gəlməsi, onun təbabətlə əlaqəsi, şeirlə muğamın bağlılığı, estetika məsələləri, səsin akustikası, dəstgahların tərkibi, muğamlarda rəqəmlərin izahı kimi məsələlər, o cümlədən, muğamların adları, musiqi alətləri haqqında məlumat verilmişdir. Nəvvab risalədə orta əsr traktatlarında geniş işıqlandırılmış bəzi məsələlərə toxunmamışdır. Onun

əsərinin əsas istiqaməti praktiki məqsəd daşımışdır. Bu da əsasən orta əsrlərdən sonra yazılmış risalələr üçün xas idi. Bu risalələr muğamların öyrənilməsi üçün kütləvi dərslik kimi də nəzərdə tutulmuşdur [18].

1903-cü ildə Nəvvab Şuşada kitabxana və qiraətxana açır. Burayaayrı-ayrı şəhərlərdən qəzet və jurnallar gəlirdi. Qiraətxana müxtəlif illərdə "Molla Nəsrəddin", "İqbal", "Səda", "İrşad", "Şərqi-rus" və digər jurnal və qəzetləri alırdı. Bundan başqa, Bakıdan "Əkinçi", Tiflisdən "Ziya", "Kəşkül", Hindistandan "Həblül-mətin" qəzetləri də və s. əldə edilirdi. M.M.Nəvvabın 1905-ci ildə yazdığı "Qafqaz erməni tayfası ilə müsəlmanların vuruş və iğtişaş tarixləri" adlı son dərəcə əhəmiyyətli, bu günlə səsləşən və ortaya atılmış süni Dağlıq Qarabağ probleminin tarixi köklərinin öyrənilməsi üçün qiymətli mənbə olan bu əsər yalnız 1993-cü ildə, yəni yazıldığından 88 il sonra nəşr edilmişdir.

1913-cu ildə Mir Möhsün Nəvvabın yazdığı iki kitab ona təkcə Azərbaycanda deyil, vətənimizin hüdudlarından kənarda da şöhrət qazandırmışdır. "Təzkireyi-Nəvvab" adlı birinci kitabında o, XVIII əsrin sonu-XIX əsr Qarabağ şairlərinin həyat və yaradıcılığını işıqlandırmış, onların əsərlərindən parçalar vermişdir. "Kifayət ul-ətfal" adlı ikinci kitabında dəqiq elmlərdən bəhs olunur. Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi ilə yaxından tanış olan Nəvvab klassik Şərq musiqisi haqqında "Dər elmi musiqi vüzuhul-ərqam" ("Musiqi elmində rəqəmlərin aydınlaşdırılması", 1913) əsərini yazıb nəşr etdirmişdir. Riyazi əsaslarla musiqini təhlil etməyə çağıran Nəvvab bu əsəri ilə musiqi aləmində çevriliş etmişdir.

Şuşanın yetirdiyi istedadlı şəxsiyyətlərdən olan naşir, yazıçı, dramaturq, ədəbiyyatşünas, dirijor, əməkdar incəsənət xadimi Əbdürrəhim bəy Haqverdiyev 1870-ci mayın 17-də Qarabağ mahalının Şuşa şəhəri yaxınlığındakı Ağbulaq kəndində doğulub. İbtidai təhsilini 1880-ci ildə Şuşada Yusif bəyin müvəqqəti yay məktəbində, sonra Şuşa Realnı məktəbində almışdır (1881-1890). Əbdürrəhim bəy ədəbi fəaliyyətə Şuşa Realnı məktəbində oxudugu zaman başlamış, M.F.Axundzadənin təsiri ilə "Hacı Daşdəmir" adlı kiçik bir pyes yazmışdı. Peterburqda təhsil alarkən onun bədii yaradıcılığa olan meyil və həvəsi daha da artır, burada "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) dramını və "Dağılan tifaq" (1896) faciəsini yazır. Ali təhsil alıb Şuşaya qayıdan Haqverdiyev doğma şəhərdə tamaşalar təşkil edir, bir müddət sonra (1902-1903) Bakıda Şərq konsertləri verir və "Ata və oğul", "Ayın şahidliyi" kimi ilk hekayələrini dərc etdirir. 1905-ci il inqilabından sonra Gəncə quberniyasından Rusiya Dövlət Dumasına nümayəndə seçilmiş Əbdürrəhim bəy Peterburqa yollanır. Duma dağılandan sonra bir müddət orada yaşayır və yazacağı "Ağa Məhəmməd şah Qacar" faciəsi üçün materiallar toplayır.

"Leyli və Məcnun" operası 1908-ci il yanvarın 12-də tamaşaya qoyulduğu zaman ilk Azərbaycan dirijoru kimi xor və orkestri idarə edir.

Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonda dövlət teatrlarına müfəttiş təyin olunur. Azərbaycan milli teatrının yaranmasının 50 illiyi münasibətilə keçirilən yubileyə başçılıq edir. Ə.Haqverdiyev Azərbaycan Dövlət Universitetində ədəbiyyatdan mühazirələr oxumuş, elmi kadrların hazırlanmasında yaxından iştirak etmişdir.

Çağdaş Azərbaycan musiqi mədəniyyətinin qurucusu, milli bəstəkarlıq məktəbinin təməlini qoyan Üzeyir bəy Hacıbəyov fövqəladə fitri istedada malik sənətkar, xalqımızın görkəmli şəxsiyyətlərindən biri olmuşdur.O, eyni zamanda, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim idi. Ulu öndərimiz göstərirdi ki, tariximizdə olan şəxsiyyətlərin hamısı bizim üçün qiymətlidir. Onlara toxunmaq olmaz. Üzeyir Hacıbəyov Azərbaycanda klassik musiqinin yaradıcısı, opera sənətinin banisidir. Müsavat partiyasının üzvü olmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin himninin müəllifi olmuşdur. Ona qiymət verərkən heç də nəzərə almaq lazım deyil ki, iki quruluşda fəaliyyət göstərib. Yaxud dar düşüncəli, siyasətdən başı çıxmayan indiki demokratlar onu günahlandırsın ki, 1938-ci ildə Moskvada böyük iftixar hissi ilə Stalinlə görüşmüş, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri ona Lenin ordeni təqdim etmişdir. Üzeyir Hacıbəyov Azərbaycanın fəxridir və bu mövqedə də həmişə qalacaqdır [15, s. 163].

Üzeyir Hacıbəyovun, Azərbaycanın ictimai fikir tarixində, elmin, mədəniyyətin və musiqinin inkişafında xidmətləri olan, dahi bəstəkarın anadan olmasının 110 illiyinə həsr olunmuş yubiley gecəsindəki nitqində Heydər Əliyev yığcam, tutarlı şəkildə demişdi: "*Əgər tarixə nəzər salsaq, Üzeyir Hacıbəyov üçhakimiyyət dövründə yaşamışdır... Üzeyir Hacıbəyov bütün bu üç mərhələdə hakimiyyətin xarakterindən,formasından asılı olmayaraq, xalqına xidmət etmişdir. Bu gün bunu deməyə əsas var ki, o belə düşünmüşdür:hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeyləhesablaşmamalıdır. Üzeyir Hacıbəyov belə olmuşdur*" [19, s. 77].

1885-ci ildə Şuşa qəzasında - Ağcabədidə dünyaya gələn Üzeyir ilk təhsilini Şuşada ikillik rus-türk məktəbində almışdır. Təhsil həyatına 1890-1904-cü illərdə Qori Müəllimlər seminariyasında davam etmişdir. Bəstəkarın dünyagörüşünün formalaşmasına böyük təsir edən seminariya həmçinin onun Avropa musiqi klassiklərinin əsərləri ilə tanış olmasına da imkan yaratmışdır.

Seminariyanı bitirdikdən sonra Üzeyir Hacıbəyov 1904-cü ildə Cəbrayıl qəzasında müəllimlik edib. 1905-ci il Bakıya gələrək "Həyat" qəzetində tərcüməçi kimi işləməyə başlayıb; bu hadisə onun ədəbi-publisistik fəaliyyətinin başlanğıcı sayılır.

Musiqi təhsili almaq üçün 1912-1914-cü illərdə Moskva və Peterburq konservatoriyalarında görkəmli musiqi müəllimlərindən dərs almışdır. Bu da onun yetkinləşməsində mühüm rol oynamışdır. Lakin Birinci Dünya Müharibəsinin başlanması və maddi çətinliklər Ü.Hacıbəyovu təhsilini yarımçıq qoymağa məcbur etdi.

Bəstəkar 22 yaşında "Leyli və Məcnun" operasını yazmaqla, müsəlman Şərqində opera janrının əsasını qoymuşdur. Ü.Hacıbəyovun yaradıcılığının zirvəsini təşkil edən "Koroğlu" operası 1937-ci ildə Azərbaycan Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyuldu.Əsər Azərbaycanda ilk klassik opera hesab olunur. Ü.Hacıbəyov Azərbaycan Respublikasının Dövlət Himnlərinin (1945, 1992) musiqisinin müəllifidir.

Azərbaycanın opera müğənnisi, musiqi folkloru tədqiqatçısı, Azərbaycan professional vokal sənətinin banisi Bülbül 1897-ci ildə Şuşa yaxınlığında, hazırda Xankəndinin cənub ərazisi olan Xanbağı adlanan yerdə anadan olmuşdur. Əsl adı Murtuza Məmmədov olan xanəndəyə Bülbül adı qeyri-adi səsinə, məlahətli avazına görə verilmişdir.

Səhnə fəaliyyətinə 1916-cı ildən başlamışdır. 1920-ci ildən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının (o zamanlar Birləşmiş Dövlət Teatrının opera truppası) solisti olmuşdur. Fəaliyyətinin ilk illərində Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun" (İbn Salam), "Əsli və Kərəm" (Kərəm), Z.Hacıbəyovun "Aşıq Qərib" (Qərib) operalarında müvafiq rolları ifa etmişdir. 1927-ci ildə Bakı Konservatoriyasını bitirdikdən sonra təhsilini davam etdirmək üçün dövlət xətti ilə İtaliyanın Milan şəhərinə getmişdir. 1931-ci ildə Milan Konservatoriyasını bitirib Azərbaycana geri dönmüşdür.Sənətkarın professional yaradıcılıq imkanları və istedadı böyük Azərbaycan bəstəkarı Ü.Hacıbəyovun məhz onun səsi və ifası üçün Azərbaycan dastanının süjeti üzrə yaratdığı "Koroğlu" epik-qəhrəmanlıq operasında özünün tam əlvanlığı ilə üzə çıxmışdır. Bülbül Azərbaycanda ilk dəfə olaraq folklor nümunələrinin toplanılması və öyrənilməsi üzrə elmi-tədqiqat kabineti təşkil etmişdir.O, təcrübəli xalq yaradıcılığı bilicilərini, gənc və istedadlı bəstəkarları və musiqiçiləri klassik xalq melodiyaları irsinin öyrənilməsi və onunla daimi ünsiyyətin təmin olunması məqsədilə buraya cəlb etmişdir.

Görkəmli yazıçı və ictimai-siyasi xadim Yusif Vəzir Çəmənzəminli 1887-ci ildə Azərbaycanın səfalı yerlərindən biri olan Şuşa şəhərində anadan olmuşdur. 1896-cı ildə Şuşa Realnı məktəbinə daxil olmuş vəbu məktəbdə rus dilində təhsil almışdır. 1904-cü ildə həyatından şikayət tərzində qələmə aldığı"Jaloba" adlı ilk şeirini yazmışdır. Həmin illərdə əmisi oğlu və dostu Mirhəsən Vəzirovla birlikdə rus dilində "Fokusnik" adlı aylıq yumoristik jurnal çıxarıb.

Çəmənzəminli zəngin yaradıcılığında "erməni məsələsi"nə xüsusi yer ayırmışdı. O, elə sənətkarlardandır ki, qismətinə üç dövrdə - çar Rusiyası,

Azərbaycan Cümhuriyyəti və sovetlər imperiyası illərində yaşamaq düşmüşdü. Bir tərəfdən, ermənilər tərəfindən törədilən qırğınları izlədiyi, digər tərəfdən bir müddət xarici işlər idarəsində çalışdığı, səfir kimi fəaliyyət göstərdiyi səbəbindən müxtəlif ölkələrin diplomatik nümayəndələri ilə danışıqlar aparan rəsmi şəxs olduğu üçün bu mənfur millətin azərbaycanlılara, ümumiyyətlə, türklərə qarşı yeritdikləri məkrli siyasətdən çox yaxşı xəbərdar idi. O, Ukrayna, Türkiyə və Fransada olduğu illərdə ermənilərin çirkin əməlləri ilə tanış olmuş və bunlar barədə əsərlərində, xüsusən "Ermənistan və biz", "Əfkari-ümumiyyə", "On beş gün Ermənistanda" məqalələrində, "Studentlər" və "Qan içində" romanlarında bəhs etmiş, yeni fikirlər irəli sürmüşdür.

Unudulmaz xanəndə Cabbar Qaryağdıoğlu Azərbaycan musiqisinin tarixində və inkişafında təkrarsız rol oynayan və qiymətli irs qoyan, Qarabağ muğam məktəbinin ölməz ənənələrini davam etdirən böyük sənətkar olmuşdur (1861-1944). 1908-ci ildə premyerası olan Üzeyir Hacıbəyovun "Leyli və Məcnun" operası nəinki Azərbaycanda, bütövlükdə Şərqdə opera sənətinin əsasını qoydu. Məcnun rolunun ilk ifaçısı Cabbar Qaryağdıoğlu bu rolu böyük məharətlə oynadı. C.Qaryağdıoğlu F.Şalyapinlə və S.Yeseninlə tanış olmuş, onlarla dostluq etmişdir.

Təsadüfi deyil ki, məşhur rus şairi Sergey Yesenin onu "Şərq musiqisini n peyğəmbəri" adlandırmışdır. Bizim görkəmli xanəndə və müğənnilərimizdən Seyid Şuşinski, Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli və başqaları Cabbar məktəbinin davamçılarıolmuşlar.

Tanınmış sənətkar Seyid Şuşinski 1889-cu ildə Şuşa qəzasının Horadiz kəndində anadan olub. Musiqiçilərin hörmətlə "Ağa" deyə üz tutduğu sənətkarın tam adı Mir Möhsün Ağa Seyid olub. Nadir və gözəl səsə malik Seyid Şuşinski xanəndəlik sənətinin sirlərinə yiyələnmək üçün əvvəlcə iki il Nəvvabın yanında təhsil alıb. Sonrakı müəllimi Cabbar Qaryağdıoğlu olub. Cabbar Qaryağdıoğlu onu "Şərq musiqisinin incisi" adlandırıb. Xanəndə Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Hüseyn Ərəblinski kimi sənətkarlarla dostluq edirdi. "Molla Nəsrəddin"in bir neçə nömrəsinin çıxmasına maddi yardım göstərib. Ümumiyyətlə, Seyid Şuşinski böyük mesenat idi, o dövrün teatr aktyorlarına çox maddi yardımlargöstərib, özü də aktyor kimi bir sıra rolları oynayıb.

Gözəl və məlahətli səsinə görə Xan Şuşunski adını almış İsfəndiyar Aslan oğlu Cavanşir 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində, Qarabağ xanlığının banisi Pənahəli Xanın nəslindənolan Aslan ağa Cavanşirin ailəsində dünyayagəlmişdir.

Xan Şuşinski geniş səs diapazonuna malik olmaqla, Azərbaycan mədəniyyətini bütün dünyaya tanıtmış, Azərbaycan milli musiqisinin təbliği yolunda böyük uğurlar qazanmışdır. O, mürəkkəb muğamların mahir bilicisi

olub. Səsini istədiyi kimi dəyişməkdə, zəngulə vurmaqda bir çox tanınmış xanəndələrin diqqətini cəlb edib.

Beləliklə, gözəl Şuşanın bizlərə və dünya mədəniyyətinə bəxş etdiyi mahir sənətkarlarımızın çox az bir qismini burada yad etdik, bir daha qısaca xatırladıq. Kim bilir, artıq işğaldan azad edilmiş bu füsunkar diyar hələ bundan sonra da nə qədər yaradıcı insanların, alim və ictimai-siyasi xadimlərin yeni-yeni töhfələri ilə tarix yazacaq?!Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa şəhərini ölkənin Mədəniyyət paytaxtı elan etməsi, Vaqif Poeziya günlərini və "Xarı bulbul" festivalını bərpa etməsini ölkənin mədəni həyatında əlamətdar hadisələrdən saya bilərik. "Xarı bülbül" Beynəlxalq Festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyi ilə əlaqədar 1989-cu ildən keçirilməyə başlayıb. Festival hər il may ayında Yaponiya, ABŞ, Türkiyə, Almaniya, İsrail, İtaliya, İspaniya, Avstriya, Əfqanıstan və SSRİ-nin iştirakı ilə keçirilib, təkcə Azərbaycanda deyil, bütün dünyada ən vacib mədəniyyət tədbirlərindən biri hesab olunurdu.Azərbaycanın mədəniyyət paytaxtına çevrilən bu gözəl şəhər2021-ci il mayın 12-də "Xarıbülbül" musiqi festivalına yenidən evsahibliyi etdi. İyirmi doqquz  ildən sonra qədim mədəniyyət beşiyi olan Şuşa yenə öz doğmalarını, qonaqlarını qarşıladı. Prezident İlham Əliyev açıqladı ki, biz bu gözəl ənənəni bərpa etdik və bundan sonra "Xarıbülbül" festivalı Şuşada hər il keçiriləcək. Hesab edirik ki, bütün gözəl ənənələrin bərpası – Vaqif Pozeiya günlərinin, "Xarı bülbül" musiqi festivalının yenidən Şuşa şəhərində keçirilməsi və ümumiyyətlə, bir çox digər tədbirlərin məhz burada gerçəkləşdirilməsi bu qədim və gözəl şəhərimizin gələcəkdə daha böyük status almasına gətirəcək, Şuşa yeni-yeni istedadları ilə öz sözünü elm və mədəniyyət aləmində daha ucadan deyəcək!

Qeydlərimizi bütün xalqımızın artıq sevə-sevə və böyük qürur hissi ilə təkrarladığıAzərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı İlham Əliyevin Şuşanın azad olunduğu gün Şəhidlər xiyabanında söylədiyi sözlərlə bitirmək istərdik: "***Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!***"

## Ədəbiyyat

1. Böyük tarzən Mirzə Sadıq Əsədoğlunun tar islahatları // www/.musigi-dunya.az
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Üçüncü kitab: dekabr, 1994 – iyun, 1995. – Bakı: Azərnəşr, 1997. – 488 s.
3. Rayon haqqında // www.shusha-ih.gov.az/news/672.html.

4. Şuşa - Azərbaycanın tarixi mədəniyyət mərkəzi, Qarabağın baş tacı və hərbi-strateji əhəmiyyətə malik qədim şəhər http://www.shusha-ih.gov.az/news/672.html.
5. Шушинский Ф. Народные певцы и музыканты Азербайджана. Советский композитор. М., 1979, – с.47.
6. Hüseynova İ.Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004.– 472 s.
7. К истории образования Нагорного-Карабахской автономной области Азербайджанской ССР. Документы и материалы. Bakı,1989, – s. 92.
8. Mənə qardaş deyən dilinə qurban // https://ikisahil.az/post/mene-qardash-deyen-diline-qurban
9. Hüseynova İ. İlham Əliyev və zəfər tariximizin şanlı səhifələri. Bakı: Füyuzat, 2021. – 224 s.
10. Şuşa Bəyannaməsinin tam mətni //https://report.az/xarici-siyaset/susa-beyannamesinin-tam-metni/
11. Türkiyə və Azərbaycan "üçüncü ölkədən təhlükə olarsa" bir-birini qoruyacaq - Şuşa bəyannaməsi //https://www.bbc.com/azeri/azerbaijan-57479811
12. Şuşa Bəyannaməsinin tarixi əhəmiyyəti – Təhlil// https://apa.az/az/xeber/siyasi/susa-beyannamesinin-tarixi-ehemiyyeti-tehlil-648256
13. Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // https://president.az/az/articles/view/51394.
14. Türk dünyasının mədəniyyət paytaxtı – Şuşa. "İki sahil" qəzei, 2 aprel 2022
15. Hüseynova İ. Tarix.Zaman.Düşüncələr. II cild. Bakı: Elm və təhsil, 2016, 552 s.
16. *Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //*https://president.az/az/ articles/view/4633/print
17. Xan qızı Natəvan. "Ədalət" qəzeti.10 oktyabr 2012, –s.5.
18. XIXəsrin ensiklopedist alimi Mir Möhsün Nəvvab // https://science.gov.az/az/news/open/9003
19. Üzeyir Hacıbəyov ensiklopediyası. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 304 s.
20. İlham Əliyev. İnkişaf – məqsədimizdir. B.: Azərnəşr, 2009, 416 s.
21. Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi. Bakı: Çaşıoğlu, 2008, 672 s.

# CAVAD XANIN BORÇALI VƏ QAZAX-ŞƏMŞƏDDİL TORPAQLARININ QAYTARILMASI UĞRUNDA ÇAR RUSİYASINA QARŞI MÜBARİZƏSİ

**Mürvət Əliyev**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu,
ADPU-nun Quba filialı
murvet.eliyev@quba.adpu.edu.az

***Açar sözlər:*** *Cavad xan, Knorrinq, Şəmşəddil, Qazax, xanlıq*

*Məqalədə Gəncə xanı Cavad xanın hakimiyyətə gəldiyi gündən apardığı mübarizənin davamı olaraq 1802-1803-cü illərdə də Rus-gürcü blokuna qarşı həm hərbi,həm də diplomatik mübarizəsindən bəhs olunur. Cavad xan ilk olaraq Şəmşəddil uğrunda mübarizə aparsa da mübarizə ümumilikdə Borçalı və Qazax-Şəmşəddil torpaqları uğrunda idi. Lakin əvvəllərdə olduğu kimi, XIX əsrin başlanğıcında da xanlıqlar arasında qarşıdurmaların mövcud olması, xarici qüvvələrin müdaxilələri işğal edilmiş və işğal edilmək təhlükəsi altında olan ərazilər uğrunda Rusiya imperiyasına qarşı mübarizəni çətinləşdirirdi.*

## БОРЬБА ДЖАВАД ХАНА ПРОТИВ ЦАРСКОЙ РОССИИ ЗА ВОЗВРАЩЕНИЕ ЗЕМЕЛЬ БОРЧАЛЫ И ГАЗАХ ШАМШАДДИЛА

**Мурват Алиев**

***Ключевые слова:*** *Джавад хан, Кнорринг, Шамшаддил, Казак, ханство*

*В статье рассматривается как военная, так и дипломатическая борьба гянджинского хана Джавад хана против русско-грузинского блока в 1802-1803 гг. как продолжение его борьбы с момента прихода к власти. Хотя Джавад-хан сначала сражался за Шамшаддиль, борьба велась в основном за земли Борчали и Газах-Шамшаддиль. Однако, как и прежде, наличие конфликтов между ханствами в начале XIX века, интервенция иностранных сил затрудняли борьбу против Российской империи за оккупированные и угрожаемые территории.*

# JAVAD KHAN'S STRUGGLE AGAİNST TSAR RUSSİA FOR THE RETURN OF BORCHALİ AND KAZAKH-SHAMSHADDİL LANDS

**Murvat Alıyev**

***Key words:*** *Javadkhan, Knorrıg, Shamshaddil, Kazakh, khanate*

*The article discusses both the military and diplomatic struggle of Ganja khan Javad khan against the Russian-Georgian bloc in 1802-1803 as a continuation of his struggle since coming to power. Although Javad khan first fought for Shamshaddil, the struggle was generally for the lands of Borchali and Gazakh-Shamshaddil. However, as before, the existence of conflicts between the khanates at the beginning of the XIX century, the intervention of foreign forces made it difficult to fight against the Russian Empire for the occupied and threatened territories.*

## Giriş

Nadir şah Əfşarın 1747-ci ildə sui-qəsd nəticəsində ölümündən sonra onun yaratdığı imperiya parçalandı və Əfşar imperiyasına daxil olan ərazilərdə o cümlədən Azərbaycanda feodal ara müharibələri qızışdı. Feodal pərakəndəliyi nəticəsində ölkəmizdə kiçik idarəetmə forması olan bir sıra xanlıqlar yaranmış oldu. 20-dən çox belə xanlıq və onların arasında gedən mübarizə Azərbaycan torpaqlarının vahid bir dövlət tərkibində birləşdirilməsi yolunda ən böyük maneə idi. Birləşdirmə siyasəti aparan bir neçə xanlıq da bu ideyalarını daxili və xarici səbəblər üzündən sona qədər tamamlaya bilmirdilər. Nadir şahın fərmanı ilə 1736-cı ildən Borçalı və Qazax, 1748-ci ildə Şəmşəddil bölgələri Gürcü hakimiyyəti altına düşmüşdü. Belə çətin anda Gəncə xanı Cavad xan müəyyən səbəblərdən əldən çıxan dədə-baba yurdları sayılan bu bölgələri geri qaytarmaq uğrunda uzun və çətin bir mübarizəyə başladı. Cavad xanın başçılığı altında XVIII əsrin sonlarında aparılan diplomatik və hərbi mübarizə istənilən nəticəni verməsə də o, bu fikrindən həyatının sonuna qədər əl çəkməmiş və xüsusən də XIX əsrin əvvəllərində bu işi hərbi yollarla həll etməyə çalışmışdı. Bu dövrdə Gürcüstanı öz hakimiyyəti altına alan Çar Rusiyası Cavad xanın bu siyasətinə qarşı ciddi cəhdlə əks mövqe nümayiş etdirir, müxtəlif bəhanələrlə bu torpaqları qaytarmaqdan boyun qaçırırdı. Bunu Knorrinq və Cavad xan arasında olan yazışmalardan da açıq-aydın görmək mümkündür.

Cavad xan Şəmşəddilin könüllü surətdə qaytarılmasına ümidini itirdikdən sonra həmin ərazini hərbi yolla əldə etməyi qərara almışdı. 1801-ci ilin yazında Cavad xanın qoşunları Şəmşəddilə ilk həmlələr etməyə başladı. Lakin Şəmşəddilin qaytarılması üçün kifayət qədər hərbi qüvvəsinin olmadığını başa düşən Cavad xan buranın yerli bəylərini Gəncə xanlığı ərazisində məskunlaşmağa dəvət edirdi. Belə bir şəraitdə Knorrinq Lazarevə göndərdiyi

məktubunda yerli əhalinin Gəncə xanlığı ərazisinə qaçmasının qarşısını almaq üçün Borçalı və Şəmşəddildə batalyonları yerləşdirilmək əmrini vermişdi. [1, 78]

General-leytenant Knorrinq 1801-ci il 12 mart tarixli məktubunda Cavad xandan onun adamları tərəfindən Şəmşəddil əyalətinin talan edilməsinə son qoyulmasını və Gürcüstanın Rusiyanın himayəsinə daxil olduğu vaxtdan etibarən onların Şəmşəddil əhalisindən qarət etdikləri mal-mülkü geri qaytarmağı tələb edirdi. [2, 606-607] Həmin vaxt general-leytenant Knorrinq general-mayor Lazarevə göndərdiyi məktubunda Şəmşəddil əyalətinə həmlələr zamanı Gəncə təbəələrinin tutulub cəzalandırılması barədə göstəriş də vermişdi. [2, 607]

Gəncəli Cavad xanın Şəmşəddilə baş verə biləcək müdaxiləsinin qarşısının alınması məqsədilə yeger alayının bir batalyonu Borçalıda yerləşdirildi. [3, 388]

Cavad xan general-leytenant Knorrinqə 1801-ci il 26 aprel tarixli məktubunda Şəmşəddilin heç kim tərəfindən ona bağışlanmadığını və kimsənin də həmin əyaləti ondan almağa hüququnun olmadığını və artıq 600-700 ildir ki, bu əyalətin onun əcdadlarına və ona məxsus olduğunu bildirirdi. [2, 608]

1801-ci ilin iyununda Cavad xan Şəmşəddil əhalisinin Gəncəyə köçürülməsi üçün yeni cəhdlər etdi. Həmin vaxt general Lazarev Knorrinqə raportunda Cavad xanın bütün hallarda onları müdafiə edəcəyi vədini verdiyi əhalinin Gürcüstandan getmək niyyətində olduğunu bildirirdi. Əhalinin köçməsinin qarşısını almaq üçün Şəmşəddilə silahlı dəstə göndərildi, Cavad xanın qoşunlarının hücumunun qarşısını almaq üçün podpolkovnik Kuznetsov da əlavə qüvvə ilə birlikdə həmin əraziyə yönəldildi. [1, 78- 79] Gəncə xanı Cavad xan öz nümayəndəsini Lazarevin yanına göndərərək, ondan rus qoşunlarının Şəmşəddildən çıxarılmasını tələb edirdi. [4, 29] Gəncə xanının bu hərəkəti rusların xoşuna gəlmir, üstəlik Cavad xanın ruslara qarşı müqavimət göstərən gürcü şahzadəsi Aleksandra sığınacaq verməsi də rus hərbi rəhbərliyini narazı salırdı. [5, 60]

1801-ci il iyulun 22-də Qazax və Borçalı camaatlarını "itaətə gətirmək" üçün Lazarev özü oraya yola düşdü. [4, 30] Borçalı, Dəmirçi Həsənli, Qazax ağaları və bəylərinin ruslara qarşı müqavimətinin qabağını vaxtında almaq üçün general Lazarev onları "andlı öhdəlik" imzalamağa məcbur etdi. Bu andlı öhdəlikdə ağaların və bəylərin öz vergi ödəyən kəndliləri və elatları ilə birlikdə rus hökumətinə sədaqətlə xidmət etmələri, onların öz ailələri ilə birlikdə heç yerə getməmələri və heç kimə xidmət etməmələri şərtləri qeyd olunmuşdur. Andlı öhdəliyi həmin vaxt öz ailələri ilə birlikdə yaylaqlarda olan yalnız 5 nəfər ağa imzalamamışdı [6, 110]. Bu barədə general-mayor Lazarev general-leytenant Knorrinqə yazdığı 1801-ci il 3 avqust tarixli məktubunda iyulun 23-də Borçalı, Qazax və Dəmirçi Həsənli ağalarını andlı öhdəliyi imzalamağa cəlb

edərkən onların çox hissəsini (xüsusilə şahzadə Davidin tabeçiliyində olan Borçalı bəylərini) zorla itaətə gətirdiyini bildirirdi. Şəmşəddil əyalətinə gəldikdə isə Lazarev həmin əyalətin əhalisinin yaylaqlarda olduğunu və Qazax əyalətinin rəisi Solomon Avalova onları nəzarət altında saxlanılmasının həvalə olunduğunu yazırdı [2, 592]. Lazarev şəmşəddinli Məhəmmədhüseyn bəyə 1801-ci il 10 avqust tarixli digər məktubunda onu Rusiya hökumətinə tabe olmamaqda və Şəmşəddil əhalisini də öz tərəfinə çəkməkdə təqsirləndirilirdi [2, 595].

Görünür bütün şəmşəddillilərin hamılıqla "yaylaqlarda olması" təsadüfi deyildi. Çox güman ki, onlar bu yolla Rusiya boyunduruğu altına girməkdən yayınmağa çalışırdılar.

Beləliklə, XIX əsrin lap əvvəlində Gəncə regionunda baş verən və bilavasitə olaraq Cavad xan ilə bağlı olan hadisələr, yəni şəmşəddillilərin Gəncəyə köçürülməsi, gürcü şahzadəsi Aleksandrın bu şəhərə gəlib çıxması və digər bu kimi hallar Rusiya hökuməti tərəfindən bəyənilmirdi [1,79]. Belə bir şəraitdə 1801-ci il sentyabrın 12-də çar I Aleksandr Kartli-Kaxetiya çarlığının ləğv edilməsi və Şərqi Gürcüstanın Rusiya imperiyasına birləşdirilməsi haqqında yeni bir manifest imzalamışdı. Bu sənəddə Şərqi Gürcüstanla birlikdə Qazax, Borçalı, Şəmşəddil sultanlıqlarının da Rusiyanın tərkibinə qatıldığı elan olunurdu [7, 81].

Knorrinq general-mayor Lazarevə 1802-ci il 6 yanvar tarixli məktubunda Şəmşəddil əyalətinin guya əzəldən Gürcüstana məxsus olması, orada yaşayan əhalinin öz tabe olduqları, başçılarının əmr və qərarlarına itaət etmələri, əks halda isə onların tabe olmayanlar kimi tanınması kimi fikirlərin Şəmşəddil əhalisinə qəbul etdirilməsini bacaran bir nəfərin oraya göndərilməsini təklif edirdi [2, 346].

Lazarev Knorrinqə göndərdiyi 1802-ci il 27 fevral tarixli raportunda Fətəli şah Qacarın öz oğlu şahzadə Abbas Mirzəyə və sərdar Süleymana 45 min nəfərdən ibarət qoşun toplayıb, "Novruz" bayramı qurtardıqdan sonra İrəvan üzərinə hərəkət edərək, həmin qoşunun 10 minini orada yerləşdirmək, qalan 35 mini ilə isə Gürcüstan tərəfə hərəkət etmək barədə əmr verdiyini bildirirdi. [3, 438]

Lakin bir qədər sonra İrəvan xanlığı ilə Rusiya arasında İrəvanın Rusiyanın himayəçiliyinə keçməsi barədə danışıqlar başlandı və bununla bağlı olaraq Rusiya çarı I Aleksandr (1801-1825) Knorrinqə verdiyi tapşırığında İrəvan xanı ilə danışıqlarda İrəvan qalasının mühafizə edilməsinin rus qoşunlarının ixtiyarına verilməsi təkidi ilə çıxış etməsini həvalə edirdi. Beləki, İrəvan tərəfdən Gürcüstana gedən yol tam açıq olduğundan, qacarlar heç bir maneə ilə qarşılaşmadan ora müdaxilə edə bilərdilər. [3, 440]

Lazarev general-leytenant Knorrinqə 1802-ci il 22 mart tarixli raportunda bildirirdi ki, Şəmşəddilə iddialı olan Cavad xan bu günlərdə öz

qoşunları ilə birlikdə oğlu Hüseynqulu ağanı ora göndərib. Hüseynqulu ağa Şəmşəddilə yetişən kimi bəzi kəndlərin əhalisi Qazaxa köçmüş, bəzilərini isə o, özü ilə birlikdə aparmışdır. [2, 609] Poruçik Vıskrebensov isə Knorrinqə 1802-ci il 10 may tarixli raportunda Hüseynqulu ağanın mayın 2-də Ayrım kəndindən 130 at, 258 qaramal apardığını, 1 nəfərin yaralandığını, mayın 8-də isə qaramalı və əmlakı ilə birlikdə 500 ailənin "əsir" götürdüyünü, yerdə qalan kənd əhalisinin isə dağlara köç etdiklərini bildirirdi. [2, 610]

Bu hadisələrdən sonra Knorrinq Cavad xana növbəti məktubunda oğlu Hüseynqulu ağanı "Gürcüstan ərazisinə" olan müdaxilələrdən çəkindirməyi xahiş edirdi. [1, 197]Cavad xan Knorrinqə cavabında ayrım camaatının və Ayrım kəndinin heç vaxt Gürcüstana məxsus olmadığını, əksinə, Gəncənin "köçəri" ellərinə daxil olmasını, Gəncəni heç vaxt təslim etməyəcəyini və Şəmşəddilin Gəncəyə məxsus olması barədə Qacar dövlətinin göndərdiyi fərmana da malik olduğunu bildirirdi. [2, 611-612]Cavad xan Knorrinqi, sələfi Zubovdan fərqli olaraq, onunla zor dilində danışdığına görə qınayır və belə olacağı təqdirdə onun heç nəyə nail ola bilməyəcəyini bildirirdi. [8, 16-17]

Cavad xanın bu məktubuna cavab olaraq Knorrinq ona ünvanladığı 1802-ci il 20 may və 29 may tarixli məktublarında Şəmşəddilin hələ əzəldən bəri Gəncə əyalətinə məxsus olmasını etiraf etsə də, bu bölgənin həm İraklinin, həm də Georginin çarlığı zamanında Gürcüstana mənsub olduğunu və Gürcüstanın idarə olunması işini təhvil aldığına görə buranı sonuncu çarın dövründə mövcud olan hüdudlar daxilində saxlamağa "məcbur olduğunu" yazırdı. [1, 199]

General-leytenant Knorrinq general-mayor Lazarevə yazdığı 1802-ci il 17 may tarixli məktubunda sonuncuya 17-ci yeger alayı və artilleriya ilə birlikdə Şəmşəddil isitiqamətində hərəkət etmək və oranı Cavad xanın həmləsindən qorumağı barədə əmr edirdi. [1, 595]Lazarev isə Knorrinqə 1802-ci il 24 may tarixli cavabında öz qoşunu ilə birlikdə mayın 23-də Şəmşəddilə çatdığını və Gəncəli kəndinin yaxınlığında düşərgə qurduğunu bildirirdi. Lazarev daha sonra ertəsi gün Şamxor istiqamətində hərəkət edəcəyi və Cavad xanın hücumunu elə buradaca dəf edəcəyi barəsində məlumat verirdi. Həmin vaxt Qazax əhalisi kimi Şəmşəddil əhalisi də isti havaların düşməsi səbəbindən öz mal-qaraları ilə birlikdə yaylaqlara köçdüyündən, Cavad xan öz qoşunları ilə birlikdə Şəmşəddildən Gəncəyə tərəf geri çəkilmişdi.Buna görə də Lazarev öz raportunda Şəmşəddilin boş qalan kəndlərinə Cavad xanın hücum etmək ehtimalının olmadığını vurğulayırdı. [1, 595-596]

Lazarevin göstərdiyi səylərə baxmayaraq, artıq 1802-ci il iyun ayının ortasında Şəmşəddilin 33 kəndindən yalnız Morul, Tatlı, Həsənsulu kəndləri, Göyşəli, Əmirli, Bayramlı, Ayrım kəndlərinin isə bir hissəsinin əhalisi öz yerlərində qalmış, qalanları isə Gəncə xanlığı ərazisinə köçmüşdü. Şəmşəddildə qalan əhalinin sayı təxminən 400 ailəyə, Gəncə xanlığı ərazisinə köçən əhalinin

sayı isə 1900 ailəyə bərabər idi. [1, 79]

Lazarev Knorrinqə 1802-ci il 26 may tarixli raportunda Şəmşəddil əyalətini Gəncə xanlığı ilə ayıran Şamxor çayının 30 verstliyindəki Əlincə kəndində məskunlaşdığını bildirirdi. Daha sonra Lazarev onu da bildirirdi ki, Şəmşəddil əyalətinin 33 kəndindən yalnız 4 kəndi (400 ailədən ibarət olan) öz 4 nəfər ağası ilə birlikdə yerində qalmış, qalan 29 kənd (1900 ailədən ibarət olan) isə Cavad xanın hökmranlığı altında idi. [2, 592]

Şəmşəddil sultanı Nəsib bəyin mənsəbinə iddialı olan Məhəmməd-hüseyn bəy əhalinin Gəncəyə köçürülməsi işində xüsusi fəallığı ilə seçilirdi. Məhəmmədhüseyn bəy hələ XII Georginin hakimiyyəti illərində həbs olunsa da, onun ölümündən sonra azadlığa buraxılmışdı. Daha sonra o, Cavad xanın yanına gələrək, ondan sığınacaq istəmiş, bunun əvəzində isə Şəmşəddildən əhalinin köçürülməsi işində özköməyini təklif etmişdir. Nəsib bəyin kəskin müqavimətinə baxmayaraq, Məhəmmədhüseyn bəyin başçılığı altında olan Cavad xanın qoşunları yerli bəyləri ələ ala bilmiş və yuxarıda qeyd olunduğu kimi, onların xeyli hissəsini Gəncəyə köçürə bilmişdilər. [1, 79]

Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsindən sonra onun sərhəd-lərinin mühafizə olunması üçün buraya seçmə rus alayları göndərilmişdi. Bu qoşunların bir hissəsi Dəmirçihəsənli, Güvəc, Bolnisi, Misxana-Gümüşxana, Böyük Şüləver və Sadaxlı kəndlərində, bir yeger atıcı batalyonu isə Əlgət kəndində yerləşdirilmişdi. Borçalı əhalisi isə ruslara tabe olmaq niyyətində deyildi. Bu zaman Aleksandr, Yulon, Parnaoz və David kimi gürcü şahzadələri də Borçalıya gəlib, əhali ilə həmrəy olduqlarını bildirmişdilər. Əmircan ağa və Səid bəyin başçılığı altında Borçalı bəylərinin bəziləri öz dəstələrini toplayaraq ruslara qarşı üsyan qaldırmışdılar. 1802-ci ildə general-mayor Lazarev qazaxlıların, borçalıların, ümumiyyətlə, bütün azərbaycanlıların ruslara etibar etmədiklərini, açıq şəkildə onlara qarşı iğtişaş törətdiklərini, hətta Cavad xanın da onlarla birləşdiyini bildirir, eyni zamanda həmin vaxt şahzadə Aleksandrın, Kaxetiya knyazlarının, eləcə də Borçalı və Qazax icmaları kəndxudalarının bəzilərinin Gəncə xanının yanında olduqlarını göstərirdi. [6, 110]

XIX əsrin əvvəlində ruslara qarşı müqavimət göstərən Borçalı elatların-dan bəziləri üsyan qaldırmağa çalışmış, lakin buna nail olmadıqda Qarabağ ərazisinə köçməyə cəhd göstərmişdilər. Bundan xəbər tutan Lisaneviç borçalılı Nəsib bəyin köməyi ilə müqavimət göstərən əhalini rusların tərəfinə çəkməyə səy göstərdi. Həmçinin Qafqazdakı rus qoşunlarının yeni baş komandanı general Sisianov da burada iştirak edirdi. Danışıqlardan sonra Borçalı bəyləri ruslara tabe olmaq barədə söz verməyə məcbur oldular. [6, 397]

Bütün cəza tədbirlərinə baxmayaraq əhali yeni qayda-qanunlara alışa bilmir və elliklə öz yurdlarını tərk edirdi.1802-ci ilin yayında təkcə Qazax distansiyasından 3 ağa 31 ailə ilə birlikdə İrəvan xanının yanına qaçmışdı. [4, 31]Eyni zamanda general-leytenant Knorrinq də Kovalenskiyə göndərdiyi

1802-ci il 20 iyul tarixli məktubunda Qazax distansiyasından 30-dan çox ailənin İrəvana qaçması barədə məlumat verirdi. [4, 358]

1802-ci il yayın sonunda Cavad xan yenidən Şəmşəddili ələ keçirməyə cəhd etdi. Bu işdə ona gürcü şahzadəsi Aleksandr fəal surətdə kömək göstərirdi. Cavad xan Aleksandra ayda 1000 rubl məbləğində pul da vermiş, ona ev tikdirmiş, qoşun və pulla köməklik göstərəcəyini də vəd etmişdi. [1, 84] Bundan başqa Cavad xan Gürcüstan taxt-tacına yiyələnmək üçün şahzadə Aleksandra kömək edəcəyinə də söz vermişdi. [10, 75]

Polkovnik Koryagin general-mayor Lazarevə 1802-ci il 20 sentyabr tarixli raportunda bildirirdi ki, Cavad xan şahzadə Aleksandr ilə birlikdə ona tabe olmaq istəməyən Şəmşəddil sultanı Nəsib bəyə göndərdiyi məktubunda onun gürcü şahzadəsinə andlı öhdəlik imzalamasını və bütün öz kənd əhalisi ilə birlikdə Gəncəyə gəlmək tələbinin yerinə yetirilməsi barədə göstəriş veribdir. [2, 287] General-mayor Lazarevin general-leytenant Knorrinqə yazdığı 1802-ci il 3 oktyabr tarixli məktubunda isə həmin vaxt şahzadə Aleksandrın Gəncədə olması və qoşun toplanılması üçün onun dağıstanlılara da müraciət etməsi və hər bir dağıstanlı döyüşçüyə görə 50 gümüş rubl pul vəd etməsi qeyd olunurdu. [2, 403]

Knorrinq Şəmşəddildə öz mövqeyini möhkəmləndirmək üçün 1802-ci il oktyabrın əvvəlində Lazarevə iki batalyonla Gəncə xanlığının sərhədinə doğru hərəkət etməyi tapşırdı. Rus qoşunlarının yaxınlaşdığını bilən Cavad xan İsrafil bəyi əhalinin Şəmşəddildən çıxarılması üçün oraya göndərmiş, 100 ayrım ailəsi Gəncə xanlığının ərazisinə köçürülsələr də, İsrafil bəy rus qoşunlarının yaxınlaşdığını eşidib, onları geri qaytarmışdı. Açıq-aşkar ruslara tərəfdar olan Şəmşəddil sultanı Nəsib bəydən fərqli olaraq, Qazax sultanı Pənah ağa rus qoşunlarının hərəkət etməsi barədə məlumat vermiş və həmin vaxt Gəncədə olan şahzadə Aleksandr ilə birləşməyə hazır olduğunu bildirmişdir. General-mayor Lazarevin Knorrinqə yazdığı məktubunda isə Cavad xanın Şəmşəddil ağaları qarşısında da ona itaət etmək tələbi qoyduğunu, həmin tələbə cavab olaraq sonuncuların Gəncə xanının qoşunla gələcəyi təqdirdə ona müqavimət göstərilməyəcəyini bildirdikləri qeyd olunurdu. [8, 17]

1802-ci ilin oktyabrında general-mayor Lazarev general-leytenant Knorrinqə yazdığı məktubunda Cavad xan və şahzadə Aleksandrın Şəmşəddilə olan niyyətlərindən əl çəkmədiklərini, hətta Cavad xanın öz adamını Şəmşəddil yüzbaşılarının yanına göndərərək onun tərəfinə keçmələri təklifini verməsini, Cavad xanın Şəmşəddilə hücuma keçəcəyi təqdirdə bəzi yüzbaşıların müqavimət göstərmək istəməmələri barədə məlumat verirdi. Lazarev həmçinin Cavad xan və şahzadə Aleksandr ilə mübarizə aparılması və qazaxlıların onlarla birləşməsinin qarşısını almaq məqsədilə Şəmşəddilə daha 2 yeger alayını və 60 nəfərdən ibarət olan kazak dəstəsini göndərəcəyini bildirirdi. [8, 613]

Kapitan Taqanov general-mayor Lazarevə göndərdiyi 1802-ci il 18

oktyabr tarixli raportunda qoşunların toplanılması məqsədilə Cavad xan tərəfindən Cara 5min nəfər adamın göndərilməsi və onların hər birinə 50 rubl miqdarında məbləğin verilməsi vədinin verilməsi, Cavad xanın İmeretiyaya öz xidmətçisini göndərməsi, ona dəstək göstərməyə söz verən Kizik knyazlarının bəziləri ilə yazışmalar aparması, qazaxlı Pənah ağanın adamlarının tez-tez Cavad xanın yanına gəlmələri barədə məlumatlar verirdi. [8, 613-614]

Lazarev general-leytenant Knorrinqə 1802-ci il 25 oktyabr tarixli raportunda şahzadə Aleksandrın ona maddi yardımla kömək edəcəklərinə vədini verən bir çox gürcü knyazları ilə yazışmalar apardığını, Gəncə xanının öz oğlunu qoşunları ilə birlikdə Gürcüstanın sərhədlərinə göndərdiyini və buradan Şəmşəddilə hücum etməyə hazırlaşdığını bildirirdi. [8, 288] Elə həmin vaxt general-mayor Lazarev Cavad xanın şahzadə Aleksandr ilə birlikdə Şəmşəddil əyalətinə basqın etməsi təhlükəsi ilə bağlı olaraq podpolkovnik Lyaxovun Tiflisdə yerləşdirilən 17-ci yeger alayın bir batalyonunun Şəmşəddil istiqamətində yürüşə çıxdığını bildirirdi. [12, 151]

Podpolkovnik Lyaxovun Lazarevə 1802-ci il 31 oktyabr tarixli raportundan məlum olur ki, Cavad xanın oğlu Uğurlu ağa 200 nəfərlik dəstəsi ilə birlikdə Zəyəm çayı ətrafındakı kənddən əhalini çıxara bilmişdi. Həmin vaxt Lyaxov özünün 2 rotası ilə birlikdə Zəyəm çayının ətrafına gəlsə də, artıq əhali oradan çıxarılmışdı. [2, 597] Beləliklə, Uğurlu ağa Məmməd bəyin başçılığı altında 500-ə yaxın ailənin Gəncəyə köçürülməsinə nail ola bilmişdir. Bundan başqa o, Gəncəyə balıq aparan gürcü tacirlərinin karvanını da ələ keçirmişdir. [1, 87]

General-leytenant Knorrinq 1802-ci il 2 noyabr tarixli raportunda gürcü şahzadəsi Aleksandr və Gəncə xanı Cavad xanın çox inadlı şəkildə şəmşəddillilərdən Gəncənin hökmranlığı altına keçməsini tələb etdiklərini bildirirdi. [1, 289] Lakin podpolkovnik Lyaxovun 1802-ci il 3 noyabr tarixli raportundan bəlli olur ki, 1802-ci il noyabrın 3-də 500-ə yaxın şəmşəddilli ailəsi özünün əvvəlki yaşayış yerinə – Zəyəm çayının ətrafına qayıtmış və Uğurlu ağa öz dəstəsi ilə birlikdə noyabrın 2-də Gəncəyə geri dönmüş, Cavad xan isə oğlunun bu hərəkətindən çox narazı qalmışdır. [1, 597]

1802-ci il dekabrın əvvəlində Şəmşəddilin idarə olunması işinin general Kovalenski tərəfindən knyaz Tarxanova tapşırılması həm distansiyanın əhalisi arasında, həm də Cavad xanın özündə açıq-aşkar qəzəbə səbəb olmuşdu. Bu təyinat Nəsib bəyin Şəmşəddildəki hakimiyyətini məhdudlaşdırdığı üçün o, general Kovalenski ilə münasibətləri aydınlaşdırmaqdan ötrü dekabrın 8-də Tiflisə gəlmişdi. Lakin Kovalenski Nəsib bəyi çox soyuq qarşılamış və hətta onun həbs edilməsini də təkid etmişdir. Lakin Nəsib bəy həbs olunmaq təhlükəsindən xilas ola bilmişdir. [1, 614]

General-mayor Lazarevin 1802-ci il 15 dekabr tarixli raportundan məlum olur ki, Cavad xanın elçisi Gürgən bəy həmin vaxt Lazarevin yanına

gəlmiş və Şəmşəddilin həmişə Gəncəyə məxsus olması və orada rus qoşunlarının yerləşdirilməsinin Gəncə xanlığı tərəfindən təəccüblə qarşılandığını bildirmişdir. Bundan başqa Gürgən bəy hələ 1801-ci ilin yazında rus qoşunlarının Şəmşəddil bölgəsindən çıxarılması barədə Lazarev tərəfindən göstərişin verilməsinə baxmayaraq, həmin qoşunlar tərəfindən yerli əhalidən Gürcüstanın xeyrinə taxıl vergisinin toplanılmasına da öz təəccübünü gizlətmir və əslində bu gəlirin xana məxsus olmalı olduğunu bildirirdi. Gürgən bəy həmin vaxt Lazarevə Cavad xanın Şəmşəddil bölgəsinə dair hüquqlarının olması barədə məlumatların da Rusiya çarına çatdırılmasına vaxtilə söz verdiyini xatırlatmışdır. [1, 87]

1802-ci il sentyabrın 19-da çar I Aleksandr Knorrinqin əvəzinə gürcü əsilli P.D.Sisianovu Gürcüstandakı rus qoşunlarının baş komandanı təyin etsə də, general Knorrinq həmin ilin sonuna qədər ona həvalə edilən vəzifələri həyata keçirməkdə davam etmişdir. Həmin vaxt Şəmşəddildəki qoşunları gücləndirmək məqsədilə general Knorrinq bu əraziyə 17-ci yeger alayının daha iki rotasının göndərilməsi barədə göstəriş vermişdir. [1, 86-87] Yuxarıda göstərilən yazışmalardan məlum olur ki, Knorrinqlə bərabər Kovalenski də ona həvalə olunan vəzifələrin icra edilməsini 1802-ci ilin sonuna qədər davam etdirmişdir.

Knorrinqin öz vəzifəsindən geri çağırılması onun imperator I Aleksandrın 1801-ci il sentyabrın 12-də göndərdiyi xüsusi təlimatda göstərilmiş missiyanı həyata keçirə bilməməsi ilə əlaqədar idi. Həmin təlimatda ətraf hakimlər və xanlarla əlaqə saxlayaraq Rusiyaya meyl edənlərin sayını artırmaq, xüsusilə "üzərində hələ Fətəli şahın hakimiyyəti təsdiq olunmamış" İrəvan, Şəki, Şamaxı, Bakı və digər xanlıqları cəlb etmək nəzərdə tutulurdu. [12, 17]

Knyaz P.D.Sisianov Gürcüstandakı vəzifələrinin icrasına1803-cü ilin fevralında başladı.1802-ci ilin dekabrında general Knorrinq Sisianova yazdığı məktubunda gəncəli Cavad xanın Gürcüstana dair münasibətlərdə Rusiyanın rəqiblərindən biri olduğunu, onun Şəmşəddil əyalətinə iddialı olduğunu və Gəncənin sərhədində yerləşən bu ərazinin hələ xeyli əvvəldən həmin şəhərə məxsus olduğunu bildirmişdi. Kovalenski öz məktubunda "Şəmşəddilin 2 minə yaxın erməni və tatar (azərbaycanlılar – M.Ə.) ailəsinin" Gürcüstanın hüdudlarından Gəncə xanlığına qaytarılması iddiasında olduğunu bildirmişdir. Kovalenski həmçinin Cavad xanı Gəncəyə gedən karvanları ələ keçirməkdə də təqsirləndirirdi. [1, 88-89] Bundan başqa bu məktublarda Cavad xan Qacar İranı siyasətinin pərdəsi altında hərəkət etməkdə, Rusiya əleyhinə qüvvələrlə əməkdaşlıqda, şahzadə Aleksandra himayə göstərməkdə və sairədə ittiham olunurdu.

Beləliklə, Sisianov hələ Gürcüstanda rus qoşunlarının baş komandanı kimi öz fəaliyyətinə başlamazdan əvvəl onda Cavad xana qarşı qatı və hiyləgər düşmən xüsusiyyətlərini özündə birləşdirən ümumi bir təəssürat yaranmışdı.

Cavad xanın 1801-1802-ci illərdə Rus-gürcü bulokuna qarşı apardığı mübarizə Çar Rusiyasının xüsusi narahatçılığına və narazılığına səbəb olmuşdu. Böyük bir imperiyaya qarşı aparılan mübarizə qüvvələrin qeyri-bərabərliyi nəticəsində sonda Gəncə xanlı üçün faciə ilə bitəcəkdi.

## ƏDƏBİYYAT


1. Бабаев, Э.Т. Из истории Гянджинского ханства / Э.Т. Бабаев. - Баку: Nurlan, - 2003. - 234 с.
2. Акты собранные Кавказской Археографической Комиссией (АКАК): [ в 12 томах]. - Тифлис: Типография Главного Управления Наместника Кавказского, т.1. - 1866. - 827 с.
3. Дубровин Н.Ф. История войны и владычества русских на Кавказе: [ в 3 томах] / Н.Ф.Дубровин. - Типография П.Н.Скороходова: т.3. – 1886. - 557с.
4. Umudlu,V.U. Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı və müstəmləkəçilik əleyhinə mübarizə / V.U. Umudlu. - Bakı: Elm, -2004.- 184 s.
5. Mehdixanov R.Q. Şəmkir şəhərinin tarixi (V-XIX əsrin əvvəlləri) / R.Q Mehdixanov. – Bakı: - 2016. - 166 s.
6. Аббасова М. История Борчалинского махала (XIX – начало XX вв.) / М Аббасова. - Баку: Сабах, - 2006. - 460 s
7. Məcnunov R. Tiflis şəhərinin tarixi keçmişinə dair // - Bakı: Tarix və onun problemləri, - 2016. № 3, - s. 75-83.
8. Kərimli, İ.K., XIX əsrin əvvəllərində Cavad xanın Şəmşəddil sultanlığı uğrunda mübarizəsi tarixindən // "Qafqaz tarixinin aktual məsələləri" mövzusunda beynəlxalq konfransın materialları, II hissə. Gəncə: - 15-16 oktyabr, - 2015, - s. 15-20.
9. Документы по истории Грузии (1862-1917). Том I. Грузия в период буржуазных реформ (1862-1872). Часть 2 (1862-1866),/ под ред. Ш.К.Чхетия. - Тбилиси: - 1954/ - 949 с.
10. Həmidova, Ş.P. XVIII əsrin ikinci yarısında Azərbaycan-Gürcüstan münasibətləri tarixindən / Ş.P Həmidova. - Bakı: Elm, - 1985. - 100 s.
11. Акты собранные Кавказской Археографической Комиссией (АКАК): [ в 12 томах]. - Тифлис: Типография Главного Управления Наместника Кавказского, т.2. - 1868. - 1238 с.
12. Əhmədli F. N. İrəvan əyalətinin kameral təsviri. 1831-ci il. I cild/ F.N.Əhmədli. / Bakı: TurxanNPB, - 2018. - 328 s.

# BAKI TACİR BANKININ YARADILMASI VƏ FƏALİYYƏTİ

**Nərgiz Hacıyeva**
AMEA A.A.Bakıxanov
adına Tarix İnstitutu
nargizhac4@gmail.com

**Açar sözlər:** bank, maliyyə, kredit sistemi, neft, H.Z.Tağıyev

Məqalədə XX əsrin əvvəllərində Bakı şəhərində fəaliyyət göstərmiş Bakı Tacir Bankının yaradılması, Azərbaycanda maliyyə, ticarət və bank kapitalının formalaşmasında rolu geniş şəkildə şərh edilmişdir. Həmçinin bankın yarandığı dövrdə ölkədə mövcud olan digər bank və maliyyə müəssisələrinin dəfəaliyyətindən, Bakı Tacir Bankının onlarla qarşılıqlı əlaqələrindən bəhs olunur. Azərbaycanda o dövrdə yerli sahibkarlar tərəfindən və milli kapital əsasında yaradılmış bir bankın ticarət və sənaye sahələrinin bütün fəaliyyətinə nəzarət edən Rusiya banklarından asılılığı qismən də olsa azaltmış olması bu bankın yaranma tarixinin öyrənilməsini xüsusilə əhəmiyyətli edir.

## СОЗДАНИЯ И ДЕЯТЕЛЬНОСТЬ БАКИНСКОГО КУПЕЧЕСКОГО БАНКА

**Наргиз Гаджиева**

**Ключевые слова:** банк, финансы, кредитная система, нефть, Тагиев Г.З.

В статье широко трактуется создание Бакинского Купеческого Банка, действовавшего в Баку в начале XX века, его роль в формировании финансового, торгового и банковского капитала в Азербайджане. В нем также рассказывается о деятельности других банков и финансовых учреждений в стране на момент создания банка и взаимодействии с ними Бакинского Купеческого Банка. Тот факт, что созданный в то время в Азербайджане местными предпринимателями и основанный на национальном капитале банк уменьшил зависимость от русских банков, контролировавших всю торгово-промышленную деятельность, делает изучение истории этого банка особенно важным.

# ESTABLİSHMENT AND OPERATION OFTHE BAKU MERCHANT BANK

**Nargiz Hajiyeva**

**Key words:** bank, finance, credit system, oil, H.Z. Taghiyev
The article broadly interprets the creation of the Baku Merchant Bank, which operated in Baku at the beginning of the 20th century, its role in the formation of financial, commercial and banking capital in Azerbaijan. It also tells about the activities of other banks and financial institutions in the country at the time of the bank's creation and the interaction of the Baku Merchant Bank with them. The existence of such a bank, created by local entrepreneurs and on the basis of national capital in Azerbaijan, reduced its dependence on Russian banks that controlled all the activities of trade and industry, at least in part, makes it relevant to study the history of this bank.

Azərbaycanda bank sisteminin yaranması XIX əsrin ortalarına təsadüf edir. Bu sahənin inkişafı bilavasitə neft sənayesi ilə bağlı idi. Belə ki, Rusiya banklarının təsiri ilə Azərbaycanda neft sənayesinin səhmləşdirilməsi baş verir, bu da öz növbəsində bank sisteminin formalaşmasına gətirib çıxarırdı. Artıq XIX əsrin ikinci yarısında Azərbaycanın bir çox şəhər və qəzalarında müxtəlif növ maliyyə müəssisələri fəaliyyət göstərirdi. Misal olaraq 1868-ci ildə yaradılmış Zaqalata dairəsi xəzinədarlığını, 1872-ci ildə yaradılmış Bakı xəzinə palatasını, 1898-ci ildə yaradılmış Naxçıvan şəhər xəzinədarlığını göstərmək olar. Eyni zamanda Rusiyada fəaliyyət göstərən bir sıra bankların da Bakı şəhərində şöbələri açılmağa başlamışdı[5, 92-95].Bunların arasında 1874-cü ilin iyununda yaradılmış Rusiya Dövlət Bankının Bakı şöbəsi də var idi. Bu şöbə 1916-cı ilə qədər Bakıda fəaliyyət göstərən səhmdar bankların 12 şöbəsindən biri idi. 1902-1912-ci illər ərzində burada 8,5 mln rubl məbləğində kredit, təkcə 1916-cı ildə isə 37,5 mln rubl məbləğində kredit açılmışdı [10, 67]. Bu bankın daimi müştəriləri arasında iri neft milyonçuları olan Nobel, Lianozov, H.Z.Tağıyev, M.Nağıyev, Ş.Əsədullayev, İ.Hacinski, Dadaşov da var idi. Ən böyük filialın balansında ikinci yeri dəyərlər (kağızlar, mal) qarşılığında kreditlər üzrə əməliyyatlar tuturdu. 1901-1915-ci illərdə onlar 10,5 mln rubldan 83 mln rubla qədər artmışdı [9, 52].

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda yerli sahibkarların bir çoxunun öz bankir kontorları var idi. Belə sahibkarlardan biri də H.Z.Tağıyev olmuşdur. Onun kontoru da 1904-1913-cü illərdə xüsusi kredit müəssisələri şəbəkəsinə daxil idi. O, həmçinin Dövlət Bankının uçot komitəsinin üzvü də seçilmişdi [1, 153].

1914-cü ildə Azərbaycan tarixində mühüm hadisələrdən biri baş verdi. Ölkə həyatının bir çox sahələrində ilklərə imza atmış H.Z.Tağıyev Azərbaycanın ilk milli bankı olan "Bakı Tacir Bankı"nı təsis etdi. Bankın qarşıya qoyduğu əsas məqsəd neft sənayesinə xidmət etmək idi. Lakin bununla yanaşı neft sənayesi üçün köməkçi olan sahələr, mexaniki və qazma işləri ilə məşğul olan müəssisələr, eləcə də Bakı şəhərinin və ümumiyyətlə, Cənubi Qafqazın ticarət və sənaye həyatının digər bütün sahələrinə lazımı diqqətin yetirilməsi nəzərdə tutulmuşdu. Bu məqsədlə Cənubi Qafqazın digər şəhərlərində də bir sıra filialların açılması nəzərdə tutulurdu [3].

Bakı şəhərində belə bir bankın fəaliyyətə başlaması milli burjuaziya üçün olduğu kimi Rusiya bankları üçün də mühüm önəm daşıyırdı. Bunu bankın təsisçilərinin təşkil etdiyi ziyafətdə çıxış edən Peterburq Kommersiya Bankının nümayəndəsi B.P.Zeymenin çıxışından da görmək olar. Belə ki, o deyirdi: "Rusiyanın qocaman, əlli ildən artıq mövcud olmuş Peterburq Kommersiya Bankının adından Bakı Tacir Bankının açılmasını alqışlayıram...Peterburq bankları Bakı bazarını çox qiymətləndirir və bu da tamamilə təbiidir. Çünki neft ilə zəngin olan Bakı şəhərinin coşğun fəaliyyəti Rusiyanın pul əməliyyatlarında böyük rol oynayır" [2, 110].

Bakı Tacir Bankının 1913-cü ildə təsdiq edilmiş Nizamnaməsinə əsasən bankın 3 mln rubl ilkin kapitalı olmalı idi. Həmçinin 20 səhmə malik olan şəxs bir həlledici səs, 50 səhmə malik şəxs iki həlledici səs, 80 səhmə malik olan şəxs üç səs, 120 səhmə malik olan şəxs dörd həlledici səs əldə edirdi. Sayı 120-dən çox olan hər sonrakı 40 səhm sahibinə bir səs verirdi. Səhmlərinin sayı 20-dən az olan şəxslər isə birləşərək bir və ya səhmlərin sayına uyğun daha çox səs hüququ qazanırdı.

Bankın səhm sahiblərinin 12 aprel 1914-cü il tarixində H.Z.Tağıyevin şəxsi evində keçirilmiş ilk yığıncağında 155 həlledici səs hüququ verən 10053 səhmə malik 38 səhm sahibi iştirak etmişdi [5, 105].

Bankın səhmdarları əsasən tacirlər, neftçilər və gəmi sahibləri idi. Səhmdarların ümumi yığıncağında bankın bütün işlərinə rəhbərlik edən Şura və İdarə heyəti seçilmişdi. Bankın Şurasına milli kaitalın nümayəndələrindən olan H.Z.Tağıyev (şuranın sədri), Ş.Əsədullayev, A.Əhmədov, S.Z.Tağıyev, A.Q.Tağıyev, İdarə Heyətinin üzvlüyünə M.Nağıyev (İdarəHeyətininsədri), F.B.Rüstəmbəyov, Təftiş Komissiyasının tərkibinə Ə.Ə.Kərimov, M.Ə.Miriyev daxil idilər. Sonrakı il isə daha bir neçə azərbaycanlı sahibkar- Ə.Aşurbəyov, A.Muxtarov, S.Əliyev, Z.Səlimxanov Bankın Şurasına seçilmişdilər [7, 29].

Şuranın nəzdində Veksellərin Uçotu Komitəsi fəaliyyət göstərirdi ki, o da müəyyən vaxt ərzində müraciət edənlərin krediti ödəmə qabiliyyətini nəzərdən keçirir və banka bu veksellərin uçotunu aparmaq əmri verə bilərdi. Hər il mart ayında səhmdarların ümumi yığıncağı bankın fəaliyyəti haqqında illik hesabatı təsdiq edir və eyni zamanda bankın mənfəəti bölüşdürülür, sonra isə dividend

şəklində bankın səhmdarlarına verilirdi. Hər bir səhmdar sahib olduğu səhmlərin sayına uyğun olaraq dividend alırdı. Elə ilk ildən bankın təmiz gəliri 109 min rubl olmuşdu ki, bu da öz növbəsində hər səhm üçün 7 rubl 50 qəpik dividend verməyə imkan verirdi [4].

Bankın nizamnaməsinə uyğun olaraq əldə edilən mənfəətdən idarəedici direktora və bankın işçilərinə bonuslar ödənilirdi. Gündəlik əməliyyat işlərini həyata keçirmək üçün bankda şöbələr var idi ki, bunların da ən böyükləri veksellərin uçot şöbəsi və əmtəə departamenti idi. Bundan başqa bankın seyfləri olan polad anbarı var idi. Seyflər müştərilərə qiymətli əşyalarını- pul, qiymətli kağızlar, qızıl, brilliant və s. saxlamaq üçün icarəyə verilirdi.

Qısa müddət ərzində bank təsisçilərin ümidlərini doğrultdu.Dövrün mətbu orqanlarından biri olan "Birja" qəzeti yazırdı ki, bankın müştərilərinin böyük əksəriyyətini müsəlmanlar təşkil edir. Volqa-Kama bankının Bakı şöbəsinin 1914-cü il çıxarışında qeyd edilirdi ki, H.Z.Tağıyev və M.Nağıyev imkanlı və maliyyə dairələrində böyük hörmət və güvənə sahib şəxslərdilər. 1915-ci ilin audit materiallarında isə Bakı Tacir Bankı haqqında aşağıdakılar deyilirdi: "Təsisçilərə göstərilən etimad sayəsində bank öz dövriyyəsinə görə digər banklar arasında xüsusi mövqe tutur. Fəaliyyətinin ilk ilində əsas kapitala 3% dividend vermişdir" [8, 99].

Həqiqətən də Bakı Tacir Bankına göstərilən etmad bir çox hallarda özünü göstərirdi. Məsələn, Volqa-Kama Bankının Bakı şöbəsi ilə yazışmalarından bəlli olur ki, Bakı Tacir Bankının 100 min rubl səhminə sahib olan M. və N.Əmiraslanov qardaşları Volqa-Kama Bankından80 min rubl kredit almağı xahişetdiyi zaman Bankın İdarə heyəti özlərinin də qeyd etdiyi kimi Bakı Tacir Bankının mötəbərliyini, aktivlərinin dövriyyəsini və keyfiyyətini, həmçinin gəlirlərinə görə regionda xüsusi yer tutmasını əsas gətirərək buna razılıq vermişdilər [2, 113].

Bakı Tacir Bankının səhmlərinə böyük tələbat olsa da, bank özü də digər bankların qiymətli kağızlarına maraq göstərirdi. Nümunə olaraq göstərmək olar ki, bankın idarə heyəti 1916-cı il noyabrın 12-də hər biri 149 rubl 50 qəpik olan Peterbuq Kommersiya bankının 5800 səhmini satın almışdı.

Yarandığı vaxtdan 1917-ci ilə qədərki müddət ərzində bank 11532 min rubl məbləğində uçot əməliyyatları həyata keçirmişdi.Müharibə illərində girov qoyulması müqabilində verilən ssudaların həcmi də genişlənmişdi. Belə ki, təkcə 1915- ci ildə bank tərəfindən malların girov qoyulması müqabilində 681 min rubl ssuda verilmişdi [6, 175].

Getdikcə bankın fəaliyyətinin genişlənməsi bank əməliyyatlarının H.Z.Tağıyevin kontorunda həyata keçirilməsini çətinləşdirirdi. Bu səbəbdən də sahibkar 1916-cı ilin aprelində keçmiş Baryatinsk və Qorçakov (indiki

H.Z.Tağıyev küşəsi və Azərbaycan prospekti) küçələrinin kəsişməsində bank üçün yeni binanın tikilməsinə göstəriş vermişdi [5, 107].

1915-ci ilin martında yerli sənayenin maliyyələşdirilməsi məqsədi ilə Tacir Bankı Rusiyanın bütün əyalət banklarının birləşdirilməsi layihəsini irəli sürmüşdü. Lakin çox güman ki, 1917-1920-ci illərdə ölkədə baş verən hadisələr səbəbindən bu layihəni həyata keçirmək mümkün olmadı [7, 48].

Nəticə olaraq qeyd etmək olar ki, əsas məqsədi sənaye və ticarət müəssisələrini maliyyələşdirmək olan ilk milli bankımız Azərbaycanda bank sistemində milli kapitalın iştirakının genişləndirilməsində müstəsna rol oynamışdır.Xarici kapitalın neft sənayesində möhkəmlənərək milli kapitalı asılı vəziyyətə salmağa çalışdığını yaxşı dərk edən H.Z.Tağıyevin yerli sahibkarlarlabirləşərək belə bir bank təsis etməsi ilə milli kapital özünün ən yüksək inkişaf mərhələsinə çatmış oldu.

## ƏDƏBİYYAT


1. Həsənov Ş.Ü. XIX əsrin sonları-XX əsrin əvvəllərində Rusiya Dövlət Bankının Şimali Azərbaycanın kredit sisteminin inkişafında roluna dair // Bakı Universitetinin Xəbərləri, 2013, №4, s.150-155
2. İsmayılov M.Ə. El atası, Bakı, 1994, 124s.
3. Kaspi qəzeti, 1914, № 10, s.4
4. Kaspi qəzeti, 1915, № 39, s.1
5. Musayev A.F., Vəliyev N.N., Quliyev A.S. Qiymətli kağızlar bazarı, Bakı, 1999, 323s.
6. Musayev M.Ə. XX əsrin əvvəllərində Bakı şəhərinin ticarəti, Bakı, 1975, 193s.
7. Seyidzadə D.Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar. Bakı, 2004, 348s.
8. Ибрагимов М.Дж. Предпринимательская деятельность Г.З. Тагиева, Баку, 1990, 109с.
9. Исмаилова А.М. Банки и банковские учреждения Закавказского края (последняя треть XIX- начало XX века ) // Вестник Челябинского государственного университета, 2015, № 24, с.50-54
10. Касимова С. Из истории развития банковского дела в Азербайджане ( XIX- начале XX вв.) // Tarixvə onun problemləri, 2019, № 3, s.66-75

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 3 (36), s.124-132

# N.S.XRUŞŞOVUN HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ (1953-1955-Cİ İLLƏR)

**Samirə Kərimova**
***Sumqayıt Dövlət Universiteti***
***samira.kerimova80@mail.ru***

***Açar sözlər:*** *Türkiyə, SSRİ, Stalin, Xruşşov, xarici siyasət, Suriya böhranı, Bağdad paktı*

Məqalədə İkinci Dünya müharibəsinin bitməsi ilə iki sistem arasında gedən mübarizənin kəskinləşməsi, Stalinin ölümündən sonra SSRİ-nin xarici siyasətində baş vermiş mülayimləşmə, N.S.Xruşşovun xarici siyasət strategiyası, Sovet İttifaqının Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkərək onunla münasibətləri normallaşdırma cəhdləri araşdırılmışdır. Bununla yanaşı Türkiyənin Qərb dünyası üçün strateji əhəmiyyəti təhlil edilmiş, Montre sözləşməsi, Bağdad paktının yaradılmasının Türkiyə-SSRİ münasibətlərinə təsiri, Türkiyənin Yaxın Şərq siyasəti, Türkiyə tərəfinin Süveyş böhranına göstərdiyi reaksiya, Yaxın və Orta Şərq bölgəsinin Sovet təhlükəsindən qorunmasının ABŞ və İngiltərə üçün əhəmiyyəti, ABŞ və İngiltərənin Yaxın Şərq Müdafiə Sistemi layihəsi tədqiqata cəlb edilmişdir.

## ОТНОШЕНИЯ СССР И ТУРЦИИ В ПЕРВЫЕ ГОДЫ ПРАВЛЕНИЯ Н.С.ХРУЩЕВА (1953-1955 ГГ.)

***Самира Каримова***

***Ключевые слова***: *Турция, СССР, Сталин, Хрущев, внешняя политика, Сирийский кризис, Багдадский пакт.*

В статье рассматривается обострение борьбы двух систем после окончания Второй Мировой войны, умеренность во внешней политике СССР после смерти Сталина, внешнеполитическая стратегия Н. С. Хрущева, попытки нормализовать отношения с СССР, отказавшись от своих территориальных претензий к Турции. Кроме того, были проанализированы стратегическое значение Турции для западного мира, Монтрское соглашение, влияние Багдадского пакта на отношения Турции и СССР, ближневосточная политика Турции, реакция Турции на Суэцкий кризис, важность защиты региона Ближнего и Среднего Востока от советской угрозы для США и Англии, проект системы обороны Ближнего Востока США и Великобритании были вовлечены в исследование.

# USSR-TURKEY RELATİONS İN THE FİRST YEARS OF KHRUSHCHEV'S RULE (1953-1955)

***Samira Karimova***

***Keywords:*** *Turkey, USSR, Stalin, Khrushchev, foreign policy, Syrian crisis, Baghdad Pact*

The article examines the intensification of the struggle between the two systems after the end of the Second World War, the moderation in the foreign policy of the USSR after the death of Stalin, the foreign policy strategy of N.S. Khrushchev, the attempts to normalize relations with the Soviet Union by giving up its territorial claims against Turkey. In addition, the strategic importance of Turkey for the Western world was analyzed, the Montre Agreement, the impact of the Baghdad Pact on Turkey-USSR relations, Turkey's Middle East policy, Turkey's reaction to the Suez crisis, the importance of protecting the Middle East region from the Soviet threat for the United States and England, the United States and the UK's Middle East Defense System project were involved in the research.

**Giriş.**İkinci Dünya müharibəsinin bitməsi ilə dünyada iki bir-birinə əks olan ictimai quruluş - sosializm və kapitalizm qaldı. Kapitalist ölkələr yeni yaranmış quruluşu yox etməyə çalışır, SSRİ isə əksinə sosializmi dünyaya yaymaq niyyətində idi. Məhz bu istəklər iki blok arasında soyuq müharibənin başlanmasına səbəb oldu. Böyük dövlətlərin xarici siyasət prioritetlərini ideologiyalar müəyyənləşdirirdi. Əsasən iki qarşı blok və ideologiya çərçivəsində formalaşan Soyuq Müharibə dövrünün öz təsirini hiss etdirməyə başladığı 1950-ci illərdə beynəlxalq mühit və xüsusilə Yaxın və Orta Şərq bölgəsi böyük problemlərin və əhəmiyyətli qarşıdurmaların yaşandığı bir əraziyə çevrildi.

Bu çərçivədə bölgə dövlətlərinə əlavə olaraq bir tərəfdə ABŞ və Qərb dövlətləri, digər tərəfdə Sovet Rusiyası bölgəyə qarşı təşəbbüslər göstərməyə başlayırdı. SSRİ bölgəyə hərbi texnika və mütəxəssislər göndərərək burada nüfuz qazanmağa və kommunist ideologiyanı yaymağa çalışır, ABŞ, Fransa və İngiltərə isə bu təşəbbüslərə qarşı regional əməkdaşlıq və müdafiə təşkilatları quraraq tədbirlər görməyə çalışırdılar.[8,s.214]

1953-cü ilin martında İ.V.Stalin öldü. Şübhəsiz ki, bu SSRİ tarixində çox ciddi bir hadisə idi. Stalinin ölümündən sonra SSRİ-nin xarici siyasəti əhəmiyyətli dərəcədə dəyişərək mülayimləşmə xəttinə istiqamət aldı.

Onun yerinə keçən N.S.Xruşşov Stalinin fikirlərinin arxasında dayanmadı. N.S.Xruşşovun xarici siyasət strategiyası sosialist ölkələri cəbhəsi üçün daha çox müstəqillik, kapitalist dövlətləri ilə dinc yanaşı yaşamağın mümkün olmasını, üçüncü dünya ölkələri nümunəsində isə "sülh cığırı" yaratmağı elan etdi. Bu isə o anlama gəlirdi ki, sovet xarici siyasət doktrinası

müdafiə xarakteri almışdır. Ordu və hərbi-dəniz flotunun canlı qüvvə və hərbi texnikasının N.Xruşşovun təşəbbüsü ilə azaldılması bunu təstiq edir.

O SSRİ-nin xarici siyasət istiqamətini dəyişərək Qərb dövlətləri ilə münasibətləri normallaşdırmaq yolunu seçdi.1953-cü ilin iyulunda Koreyada atəşin dayandırılmasına dair saziş imzalandı.İsraillə 1953-cü ilin fevralından kəsilən diplomatik münasibətlər bərpa olundu. Bu dövrdə Sovet xarici siyasətinin ən mühüm cəhətlərindən biri də əvvəlcə Çin Xalq Respublikası və digər sosialist blok ölkələri ilə yaxşı əlaqələr qurması və onları öz nəzarətində saxlamağa çalışması idi.[13]

Bu dövrdə SSRİ ilə Türkiyə arasındakı münasibətlərə təsir edən amillərdən biri də Suriya hadisələri idi. SSRİ-nin Suriya böhranı ilə bağlı siyasətində əsas məqsədi Qərbin Yaxın Şərqdə müdaxiləsinin qarşısının almaqdan ibarət idi. Və bu yolla Yaxın Şərq siyasətində həll edici rol oynamışdı.

1953-cü ildə Beyrutdakı nümayəndəliyini Dəməşqə köçürən SSRİ, 1955-ci ildə Bağdad paktının yaradılması ilə Suriyadakı təmsilçiliyini Səfirlik səviyyəsinə qaldırdı.1955-ci ilin oktyabrında Suriyanın Misirlə müdafiə ittifaqının bağlaması onun sentyabrda SSRİ ilə silah ticarəti haqqında müqavilə imzalamasına kömək etmiş oldu. Bu hadisələr Suriyanı Şərq blokuna yaxınlaşdırırdı.[5]

Sovet İttifaqı Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkərək onunla münasibətləri normallaşdırdı.Türkiyəyə gəlincə isə 1950-ci il seçkilərində Demokratik Partiya hakimiyyəti ələ almış və Adnan Menderesin rəhbərliyi altında yeni qurulan hökumət vəzifəsinin icrasına başlamışdı. Soyuq müharibə illərində Türkiyə Şərqlə Qərb arasında ayrıcı bir zolaq idi. Bu da ona ciddi strateji önəm qazandırırdı. Türkiyə iki seçim qarşısında qalarkən üzünü Qərbə tərəf çevirdi və demokratik dövlətlər sırasında öz yerini tutdu. DP-nin hakimiyyəti dövründə Türkiyənin xarici siyasətinin ana xəttini ABŞ başda olmaqla Qərb dövlətləri ilə çoxşaxəli əməkdaşlıq və NATO maraqları çərçivəsində fəaliyyət təşkil edirdi. DP-nin Qərb bloku ilə bağlılığı Türkiyənin milli maraqlarına cavab verən bir siyasət idi.

Boğazlara və Şərq vilayətlərinə iddialar irəli sürməklə Sovetlər Birliyi tək Türkiyə üçün deyil, özü üçün də əlavə problemlər yaratdı. 1950-ci illərin ikinci yarısında Stalin kursunu təftiş edən sovet rəhbərliyi daxilində Malenkov, Molotov və Kaqanoviç qruplaşmasına qarşı mübarizə aparan Sov.İKP MK-nın Baş katibi Nikita Xruşov Türkiyəyə münasibətdə buraxılan səhvlərdən öz əleyhdarlarına qarşı məharətlə istifadə etdi.[3,s.507]

N.Xruşşov hökumətinin xarici siyasətinin ilk proritetlərindən biri də Türkiyə ilə olan münasibətləri nizama salmaqdan ibarət idi. 1953-cü il mayın 30-da SSRİiki ölkə arasındakı münasibətləri normallaşdırmaq istəyini bildirən rəsmi nota ilə müracit etdi.[4]SSRİ bu notada üç məsələyə toxunmuşdu. Birincisi SSRİ qonşu dövlətlərlə münasibətlərini yenidən gözdən keçirdiyini və

bu istiqamətdə Türkiyə ilə münasibətlərini nizama salmaq istəyini vurğulamışdı. İkinci Dünya Müharibəsindən sonra əvvəlcə 1925-ci il müqaviləsinin SSRİ tərəfindən uzadılmayacağı barədə açıqlamanın, daha sonra isə Türkiyədən torpaq və baza tələblərinin münasibətlərə mənfi təsir etdiyini bildirən Sovet hakimiyyəti münasibətləri yaxşılaşdırmaq istəklərini bildirdilər.

İkincisi Ermənistan və Gürcüstan SSR-in Türkiyəyə qarşı torpaq iddialarının olmadığını bildirdilər.

Üçüncüsü SSRİ bu nota ilə Boğazların statusu məsələsinə də toxundu. O, bu məsələ ilə bağlı öz fikrini nəzərdən keçirdiyini və SSRİ-nin boğazlar istiqamətində təhlükəsizliyinin həm SSRİ, həm də Türkiyəyə uyğun şərtlərlə həll olunacağını açıqladı.[6,s.263]

SSRİ bu nota ilə Stalinin dövründə pozulan və Türkiyəni Qərb dövlətləri ilə müttəfiqliyə məcbur edən siyasətini dəyişdirdiyini göstərirdi. SSRİ-nin bu addımı Türkiyənin Qərb müttəfiqləri tərəfindən heç də yaxşı qarşılanmadı. Nota verilən zaman Türkiyə baş naziri A.Menderes İngiltərədə səfərdə idi. İyun ayının 1-də Londonda notanın müzakirəsi keçirildi. Tərəflərə görə SSRİ-nin bu hərəkəti düşünülmüş bir oyun idi. O bununla Türkiyəni NATO-dan ayırmaq və demokratiyadan uzaqlaşdırmaq istəyirdi. İngiltərəyə görə Türkiyə bu oyuna getməməli, Qərblə olan münasibətlərini olduğu kimi saxlamalı idi. Fransa isə SSRİ-nin bu cəhdini Qərblə Şərq arasındakı münasibətləri normallaşdırmaq üçün atılan addım olaraq qiymətləndirdi.

Sovet İttifaqının bu siyasətini bitərəf dövlətlər yaxşı qarşılayarkən, Türkiyə daxilində narazılıqlar, siyasətlə bağlı fikir ayrılıqları artmağa başladı. Türkiyəyə görə bu notanın müsbət olduğu qədər mənfi yönləri də var idi. Türkiyə bu notaya görə hərbi xərcləri azalda biləcəkdi ki, bu da ABŞ və İngiltərədən gələn yardımlarında azalması demək idi. Buna görədə ABŞ yardımınlarını qarant altına almaq istəyən Türkiyə Qərb dünyası üçün strateji əhəmiyyət kəsb etdiyini bir daha vurğulamağa davam etmişdir. Həmçinin Ankara üçün İkinci Dünya müharibəsinin ardınca Türkiyəni çətin vəziyyətə salan Sovet tələbləri bir nota ilə unudulası hadisələr deyildi və Türkiyəyə görə NATO-dan savayı onun təhlükəsizliyini təmin edə biləcək digər bir təşkilat da yox idi.

Türkiyə SSRİ-nin bu siyasətinə baxmayaraq NATO-nun SSRİ-ni məhdudlaşdırmaq siyasəti çərçivəsində hərəkət etməyə davam edirdi. Türkiyənin Xarici İşlər Naziri Fuad Köprülü SSRİ-nin Qərb ölkələri arasındaki birliyi pozmaq məqsədilə yeni bir siyasətə başladığı ve bunun yeni bir taktika olduğunu düşünürdü. Bu dövrdə Sovet İttifaqı Türkiyəyə iqtisadi yardım təklifləri etsədə Adnan Menderes hökuməti bu təklifləri rədd etmişdir. Çünki Türkiyənin bu yardımları qəbul etməsi onun xarici siyasətinin dəyişməsinə səbəb olacaqdı.

Türkiyə tərəfi 18 iyul 1953-cü ildə verdiyi cavab notasında SSRİ-nin torpaq iddiasından əl çəkməsini, münasibətlərin normallaşmasına, eyni

zamanda təhlükəsizliyin qorunmasına göstərdiyi cəhdləri böyük məmnunluqla qarşıladıqlarını bildirdi. O, SSRİ-nin öz ərazi tələblərini geri götürməsinə cavab olaraq Türkiyə daha çox, boğazların Montre Konvensiyası ilə tənzimləndiyini və hər iki tərəfin qəbul edəcəyi şərtlərin yalnız bu müqavilə çərçivəsində müəyyən edilə biləcəyini vurğuladı.

Beləliklə, SSRİ bu nota ilə müharibədən sonra pozulan münasibətlərin normallaşması üçün ilk addımı atmış oldu. Türkiyənin cavab mətnindən isə SSRİ-nin bu notası müsbət qarşılansada münasibətlərin düzəlməsi üçün kafi hesab edilmədiyi məlum oldu.

SSRİ-nin Türkiyə ilə münasibətləri normallaşdırmağa çalışdığı bir dönəmdə 22 iyul-7 avqust 1953-cü ildə 10-u ABŞ-a, 22-si İngiltərəyə məxsus olan 32 hərbi gəminin İstanbula ziyarəti iki ölkə arasında münasibətləri yenidən gərgin məcraya saldı.[10,s.7] Türkiyə tərəfi bu ziyarətin Montre sözləşməsinə uyğun olduğunu açıqlamaqla qərb yönümlü siyasətini bir daha göstərmiş oldu.[9,s.7]Bu ziyarətdən sonra avqustun 1-də SSRİ Türkiyəyə yeni bir nota verdi. Bu notada da məqsədlərinin Türkiyənin daxili işinə qarışmaq olmadığını bildirərək sadəcə Türkiyə tərəfindən məlumat almaq istədiklərini bildirdilər.

SSRİ-nin hadislərə qarşı bu münasibəti 1953-cü ilin növbəti aylarında da davam etdi. Malenkov 1953-cü ilin avqustun 8-də SSRİ Ali Sovetində etdiyi çıxışında Türkiyə, Əfqanıstan, Finlandiya, İsrail, Fransa, Misir və digər qonşu dövlətlərlə münasibətləri normallaşdırmaq istədiklərini və Türkiyəyə qarşı ərazi iddialarının olmadığını və iki ölkə arasındakı münasibətlərin normallaşdırılmasının Türkiyədən asılı olduğunu bildirmişdi.[1,s.124] Bu çıxışla SSRİ tərəfi sülh əlini bir daha Türkiyə tərəfinə uzatmış oldu.

Lakin SSRİ-nin cəhdləri iki ölkə arasındakı buzları nəinki əritmədi, Türkiyənin şübhələrinidə aradan qaldırmadı. Türkiyə prezidenti C.Bayar 1953-cü ilin noyabrın 1-də TBMM-də etdiyi çıxışında SSRİ tərəfindən maddi sübut görmədikləri müddətdə onların bu məsələdə səmimi olduqlarına inanmadıqlarını bildirdi. Çıxışına davam edən C.Bayar Türkiyənin bu siyasətdən təsirlənərək müdafiə sistemlərini zəiflətməyəcəklərini dilə gətirdi.[11,s.338]

1953-cü ilin mayında V.Molotovun bəyanatından və 50-ci illərin ortalarında N.Xruşovun çıxışlarından sonra hələ uzun müddət Ankara ilə münasibətləri normallaşdırmaq mümkün olmadı. Bu, 40-cı illərin ikinci yarısı və 50-ci illərin əvvəllərində Sovet təhdidi qarşısında Türkiyənin keçirdiyi qorxunun böyüklüyü ilə bağlı idi.

Türk hökumətinin Sovet Rusiyasına qarşı soyuq münasibət göstərməyinin bir səbəbi güvənməmək idisə, digər səbəbi rusların türk hökumətinə qarşı mənfi təbliğat aparmasından ibarət idi. Sovet rusiyasının bir tərəfdən Türkiyəyə yaxınlaşmaq siyasətini davam etdirərkən, digər tərəfdən də Yuqoslaviyanı Balkan paktından ayıraraq paktın dağılmasını sürətləndirmək, Yaxın

Şərqdə Misir və Suriyanı Türkiyəyə qarşı istifadə etmək cəhdləri Türkiyə tərəfindən heçdə yaxşı qarşılanmırdı.[14,c.401]

SSRİ-nin izlədiyi xarici siyasət nəticəsində 1954-cü ildə Moskvada bir araya gələn Avropanın səkkiz sosialist dövləti bu dəfə Varşavada bir araya gələrək Avropada kollektiv təhlükəsizlik sisteminin yaradılması məqsədilə çıxış etdilər. 1955-ci ilin mayın 14-də Almaniya Federativ Respublikasının NATO-ya üzvlüyünə cavab olaraq, Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Yardım müqaviləsini imzaladılar. Beləliklə, Şərq Blokunu bir araya gətirən Varşava hərbi birliyi, Qərb dövlətlərini birləşdirən NATO hərbi ittifaqı qarşısında quruldu.[13]

1954-cü ildə Bağdat paktının yaradılmasının ardınca Türkiyə-SSRİ münasibətləri daha da gərginləşmişdi. Xüsusi ilə Bağdat paktının yaradılmasına qarşı çıxan Misir və Suriyanın Sovet İttifaqı ilə yaxınlaşması, Misirin Çexoslovakiyadan silah alması, Suriyanın Rusiya ilə hərbi və iqtisadi əlaqələr yaratması NATO üzvü olan Türkiyəni cənubdan mühasirəyə almaq cəhdləri kimi qiymətləndirilirdi.

Menderes hökuməti bu dövr ərzində Yaxın Şərqdə baş verən hadisələrlə yaxından maraqlanır, Türkiyənin təhlükəsizliyinin Yaxın Şərqin təhlükəsizliyi ilə bağlı olduğunu bildirirdilər. Türkiyə Yaxın Şərq siyasətini Qərbin siyasəti ilə uyğunlaşdırmağa çalışmış və bu yöndə addımlar atmağa üstünlük vermişdi. [8,s.214]

Qərb dövlətlərinə görə Yaxın və Orta Şərqin təhlükəsizliyinin təmin edilməsində Türkiyə önəmli rola malik idi və kommunizm təhlükəsinə qarşı mübarizədə Türkiyədən istifadəni planlaşdırırdılar. Əhalisi müsəlmanlardan ibarət olan, Qərbin dəyərləri və idarə sistemini mənimsəyən Türkiyə Yaxın Şərqin dünyəvi sistemlə tənzimlənməsində nümunə ola bilərdi. Bu çərçivədə Türkiyə qərblə şərq arasında körpü rolunu oynamağa başlamışdı.

Türkiyə tərəfidə Sovet İttifaqının Yaxın Şərq üçün böyük təhlükə törətdiyini anlayırdı. Buna görə də SSRİ-yə qarşı Qərb dövlətləri ilə birlikdə hərəkət etməyə üstünlük vermiş və ittifaq axtarışına başlamışdı. 1952-ci ildə Türkiyənin NATO-ya daxil olması bunun bariz nümunəsi idi. Türkiyənin NATO daxilində hərəkət edərkən Yaxın Şərq ölkələrini Qərb və qərb tərəfdaşı ölkələrlə bir araya gətirmək cəhdləri onun körpü rolunu oynamağı kimi qiymətləndirilirdi.

Türkiyənin üzərinə götürdüyü öhdəliklər onun bu regionda əsas gücə çevrilmək arzusu ilə üst-üst düşməsi Türkiyənin lider dövlətə çevrilməsi ilə nəticələnmişdi. Digər tərəfdən bu vəziyyət, Türkiyənin Orta Şərq bölgəsi üçün üzərinə götürdüyü öhdəliklərdə Qərb faktorlarını əks etdirmək baxımından çox vacib idi.

Xarici dövlətlərlə yanaşı bölgə dövlətlərinin özləri də bölgə siyasətinin formalaşmasında önəmli rola malik idilər. Ərəb dövlətləri Qərb dövlətlərinin

Bölgəyə müdaxiləsinə qarşı çıxış edirdilər. Bu çıxış yaradılan İsrail dövlətini qərbin müdafiəsindən sonra daha da artmağa başlamışdı.

ABŞ isə həm Misir və Səudiyyə Ərəbistanını narahat etməmək, həm də SSR-in bölgədə daha da aktiv siyasət yeritməsinə şərait yaratmamaq üçün bu pakta qoşulmadı. [2]1955-ci ildə qurulan Bağdad Paktı bölgədə ciddi mənfi təsirlər göstərdi. Ərəb dünyasındakı keçmiş siyasətlərdən qaynaqlanan mənfi görüntü, Türkiyə baxımından daha da pis bir vəziyyət aldı. Eynilə, Türk-Sovet münasibətlərinin gərginləşdiyi müşahidə edilmişdir.

Pakt Ərəb Birliyi və Ərəb Təhlükəsizlik Müqaviləsinin üzvü olan İraqın bölgədə təcrid olunması ilə nəticələndi. Digər tərəfdən, sovet Rusiyasının müqavilənin imzalanmasına qarşı müqaviməti bölgədəki ərəb dövlətləri ilə əlaqələrin yaxınlaşmasına imkan yaratdı. Həmçinin Misir, Səudiyyə Ərəbistan və Suriyanın Türkiyə və Qərb dövlətlərinin bölgəyə yönəlik cəhdlərinə qarşı birləşməsinə gətirib çıxardı. Nəticədə SSRİ-ni bölgədə təhlükə olaraq görən və bunun qarşısını almağa cəhd edən Türkiyə və Qərb dövlətləri Yaxın Şərqdə SSRİ-nin təhdid olaraq görülməməsi, eyni zamanda ərəb millətçiliyi səbəbindən planladıqları məqsədə çata bilməmişdilər.

Bağdad Paktı ilə əlaqəli digər hadisə isə Süveyş Kanalı ilə əlaqədar Misir-İngilis mübahisələrinin 1956-cı ildə Süveyş Böhranına səbəb olması idi. Böhran nəticəsində bölgədə Misir və İngiltərə-Fransa-İsrail üz-üzə gəldilər. Bu vəziyyətdə bölgə ilə yaxından maraqlanan SSRİ və ABŞ-da problemə müdaxilə etməyə məcbur olmuşdular. Süveyş kanalına uğursuz müdaxilə nəticəsində İngiltərə və Fransa əsgərlərini Kanaldan geri çəkmiş və İsrail müdaxilədən əvvəlki sərhədlərinə qayıtmışdı. Digər tərəfdən, Misirin Kanalı milliləşdirmək cəhdi isə beynəlxalq səviyyədə tanınmışdır.

Məsələyə münasibətdə Türkiyəyə gəlincə isə Türkiyə tərəfinin Süveyş böhranına göstərdiyi reaksiya diqqət çəkən məqamlardan biri olmuşdur. Kanala müdaxilə edən dövlətlər- İngiltərə və Fransa NATO-nun müttəfiqləri, İngiltərə isə eyni zamanda Bağdad Paktına üzv ölkədir. Bu baxımdan NATO-nun üzvü olan Türkiyə bitərəf qalaraq ABŞ-a dəstək vermişdir.[12,s.74]

Yaxın və Orta Şərq bölgəsinin Sovet təhlükəsinə qarşı qorunması ABŞ və İngiltərə üçün böyük əhəmiyyət daşıyırdı . Bu çərçivədə ABŞ, İngiltərə və Fransa tərəfindən Yaxın Şərqin müdafiəsi üçün layihələr irəli sürülməyə başlandı. Bu təşəbbüslərdən birincisi, 1951-ci ildə ortaya çıxan ABŞ, İngiltərə və Fransa, həmçinin Türkiyənin də iştirak edəcəyi Yaxın Şərq Komandanlığı Layihəsi idi. Layihənin əsas məqsədi Süveyş bölgəsinin qorunması olduğu üçün bu layihənin reallaşması Misirin dəstəyindən asılı idi. Əslində belə bir təşəbbüs Misir tərəfindən müstəmləkəçilərin və böyük güclərin bölgəyə nəzarət etmək cəhdi kimi qəbul edildi. Lakin bu təklif ərəb millətçiliyini dəstəkləyən və bu çərçivədə ərəb dövlətlərinə rəhbərliyi hədəfləyən Misir tərəfindən qəbul edilmədi və yaradılmadan dağıdıldı.

Bölgəni nəzarət altına almaq siyasətindən əl çəkməyən ABŞ və İngiltərə növbəti dəfə 1953-cü ildə Yaxın Şərq Müdafiə Sistemi layihəsini irəli sürsədə yenidən Misir tərəfindən qəbul edilməmişdi. Qərb dövlətlərinin bu siyasəti Misiri və Ə.Nasiri ərəb dünyasının lideri vəziyyətinə gətirsədə Türkiyə ilə ərəb dövlətləri arasında olan münasibətləri daha da korlayırdı.

Bu hadisələrdən sonra ABŞ Dövlət Katibi J. F. Dallesin 1953-cü ildə bölgə ölkələrinə səfəri ilə bölgəni qorumaq üçün ABŞ-ın Şimali Kəmər təşəbbüsü (Kuzey Kuşak girişimi) başladıldı. Bu təşəbbüs bölgə üzrə müdafiə təşkilatlarının yaradılmasından əl çəkdiklərinin bir nümunəsi olmuşdur. Bunun əvəzinə SSRİ-nin cənub sərhədlərindəki dövlətlərin öz aralarında ittifaq quraraq SSR-yə qarşı bir sədd yaradılması nəzərdə tutulurdu. Şimali Kəmər təşəbbüsü, 1955-ci ildə həyata keçirilmiş Bağdad Paktının təməllərini yaratmaq baxımından da əhəmiyyətli idi.Digər layihələrdə olduğu kimi Türkiyə bu layihədə də əsas rolu öz üzərinə götürmüşdü. 1954-cü ildə Türkiyə və Pakistan arasında Dostluq və Əməkdaşlıq Müqaviləsinin imzalanması bu yolda atılan ilk addımlardan biri olmuşdu.

Digər tərəfdən, ərəblərin əhəmiyyətli bir çoxluq təşkil etdiyi bölgədə, ərəb dövlətlərinin müdafiə təşkilatlarında iştirakının nə dərəcədə vacib olduğu əvvəlki iki uğursuz cəhddə açıq şəkildə görülmüşdür. Bu baxımdan Menderes ərəb dövlətlərinin bir quruluşu olan, Türkiyənin bölgədə fəaliyyətinin zəruriliyini izah etmək üçün üzərinə götürdüyü rollar çərçivəsində onları Sovet təhlükəsinə inandırmağa çalışdı.Bu baxımdan A.Menderes Sovet təhlükəsinə qarşı ərəb dövlətlərindən ibarət ittifaq yaratmağa səylər göstərirdi.

Bölgədə ittifaq yaratmaq üçün ilk addım 1955-ci ildə Suriya, İraq və Livana səfərlər edilərək atılmışdı. Lakin, bu ittifaqa sadəcə İraq müsbət yanamış və 1955-ci ildə iki ölkə arasında müqavilə imzalanmışdı. Daha sonra müqaviləyə İngiltərə, Pakistan və İranda qoşularaq ittifaqı genişləndir-mişdi.[7,s.65-66]

**Nəticə.** Stalinin ölümü ilə SSRİ-Türkiyə münüsibətlərində mövcud olan gərginlik xeyli dərəcədə azaldı. N.S.Xruşşov hakimiyyətə gəldikdən sonra Türkiyə ilə münasibətlərin bərpa edilməsi təşəbbüsü ilə çıxış etdi. Hətta SSRİ-Türkiyə münasibətlərində mövcud olan bütün problemlərin yaranmasında Stalini günahlandırdı. Lakin,N.S.Xruşşovun bu təşəbbüsü Türkiyə tərəfindən birmənalı qarşılanmadı. Həm Türkiyə, həm də onun müttəfiqləri SSRİ-nin səmimi olmadığı qənaətində idi. Ona görə də SSRİ-nin dəfələrlə cəhd göstərməsinə baxmayaraq SSRİ-Türkiyə münasibətlərinin bərpası istiqamətində atılan addımlar heç bir nəticə vermədi.

## ƏDƏBİYYAT

1. Albayrak M. Demokratik Parti Dönemi Türkiyenin dış politikası. Mersin, Mer-Ak Mersin Akademi yayınları. – 2020, - 260 s. s. 124
2. Gönlübol, M. Sovyet İdeolojisi ve Dış Politika. SBF Dergisi. Ankara, 1968, 1(23), 163185. 09.10.2015, http://dergiler.ankara.edu.tr/dergiler/42/413/4543.pdf.
3. Həsənli C. SSRİ-Türkiyə: soyuq müharibənin sınaq meydanı. Bakı, "Adiloğlu " nəşriyyatı, 2005, 544 səh, (16 şəkil) s. 507
4. https://www.marxists.org/history/etol/document/fi/1953-1963/ic/index.htm
5. İsmayılov R. Axundova N. Bağırova A. Asiya və Agfrika ölkələrinin çağdaş tarixi (1945-ci
6. Karpat K. Türk dış politikası tarihi. İstanbul, Timaş yayınlar, 2012, s.263 (400 s.)
7. Kürkçüoğlu, Ö. Türkiye'nin Arap Ortadoğu'suna Karşı Politikası: 1945-1970. Ankara, 1972, Barış Kitap Basım ve Yayın Dağıtım LTD. S. 65-66
8. Laquer, W. The Struggle for the Middle East: The Soviet Union and the Middle East 1958-1968. England, Pelican Books/Pinguin Books, -1972. s. 213-214
9. Notanın akisleri // Milliyet – 1953, 22 temmuz, s.7
10. Rus notası // Milliyet – 1953, 22 temmuz, s.7
11. Suat Bilge. Güç Komşuluk. Türkiye-Sovyet Birliği ilişkileri. 1920-1964. Ankara: Türkiye İş Bankası Kültür yayınları. – 1992, - s. 370. 338 s.
12. Yeşilbursa, B. Demokrat Parti Dönemi Türkiye'nin Ortadoğu Politikası. History Studies. Ortadoğu Özel Sayısı. - 2010, s.67-98, s.74
13. Варщавский договор (1955-1991)https://w.histrf.ru/articles/article/show/varshavskii_dogovor_1955_1991
14. Холодная война 1945-1963 гг. Историческая ретроспектива. Сборник статей. Отв. Ред. Н.И. Егорова, А.О. Чурбарьян. Москва: Олма-Пресс, - 2003, - 640 с. С.401

# HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜASİR ELMİ SƏVİYYƏDƏ ÖYRƏNİLMƏSİNİN TƏŞKİLATÇISIDIR

**Səba Hüseynova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
sebahuseynova08@mail.ru

***Açar sözlər:*** *maddi-mədəniyyət abidələri, tarixi abidələrin tədqiqi, Qanunnamələr, Arxeologiya və Etnoqrafiya İnstitutu.*

*Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Baxmayaraq ki, arxeoloji tədqiqatların Azərbaycanda yüz ildən artıq tarixi var idi, ancaq bu sahədə inqilabi inkişaf məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə- XX əsrin 70-80-ci illərində baş vermişdir. Azərbaycan arxeoloqlarının apardıqları tədqiqatlar nəticəsində elmi əsalarla sübuta yetirildi ki, ölkəmizin ərazisi dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biridir. Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən ilkin olaraq onun gördüyü tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotunun dəqiqləşdirilərək, yenidən qeydiyyata alınması məsələsi idi.*

## ГАЙДЕР АЛИЕВ ЯВЛЯЕТСЯ ОРГАНИЗАТОРОМ ИЗУЧЕНИЯ МАТЕРИАЛЬНЫХ И КУЛЬТУРНЫХ ПАМЯТНИКОВ АЗЕРБАЙДЖАНА НА СОВРЕМЕННОМ НАУЧНОМ УРОВНЕ

**Саба Гусейнова**

***Ключевые слова:*** *материально-культурные памятники, исследование памятников истории, Законы, Институт археологии и этнографии*

*В период руководства Азербайджаном великого лидера Гейдара Алиева защита, исследование и пропаганда нашего материального и культурного наследия достигли наивысшего уровня развития. Хотя археологические исследования в Азербайджане имеют более чем столетнюю историю, революционное развитие в этой области произошло именно в годы, когда Гейдар Алиев руководил Азербайджаном-в 70-е и 80-е годы XX века. В результате исследований, проведенных азербайджанскими археологами, научным путем было доказано, что территория нашей страны является одним из древнейших поселений*

*человека и центров цивилизации в мире. Когда Гейдар Алиев пришел к руководству республикой в 1969 году, одной из мер, которые он первоначально предпринял, был вопрос уточнения и перерегистрации учета исторических и архитектурных памятников на территории Азербайджана.*

## HAYDER ALIYEV IS THE ORGANIZER OF THE STUDY OF THE MATERIAL AND CULTURAL MONUMENTS OF AZERBAIJAN AT A MODERN SCIENTIFIC LEVEL

**Saba Huseynova**

***Keywords:*** *material-cultural monuments, research of historical monuments, Laws, Institute of Archeology and Ethnography*

*During the leadership of the great leader Heydar Aliyev to Azerbaijan, the protection, research and promotion of our material and cultural heritage reached its highest level of development. Although archaeological research had a history of more than a hundred years in Azerbaijan, the revolutionary development in this field took place precisely during the years when Heydar Aliyev led Azerbaijan -in the 70s and 80s of the XX century. As a result of research conducted by Azerbaijani archaeologists, it was proved by scientific means that the territory of our country is one of the oldest human settlements and centers of civilization in the world. When Heydar Aliyev came to the leadership of the republic in 1969, one of the measures he initially took was the issue of clarifying and re-registering the records of historical and architectural monuments on the territory of Azerbaijan.*

**Giriş:D**ünyanın görkəmli dövlət və siyasi xadimlərindən olan Ümummilli lider Heydər Əliyev XX əsrin 60-80-ci illərində respublikaya rəhbərlik etdiyi dövrdə bütövlükdə Azərbaycan cəmiyyətinin yenidən qurulması yolunda misilsiz işlər həyata keçirməyə başladı. O, dövlətin və xalqın inkişafını elmin, mədəniyyətin bütün sahələrinin inkişaf etdirilməsində görürdü və bu işin həyata keçirilməsində çox böyük rol oynamışdır.

Heydər Əliyevin 1969-cu ildə respublikamızda rəhbərliyə başladığı zaman nə Azərbaycan, nə də onun zəngin maddi və mənəvi mədəniyyəti beynəlxalq ictimaiyyətə məlum deyildi. Bu vaxta qədər aparılan işlər isə heç ölkə daxilində də qənaətbəxş hesab edilə bilməzdi. Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə qədəm qoyması ilə tarixi, arxeoloji, memarlıq abidələrimizə olan biganə münasibətə son qoyuldu, qədim və zəngin tarixə malik xalqımızın gələcəyə inamı artdı. Tarixi həqiqətlərimizin araşdırılmasına, təbii sərvətlərimizə, maddi-mədəni abidələrimizə olan münasibət dəyişildi. Heydər Əliyev eyni zamanda bir tarixçi kimi bilirdi ki,

arxeoloji abidələr və onlardan əldə olunan maddi mədəniyyət nümunələri xalqımızın yazıyaqədərki qədim tarixinin öyrənilməsində əsas və mühüm mənbədir[1,118]

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə maddi-mədəni irsimizin qorunması, tədqiqi və təbliği işi özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Baxmayaraq ki, arxeoloji tədqiqatların Azərbaycanda yüz ildən artıq tarixi var idi, ancaq bu sahədə inqilabi inkişaf məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdik etdiyi illərdə- ötən əsrin 70-80-ci illərində baş vermişdir. Azərbaycan arxeoloqlarının apardıqları tədqiqatlar nəticəsində elmi əsalarla sübuta yetirildi ki, ölkəmizin ərazisi dünyada ən qədim insan məskənlərindən və sivilizasiya mərkəzlərindən biridir. Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk vaxtlardan başlayaraq, respublikamızın bütün bölgələrində arxeoloji və etnoqrafıq ekspedisiyalar fəaliyyət göstərmiş, xalqımızın madii- mədəni nümunələrinə dair yüz minlərlə qədim arxeoloji materiallar toplanmışdır. Azərbaycanın böyük şəhərlərilə yanaşı demək olar ki, bütün rayonlarında Tarix Diyarşünaslıq muzeyləri yaradıldı. Bu muzeylərdə xalqımızın qədim və yaxın tarixinin ən füsnkar nümunələri nümayiş etdirilir, qorunur və tədqiq edilirdi. Bu dövrdə Azərbaycanın qədim tarixinin arxeoloji tədqiqinə xüsusi diqqət yetirilmiş, ayrı- ayrı regionlarda arxeoloji ekspedisiyaların qazıntı işlərinin həyata keçirilməsi üçün fəaliyyətlərinin daha da yaxşılaşdırılması məqsədilə arxeoloji bazalar yaradılmışdır. Heydər Əliyev şəxsən tarixi abidələrə və arxeoloji qazıntı sahələrinə səfərlər etmiş, ölkəmizin qədim tarixinin ən böyük mirası olan abidələrimizin tədqiqinin və təbliğinin zəruriliyini dəfələrlə qeyd etmişdir. [8, 96]

Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən ilkin olaraq onun gördüyü tədbirlərdən biri Azərbaycan ərazisindəki tarix və memarlıq abidələrinin uçotunun dəqiqləşdirilərək, yenidən qeydiyyata alınması məsələsi idi.Bu məqsədlə Akademiyanın alimləri və Mədəniyyət Nazirliyinin əməkdaşlarından təşkil edilən işçi qrupları bölgələrə göndərilmişdi. Bunun nəticədə əvvəllər dövlət qeydiyyatında olmayan bir çox yeni abidə aşkar edilərək qeydiyyata alınmışdı. Eyni zamanda məlum oldu ki, əvvəllər dövlət qeydiyyatına alınmış bəzi abidələr ötən əsrin 50-60-cı illərində naməlum səbəblərdən yoxa çıxıb. Bəzi abidələrin üzərindəki kitabələrin yerindən çıxarılması, yazılarının məhv olması, yaxud da məqsədli şəkildə onlara saxta əlavələr edilməsi aşkar olundu. Məlum olmuşdu ki, bunları özümüzə dost və qardaş bildiyimiz ermənilər onlara qarşı insani münasibətdən sui-istifadə edərək Azərbaycanın qədim tarixi-mədəni abidələri oğurlayıb Ermənistana aparır, yaxud da onları sındırıb məhv etmişdilər.

Heydər Əliyev tarixi keçmişimizə, onun elmi tədqiqinə və təbliğ olunmasına xüsusi qayğı ilə yanaşırdı. Bunun üçün xüsusi tədbirlər planının

hazırlanmasına və tez bir zamanda həyata keçirilməsinə sərəncam vermişdir. [4,7]

Heydər Əliyevin dəstəyinin nəticəsi olaraq Elmlər Akademiyasında ictimai və humanitar elmlər üzrə iki müstəqil bölmənin yaradılmasının ardınca İctimai elmlər bölməsində İctimai Elmlər üzrə Elmi-İnformasiya Mərkəzi yaradıldı ki, bu da sonralar İctimai-Siyasi tədqiqatlar və İnformasiya İnstitutuna çevrildi.

Tarix İnstitunun arxeologiya və etnoqrafiya sektoru müstəqil müəssisə olmaq statusu alması və onun bazası əsasında Arxeologiya və Etnoqrafiya İnstitutunun yaradılmasıyla, eyni zamanda, bu dövrdə Arxeologiya və Etnoqrafiya Muzeyi də təşkil olundu.

Azərbaycan KP Mərkəzi Komitəsinin I katibi Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan KP MK-nın 10 sentyabr 1976-cı ildə qəbul etdiyi "Azərbaycan SSR-də tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası işini yaxşılaşdırmaq haqqında" qərarın qəbul edilməsi bu istiqamətdə geniş işlərin aparması üçün çox böyük əhəmiyyət kəsb edirdi[10,34]

Arxiv sənədlərində Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı (1977-ci il 17 may (№9-10.503-504) №521-IX)) ilə "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR qanununun layihəsi barəsində" qəbul edilən qərar yuxarıda qeyd olunan Qanunun ardı kimi qiymətləndirilir. Sərəncamda aşağıdakı məsələlər öz əksini tapmışdır:

- Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR qanununun Azərbaycan SSR Nazirlər Soveti tərəfindən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müzakirəsinə verilmiş layihəsi əsasən bəyənilsin.

-Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR qanununun layihəsi Azərbaycan SSR Ali Sovetinin mədəniyyət komissiyasının və qanunvericilik mülahizələri komissiyasının müzakirəsinə verilsin və onlara tapşırılsın ki, həmin qanun layihəsinə dair öz rəylərini təqdim etsinlər.[6,7]

Heydər Əliyev xalqımızın tarixinin qədimliyini sübut edən tədqiqat işlərinin aparılması, maddi-mədəniyyət abidələrinin aşkar edilərək təbliğ edilməsi üçün aparılan genişmiqyaslı işlərin qanun çərçivəsində yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan SSR Ali Sovetinin 21iyul 1978-ci il tarixli sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR Qanunu"nun qəbul edilməsinə, 27 yanvar1982-ci ildə isə Azərbaycan Tarix və Mədəniyyət Abidələrinin Mühafizəsi Cəmiyyətinin nizamnaməsinin Azərbaycan SSR Nazirlər Sovetində təsdiq olunmasına nail oldu. Qanun 5 fəsil və 51 maddədən ibarətdir. Qəbul olduğu vaxtadək maddi-mədəniyyət abidələrinin qorunması üçün qəbul edilən

bütün qanun layihələri və sərəncamlardan fərqli olararaq çox genişmiqyaslı idi. Onu da qeyd etmək lazımdır ki, bu qanunda ilk dəfə Azərbaycanın tarix və mədəniyyət abidələrinin beynəlxalq aləmdə tanınması ilə bağlı məsələ də öz əksini tapmışdır. [2,321]

1981-ci ilin sentyabrında Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Azərbaycan KP MK və Nazirlər Sovetinin "Azərbaycan SSR-də memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri" haqqında yeni qanun layihəsi qəbul olunmuşdu. Sovet hakimiyyəti illərində Heydər Əliyevin tarixi- arxeoloji abidələrin mühafizəsi və tədqiqi ilə bağlı həyata keçirdiyi ən mühüm tədbirlərdən biri Azərbaycan SSR Nazirlər Sovetinin "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeoloji abidələrin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılmasıtədbirləri haqqında" 436-№ li, 15 sentyabr 1981-ci il tarixli Qərarının qəbul edilməsi idi. Yaranmış vəziyyətin ətraflı təhlil edilməsi, problemlərin, çətinliklərin yaranma səbəbləri, onlardan çıxış yollarının düzgün müəyyənləşdirilməsi baxımından bu Qərarın qəbul edilməsini mühüm tarixi hadisə kimi qiymətləndirmək lazımdır. [3,4]

Abidələrin mühafizəsi, tədqiqi və təbliği ilə əlaqədar problemlərin şərhi, yaranmış problemlərin həlli istiqamətlərinin müəyyənləşdirilməsi baxımından Qərar mükəmməl bir proqram sənəd olub, nəinki 80-ci illər üçün, eyni zamanda bu günümüz və gələcək üçün aktuallığını saxlamaqdadır.

Qərarda ən mühüm məsələlərdən biri də arxeologiya və etnoqrafiya elmlərinin inkişafını nəzərdə tutan maddənin xüsusi yer almasıdır. Belə ki, Qərarın 12-ci maddəsində Tarix İnstitunun nəzdindəki Arxeologiya və Etnoqrafiya İnstitutunun yaradılması, arxeoloj ekspedisiyaların maddi- texniki bazasının gücləndirilməsi, tədqiqatların maliyyələşdirilməsinin artırılması, bölgələrdə arxeoloji bazaların yaradılması nəzərdə tutulmuşdur. Lakin növbəti- 1982-ci ildə Heydər Əliyevin Moskvaya-SSR rəhbərliyinə yeni işə təyin edilməsi səbəbindən bu məsələlərin bir çoxu icra edilmədi. Yalnız Ulu Öndərin ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra 1993-cü ildə Arxeologiya və Etnoqrafiya İnstitutu təsis edilmişdir.

Ümumilikdə bu Qərarla xalqların tarixi, milli- mədəni dəyərlərinin hər gün məhv edildiyi sovet imperiyası mühitində Azərbaycan xalqının maddi-mənəvi varlığının qorunması və təbliğatı istiqamətində çox mühüm tarixi addım atılmış oldu.

Bildiyimiz kimi, 80-ci illərin ortalarından etibarən SSRİ-nin hər yerində olduğu kimi, Azərbaycanda da siyasi vəziyyət tədricən dəyişməyə başladı. İdarəçilik sahəsində yol verilən nöqsanlar getdikcə daha da dərinləşərək xaosa gətirib çıxardı. Elə bir xaos ki, ondan Azərbaycan elmi və elm adamları, bəlkə də bütün sahələrdən və digər adamlardan daha çox ziyan çəkdi. Nəticədə bütün arxeoloji ekspedisiyalar fəaliyyətini dayandırdı, öyrənilməkdə olan abidələr

baxımsızlıq üzündən dağıdıldı, bir çox isdedadlı arxeoloq kadrları akademiyanı tərk etmək məcburiyyətində qaldı.

Yalnız, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra respublikamızda vəziyyət tədricən sabitləşdi, elmi axtarışların yenidən davamı üçün əlverişli şərait yarandı. Heydər Əliyevin akademiyada alimlərlə görüşündə Azərbaycan tarixinin yenidən yazılması ilə bağlı tarixçi alimlər qarşısında qoyduğu vəzifələr arxeoloqların da böyük əzmlə yenidən fəaliyyətə başlamalarına bir növ çağırış oldu. Həmin vaxtdan başlayaraq ayrı-ayrı arxeoloji ekspedisiyalar tədricən yenidən və yeni şəraitə uyğun olaraq komplekləşdirilməklə fəaliyyətə başladılar.

Müstəqillik illərində Azərbaycan Respublikasında arxeologiya elminin inkişafında yeni bir mərhələ başlamışdır. H.Ə.Əliyev ikinci dəfə siyasi arenaya qayıtdığı ilk günlərdə, ən təlatümlü vaxtlarda belə ölkəmizin tarixinin araşdırılması məsələsini bir an belə unutmadı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 iyul tarixli 386 saylı qərarı ilə Azərbaycan Elmlər Akademiyası Tarix İnstitunun tərkibindəki Arxeologiya və Etnoqrafiya sektoru əsasında müstəqil Arxeologiya və Etnoqrafiya İnstitutu təsis edildi. Azərbaycanın qədim və orta əsrlər tarixinin və mədəniyyətinin ümdə problemlərinin müasir dünya elminin tələbləri əsasında araşdırılması institutun qarşısında bir vəzifə olaraq qoyuldu. [7,2]

Ümummilli lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub-saxlanılmasıvə təbliği sahəsində mühüm işlər həyata keçirilmişdir. Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrlərdə isə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaratmışdır. Bilavasitə onun rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyasının 77-ci maddəsində müəyyənləşdirilmişdir ki, tarix və mədəniyyət abidələrinin qoruması hər bir vətəndaşın vəzifəsidir. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında hər kəsin mədəni həyatda iştirak etmək, mədəniyyət təsisatlarından və mədəni sərvətlərdən istifadə etmək hüququnun olması, hər kəsin tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşması, ona qayğı göstərməsi, tarix və mədəniyyət abidələrini qoruması ilə bağlı müddəalar öz əksini tapmışdır. Bundan əlavə 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikası Qanununda abidələrin qorunmasının dövlət təminatı, onların əhəmiyyət dərəcələri, tədqiqi və mühafizəsi ilə bağlı müddəalar təsbit olunmuşdur. [6, 7]

Artıq XX əsrin 90-cı illərinin ikinci yarısında Heydər Əliyevin şəxsi təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Azərbaycanın madii mədəni irsinin qorunması və elmi tədqiqatların mükəmməl hüquqi bazasının yaranması yenicə müstəqillik əldə etmiş bir dövlət üçün müstəsna əhəmiyyət kəsb edirdi. Belə ki, Ümummilli liderin imzası ilə "Tarix və mədəniyyət abidələrinin qorunması

haqqında" 1998-ci il 10 aprel tarixli və "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasına Azərbaycan Respublikasının qoşulması barədə" 1999-cu il 20 oktyabr tarixli Respublika Qanunları qəbul edilmişdir. Bu Qanunlarda abidələrin qorunmasının, tədqiqatlarının, istifadəsinin hüquqi əsasları şərh edilmiş və bütün bunların mühüm dövlət əhımiyyətli işlər olması göstərilmişdir. Eyni zamanda işğal olunmuş bölgələrdəki abidələrin vəziyyəti barədə daxil edilmiş xüsusi maddələrdə həmin ərazilərdəki abidələrin mühafizəsinin nəzarətdə saxlanılması üçün beynəlxalq təşkilatların qarşısında məsələ qaldırılmasının zəruriliyi qeyd olunmuşdur. [9,258]

Xalqın milli maddi-mənəvi mədəniyyətinin nümunələrinin məhv edilməsi və təhrif edilməsinə yönəlmiş imperiya siyasətinin hökm sürdüyü sovet dövründə, eyni zamanda ölkəmiz üçün çox ağır olan 90-cı illərin keçid mərhələsində Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti nəticəsində Azərbaycanın maddi- mədəni irsini qorunaraq bugünki nəslə çatdırılmışdır.

Milli dəyərlərə dövlət səviyyəsində göstərilən qayğının əsas təzahürlərindən biri də 10 aprel 1998-ci ildə qəbul edilən "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu olmuşdur. Bu qanunda milli memarlıq abidələri ilə yanaşı tarixi təbiət abidələrinin qorunmasına da dövlət təminatı öz əksini tapmışdır. Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanununda (10aprel 1998-ci il) arxeoloji abidələrə aşakıdakı tərif verilir: "Arxeoloji abidələr insanın fəaliyyəti ilə əlaqədar yer altında olan maddi mədəniyyət nümunələri, o cümlədən ibtidai insan düşərgələri və yaşayış məskənləri, qədim qəbiristanlıqlar, müdafiə sistemləri və istehkamlar, ziyarətgahlar, hər cür qədim əşyalar, dini və xatirə abidələri, qaya və daşüstü təsvirlər və yazılar, qədim mədən istismar izləri, əmək alətləri, istehsalat kürələri, qədim yollar, körpü qalıqları, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s." dir. Həmin qanuna əsasən, arxeoloji abidələr əksər hallarda daşınmaz abidələr olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur. [6, 2]

Azərbaycana birinci rəhbərliyi (1969-1982) dövründə olduğu kimi müstəqillik dövrümüzdə də Ulu Öndər Heydər Əliyevin mədəni irsimizə yüksək diqqəti, qayğısı və müdrik qərarları sayəsində abidələrimizin qorunması işində çox böyük işlər görüldü və əlaqəli sahə üzrə hüquqi bazanın zənginləşdirilməsi istiqamətində zəruri addımlar atıldı.

Dövlət müstəqilliyimizin bərpasından sonrakı mərhələdə məhz ümumilli liderin rəhbərliyi ilə Azərbaycan mədəniyyətinin inkişafı yeni mərhələyə qədəm qoydu, bu dövrdə sovet hakimiyyəti illərində müəyyən siyasi-ideoloji səbəblərdən diqqətdən kənarda qalan məsələlərə xüsusi diqqət göstərildi, milli irsin qorunub saxlanması və inkişafı ilə yanaşı, dünyaya tanıdılması sahəsində də çox böyük nailiyyətlərə imza atıldı.

Ölkə ərazisində yerləşən və dövlət mühafizəsinə götürülən abidələrin 2001-ci ildəki siyahıyaalmasında Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiqlənərkən sovet hakimiyyəti dövründə müxtəlif vaxtlarda (1957, 1968, 1981 və 1988) təsdiqlənmiş siyahılar əsas götürülərək ümümiləşdirmə aparılmışdır. Eyni zamanda, əvvəlki siyahılar üzrə qeydiyyata götürülməyən abidələr də bu siyahıya daxil edilmişdir. [5, 1]

Azərbaycan respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycanda qeydiyyata alınması göstərilmiş dünya əhəmiyyətli arxeoloji abidələrin siyahısı: Azıx mağarası, Tağlar mağarası, Damcılı mağarası, Qazma mağarası, Qobustan dövlət tarixi-bədii qoruğu, Əliköməktəpə, Çalağantəpə, Leylatəpə, Töyrətəpə, Mişarçay yaşayış yeri, Babadərviş, Kültəpə və Maxta yaşayış yerləri, I Kültəpə, II Kültəpə, Sərkərtəpə, Üzərliktəpə, Gəmiqaya petroqlifləri, Sarıca Minbərək nekropolu, Qədim Naxçıvan şəhərinin xarabalıqları, Borsunlu kurqanları, Zazalı məbədi, Xocalı kurqanları, I Şaxtaxtı məbədi, II Şaxtaxtı məbədi, Oğlanqala, Çobandaşı yaşayış yeri və nekropolu, Böyük Qalaça, Niftalı kurqanları, qızılburun yaşayış yeri, Çalxanqala qalası, kurqanları, Xaçbulaq kurqanları, Xarabagilan, Kiş yaşayış yeri, Qədim Qəbələ- Səlbir qala, Qədim Şamaxı şəhəri, Qədim qəbiristanlıq( Ağsu), Çanaxır təpələri, Babatəpə yaşayış yeri, qədim Gəncə, Qədim Beyləqan, Qədim Bərdə, Qədim Şəmkir, Şabran, Əlincə qalası, Gilgilçay istehkamları, Muğan Babazanlı yaşayış yeri, Siyahıda ən qədim abidələr Füzuli və Xocavənd rayonları ərazisində yerləşən, Quruçay mədəniyyəti dövrünə aid Azıx və Tağlar mağaralarıdır. Siyahıdakı abidələrdən biri UNESCO- nun Ümumdünya irsi siyahısına salınmışdır. [8, 92]

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu maddi-mədəniyyət abidələrinin araşdırılması, qorunması, təbliği istiqamətində aparılan siyasət İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir. Azərbaycanın maddi-mədəniyyət abidələrinin müasir elmi səviyyədə öyrənilməsi Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin elmə göstərdikləri yüksək diqqət və dövlət qayğısı sayəsində mümkün olmuşdur. Son 10 ildə Azərbaycanın iqtisadi yüksəlişi eyni zamanda maddi və mədəni irsimizin inkişafını şərtləndirmişdir. Tarixi abidələrimizin, maddi mədəni irsimizin qorunmasına, tədqiqinə, təbliğinə yüksək diqqət yetirilir. Dövlət rəhbərliyi bu sahələrin inkişafı üçün bütün mümkün imkanlardan yararlanmaq üçün lazımi şərait yaradır. Respublika Prezidentinin müvafiq sərəncamları ilə tarixi qoruqlar yaradılmış, abidələrin tədqiqi və saxlanması üçün Azərbaycan Milli Elmlər Akademiyasına xeyli maliyyə vəsaiti ayrılmışdır. Bunlar tarixi abidələrin mühafizəsi və elmi araşdırmaları üçün böyük imkanlar əldə etməyə gətirib çıxarmışdır.

## Ədəbiyyat

1. Heydər Əliyev Mədəni irsimizin keşiyində (Heydər Əliyev Fondu) Bakı:2001.336 s.
2. Heydər Əliyev - Ümummilli Lider. Bakı: 2004. 564 s.
3. Azərbaycan qəzeti. 3 iyun 2014-cü il. s. 4.
4. Xalq qəzeti. 28 avqust 2018-ci il.s 7.
5. Respublika qəzeti. 22 yanvar 2014-cü il.s. 1- 2
6. Xalq qəzeti. 28 aprel 2013. s. 7.
7. Yaddaş. 12 iyul 2006. s. 2.
8. Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu "Azərbaycanın maddi-mədəniyyəti". Bakı 1993. 193 s.
9. Heydər Əliyev və mədəniyyət (müəlliflər heyəti). Bakı: 2008.
10. Azərbaycan Arxeologiyası. Bakı:-Xəzər Universiteti 2018. cild 21, №2.

# İRAN MƏTBUATINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ADI ƏTRAFINDA MÜBAHİSƏLƏR

**Sevinc Məmmədova**
**AMEA Z.M.Bünyadov adına**
**Şərqşünaslıq İnstitutu**
**sevinc.mammedova81@gmail.com**

***Açar sözlər:*** *İran mətbuatı, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan toponimi, M.Ə.Rəsulzadə, millət, muxtariyyət*

*Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdiyi ilk gündən qonşu İran dövlətinin müqaviməti ilə üzləşdi. Dövlətə Azərbaycan adının verilməsini İran hakimiyyəti özünə qarşı təhlükəhesab edərək AXC-nin müstəqilliyini rəsmən tanımaqdan imtina etdi. Qonşu dövlətin rəsmi dairələri və mətbuatı Azərbaycan adının tarixən yalnız İranın şimal-qərbində, Araz çayının cənubunda yerləşən ərazilərə aid olduğunu iddia edərək, Cənubi Qafqazda yaranmış dövlətin də bu adla adlandırılmasına qarşı çıxış edirdilər. Azərbaycan adı ilə bağlı iddiaları İranın ictimai xadimləri, yazıçıları rəsmi və qeyri-rəsmi mətbu orqanlarda gündəmə gətirirdilər. M.Ə. Rəsulzadə və digər Cümhuriyyət xadimləri isə İranın bu qərəzli iddialarını qətiyyətlə və elmi əsaslarla təkzib etmişdilər.*

*Məqalədə AXC dövründə İran mətbuatınınmilli dövlətimizin Azərbaycan adlandırılmasına qarşı qərəzli münasibəti təhlil edilir.*

## СПОРЫ В ИРАНСКОЙ ПЕЧАТИ ВОКРУК НАЗВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

**Севиндж Маммедова**

***Ключевые слова:*** *иранская пресса, Азербайджанская Демократическая Республика, топоним “Азербайджан”, М.А. Расулзаде, нация, автономия*

*С первого дня провозглашения независимости Азербайджанская Демократическая Республика столкнулась с противодействием со стороны соседнего Ирана, правительство которого отказалось официально признать ее независимость, посчитав наименование государства Азербайджан угрозой для своего существования. Официальные круги и СМИ соседнего государства выступили против наименования государства на Южном Кавказе, утверждая, что название Азербайджан исторически относится только к территориям,*

*расположенным на северо-западе Ирана, к югу от реки Араз. Заявления о неприемлимости название Азербайджан высказывали иранские общественные деятели и писатели в официальных и неофициальных СМИ. М.Э. Расулзаде и другие деятели АДР научно отвергли эти предвзятые претензии Ирана.*

*В статье анализируется предвзятое отношение иранских СМИ к названию Азербайджанской Демократической Республики.*

## DISPUTES IN THE IRANIAN PRESS AROUND THE NAME OF THE AZERBAIJAN DEMOKRATIC REPUBLIC

**Sevinj Mammadova**

***Key words:*** *Iranian press, Azerbaijan Democratic Republic, toponym "Azerbaijan", M.A. Rasulzade, nation, autonomy*

*From the first day of independence, the Azerbaijan Democratic Republic faced opposition from neighboring Iran, whose government refused to officially recognize its independence, considering the name of the state of Azerbaijan a threat to its existence. The official circles and media of the neighboring state opposed the name of the state in the South Caucasus, arguing that the name Azerbaijan historically refers only to the territories located in the north-west of Iran, south of the Araz River. Statements about the unacceptability of the name Azerbaijan were expressed by Iranian public figures and writers in official and unofficial media. M.E. Rasulzadeh and other ADR figures have scientifically dismissed these preconceived claims by Iran.*

*The article analyzes the biased attitude of the Iranian media towards the name of the Azerbaijan Democratic Republic.*

**Giriş:** 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti müstəqilliyini elan etdi. Lakin Cənubi Qafqazda Azərbaycan adında müstəqil dövlətin meydana gəlməsi xəbəri İran tərəfindən ciddi etirazla qarşılandı. İran rəsmi dairələri ölkənin şimal sərhədlərində yeni yaradılmış dövlətə Azərbaycan adının verilməsini gələcəkdə Cənubi Azərbaycana ərazi iddiaları kimi qəbul etdilər.

İran tarixçilərinəgörə Araz çayından şimalda yaşayanazərbaycanlılar Qafqaz Albaniyası mədəniyyətinə aidolmuşlar, ərəb qaynaqlarında isə bu ərazilər"Aran" adlanırdı. Aran dedikdə Albaniyanın Kür və Araz çayları arasındakı əraziləri təsvir edirdilər. Bu səbəbdən iranlılar bölgəninəhalisinin tarixi baxımdan İran azərbaycanlıları ilə heç bir qohumluğa malik olmadığını iddia edir, Azərbaycan adının isə yalnız İranın şimal əyalətlərinə aid olduğunu,

bu ərazilərin heç vaxt Azərbaycan adlanmadığını, tarixən Muğan və Şirvan kimi coğrafi adlar daşıdığını yazırdılar.

Rusiyada 1917-ci il Fevral inqilabından sonra Azərbaycanda milli demokratik hərəkatın yüksəlişi və Azərbaycan muxtariyyatı ideyasının meydana gəlməsi İran siyasi və ictimai dairlərinin diqqətini bu məsələyə yönəltdi. Təbii ki, Cənubi Azərbaycanı özünün ayrılmaz hissəsi hesab edən İran hakimiyyəti üçün Şimali Azərbaycanda hər hansı siyasi hərəkətlənmə narahatlıq doğururdu. Bu narahatlıq özünü həmin dövrün əsas informasiya vasitəsi olan dövri mətbuatda aydın şəkildə göstərməyə başladı. İran mətbuatının təhliliölkənin siyasi və ictimai-mədəni dairələrinin Azərbaycan milli demokratik hərəkatına və Azərbaycan ideyasına münasibətini müəyyən etməyə imkan verir. İran mətbuatının irəli sürdüyü əsassız iddialardan biri də AXC-nin İranı parçalayıb Azərbaycan adında vahid bir dövlət yaradacağı idi.

**Müstəqillik ərəfəsində İran mətbuatında Azərbaycan adı məsələsinin gündəmə gətirilməsi:** 1917-ci il Rusiya Fevral inqilabından sonra Şimali Azərbaycanda “Azərbaycan muxtariyyəti” ifadəsinin gündəmə gətirilməsi İran ictimaiyyəti arasında böyük gərginliyə səbəb oldu. Rusiyanın demokratikləşməsinə ümid edən Azərbaycan milli demokratik qüvvələri artıq Azərbaycanın federativ Rusiya daxilində muxtariyyəti şüarını irəli sürməyə başladılar. Həmin ilin mart ayında Gəncədə yaradılan Türk Ədəmi-Mərkəziyyət partiyasının proqramında bu ideya öz əksini tapdı. Bununla da “Azərbaycan” adı siyasi anlamda və dövlətçiliklə bağlı olaraq işlədilməyə başladı. Qafqaz Müsəlmanlarının Qurultayından bir neçə gün əvvəl Nəsib bəy Yusifbəyli 1917-ci ilin aprelin 2-də Gəncədə təşkil olunmuş mitinq zamanı “Yaşasın Azərbaycan muxtariyyəti!”, “Yaşasın demokratik respublika” şüarlarını səsləndirdi[13, s.48]. 1917-ci ilin 10-15 aprel tarixlərində Bakıda keçirilən Qafqaz Müsəlmanlarının Qurultayında və ardınca 1-11 mayda Moskvada Ümum-Rusiya müsəlmanlarının Qurultayında M.Ə.Rəsulzadənin “Azərbaycan muxtariyyəti”ndən bəhs etməsi isə İran siyasi elitasında böyük narahatlığa səbəb oldu. İranın rəsmi və qeyri-rəsmi mətbu orqanları ilk gündən bu barədə mövqelərini açıq şəkildə ortaya qoyaraq silsilə yazılar nəşr etməyə başladılar. Onların bu mövqeyi İran hökumətinin rəsmi mövqeyi ilə həmahəng idi.

Arazın şimalındakı ərazilər nəzərdə tutulmaqla işlədilən “Azərbaycan” kəlməsi, xüsusilə “Azərbaycan muxtariyyəti” ifadəsi iranlılar tərəfindən İranın ərazi bütövlüyünə təhlükə mənasında qəbul edilirdi və məsələyə ilk reaksiyanı İranın Qafqazdakı diplomatik nümayəndəlikləri vermişdilər.1917-ci il noyabrın əvvəlində İranın Tiflisdəki baş konsulu Əli Məhəmməd Şərif əl-Dövlə İran Xarici İşlər Nazirliyinə göndərdiyi teleqramında yazırdı: “Xeyli vaxtdır Qafqaz müsəlmanları, ermənilər və gürcülər kimi, daxili müstəqilliklərini saxlamaqla yanaşı bir türk hökuməti yaratmaq istəyirlər. Hazırda Azərbaycanın müxtariyyəti məsələsi bəzi dairələrdə müzakirə olunur. Bu türk müsəlman

dövlətinin istiqaməti gələcəkdə Osmanlı dövlətinə oxşar olacaqdır." [17, s.45]. Təbii ki,Qafqazın cənub-şərqində gələcəkdə Osmanlı dövlətinə bənzər bir türk dövlətinin yaranması məsələsi İran dövlətinin siyasətinə uyğun deyildi.

Elə ilk məqalələrdən İran mətbuatı kəskin tonda danışmağa başlamışdı. Məqalələrin adları çağırış və hədə mahiyyəti daşıyırdı. "Sitareyi İran" qəzetinin 24 dekabr sayında dərc olunan "Qardaşyanə xəbərdarlıq" adlı məqalədən bu aydın görünürdü.

Azərbaycan adı ətrafında gedən müzakirələrdə daha kəskin mövqeyi "Rəd" qəzeti qoyurdu. Eləcə də "İran" və "Novbahar" qəzetləri dəfələrlə öz saylarında Azərbaycan məsələsi ilə bağlı məqalələr yerləşdirirdilər.

Azərbaycan adı ilə bağlı İran mətbuatında ilk yazılardan biriisə "İrşad" qəzetinin 20 dekabr 1917-ci il tarixli sayında dərc edilmiş "Azərbaycan muxtariyyəti Qafqazın Müsavat komitəsinin xülyası" adlı məqalə idi. Bu məqalə M.Ə. Rəsulzadənin "Açıq söz" qəzetinin 18 noyabr 1917-ci il tarixli sayında "Qafqaz xalqları muxtariyyat istəyirlər və Azərbaycan üçün daxili müstəqillik tələb edirlər" və qəzetin 8 dekabr tarixindəki sayındaçıxmış "Millətlərin hüququ və hərəkətləri" başlıqlı məqalələrinə cavab idi. Rəsulzadə öz məqaləsini bolşeviklərin yenicə hakimiyyətə gəldiyi vaxtda yazmış və məqalədə ilk dəfə məhz Azərbaycan türklərinin federasiya proqramını irəli sürdüyünü qeyd etmişdi. Kəskin tənqid və tələblərlə yazılan məqalədə Azərbaycanın muxtariyyatı və müstəqilik istəyi İran istiqlaliyyətinə bir zərbə kimi qiymətləndililirdi. Azərbaycanı İranın həssas yeri adlandırmaqla bərabər Rusiya inqilabından sonra azadlığa çıxan Azərbaycan torpaqlarının İrana birləşdirilməsi tələb edilirdi. Müstəqillik ideyasından imtina edib İranla birləşməyi tövsiyə edən məqalə müəllifi azərbaycanlıların milli kimlik məsələsində türk xalqları ilə deyil, farslarla bağlılığını olmasını əsaslandırmağa cəhd edilirdi.

Lakin M.Ə.Rəsulzadənin məqalələrinə qarşı olan etirazlar və tənqidlərə əsas yox idi. Çünki Rəsulzadə Qafqaz türkləri və Cənubi Qafqaz müsəlmanlarının Azərbaycan muxtariyyəti məsələsini gündəmə gətirəndə İran ərazisində yerləşən və mərkəzi Təbriz şəhəri olan Azərbaycanı nəzərdə tutmurdu. O, "Azərbaycan" sözünü coğrafi termin kimi işlədərək bunun Cənubi Azərbaycana heç bir aidiyyatı olmadığını dəfələrlə səsləndirmişdi.

İran siyasi dairələri Azərbaycan adı ilə yanaşı bu ideyanı irəli sürdüyü üçün Müsavat partiyasına da qarşı əks təbliğata başlamışdılar. İran siyasi dairələrini narahat edən digər səbəb Şimali Azərbaycanda olduğu kimi Cənubi Azərbaycanda da "Müsavat" partiyasının şöbələrinin fəaliyyət göstərməsi və İranın şimal hissəsində nüfuzunun artması idi. Buna görə də İran mətbuatının əsas hədəfi "Müsavat" partiyası və M.Ə.Rəsulzadə idi. "Rəd" qəzetində "Müsavat"partiyasının siyasi baxışları özünəməxsus şəkildə təhlil edilmişdi.

Qəzetin 10 yanvar sayında da Rəsulzadənin "Açıq söz" qəzetində dərc olunan sözügedən məqaləsi təhlil edilirdi [9]. Müəllif "Müsavat" partiyasının siyasi mövqeyini tənqid edir, ifrata varmaqdan çəkinməyərək Müsavat partiyasının Azərbaycanı İrandan ayıraraq Qafqaza birləşdirmək arzusunda olduğunu yazırdı [15, s.62]"Rədd" qəzetinin baş redaktoru Seyid Ziyaəddin Təbatəbai Azərbaycan adının gündəmə gəlməsində Müsavat partiyasını günahlandıraraq bu adın əvəzinə başqa ad verilməsini təklif edirdi. O, eyni zamanında məsələnin həllini müsavatçıların Təbriz və Rəştdəki şöbələrini bağlayıb, Tehranda rəsmi nümayəndələrlə danışıq apararaq Azərbaycanın İrandan ayrılaraq Qafqaza birləşməsini ciddi şəkildə inkar etməsində görürdü [10].

1918-ci il yanvarın 15-də fars millətçisi M.Bahar "Növbahar" qəzetində "Müsavat nədir və istəyir" adlı məqalə çap etdirmişdi. Paniranist mövqeli müəllif irəli gedərək hətta "Azərbaycan türkləri" ifadəsi əvəzinə "Qafqaz müsəlmanları" ifadəsinin işlədilməsini "tövsiyyə"edirdi [15, s.62].

İran mətbuatında Azərbaycan adı və Müsavat partiyası əleyhinə yazıların geniş şəkildə yayıldığı bir vaxtda Bakıda Azərbaycan Demokrat Firqəsinin (ADF) şöbəsi yaradılmışdı.ADF İranın demokratikləşməsi uğrunda mübarizə aparırdı. Cənubi Azərbaycanın İrandan ayrılması barədə düşünməyən təşkilat sözsüz ki, mətbuat səhifəlrində yer alan bu məsələyə münasibət bildirməli idi. Bu zaman İranın Bakıdakı konsulu Məhəmməd Said ül-Vüzəra da Qafqazda gedən siyasi hadisələri yaxından izləyirdi. O, 1918-ci il 16 yanvar tarixindəİran Xarici İşlər Nazirliyinə (XİN)göndərdiyi məktubunda Qafqazın, xüsusən Bakının indiki vəziyyətini nəzərə alaraq burada yaşayan iranlıların "Azərbaycan" adında qəzet nəşr etmək istəyini diqqətə çatdırır və qəzetin adının isə "Azərbaycan İranın ayrılmaz hissəsidir" kimi yazılmasını tövsiyə edirdi (Qəzetin adında Azərbaycan sözü iri hərflərlə, digər sözlər xırda hərflərlə yazılmışdı –S.M.). Bunun əsas səbəbi Qafqaz əhalisinin bəzi məqsədlərinin qarşısını almaq və iranlıların ümumi fikirlərini yaymaq idi. Qafqazda yaşayan əhalinin öz əcdadları, ata babaları və dilləri ilə tanış olub unutmaması üçün qəzetin fars dilində nəşr olunması qeyd olunurdu. Konsulməktubun sonunda İran XİN-nin teleqraf vasitəsi ilə qəzet haqqında öz mövqeyinin konsulluğa çatdırılmasınıxahiş edirdi [17, s.52].Söhbət ADF tərəfindən nəşr olunan qəzetdən gedirdi. İran Demokrat Partiyasının (İDP) Əyalət Komitəsi olan Azərbaycan Komitəsi özünü1917-ci ilin avqustunda özünü firqə elan etmişdi və İranın demokratikləşməsi uğrunda mübarizə aparırdı. Firqənin nəşr etdiyi qəzet isə, həmin vaxt Cənubi Azərbaycanın İrandan ayrılaraq Şimali Azərbaycana birləşməsi haqqında yayılan şayiələrə cavab olaraq meydana gəlmişdi [8, s.50].

İran XİN-də belə bir qəzetin təsis olunması haqqındaki fikirləri müsbət qarşılanmış, Qafqazın bir sıra təşkilat və partiyalarının proqramında Azərbaycan barəsində müəyyən fikirlərin və bəzi başqa məsələlərin olduğunu

nəzərə alınaraq konsulluğa bu işdə çox diqqətli olmaq tövsiyə edilmişdi [17, s.5.].İlk nömrəsi fevralın10-da çıxan qəzetin iranlılara məxsus "Novruz" mətbəəsində, həftədə iki dəfə olmaqla nəşr olunması nəzərdə tutulmuşdu. Belə bir qəzetin nəşrində əsas məqsəd mətbuat vasitəsi ilə İran haqqında təbliğatı gücləndirmək və Qafqazda türk mətbuatının nüfuzunun qarşısını almaq idi.

Mətbuatda yayılan Azərbaycanın İrandan ayrılması barədə şayiələrlə bağlı olaraq qəzetdə məqalə dərc edilmişdi. Burada İDP tərəfindən Azərbaycan Əyalət Komitəsinə yönələn sorğuya komitənin cavabı yer almışdı. Komitə "Azərbaycanı İranın ayrılmaz parçası"dır və İran ailəsinin üzvüdür" deyə öz bəyanatında yazırdı. Bəyanat İDP-nın hələ 1917-ci il dekabrın 10-da göndərdiyi məktuba [8, s.53] cavab olaraq verilmişdi.

**Müstəqillik dövründə Azərbaycan adı uğrunda mübarizənin kəskinləşməsi:**İran rəsmi dairələrini və mətbuatının Azərbaycana münasibətdə məlum mövqeyi AXC elanından sonra daha da kəskinləşmişdi. İranlı müəlliflər İranın Qafqaz əhalisi ilə ortaq tarixə malik olduqlarına istinad edərək Azərbaycanın şimalının İrana aid olduğunu və bu səbəbdən yeni dövlətə Azərbaycan adının verilməsindən narazı idilər. Yarandığı zaman çox ağır beynəlxalq-siyasi vəziyyətdə olan AXC hökuməti iranlıların narahatlığını aradan qaldırmaq üçün ilk gündən bəzi yazışmalarda "Qafqaz Azərbaycanı" sözündən istifadə etməyə başladı.

İran siyasiləri öz mövqelərini demək olar ki, dərhal və açıq şəkildə büruzə verməkdən çəkinməmişdilər. Dövlətin yaranmasından sonra Cümhuriyyətin İstiqlaliyyət bəyannaməsinin bir surəti İran konsulluğuna təqdim edildikdə, konsulluq bunu nəinki qəbul etməmiş və hətta Azərbaycan adında dövlətin müstəqilliyini tanımadıqlarını yazılı şəkildə bildirmişdi [2, s.130].

Sonralar da İran tərəfi dəfələrlə bu cür münasibətini ifadə etməkdən çəkinməmişdi. 1918-ci il noyabrın 16-da Ə.M.Topçubaşovunxarici ölkələrin İstanbuldakı diplomatik nümayəndələri ilə görüşü zamanı İranın Osmanlı dövlətindəki səfiri, mənşəcə türk olan İran konsulu Mirzə Mahmud xan tərəfindən qəbul edilmişdi. Söhbət əsnasında İran diplomatik nümayəndəsi Azərbaycan adı məsələsinə toxunaraq demişdi: "Siz dövlətinizi "Azərbaycan" adlandırmısınız, bu nə deməkdir? Bu sizin İranın hüdudları daxilində yerləşən əsl Azərbaycana iddianız deməkdirmi?" Topçubaşov cavabında azərbaycanlıların belə bir iddiada olmadığını və sadəcə coğrafi termin kimi qəbul edildiyini söyləsə də, İran diplomatı cavabında dövlətə Azərbaycan adının verilməsini İrana qəsd kimi hesab etdiyini bildirmişdi [14, s.110-111].

AXC hökuməti İranla diplomatik münasibətləri qaydaya salmaq üçün 1919-cu ilin mart ayında başda İsmayıl xan Ziyadxanov olmaqla İrana böyük nümayəndə heyəti göndərmişdi. Bu zaman"İran" qəzetinin müxbiri İsmayıl xan Ziyadxanova Azərbaycan indiyədək İranın mühüm əyaləti olduğundan siz niyə

Azərbaycan adını götürdünüz? sualını vermişdi [3]. İsmayıl xan siyasi və ictimai xadimlərlə görüşü zamanı da bağlı məntiqli izah verməklə iranlıların ad məsələsi ilə təlaşlarına son qoymağa calışmış, “biz həqiqətən də azərbaycanlıyıq, ona görə də dövlətimizi Azərbaycan adlandırmışıq” fikrini söyləmişdi. Lakin bununla belə yenə də İran tərəfi öz etirazını bildirməkdən çəkinmirdi. Azərbaycan nümayəndə heyəti Tehranda olduğu ilk ayda iranlılar tərəfindən “Azərbaycan nümayəndəsi” kimi deyil, “Qafqaz nümayəndəsi” kimi təqdim edilmişdi.

Qeyd etmək lazımdır ki, İranın siyasi dairələri nəinki Cümhuriyyətin adı ilə bağlı qərəzli mövqedən çıxış etmiş, eləcə də, həmin dövrdə mövcud olan mürəkkəb beynəlxalq şəraitdən istifadə edərək Azərbaycana ərazi iddiaları sürərək Paris sülh konfransına təqdim olunan tələblərində bunu ifadə etmişdi.

Lakin həmin dövrdə Azərbaycan nümayəndə heyətinin qətiyyətli və çevik fəaliyyəti nəticəsində İran tərəfinin iddiaları təmin olunmamışdı.

Əlbttə rəsmi İran hakimiyyətinin siyasi mövqeyi ölkə mətbuatında gedən yazılarda da öz əksini tapırdə. İran mətbuatındakı yazılarda Azərbaycan adının yalnız İran Azərbaycanına şamil edilməsi tələb olunurdu.Xüsusən, İranın rəsmi dövlət qəzetlərində Azərbaycan adına qarşı təbliğat aparılırdı. Belə orqanlardan biri olan “İran” qəzeti ilə AXC rəsmi orqanı “Azərbaycan” qəzeti arasında “Azərbaycan”termini ilə bağlı qızğın diskussiyalar getmişdi[6, s.58-61].

İranın məsələ ilə bağlı narahatçılığı həm də Osmanlı faktoru ilə bağlı idi. 1918-ci il iyunun 4-də AXC-nin Osmanlı dövləti ilə Dostluq müqaviləsi bağlaması isə İranı ciddi şəkildə narahat etmişdi. Ilk fürsətdə İran rəsmi nümayəndəsi Azərbaycanla bağlı mövqeyini məhz Osmanlı həmkarlarının nəzərinə çatdırmağa çalışmışdı. Belə ki, avqustun28-də İranın İstanbuldakı səfiri Osmanlı Xarici İşlər Nazirliyinə məktubunda paytaxtı Təbriz şəhəri olan Azərbaycanın İranın əyalətlərindən birioldüğunu və tarixdə belə adda bir dövlətin olmadığını bildirmişdi. Bu səbəbdən də Qafqazda Azərbaycan adında dövlətin yaranmasının səfirdə böyük təəccüb hissi doğurması diqqətə çatdırılmışdı [8, s.79].

“İran” qəzetinin 27 iyul 1919-cu il tarixli sayında nəşr olunmuş “Pantu-ranizm, Qafqaz Azərbaycanı ya Türküstan yolu!” adlı məqalədə turançılıq məsələsinə toxunan müəllif bütün baş verən hadisələrdə türkləri günahlan-dırırdı. Müəllifin fikrincə, türklər azərbaycanlılar ilə bərabər xəyali Türküstan imperatorluğunu yaratmaq üçün Cənubi Qafqazı və Turan yolu hesab etdikləri İran Azərbaycanını işğal etmək fikrinə düşüblər. Nuru Paşanın azad etdiyi Gəncə, Bakı, Qarabağ və sair yerləri Azərbaycan adlandırmaqda məqsəd, Qafqaz ordusunun komandanı Xəlil paşanın öz qərargahını Təbrizdə yerləş-dirərək müxtəlif vasitələrlə Azərbaycanı Qafqaz Azərbaycanına birləşdirmək idi

[4]. İran millətçiləri mətbuatda ad məsələ ilə bağlı Türkiyəni tez-tez ittiham edirdilər.

1919-cu ilin iyul-avqust aylarından İran qəzetlərində Azərbaycan və Bakıda yaranmış yeni hökumət barəsində silsilə məqalələr tez-tez dərc olunurdu. "İran" qəzetinin 495-ci buraxılışında Əbdülqəni Mətkan məsələni yenidən qabardaraq dövlətin Azərbaycan adlandırılmasını qəsbkarlıq və İranın stabil hüququna təcavüz kimi qiymətləndirmişdi. Müəllif "İran" qəzetini müdafiəyə qalxmağa çağırmış, millət və vətənpərvərlik nöqteyi-nəzərindən elmi və tarixi sübutlarla Azərbaycanın İranın ayrılmaz hissəsi olan bir vilayət olduğunu, onun əhalisinin isə iranlı azərbaycanlı və iranlı irqindən olduğunu göstərmişdi [5].

**M.Ə.Rəsulzadənin İran mətbuatına cavabları:** Qeyd edildiyi kimi, bu dövrdə Azərbaycanın siyasi xadimləri iranlı müəlliflərin təxribatçı fəaliyyətinə qarşı mübarizə aparırdılar və bu mübarizənin önündə "Müsavat" partiyasının lideri M.Ə.Rəsulzadə dururdu.O, ilk gündən Azərbaycanın tarixi, etnoqrafiyası ilə bağlı İran ictimai-siyasi fikrində formalaşan qeyri-obyektiv fikirləri elmi əsaslarla təkzib edirdi. Bu məsələnin mühümlüyünü dərk edən Rəsulzadə İran mətbuatında yazılan ittiham dolu hər bir yazını elmi faktlarla cavablandırmağa çalışırdı. Rəsulzadə vaxtilə Məşrutə inqilabı zamanı bir müddət İranda yaşadığı üçün iranlıların qavrayış və düşüncələri ilə tanış idi. İranda cərəyan edən hadisələr Rəsulzadəni həmişə maraqlandıran məsələlərdən olmuşdu və "Açıq söz" qəzetində mütəmadi olaraq İranla bağlı yazılar dərc edilirdi. İranın əksər siyasi xadimləri isə onu tanıyırdılar. Başqa sözlə, Rəsulzadə İran ictimai siyasi dairələri üçün maraqlı xadim idi. İran mətbuatını diqqətlə izləyən Rəsulzadə oradakı yazılara dərhal cavab verirdi. Qeyd edildiyi kimi, İranda Azərbaycan adı ilə yanaşı "Müsavat" partiyasına da qarşı güclü əks təbliğat aparılırdı. Rəsulzadə M.Baharın "Novbahar" qəzetində "Müsavat nədir və nə diyor?" adlı sözügedən məqaləsini çox dərindən təhlil edərək "Açıq söz" qəzetinin 2 fevral 1918-ci №671 sayında "Rəfi iştibah" (Səhvi rəf etmək, düzəltmək) sərlövhəli yazısında cavablandırmışdı[13, s.98]. O, "Azərbaycan" adının Araz çayının şimalına aid olduğunu elmi dəllillərlə sübut etmişdi.

Sözssüz ki, Azərbaycan adı ətrafında gedən mübahisələrdə Rəsulzadənin mövqeyi və gətirdiyi arqumentləri İran ictimai fikrində birmənalı qəbul edilmirdi. Rəsulzadənin 1919-cu ildə çap etdirdiyi "Azərbaycan paytaxtı", "İran və biz", "Biz və İran", xüsusilə "Azərbaycan Xalq Cümhuriyyəti" adlı dörd məqaləsi bu gün də öz aktuallığını qoruyub saxlayır. "İran və biz" məqaləsində İran-Azərbaycan tarixi birliyini, dini, siyasi, iqtisadi münasibətlərinin həmişə sıx olduğunu vurğulayan Rəsulzadə dövlətə Azərbaycan adının verilməsinin İran üçün heç bir təhlükə olmadığını nəzərə çatdırmağa çalışırdı.

AXC hökuməti İranla diplomatik münasibətləri qaydaya salmaq üçün 1919-cu ilin yazında başda İsmayıl xan Ziyadxanlı olmaqla İrana böyük

nümayəndə heyəti göndərmişdi. Heyətin fəaliyyəti də İranda birtərəfli qarşılanmamışdı. Hətta gərginliklər yaranmışdı. Rəsulzadə hər iki tərəf arasında münasibətləri yumşaltmaq və yaranmış gərginliyi aradan qaldırmaq üçün "Azərbaycan" qəzetinin 1919-cu il 8 aprel tarixli nömrəsində "İran və biz" məqaləsini dərc etdirdi [1]. Şimali Azərbaycan və ya Qafqaz Azərbaycanı dedikdə bunun Aran ilə Şirvan, Muğan ərazilərinə aid olduğunu qeyd edən Rəsulzadə iranlıların təlaşlarının əbəs olduğunu sübut etmək istəyirdi. O hesab edirdi ki, Azərbaycan adı və varlığı iranlılar üçün şəkk şübhə hissi doğurmamalıdır [11, s.61].Rəsulzadə "Azərbaycan" adı ilə bağlı iranlı müəlliflərə cavabında belə izahat verirdi ki, Arazın bu tayında yaşayan azərbaycanlılar olduğuna görə müsavatçılar öz ölkələrinin adını Azərbaycan qoymuşlar və bunda məqsəd heç də İran torpaqlarına göz dikmək deyildir.

"Azərbaycan və İran" məqaləsində isə Rəsulzadə yazırdı: "Azərbaycan Cümhuriyyəti Tehran qəzetlərinin düşündüyü kimi bir qism "xəyalpərvər" cavanların uydurduğu bir isim degildir. Azərbaycan Cümhuriyyəti müstəqil bir həyati-milliyyə ilə yaşamaq istəyən və milliyyətliyini dərk etmiş bulunan Azərbaycan türk millətinin təsis etdiyi bir hökumətdir [12, s.308].

Rəsulzadə məqalələrində tarixi faktlara istinad etməklə öz arqumentlərini gücləndirirdi. Lakin Azərbaycan adı ilə bağlı belə geniş izahat verməsinə baxmayaq, İran millətçilərinin məsələyə baxışı və mətbuatının qərəzli mövqeyi Rəsulzadənin arqumentləşdirilmiş şərhlərinin qəbul edilməsinə mane olurdu.

**İranın Azərbaycan adını qəbul etməsi:** Hadisələrin sonrakı inkişafı İran siyasi dairələrinin AXC-yə münasibətində dəyişiklik etmələrini tələb edirdi. Bunu ilk növbədə Qafqazda fəaliyyət göstərən və vəziyyəti daha düzgün təhlil edə bilmək imkanı olan İran diplomatik nümayəndələri görürdülər. Onlar öz ölkələrinin siyasi dairələrini Azərbaycan Cümhuriyyətini tanımamaq mövqeyindən çəkinərək əvəzindədiplomatik münasibətlər qurmağa çağırırdılar. Belə olan halda İran dövlətinin siyasi maraqları iləmətbuatında gedən yazılarınüst-üstə düşməməsi və yaranan ziddiyyət İranın AXC ilə siyasi münasibətlərinin qurulmasına maneə yaradırdı. Bu məsələləri dərk edən İran siyasətçiləri tədricən dövlət maraqlarını üstün tutaraq, yeni dövlətə Azərbaycan adının verilməsini və bu dövlətlə əməkdaşlıq etmək siyasətini qəbul etməli oldular.Bu zaman AXC hökuməti ilə yaranan diplomatik gərginliyi aradan qaldırmaq üçün İran hökuməti başda Seyid Ziyaəddin Təbatəbai olmaqla Qafqaza Fövqəladə Komissiya da göndərmişdi. Seyid Ziya Azərbaycanda olduğu 5 ay müddətində buradakı siyasi vəziyyəti müşahidə edərək Azərbaycan haqqında siyasi təsəvvürü yaxşılığa doğrudəyişməyə nail olmuşdu. 1920-ci il yanvarın 11-də Azərbaycanın müstəqilliyi Paris Sülh Konfransının Ali Şurasında de-fakto tanındıqdan sonra həmin ilin martın 20-də İran hökuməti Azərbaycanı de-yure tanımışdı.

**Nəticə:** Beləliklə, Azərbaycan muxtariyyatı məsələsi gündəmə gəldiyi ildən (1917) AXC hökumətinin süqutuna qədər (1920) İran siyasi dairələri Azərbaycanın müstəqilliyinə qarşı mənfi münasibət nümayiş etdirmişdilər. Tamamilə anti-Azərbaycan mövqedə olan iranlı müəlliflər rəsmi və qeyri-rəsmi mətbu orqanlarda məsələyə çox kəskin münasibət bildirirdilər. İran rəsmiləri Azərbaycanın müstəqilliyini tanımamağı yeni dövlətin İranın azərbaycanlılar yaşayan Azərbaycan əyalətini özünə birləşdirmək məqsədi ilə izah etsə də, əslində bunun digər səbəbi də var idi. İranın panfarsist mövqedə duran rəsmiləri öz iddialarını daim Azərbaycan adı üzərində cəmləyərək Araz çayının hər iki tərəfində eyni xalqın yaşamasını özlərinə təhlükə hesab edirdilər.

Yeni dövlətin Azərbaycan adı ilə dünya dövlətləri tərəfindən de-fakto tanınması İranda böyük narahatlıq doğurmuşdu. Lakin siyasi vəziyyətin diktəsi altında İran hökuməti regionda özünün siyasi-iqtisadi maraqlarına uyğun addımlar atmağa məcbur olmuş və AXC-ni tanımamaq siyasətindən əl çəkərək onude-yure tanımışdı. İran hakimiyyəti AXC-nin müstəqilliyini rəsmən tanımaqla dövlətin milli maraqlarının fars millətçilərinin maraqlarından üstün olmasını göstərmiş oldu.

AXC müstəqilliyini elan etdikdən sonra İranın Azərbaycana qarşı yönələn ideoloji mübarizəsinin əsas istiqamətləri-dövlətin müstəqilliyi, adının toponimi, azərbaycanlıların türk adlanması və s. idi. Maraqlı fakt idi ki, fars ideoloqları təkcə Azərbaycanın müstəqilliyini deyil, eyni zamanda Azərbaycan türklərinin türk adlandırılmasını da qəbul etmirdilər. Onlar qonşuluqda belə tez bir zamanda türkdilli dövlətin yaranmasından narahatlıq keçirirdilər. Həmin dövrdə İranda hakimiyyətdə türk – azərbaycanlı Qacar sülaləsi olsa da, bu amil dövlətin fars yönümlü siyasət yeritməsinə heç bir təsiri yox idi.

## Ədəbiyyat


1. "Azərbaycan" qəzeti". 1919-cu il, 28 aprel №l68.
2. Həsənli C.P. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti (1918-1920). Bakı: 2009, - 576 s.
3. "İran" qəzeti.Tehran: 1919-cu il, 2 aprel № 211.
4. "İran" qəzeti. Tehran: 1919-cu il, 27 iyul № 483.
5. "İran" qəzeti.Tehran:1919-cu il, 13 avqust, № 495.
6. İsmayılov K., Balayev A. "Azərbaycançılıq" ideologiyası: təşəkkül tapması, tarixi inkişaf mərhələləri, Bakı, "Savalan" Tarixi araşdırmalar birliyi, 2022. 223 s.
7. Mədətli E. İranda Azərbaycan tarixi məsələləri. Bakı: "Turxan" NPB, 2020. 508 s.
8. Mustafayev V. Azərbaycan Xalq Cümhuriyyəti-İran münasibətlərinin ideoloji "problemləri" // Azərbaycan Demokratik Respublikasının 100

illiyinə həsr olunmuş “Şərqin ilk demokratik respublikası” mövzusunda Elmi Konfransın materialları, Bakı, “Papirus NP” nəşriyyatı, 2019, s.45-190.
9. “Rəd” qəzeti. Tehran:1918-ci il, 10 yanvar, № 64.
10. “Rəd” qəzeti. Tehran: 1918-ci il, 21 fevral, № 82.
11. Rəsulzadə M.Ə. Bakı və Azərbaycan tarixinə dair əsərlər (1918-1919). Nəşrə hazırlayan: Şirməmməd Hüseynov, Bakı, Qanun, 2013, 157 s
12. Rəsulzadə M.Ə. Əsərləri. 1918 – aprel 1920, 5-ci cild, tərt.ed., Ş.Hüseynov., Bakı, Qanun, 2014, 564 s.
13. Rüstəmova-Tohidi S. Cümhuriyyətin “Azərbaycan” adlandırılması və onun tarixi əhəmiyyəti, Bakı, 2018, 176 s.
14. Topçubaşov Ə.M., İstanbulda diplomatik görüşlər (Azərbaycan Respublikasının fövqəladə və nazirinin qeydləri). 1918-1919-cu illər. Bakı,”Aspoliqraf”, 2018, 368 s.
15. Melikzade T., Azerbaycan Cumhuriyeti (1918-1920) ve İran (fars) basını, Karadeniz Araşdırmalar dergisi. 2005. Sayı 4, s.53-64.http://www.karamdergisi.com/Makaleler/1635076611_melikzade.pdf
16. اذربایجاندرموجخیزتاریخ.نگاهیبهمباحثملیونایرانوجریدباکودرتغییرنامارانبهاذربایجان 1377-بامقدمهکاوهبیات.تهران.
17. بیات، کاوه، توفان بر فراز قفقاز، نگاه به مناسبات منطقه ای ایران و جمهوری آذربایجان، ارمنستان و گرجستان در دوره نخستین استقلال، 1918-1921، مرکز اسناد و “ تاریخ دیپلوماسی (وزارت امور خارجه)، تهران، وزارت امور خارجه، 1380، 458 ص

TARİX, İNSAN VƏ CƏMİYYƏT-2022, 3 (36), s.153-161

# XEYİR VƏ XEYİRXAHLIQ MƏSƏLƏLƏRİNİN ULU QAYNAQLARI VƏ DİNİ-MİFOLOJİ KÖKLƏRİ

**Zakir Kərimov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
zakir.kerimov.1955@mail.

***Açar sözlər:****Zərdüşt,xeyir,xeyirxahlıq,xeyriyyəçilik,şər,yoxsul*

*Xeyir,xeyirxahlıq və şər əbədi kateqoriyalardır,onların yaşı insan cəmiyyətinin yaşı qədərdir. Nə qədər ki,insan cəmiyyəti mövcud olacaq,onlar da öz aktuallığını saxlayacaqdır.Sabitliyin pozulduğu çağdaş dünyamızda şər qüvvələrin fəallığı artmışdır.Rusiya və ABŞ,Fransakimi bir sıra Qərb ,həmcinin bəzi Şərq dövlətləri Şər qüvvələri təmsil edərək Qarabağda, Suriyada, Liviyada, Ukraynada münaqişələr,müharibələr törədir.Nəticədə insanlar öldürülür, qaçqına çevrilir, aclığa,yoxsulluğa düçar edilir. Xeyirxah qüvvələr (R.T.Ər-doğan, A.Qutteres və b.)onların qarşısını almağa, sülhü, barışı, firavanlığı təmin etməyə çalışırlar. Göstərilən məqalədə xeyir, xeyirxahlıq,şər kimi məsələlərin ulu qaynaqları və dini-mifioloji kökləri araşdılır. Xeyir, xeyirxahlıq, şər arasında mübarizəninin ilk izlərinə şumer mifologiyasında rast gəlindiyi qeyd olunur.Bu məsələlər öz ifadəsinisonralar müqəddəs dini kitablarda-"Avesta"da, "Tövrat"da,"İncil"də,"Quran"da,"Dədə Qorqud" dastanında,böyük şair N.Gəncəvi və digər ədiblərimizinyaradıcılığında tapmıışdır.Mə-qalədə bu məsələlər araşdırılmışdır.*

# ВЕЛИКИЕ ИСТОКИ И РЕЛИГИОЗНО-МИФОЛОГИЧЕСКИЕ КОРНИ ВОПРОСОВ ДОБРА И ДОБРОТЫ

**Закир Каримов**

***Ключевые слова:*** *Заратустра, добро, благодеяние, милосердие, зло, бедняк*

*Добро, доброта и зло - категории вечные, их век так же стар, как человеческое общество. Пока будет существовать человеческое общество, они сохранят свою актуальность.*

*В нашем современном мире возросла активность злых сил.Ряд западных стран,таких как Россия,США,Франция а некоторые восточные государства стали представителями злых сил в Карабахе, Сирии, Ливии, в Украине.Это вызывает конфликты и войны, в результате чего люди гибнут, становятся беженцами, голодают.Благожелательные силы (Р.Т.Эрдоган, А.Гуттереш и др.) пытаются их предотвратить,*

*обеспечить мир и процветание.Отмечается, что первые следы борьбы добра, благожелательности и зла обнаруживаются в шумерской мифологии.Эти вопросы были позднее выраженные в священных религиозных книгах - «Авесте», «Торе», «Библии», «Коране», в эпосе«Деде Горгуд», встречающихся в творчестве великого поэта Н. Гянджеви и др. Эти вопросы исследуются в статья.*

## GREAT SOURCES AND RELIGIOUS-MYTHOLOGICAL ROOTS OF THE ISSUES OF GOODNESS AND KİNDNESS

**Zakir Karimov**

***Keywords:*** *Zaroaster, goodness, benevolence, charity, evil, poor,*

*Goodness, kindness and evil are eternal categories, their age is as old as human society. As long as human society will exist, they will keep their relevance.*

*In our modern world, the activity of evil forces has increased. A number of Western countries such as Russia, USA, and Franceand some Eastern states became representatives of evil forces in Karabakh, Syria, Libya,It causes conflicts and wars in Ukraine. As a result, people are killed, become refugees, starvebenevolent forces (R.T. Erdogan, A. Gutteresh, etc.) are trying to prevent them, to ensure peace and prosperity. It is noted that the first traces of the struggle between good, benevolence and evil are found in Sumerian mythology. These issues were later expressed in the holy religious books - "Avesta", "Torah", "Bible", "Quran", "Dada Gorgud" , found in the work of the great poet N. Ganjavi and other poets. These issues are investigated in the article.*

Sovet taixşünaslığında bir çox problemlərlə yanaşı metsenatlıq (xeyriyyəçilik)üzrə də tədqiqat aparlması yasaq edilmişdi.Çünki sovet ideologiyasına görə bu burjuaziyaya xas olan bir məsələ idi.Kapitalist sisteminə aid hər hansı müsbət işdən bəhs etmək sovet dövlətinin siyasətinə uyğun deyildi.Bu sovet insanında burjua cəmiyyətinə münasibəti dəyişər, onun müsbət cəhətlərinə maraq oyadardı.XXəsrin 80-ci illərinin sonu -90-cı illərinin əvvəllərində sovet siyasi sisteminin süqutu və Azərbaycanın müstəqillik qazanması tarixşünaslığımızda bir sıra pozitivdəyişikliklərlə yanaşı,müəyyən elmi boşluqların da doldurulmasına imkan yaratdı.Tədqiqatçıların diqqəti bir sıra elmi problemlərin ,o cümlədən xeyriyyəçilik mövzusunun araşdırılmasına yönəldi.Azərbaycanın əsasən qeyri-rəsmi mətbuatında əhalinin müxtəlif təbəqələrindən olan səxslərin xeyriyyəçilik fəaliyyəti ilə bağlı məqalələr işıq üzü gördü.Müxtəlif səpkili əsərlər,o cümlədən dissertasiyalar yazıldı.Bu əsərlər öz xalqı yolunda təmənnasız xidmət edən şəxslərin əməllərini zəngin faktlar

əsasında işıqlandıraraq tarixşünaslığımıza qiymətli töhfə olsa daxeyriyyəçiliyin mahiyyətinə ,onun doğuran tarixi zərurətə,sosial-mənəvi bağlara dərindən nüfuzetməmişdir. Belə bir sual ortaya çıxır xeyirxahlıq insana Allah tərəfindən bəxş edilmişdir,ya cəmiyyət özü bu keyfiyyəti formalaşdırmışdır.Bu məqalədə məhz həmin məsələrətoxunulmuşdur.

Avestaşünas B.Şəfizadə Xeyir və Şər hisslərin və ya qüvvələrin kosmik mənşəli olması fikriniirəli sürür .O, "Avesta"nın qatlarında da bəzən planetlərin və bürclərin ətrafa göndərdiyi işığın kəmiyyət və keyfiyyətinin Xeyir və Şər ,yaxud müsbət və mənfi tərkibli olduğunu yazır B.Şəfizadə 7 planetin mənfi və müsbət tərkiblərini riyazi işarələrləgöstərərək,yazır ki,Ay,Günəş,Merkuri həm Xeyir,həm də Şər şüalar yaradır.O,bu planetlərin hər birnin yaratdığı Xeyr və Şər şüalar arasında nisbəti belə müəyyən edir( Xeyir :0,5+/-Şər:0,5=1.Burada 1 rəqəmi Xeyirlə Şər, şüa və ya qüvvələrnin tamlığının ifadəsidir .Başqa sözlə Xeyr və Şər şüaların nisbəti 50%-in50%-ədirve Yupiter ancaq xeyir,Mars,Saturn ancaq şər yaradır.Belə olanda Xeyir yaradanlar(cəmi 3,5) və Şər yaradanlar (cəmi 3,5) 7 planetə bərabər olur. Digər 3 planet – Uran,Neptun,Plutonun təsiri o qədər nəzərə alınmır[3,60].Deməli,müəllifin fikrincə ,insanlarda xeyir və şər hisslərin yaranmasında planetlərin rolu danılmazdır.

Tədqiqatçıların fikrincə tarixdə mövcud olmuş bütün dinlər xeyir və şərin mübarizəsi zəminində təşəkkül tapmışdır.Bu qədim Şumer əfsanələrindən başlanmış,Zərdüşt peyğəmbərdə inkişaf etdirilib geniş vüsət almış,konsepsiya şəklinə düşmüşdür.

Bütün dinlərdən,bütün təriqətlərdən öncə Tanrıçılıq dininin əsas kitabı olan"Avesta"da(bu dinin kitabının dəqiq adı bizə bəlli deyil,o sonralar"Avesta adlandırılmışdır) xeyir və şər problemi əsaslı şəkildə qoyulmuş,fəlsəfi-bədii səviyyədə öz şərhin tapmışdır.Bu məsələ "Avesta"ya qədim

Şumer qaynaqlarından biri olan"Bilqamıs"dastanından keçmişdir. "Bilqamıs"dastanı dünya ədəbiyyatının ilk şah əsəridir,miladdan öncə ııı minillikdə Şumer dilində şifahi şəkildə yaranmış,sonra Uruk şəhər qalasının divarına həkk olunmuş,m.ö.ıı minillikdə Akkad dilində gil lövhələrə köçürülmüşdür. Dastan Şumer şəhər-dövləti Urukun kahini,hərbi başçısı Bilqamışın adından yazılmışdır.O,tarixi şəxsiyyətdir[4,57-58].Bilqamıs(hər şeyi bilən adam mənsında) adı Gilqamış(rusca Qilqamıs)kimi də işlədilir[4,59].

Dastanda maraqlı məqamlardan biri yerlə səma arasında əlaqənin əksidir.Dastanın qəhrəmanlarından Enkidü gildən yoğrulur, "göylərdən yerə atılır".Bilqamıs Enkidünü dostluğa qəbuledərkən anasına deyir ki:

Göydən düşdən daş kimi çox ağırdır əlləri!
Xeyir-dua ver ona,qoy mənə qardaş olsun![4 ;81,100].

Şumerlərin mənşəyi haqqında müxtəlif fikirlər mövcud olsa da tədqiqatçıların bir qrupu onları  dünyanın ilk sivilizasiyalı xalqı hesab edir,müasir türk xalqlarının əcdadı adlandırırlar.

Bəşəriyyətin ilkin inkişafı əksliklərin mübarizəsi,xeyir qüvvələrlə şər qüvvələrin çarpışması iləbaşlanır.Bu məsələ "Avesta"da öz əksini tapsa da onun kökü deyildiyi kimi Şumer,Babil miflərinə gedib çıxır.Bu əfsanələrdən biri "Kainatın və insanların yaranması barədə"Şumer rəvayətidir.Orada deyilir ki,başlanğıcda kainatın bütün varlığı böyük okeanın dolu suyundan ibarət olmuş,onun nə əvvəli ,nə də sonu varmış.Onu heç kim yaratmamış ,əbədi mövcud olmuşdur.Rəvayətdə ilk insanlardan bəhs olunur.Göstərilir ki,Göy tanrısı An(zərdtüşlükdə onuntərəfmüqabili Ahurəməzda) , torpaq tanrısı ilahə Ki iləbir yer də yaşayırmışlar .Onların nigahından Enlil tanrı doğuldu,sonra onlardan yeni-yeni övladlar-tanrı və ilahələr törədi.Yəhudi və xristianlıqda da ilk insanlar Adəm və Həvva hesab olunur.

Əvvəlcə bir yerdə yaşayan An və Ki bir-birindən ayrıldı.Çünki onların öğlu Enlil göylə yeri bir-birindən ayırdı[8,115].Tanrı An göydə,ilahə Ki yerdə qaldı.Yerdəki işləri tanrı Enlil idarə edirdi.Onun məslətətçisi qardaşı,müdrik tanrı Enki idi.Bu zaman yerdə"ilk qızıl" əsr və ya "qızıl əsr"adlanan bir dövr bərqərar olmuşdu.Bütün adamlar bir dildə danışır,sakityaşayırdılar.İnsanlar zülmvə qayğının nə oldğunu bilmirdilər. Sülh və həmrəylik hökm sürürdü. Qorxu, paxıllıq,həsəd,zor yox idi.Ədalətli qanunlar mövcud idi.Yemək,geyim bol idi.Əhali əkinçiliklə,heyvandarlıqla,toxuculuqla məşğul olurdular.Təbiətdə vəhşi,yırtıcı heyvanlar yox imiş,ev heyvanları otlaqda naxırçısız otlayırmış.

Lakin tanrı-insan Enlil bu "qızıl əsrə"-özünün yaratdığı bu xeyirli işlərə,firavan,xöşbəxt həyata dözmədi.İnsanların artması,güclənməsi onu qorxutdu.Onun daxilində insanlara paxıllıq,həsəd hissi yarandı.Pis bir əməl düşünməyə başladı.Nəticədə Xeyir və Şəri yaratdı.Deməli,insanda formalaşan bu ikli xüsusiyyətə uyğun olaraq mifik təfəkkür üzə çıxmış,insan məxluqunun öz başına bəla olduğu fikri yaranmışdır.Enlil müdriklik tanrısı qardaşı Enkiyə insan nəslini məhv etməkistədiyini bildirir.O,isə bununla razılaşmır,insanlar bizə məbədlərimizi qurbanlıq hədiyyələrlədoldurmaq üçün lazımdır deyir.Buna görə onlar yaşamaladır.Lakin onların sayını azaltmalı,cəsarətli niyyətlərinə mane olmalı,onları yoxsulluğa çəkməli,qorxuzmalı ki,özlərini tanrılara taytutmasınlar. Beləliklə,Enlil Enkinin məsləhətı ilə xeyir işlərə və amala qarşı pis işlər yaradır.Xoşbəxtliyin  qarşısını bədbəxtlik kəsir,işıqlı,xeyirxah qəlbləri xəbis qəlblər hədələyir.Dincliyi,əmin-amanlığı vuruşlar,müharibələr pozur, rahat, firavan həyat narahatlıq və yoxsulluğa çevrilir...Beləliklə, xeyirlə şərin əzəli mübarizəsi başlanır və əbədiləşir.Həyatın əbədi qanuna çevrilir[4,16].

İstər dini,istər fəlsəfi,istərsədə ədəbi-bədii nöqteyi-nəzərdən xeyirlə-şər iki bir-birinə zidd,bir-birilə daim döyüşən qüvvələrin təması kimi şərh olunur.

Qədim mənbələrə,mifik təsəvvürlərə görə xeyirlə şər qardaşdır.Xeyirə, xeyirxahlığa qarşı şərin,nifrinin özü də əslində tanrıçılıqdan gəlib.Bu qədim təsəvvürlər ,bu fikir" Avesta"kitabında da öz ifadəsini tapıb,xeyirxah ,qayğıkeş tanrılar Hörmüzün və onun ən yaxın köməkçisi Zərdüştün simasında ,şər qüvvələr,bədxahlıq və nifrin Əhrimənin simasında ümumləşdirilmiş, elmi-dini-fəlsəfi cəhətdən xeyirlə şərin əbədi konsepsiyasına çevrilib[4,191].

Zərdüşt göstərir ki,dünyanın yaranışında- "ilk başlanğıcda düşüncə aləmində iki əkiz gövhər –yaxşı və pis düşüncə ,əməl və davranış meydana çıxdı.Bu iki gövhərdən bədxah adamlar yox, xeyirxah adamlar doğrunu(xeyri)seçdilər[1,43].Yerigəlmişkən,zərdüştlükdə(Məzda)Ahurəməzda Göy tanrısı adlandırılır.

Zərdüşt insanlara müraciətlə deyirki,Məzda göndərdiyi dini başa düşsəniz bir(tərəfdə)rifah, digər tərəfədə möhnət. vardır [1,44] "Avesta"nın birinci fəsli "xeyirxah" və "yaman"(şər)ölkələr xatırlanır.Xeyirxahlıq olan ölkələr Hörmüzün,yaman,şər ölkələr Əhrimənin adına yazılır[1, 189 ].

Zədüşt Əhurə Məzdaya xitabən deyir ki,səndən ən yaxşı(neməti),-əbədi uğurlu düşüncə və davranış istəyirəm,bu yaxşılığa görə Sizə sitayişə çalışmalıyıq.Diləyi-xeyirli ölkəyə(behiştə)getmək arzusunu tezliklə yerinə yetirən Sizsiniz( Yəsna,28-ci hat Əhnəvəydqat) [1,40].

Elə "Avesta"nın"Yəsna" bu hissəsində zəhmətkeşlərə-çobanlara və kəndlilərə qayğıkeşlikdən bəhs olunur."Avesta"ya görə behiştə o adamın ruhu gedə bilər ki,o xeyirxah düşüncəyə,xeyirxah əmələ və xeyirxah nitqə(danışığa) sahib olsun.Xeyirlə Şərin mübarizəsi əzəli məsələdir,insanlıqla yaşıddır.Xeyir həyatdır,dirilikdir,insanlığın istək və amalları yolunda canı fəda etməkdir,bu yolda hər şeydən keçməkdir,insan fədaisi olmaq,insan zəkasına işıq,ziya verməkdir.Əsl ziyalılıq da buradan yaranıb,istilah şəkilnə düşüb,"ziyalı" məfhumu,anlayışı meydana gəlmişdir.Hörmüz amalının icracısı olan Zərdüşt xeyrin,haqqın,ədalətin rəmzidir,işığıdır,peyğəmbəridir.

ZərdüştünAhuraməzdaya müraciətində deyir ki,Ey Məzda Əhura, xeyirxah adama, eləcə dədüşüncəsi ilə xeyirxahlığı dərk edən adama aydındırki, uğurlu ölkədə doğruluğu öz sözləri və əməli iləqoruyan odur və sənin də ən işgüzar köməkçin oolacaqdır [1, 46].

Zərdüşt Ahurəməzdaya müraciətlə deyir ki,dünyanın başlanğıcında bizim üçün din yaratdın,ruha bədən qəlbini verdin,ona ağıl bağışladın,davranış öyrətdin ,hər kəsə sərbəst olaraq öz dininiseçməyə imkan verdin.Peyğəmbər burada xeyirxah adamdan və düşüncəsi ilə xeyirxahlığı dərk edən adamlardan bəhs edir [1;45,46]

Zərdüşt Ahurəməzdanın yaxın tərəfdarlarına bəyan edir k,sizin yoxsul bəndələrinizə pənah vermək üçün sizə qoşuluram[3,50].Ahurməzdadan kömək istəyərək deyir ki ,mən uğur qazana bilmirəm ,çünki yoxsulam tərəfdarlarım azdır.Bir dost kimi dostun(Zərdüştə) yardım göstər.Xeyr anlayışına özündə

geniş mahiyyət daşıyan yaxşılıq,Şər məfhumuna isə eyni dərəcədə əhatəli olan pislik daxildir.

Xeyir,xeyirxahlıq məsələlərinə xristianlığın müqəddəs kitabı “İncil”də də toxunulmuşdur.

İsa peyğəmbər “İncil”dəinsanlara təlqin edirdi ki, “nə bəxtiyardır mərhəmətli olanlar!Çünki onlara mərhəmət ediləcək! O,öz şagirdlərinə deyir ki,Siz yer üzünün duzu və nurusunuz,Sizin nurunuz insanların qarşısında elə parlasın ki,onlar xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı(Allahı-Z.K)ləzzətləndirsinlər [6,10].

Ancaq sözünüzdə “bəli”niz bəli,”xeyr”iniz xeyr olsun.Yəni yalandan and içməyin,yalançı olmayın.Bu şər əməllərdir[6,11].

“İncil”in başqa bir yerində deyilir ki,Siz göylərdə olan Atanızın (Rəbbin) övladları olasınız.Çünki O,günəşi həm pislərin,həm də yaxşıların üzərinə salır,yağışını da həm salehlərin,həm də saleh olmayanların üzərinə yağdırır.

Səmavi atanız kamil olduğu kimi siz də kamil olun [6,11]. İslamın müqəddəs kitabı “Quran”da insanları xeyirxahlığa,xeyir ,yaxşı əməllərə çağrış ideyası əsas yer tutur.

Orada göstərilir ki,Rəbbin yəhudilərə müraciətlə deyir ki,biz yaxşı əməl edənlərin mükafatını artıracağıq [8;s. 2,ayə 58].İman gətirənlərdən (müsəlmanlardan), musəvi(yəhudi),isəvi(xristian) və sabiilərdən Allaha,axirət gününə(sədaqətlə)inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır.(Qiyamət günü)onların nə bir qorxusu olar,nə də onlar qəm-qüssə görərlər[ 8; s.2 ,ayə 62]

İslamda namazın azan hissəsində insanlara belə müdrik çağrış var:həyya əla xəyrül əməl(əməllərin ən xeyirlisinə tələsin).

Məhəmməd peyğəmbər özü bir xeyirxah əməllər timsalı idi.Çox mərhə mətli idi.Fəqirlərə,əlsiz-ayaqsızlara baş cəkər,hallarını soruşar, mərhumların matəmlərində iştirak edər,dullara,yoxsullara ,ehtiyacı olanlara yardım edərdi[9 ,75-76].

Yəhudilərin “Zəbur”kitabında göstərilir ki,xeyirxah arvad yaqutlardan daha qiymətlidir.O,məzlumlar üçün əliaçıqdır,fəqirlərə əl tutur[12,197-198].

Xalqımızın dünya şöhrətli “Dədə Qorqud”eposunun boylarının mərkəzində xeyirlə şərin,yaxşılıqla pisliyin mübarizəsi mərkəzi yer tutur.Boyların bir çoxunun sonunda Dədə Qorqud gəlib dastan qəhrəmanlarına xeyir-dua verir.Boylarda qədimdə olduğu kimi tanrıya and içmə faktları öz ifadəsini tapmışdır [7].

Yaxşılıq yüksək mənəvi insani keyfiyyətdir.Bu xüsusiyyət özünü başqalarının rifahı naminə edilən xeyirxah əməllərdə biruzə verir.Adətən insanlar ailə üzvlərinə ,dostlarına yaxşılıq edir.Lakin həqiqətən yaxşı olmaq

təkcə bununla məhdudlaşmır.İnsanların yaxşılıq və pisliklə bağlı öz standartları olduğundan bəzən pisə”yaxşı”,yaxşıya da” pis”deyirlər.

Nəriman Nərimanov yazırdı: “Yaxşılıq” insanın sifətlərindən biridir, ancaq bu sifətə töbrbətovr mənalar verib anlayıblar. Məsələn: bir nəfər şəxs-zəngin çox çörəklidir, yəni evinə qonaq gələndə cani-dillə qulluq etməyə hazırdır...bu şəxsə yaxşı deyirlər və yainki külfəti çox olan şəxs gecə və gündüz çalışıb dövlət qazanır ki, külfəti nəinki ac qalmasın və hətta öləndən sonra övlad üçün xeyli dövlət qoysun-buna deyirlər “yaxşı adam” idi, ona görə ki, rəftarından sonra külfəti ac qoymadı.Ya da dövlətli şəxs dövlətliyə yaxşılıq edir- olar da bir-birinə “yaxşı” deyirlər. Yaxud da bir şəxs bir kəsə nə yamanlıq və nə yaxşılıq edib ibadətlə məşgüldur- buna görə də adətdir “yaxşı” deyirlər və yainki abid yüz il ömrünü ibadətdə xurma ilə keçirir, öləndən sonra ona “yaxşı” deyib rəhmət oxuyurlar”...

Görək yuxarıda sadalanan şəxslərin “yaxşılıqları” olar üçün xudavəndi-aləmin zati-pakini tapmağa, yəni ona yaxın olmağa yol açırmı? Xeyir! Bu yaxşılıqlar məxsus nəfs üçündür. Bir zat üçündür, nəinki allah üçün. Həmin adamların adları ancaq ölən günü dillərdə çəkilir ancaq ölən günü deyirlər: “Allah rəhmət eləsin yaxşı kişi idi, qonaq sevəndi, övladlarına böyük məbləğ qoydu, abid idi, saleh idi....” Nəriman Nərimanov haqlı olaraq göstərir ki, bunların adları sonradan nəinki qeyrilərinin, hətta öz övladlarının dillərində çəkilmir, çünki həmin şəxslər öz həyatlarında yaxşılıq etmişdilər, ancaq öz nəfsləri xöş olmaqdan ötrü.

N. Nərimanov qeyd edirdi ki, əgər bu biçarələr həyatlarında öz yaxşılıqlarını camaata, millətə, dinə sərf etsəydilər, öləndən sonra onların adları camaatın, millətin və dindarların qəlblərində kök salıb baqi qalardı. Gündə yüz dövlətli basdırıb öz-özümüzə söylənirik ki, ey biçarə, bu qədər çalışdın, vuruşdun, axırda özünlə nə apardın? İki arşın bez, iki arşın qara torpaq!... Bununla belə, min ildən bəri ölənlərin adları bu vaxtadək dillərdə dolaşır və dolaşacaqdır. Bunların unudulmaması səbəbinə aydınlıq gətirən N. Nərimanov sual edir ki, onların unudulmamasının səbəbi nədir? Cavabı da özü verir ki, bunlar öz xalqları yolunda canlarını fəda ediblər: fəqirlərə kömək edib onları aclıqdan xilas etdilər, çünki hər millətin zəlalətdə olmağına başlıca səbəb kasıblığıdır. Bu xeyirxah insanlar susuz yerdə su çıxardıblar, yetim uşaqlara xidmət ediblər, onlara lazım olan tərbiyəni veriblər, elmlərə yiyələnməyə kömək ediblər, millətin dərdlərinə dərman axtarmaq üçün çalışıblar. Bu şəxslər millətin bəzəyi olub dinə rövnəq veriblər. Millətin bu şəxslərə etdiyi dua və sənalarını allah eşidir. Vay o şəxsin halına ki, həyatı öz nəfsi üçün keçibdir. N.Nərimanov deyirdi ki, o şəxslərə afərin ki, insanların yaxşılığı, asayişi, dincliyi, əmin-amanlığı üçün çalışıbdırlar.

Onlar mənsub olduqları millətin gülü hesab olunurdular. Onların ətri sonradan dünyaya gələn cavanları ətirləndirir, yəni onların qeyrəti gələcəkdə

millətin balalarını qeyrətləndirir. Onları tərbiyələndirir ki, gənclərdə bu dünyada cəmiyyətin xeyrindən ötrü can qoysunlar, özlərini heyvana oxşatmayıb allahtəalanın verdiyi neməti puç etməsinlər.

Mədəni millətlər bu şəxslərə vəfatından sonra abidələr qoyurlar, onların əməllərini yazıb uşaqlara oxudurlar. Bu şəxslərin adları hörmətlə dillərdə çəkilir, nəsilbənəsil millət balaları arasında təbliğ edilir. Sonra gələnlərdə onlar barəsində oxuyub və eşidib özlərini onlara oxşadır, millətin bəzəyi olurlar. "Bu minval qeyrət, həmiyyət və himmət artır"Başqa millətlərdə olduğu kimi millət yolunda can qoyanlar bizdə də olmuşdur [5,14 ].

Xeyir-Şər məsələsi Azərbaycan poeziyasında da bütün zamanlarda müzakirə mövzusu olmuşdur. Hətta Böyük Nızami "Yeddi gözəl" poemasına "Xeyir və Şər"adlı mənzum hekayə də daxil etmişdir.Hekayənin başlanğıcında deyilir:

Çin qızı söylədi:İki növcavan,
Başqa bir şəhərə oldular rəvan.
Yeməyə azuqə götürüb hərə,
Qoyub heybəsinə çıxdı səfərə.
Gəncin biri Xeyir,birisi Şərdi,
Onlar adlarıtək işlər görərdi [10,513].

Bu hekayənin atəşpərəstlik təliminin təsiri ilə yarandığı şübhəsizdir.

Şər öz pis əməllərinin binasını göydəki planetlərin yerə və eyni zamanda bir insan kimi onun taleyinə təsirində görür.Xeyir və Şər kimi kateqoriyalar,eyni zamanda xeyirxahlıq və bədxahlıq kimi sifətLər"Avesta"nın və Nizaminin fəlsəfi görüşüncə insanın təbiətindədir...Bu təbiətdə planet və ulduzların təsiri ilə formalaşır.Bu isə Zərdüşt astralogiya məktəbinin konsepsiyasdır.

Bu hekayədə və ümumilikdə Nizami yaradıcılığında Zərdüştün Xeyirxah fikir,Xeyir söz,Xeyirxah əməl haqqındakı üç hikmətli tezisinin təsirihiss olunur.Sanki Nizaminin əsərlərindəZərdüştün dünya,planet və qalaktikalar haqqındakı müxtəlif tendensiyalı sosial-fəlsəfi konsepsiyaları sadə dildə bədii şəkildəşərh olunmuşdur.Həm də böyük humanist şairin zəngin yaradıcılığılığı insanları tərbiyələndirir,onlara

Xeyirxahlıq hissi aşılayır.Aşağıdakı parçaya diqqət edək:

Bir kürd vardı mallı,pullu,keyfi çağ,
...................................................
Onun qapısında çoxlu mal-qara,
Kimsə çatmamışdı bu qədər vara,
Səkkiz qohumunu o saxlayardı,
Onlar yoxsul,bunun dövləti vardı [10,514].

"Azərbaycan dilinin izahlı lüğətində" xeyirxahlıq sözününün kökü olan xeyir sözü iki baxımdan :1)fayda,mənfəət;2)yaxşılıq,yaxşı iş mənalandırılır.

Deməli,xeyirxah(ərəbcə xeyir vəfarsca xah sözlərindən yaranmış )başqalarına kömək edən,yaxşılığa çalışan,qayğıkeş anlamında yozulur.Xeyriyyə(ərəbcə) sözü xeyir iş,ehtiyacı olanlara kömək,yardım məqsədi güdən kimi izah edilir[2,434-435].

Yəhudi xalq atalar sözündə deyildiyi kimi,insanlar gözəlliyi görür, müdrikliyi eşidir,xeyirxahlığı hiss edirlər. Deməli,belə nəticəyə gəlmək olar ki,Xeyirlə Şərin,xeyirxahlıqla,yaxşılıqla pisliyin mübarizəsi əbədidir.İnsanın adını əbədi yaşada onun xeyirxah əməlləridir.

**Ədəbiyyat**

1. Avesta .Bakı:Azərnəşr, 1995
2. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə.İkinci cild.Bakı:Şərq-Qərb, 2008
3. Azərbaycan ədəbiyyatı tarixi .Ən qədim dövrlər.Bakı:Adiloğlu, 2003.
4. Əlibəyzadə E.Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi.(İslamaqədərki dövr).Bakı: Gənclik, 1998
5. Hacı Zeynalabdin Tağıyev.Bakı:Azərnəşr,1993
6. İncil.Müqəddəs kitab. Bakı: Zərdabi, MMÇ, 2021
7. Kitabi-Dədə Qorqud.Bakı:Yazıçı,1988
8. Quran –Kərim.Bakı:Şərq-Qərb,2012
9. Qüdrətov O. , Qüdrətov H.Məhəmməd peyğəmbərin həyatı və kəlamları.Bakı,1990
10. Nizami Gəncəvi.Xəmsə.Bakı:2021. s.421-562
11. Yusifov Y.Qədim Şərq tarixi.Bakı Universitetinin nəşriyyatı,1993
12. Zəbur və Süleyman məsələləri.Bakı:Zərdabi,MMC,2021

**MÜNDƏRİCAT**

***Aidə Təhməzova.*** AZƏRBAYCAN DİASPORUNUN ÜMUMMİLLİ MARAQLARIN MÜDAFİƏSİ UĞRUNDA MÜBARİZƏSİNİ ŞƏRTLƏNDİRƏN AMİLLƏR....................................................................3-12
***Aydın Məmmədov.*** XX ƏSRİN II YARISI AZƏRBAYCAN TARİXŞÜNASLIĞINDA ANTİK DÖVR ŞƏHƏRLƏRİNƏ DAİR TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ.....................................................................................13-25
***Aygün Əzimova.*** AZƏRBAYCAN SİYASİ TƏŞKİLATLARININ ANTİMÜSƏLMAN FƏALİYYƏTƏ VƏ TƏBLİĞATA QARŞI MÜBARİZƏSİ (NOYABR 1917 – MART 1918).....................................26-45
***Balamirzə Məmmədli.*** MƏNBƏLƏRİN TARİXİ TƏNQİDİ – TARİX ELMİNİN METODOLOJİ PROBLEMLƏRİNDƏN BİRİ KİMİ...............46-54
***Elçin Qarayev.*** İRƏVAN QUBERNİYASINDA BAĞÇILIQ VƏ BOSTANÇILIĞIN TARİXİNDƏN (XIX ƏSRİN İKİNCİ YARISI)..........55-62
***Эльмира Мамедова.*** ШАМШАДИЛЬСКИЙ СУЛТАНАТ.....................63-73
***Əzizağa Qəni-zadə.*** 1992-Cİ İL DAŞALTI ƏMƏLİYYATI –TARİXİN İZİ İLƏ...........................................................................................74-90
***İradə Hüseynova.*** ŞUŞA XALQIMIZIN MİLLİ İNCİSİ – AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN ZƏNGİN BEŞİYİDİR...............91-108
***Mürvət Əliyev.*** CAVAD XANIN BORÇALI VƏ QAZAX-ŞƏMŞƏDDİL TORPAQLARININ QAYTARILMASI UĞRUNDA ÇAR RUSİYASINA QARŞI MÜBARİZƏSİ...................................................109-118
***Nərgiz Hacıyeva*.** BAKI TACİR BANKININ YARADILMASI VƏ FƏALİYYƏTİ.........................................................................................119-123
***Samirə Kərimova.*** N.S.XRUŞŞOVUN HAKİMİYYƏTİNİN İLK İLLƏRİNDƏ SSRİ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ (1953-1955-Cİ İLLƏR)...........................................................................124-132
***Səba Hüseynova.*** HEYDƏR ƏLİYEV AZƏRBAYCANIN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜASİR ELMİ SƏVİYYƏDƏ ÖYRƏNİLMƏSİNİN TƏŞKİLATÇISIDIR.........................................133-141
***Sevinc Məmmədova.*** İRAN MƏTBUATINDA AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ADI ƏTRAFINDA MÜBAHİSƏLƏR...........................................................................142-152
***Zakir Kərimov.*** XEYİR VƏ XEYİRXAHLIQ MƏSƏLƏLƏRİNİN ULU QAYNAQLARI VƏ DİNİ-MİFOLOJİ KÖKLƏRİ...................153-161

# YAZI QAYDALARI

- Məqalələr **Azərbaycan, ingilis** və **rus** dillərində jurnalın elektron ünvanına – jhhsadpu@mail.ru göndərilir.

- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.

- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.

- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 12 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.

- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.

- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, 8].

- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.

- Məqalələrin həcmi: 5-12 səhifə.

- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.

- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.

- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodiki jurnal 2022, 3 (36)*

***Çapa imzalanmış  27.09.2022-ci il***
***Kağız formatı 60x84 1/16, çap vərəqi 10***
***Sifariş 340,  sayı 100***

***Bakı, Ü.Hacıbəyli küçəsi, 68***
***Telefon: (+994 12)493 05 85***
***E-mail:*** *jhhsadpu@mail.ru*
***www.adpu.edu.az***